# BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

ВЕСТНИК
БАКИНСКОГО УНИВЕРСИТЕТА

NEWS
OF BAKU UNIVERSITY

HUMANİTAR
*elmlər seriyası*

*серия*
ГУМАНИТАРНЫХ НАУК

*series of*
HUMANITARIAN SCIENCES

№ 1, 2023

**Bakı – 2023**

***Baş redaksiya heyəti:***
**Babayev E.S.** (baş redaktor), **Kazımzadə A.H.** (baş redaktorun müavini), **Əliyeva İ.N., Məmmədov Y.Ə., Əliyev İ.Ə., Paşayeva N.A., Rəcəbov M.R.** (məsul katib).

***Seriyanın redaksiya heyəti:***
**Zeynalov İ.X.** (redaktor), **İsmayılov X.İ.** (redaktorun müavini), **Quliyeva S.Z.** (məsul katib), **Əliyeva İ.S., Qurbanov A.İ., Əlizadə Y.M., Rzayev A.Ə., Əzizov E.Z., Hacıyev S.T., Vəliyev Ş.Q., Məmmədov C.Ə., Vəliyev M.T., Rüstəmov R.Ə.**

© Bakı Dövlət Universiteti, 2023

**BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ**

***№1*** ***Humanitar elmlər seriyası*** ***2023***

## DİLÇİLİK

**UOT 811`366**

# BAĞLAYICILARIN MORFOSİNTAKSİSİ

**Kəmalə A.ƏLİYEVA***

*Bağlayıcı köməkçi nitq hissəsi olaraq, morfoloji vahiddir, söz birləşmələrinin komponentlərini, cümlə üzvlərini və cümlələri bağlayır. Bağlayıcılar yalnız söz və cümlələri bağlamaqla kifayətlənmir, müəyyən məna əlaqələrinin möhkəmlənməsində, qüvvətləndirilməsində rola malikdir. Hər bir bağlayıcının konkret yeri və funksiyası olmasına baxmayaraq, onların çoxu həm də üslubi funksiya yerinə yetirir. Üslubi funksiyalar bağlayıcıların təcrid olunduğu, yəni yarandığı sözlərin leksik-semantik və qrammatik xüsusiyyətləri ilə bilavasitə bağlıdır. Məsələn, "və", "ilə" bağlayıcıları sinonim olsa da, ciddi funksional fərqləri vardır. "İsə" bağlayıcısının "və" bağlayıcısından fərqli olaraq tabesiz mürəkkəb cümlənin komponentlərini, habelə müvafiq morfoloji əlamətlərlə formalaşan cümlə üzvlərini bağlaya bilməməsi onun qoşmadan ayrılması ilə bağlıdır. "İsə" morfeminin şərt məzmunu yaradan hissəcik və ya qarşılaşdırma bağlayıcı kimi eyni funksionallığa malik olması da onların eyni kökdən meydana çıxması ilə bağlıdır. Lakin bu morfemin qarşılaşdırma deyil, "və" bağlayıcısının funksiyasında çıxış etməsi sırf üslubi faktor kimi qəbul edilməlidir. Xüsusilə qarşılaşdırma bağlayıcıları ilə müvafiq ədatların müəyyənləşdirilməsində bəzi çətinliklərin olması bağlayıcıların ədatın inkişafı nəticəsində meydana çıxması ilə bağlıdır. Hətta bəzi məqamlarda cümlədəki "amma", "ancaq" sözlərini həm ədat, həm bağlayıcı kimi izah etmək olar. Ümumiyyətlə, bir məna növü daxilində olan bağlayıcıların eyni funksiya ilə yanaşı, fərqli məzmun yaratması geniş şəkildə özünü göstərir; məsələn, bölüşdürmə məna növünə aid olan ya, ya da, gah, ...gah da, istər, istərsə də bağlayıcıları ümumi bölüşdürmə adı - termini ilə bir faktın önə çəkilməsi, növbələşmə və s. mənalarını da ifadə edir. Bu hal müstəqil lüğəvi mənalı sözlərdə də müşahidə olunur.*

**Açar sözlər**: Azərbaycan dilçiliyi, bağlayıcı, funksiya, morfologiya, sintaksis, sinonim, omonim

**Giriş.** Məqalədə bağlayıcıların funksional mövqeyində özünü göstərən, lakin bəziləri mübahisəli olan, digərlərindən isə, ümumiyyətlə, bəhs edilməyən məsələlər ilk dəfə təhlil və elmi izaha cəlb edilir. Bağlayıcılar həm

* ***Bakı Dövlət Universitetinin doktorantı; kemale655@gmail.com;***
***ORCİD İD: 0000-0002-7377-1047***

kəmiyyət, həm də keyfiyyət cəhətdən zəngin və rəngarəngdir, cümlədə işlənmə yeri və funksional mövqeyinə görə iki qrupa bölünür; bir qismi konkret məzmunlu konstruksiyalarla bağlı olub, başqa yerdə işlənmir. Bu bağlayıcıların adlandırılmasında da semantik özəllikləri rol oynayır; bölüşdürmə, qarşılaşdırma, səbəb və s. bağlayıcılar bu qəbildəndir. İkinci qrup bağlayıcılar konkret daxili məzmunla bağlı deyil; onlar müxtəlif məzmunlu konstruksiyalar arasında işlənərək, müvafiq komponentləri, sadəcə, bağlamağa xidmət edir. Bu baxımdan bağlayıcıların əksəriyyəti cümlədəki fikrin ifadəsində mühüm rola malikdir. Məhz buna görə bağlayıcıların morfosintaksisinin araşdırılması əhəmiyyətə malikdir.

Araşdırma təsviri, tarixi-müqayisəli metodların tətbiqi ilə işlənmişdir.

Bağlayıcılar barədə ümumi halda dərsliklərdə və köməkçi nitq hissələri ilə bağlı tədqiqatlarda bəhs edilmişdir. Xüsusilə F.Zeynalovun "Müasir türk dillərində köməkçi nitq hissələri" monoqrafiyasında bəhs edilib, lakin bağlayıcıların sintaktik-semantik funksiyası kifayət qədər işıqlandırılmamışdır.

**Bağlayıcıların morfosintaksisi.** Köməkçi nitq hissələri müstəqil lüğəvi mənaya malik olmasa da, cümlənin qurulmasında, onun müəyyən fikri dəqiq ifadə etməsində əhəmiyyətli rol oynayır. Bağlayıcılar sözlər və cümləlləri bir-birinə sadəcə bağlamır, onlar arasında semantik-qrammatik əlaqənin dəqiqləşməsinə ciddi təsir edir. Y.T.Çerkasova yazır ki, bağlayıcılar sözləri deyil, sintaktik vahidləri: cümlə üzvlərini və ya mürəkkəb cümlənin hissələrini bağlayır [5, 6-7]. Bu baxımdan bağlayıcıların morfosintaktik xüsusiyyətlərinin araşdırılması əhəmiyyət kəsb edir.

Məlumdur ki, funksiyasına görə bağlayıcılar iki qrupa ayrılır: tabesizlik və tabelilik bağlayıcıları. Bunların işlənmə yerləri, komponentləri bağlama spesifikası arasında fərqli cəhətlər vardır; belə ki, tabesizlik bağlayıcıları həm sözləri, həm cümlələri bağladığı halda, tabelilik bağlayıcıları yalnız tabeli mürəkkəb cümlənin komponentlərini bağlamağa xidmət edir. Tədqiqatçılar qədimə getdikcə bağlayıcıların iştirakı ilə bağlamanın zəiflədiyini qeyd edirlər və bu baxımdan bağlayıcıların dilin sonrakı mərhələsində meydana gəldiyi fikrini müdafiə edirlər. "Kitabi-Dədə Qorqud" dilinin qrammatik quruluşundan bəhs edən S.Mehdiyeva göstərir ki, "Kitabi-Dədə Qorqud"un dilində bağlayıcı azdır, çünki şifahi dil nümunəsidir. Müəllif bu fikrini əsaslandırmaq üçün onu da qeyd edir ki, "bağlayıcılar daha çox yazılı dilin vahidi hesab olunur" [14, 377]. Bununla yanaşı, müəllif maraqlı qeyd də verir: "*"Kitabi-Dədə Qorqud"un Drezden nüsxəsində bağlayıcısız, Vatikan nüsxəsində bağlayıcılı forma üstündür*" [4, 381]. Qeyd edək ki, türk dillərində köməkçi nitq hissələrini tədqiq edən F.Zeynalov da bu fikirdədir ki, "bağlayıcıların artması yazı ilə bağlıdır" [20, 262].

Müasir Azərbaycan dilində bağlayıcılar həm kəmiyyət, həm də keyfiyyət cəhətdən zəngin və rəngarəngdir, hətta tədricən başqa nitq hissələri

zəminində son vaxtlarda da bağlayıcının yaranması halı diqqətimizi cəlb edir. Dilçilik ədəbiyyatında belə fikir var ki, əsas nitq hissələri ilkin olaraq zərf və ədata, yalnız ondan sonra bağlayıcıya çevrilir. Ona görə də bəzən onların dəqiq sərhədini müəyyənləşdirmək çətin olur [13, 92]. Buna "di gəl (ki)" ifadəsini misal göstərə bilərik. Bu ifadədə *"di"* və *"gəl"* ədatları birləşərək, qarşılaşdırma bağlayıcısının yaranması ilə nəticələnmişdir. "Ki" komponentinin əlavəsi onun bağlayıcılıq funksiyasını daha da gücləndirmişdir.

Bağlayıcıların dilin hansı yarusunda öyrənilməli olduğu barədə dilçilikdə mübahisəli məqamlar olmuşdur. F.Zeynalov yazır: "*Bağlayıcılar ilk növbədə sintaktik cəhətdən fərqlənərək daha çox sintaktik (üslubi) çalarlıqlar yaratmağa xidmət edir. Bu cəhət uzun müddət əsas əlamət kimi qeyd edildiyindən bir çox tədqiqatçılar bağlayıcıları sintaktik kateqoriya hesab etmiş, onlardan ancaq sintaksisdə bəhs açmağı düzgün hesab etmişlər*" [20, 272]. A.N.Kononov və L.A.Pokrovskaya bağlayıcıları morfoloji kateqoriya hesab etsələr də, onlara aid bəzi xüsusiyyətlərin sintaksisdə öyrənilməsini məqsədəuyğun hesab etmişlər [11, 528-529; 12, 416; 17, 283].

Əslində, köməkçi nitq hissələri, o cümlədən bağlayıcı söz olduğundan onlar morfologiyanın predmetidir. Köməkçi nitq hissələri lüğət vahidi olaraq lüğətlərdə də yer alır. Sintaktik vahid isə söz birləşməsi və cümlə səviyyəsində mövcud olan vahidlərdir ki, bura da söz birləşməsi və cümlənin özü daxildir. Əsas nitq hissələrinə daxil olan sözlər kimi, köməkçi nitq hissələri də cümlədə mövqe və vəzifəsini reallaşdırır, deməli, bağlayıcı da öz funksionallığını söz birləşməsi və cümlə daxilində həyata keçirir. Bu isə o deməkdir ki, bağlayıcılar morfoloji kateqoriya olaraq, sintaktik səviyyədə funksionallaşır. F.Zeynalov haqlı olaraq yazır: "*Bağlayıcılara xalis sintaktik bir kateqoriya kimi baxmaq düzgün olmaz. Əslində leksik-qrammatik kateqoriya olan bağlayıcıları sintaksislə ancaq bir cəhət – cümlə daxilindəki sintaktik vəzifə bağlayır. Bağlayıcıların digər nitq hissələri kimi özünəməxsus leksik və morfoloji əlamətləri onları xalis sintaktik kateqoriya hesab etməyə əsas vermir*" [20, 273].

Bağlayıcılar cümlədə işlənmə yeri və funksional mövqeyinə görə iki qrupa bölünür; bir qismi konkret məzmunlu konstruksiyalarla bağlı olub, başqa yerdə işlənmir. Bu bağlayıcıların adlandırılmasında da semantik özəllikləri rol oynayır; bölüşdürmə, qarşılaşdırma, səbəb və s. bağlayıcılar bu qəbildəndir. İkinci qrup bağlayıcılar konkret məzmunla bağlı deyil; onlar müxtəlif məzmunlu konstruksiyalar arasında işlənərək, müvafiq komponentləri bağlamağa xidmət edir. Bu baxımdan bağlayıcıların əksəriyyəti cümlədəki fikrin ifadəsində mühüm rol oynayır. Bu baxımdan bağlayıcıların morfosintaksisinin araşdırılması əhəmiyyətə malikdir. Dildə başqa nitq hissələri, o cümlədən digər köməkçi nitq hissələri ilə omonimlik təşkil edən bağlayıcılar vardır. Onların fərqləndirilməsi həm funksiyası, həm potensial seman-

tikası, həm də aid olduqları konstruksiyaya münasibəti ilə müəyyənləşir. Məsələn, "ilə" sözü həm birləşdirmə bağlayıcısı, həm də birgəlik qoşması kimi işləkdir. Adından göründüyü kimi, birgəlik xüsusiyyəti hər ikisində vardır, lakin bu birgəliyin istər funksiyası, istərsə də aid olduğu sözlərlə semantik əlaqəsi, xarakteri fərqlidir.

İlk növbədə bağlayıcıların sintaktik səviyyədə yerinə yetirdiyi funksiyanın dəqiqləşdirilməsi lazımdır. Tabesizlik bağlayıcıları birləşmə daxilində bərabərhüquqlu sözləri, həmcins üzvləri tabesiz mürəkkəb cümlənin komponentlərini, habelə mətnin komponentlərini bağlamağa xidmət edir. Lakin bu bağlayıcılar, sadəcə, bağlama funksiyasını yerinə yetirmir, komponentlər arasında olan müvafiq məna çalarını qüvvətləndirir. Hər bir bağlayıcının konkret yeri və funksiyası vardır, lakin bununla yanaşı, onlarda müəyyən üslubi funksiya da ola bilər. Bunların bəzilərini nəzərdən keçirək.

Müasir dilimizdə ən geniş yayılmış bağlayıcılardan biri *"və"* birgəlik bağlayıcısıdır. Bu bağlayıcı sintaktik zəmində bərabərhüquqlu sözləri, o cümlədən həmcins üzvləri, habelə tabesiz mürəkkəb cümlənin komponentlərini bağlamağa xidmət edir və bu zaman müvafiq komponentlər başqa sözlərlə münasibətdə dinamik xarakterə malik olur. Məsələn, *"Adil və Cəmil birinci kursdan dostluq edirlər"* cümləsində ilk iki söz bağlayıcı vasitəsilə daha sıx birləşsə də, onların digər sözlə (*dostluq edirlər*) dinamik səciyyədə əlaqələnir.

Bu bağlayıcı asemantik xarakterə malik olub, birləşdirdiyi dil vahidlərinə xüsusi bir məzmun çaları aşılamır. Lakin xüsusi halda bu bağlayıcı ilə bağlanmış sözlər əslində söz birləşməsi yaradır və bu komponentlər başqa sözlə bağlanmadan ayrılıqda işlədilir. *"Leyli və Məcnun", "Əsli və Kərəm", "Romeo və Cülyetta"* tipli birləşmələr bu qəbildəndir. Bu birləşmələr artıq nominativ vahidə çevrilmişdir; bunlarda "*və*" bağlayıcısının işlədilməməsi sözlərin birləşməsində məzmun motivləşməsi yaradır, daha dəqiqi, həmin söz birlikləri ayrı-ayrı konkret şəxs adlarından mücərrəd anlayışın ifadəsinə çevrilir. Burada sarsılmaz məhəbbət anlayışı ilə yanaşı, nakamlıq məzmununu da özündə ehtiva edir.

*"Və"* bağlayıcısının sinonimi olan *"ilə"* tam eyni funksionallığa malik deyil; belə ki, *"və"* bağlayıcısı bərabərhüquqlu sözləri və cümlələri bağladığı halda, *"ilə"* bağlayıcısı nə tabesiz mürəkkəb cümlənin komponentlərini, nə də hal şəkilçili sözləri bağlaya bilir. Bunun əsas səbəbi, bizcə, bağlayıcının müvafiq qoşmadan intişar tapması və bu baxımdan qoşma xüsusiyyətlərindən tamam uzaqlaşa bilməməsidir.

Qarşılaşdırma bağlayıcıları məzmunca əks mənalar ifadə edən söz və ya cümlələrin arasında işlənərək, bu məzmun əlaqəsini daha da gücləndirməyə xidmət edir və bir qayda olaraq, bir-birini əvəz edə bilir. Buraya "*amma", "ancaq", "lakin", "fəqət", "halbuki", "isə"* bağlayıcıları daxildir.

*"İsə"* bağlayıcısı müəyyən cəhətdən digərlərindən fərqli xüsusiyyətlərə

malikdir. Hər şeydən əvvəl, bu bağlayıcı ikinci komponentin bilavasitə əvvəlində deyil, birbaşa əlaqələndiyi sözdən sonra işlənir, daha doğrusu, *"isə"* bağlayıcısı eyni hissəcik kimi, hər hansı sözə artırılır. Fərq ondadır ki, hissəcik birinci yerdə olan cümlənin xəbərinə qoşulur, bağlayıcı isə ikinci yerdə gələn komponentin birinci sözünə artırılır. İkinci fərq "isə" bağlayıcısının funksional mövqeyi ilə bağlıdır; belə ki, digər bağlayıcılar yalnız qarşılaşdırma-müqayisə məzmununun yaranmasında rol oynayırsa, *"isə"* bağlayıcısı bununla yanaşı, eynizamanlı əlaqəli tabesiz mürəkkəb cümlənin də komponentlərini bağlayır. Məsələn: "*Yeni oyunçular yorulmadan idman edir, məşqçi isə onlara baxıb qürur hissi keçirirdi".* Burada komponentlər arasında qarşılaşdırma-ziddiyyət əlaqəsi yoxdur. Müqayisə etsək, "*Yeni oyunçular yorulmadan idman edirdilər, məşqçi isə onlardan hələ də narazı idi"* cümləsində komponentlər arasında qarşılaşdırma əlaqəsi açıq görünür. Buradan belə nəticəyə gəlmək olar ki, *"isə"* bağlayıcısı bu cümlələrin hər birində müxtəlif funksionallığa malikdir. Birinci cümlədə, hətta "*və"* birləşdirmə bağlayıcısı ilə eyni funksiyanı yerinə yetirir. Əslində *"isə"* bağlayıcısı və *"isə"* hissəciyi potensial məzmunlarına görə yaxın, hətta, demək olar ki, eynidir. Bu isə onların eyni kökə malik olduğunu, daha doğrusu, eyni sözdən ayrıldığını göstərir.

Qeyd edək ki, bu bağlayıcının dilimizin əvvəlki çağlarında işlədildiyinə aid fakta rast gəlmədik [Bax: 6, 39; 18, 343-344 və s.]. "Azərbaycan dilinin qrammatikası" əsərində *"isə"* qarşılaşdırma bağlayıcılarının içərisində verilməsə də, izah zamanı ondan bəhs olunur, onun yaratdığı qarşılaşdırmanın müxtəlif məzmunları göstərilir. Lakin eynizamanlı əlaqəli tabesiz mürəkkəb cümlənin tərəflərini bağlama vəzifəsinə toxunulmur [3, 273-274]. Bir çox əsərlərdə, ümumiyyətlə, *"isə"* qarşılaşdırma bağlayıcısı verilmir və ondan bəhs edilmir [Bax: 16]. Q.Kazımov *"isə"* bağlayıcısını qarşılaşdırma bağlayıcılarının içərisində verməsə də, həmin bağlayıcılardan bəhs edərkən yazır: "*İsə-şərt ədatı kimi işlənməklə yanaşı, bəzən qarşılaşdırma bağlayıcısı kimi də işlənir*" [10, 360]. Göründüyü kimi, müəllif bu morfemi müstəqil olaraq bağlayıcı hesab etmir. Lakin son dövr qrammatika əsərlərində bu sözün qarşılaşdırma bağlayıcısı kimi təqdimi birmənalı olaraq qəbul edilir.

Qarşılaşdırma bağlayıcılarından biri "*amma*" sözüdür. Bu bağlayıcı digər qarşılaşdırma bağlayıcıları kimi, iki hadisə və ya faktın qarşılaşdırma-ziddiyyətli münasibətdə olduğunu göstərir. Lakin *"isə"* bağlayıcısında olduğu kimi, bu bağlayıcı da cümlədə sual məzmununun qüvvətləndirilməsini də həyata keçirir. K.Abdullayev oğuz qrupu türk dillərindəki bağlayıcılardan bəhs edərkən yazır: "*Bu qəbildən olan bağlayıcılar (tabesizlik bağlayıcıları — K.Ə.) ya birləşdirmə əlaqəsini, ya qarşılaşdırma əlaqəsini, ya bölüşdürmə əlaqəsini, ya da inkarlıq əlaqəsini qüvvətləndirən morfoloji vahid kimi işlənib sabitləşmişdir*" [2, 91]. Bu fikirlə razılaşmaq olar, çünki, doğrudan da,

müvafiq bağlayıcı olmadan komponentlər intonasiya ilə bağlanır və komponentlərin qarşılıqlı məzmun münasibəti məna əlaqəsinin nə olduğunu da bildirir. Bu zaman bağlayıcı bağlayıcılığı qüvvətləndirdiyi kimi, məna əlaqəsinin nə olduğunu da qətiləşdirir. Bunu qarşılaşdırma əlaqəli tabesiz mürəkkəb cümlələrdə daha çox görmək mümkündir. Bu baxımdan bağlayıcılar həm də ədat kimi, qüvvətləndiricilik funksiyasını yerinə yetirir. Dilimizdə bəzi sözlərin (*da, də, hətta, ki, yəni, ancaq, nə*) həm bağlayıcı, həm də ədat olması bu faktı təsdiq edir. K.Abdulla bu fikri "*amma*" bağlayıcısı haqqında da deyir: "Digər qarşılaşdırma bağlayıcılarından *"amma"* bəzən sual ədatı funksiyasında da özünü göstərir. Müqayisə et: "*Biz yolçuyuz, amma siz kimsiniz?"* [2, 98]. Burada *"amma"* sözü "*bəs"* bağlayıcısının sinonimi kimi çıxış edir. Lakin onu da deyək ki, bu söz qüvvətləndirici ədat funksiyasını da yerinə yetirir. Məsələn: "*Amma yaman dedi ha..."* İlk baxışda elə görünə bilər ki, bu cümlə oradakı fikirlə qarşılaşdırma-ziddiyyət təşkil edən və ondan əvvəl gəlmiş başqa cümlənin davamıdır. Əslində isə dialoji nitqdə olsa belə, müstəqilliyə malikdir və beləliklə də, həmin mövqeyində heç də qarşılaşdırma məzmunu ilə əlaqəyə malik olmur. F.Zeynalov sonuncu cümlədə olan "*amma"* sözünü modal ədat adlandırır [21, 188]. Onu da demək lazımdır ki, əvvəldə qeyd etdiyimiz kimi, dilçilər köməkçi nitq hissələrinin inkişaf istiqamətini ədatdan bağlayıcıya doğru götürsələr də, "*amma"* sözünün təkamülünü bağlayıcıdan ədata doğru müəyyənləşdirirlər [20, 187].

Qeyd etmək lazımdır ki, qarşılaşdırma bağlayıcılarında komponentləri birləşdirməklə yanaşı, qüvvətləndiricilik xüsusiyyəti də açıq-aşkar özünü göstərir. "*Amma", "isə"* bağlayıcıları ilə yanaşı, "*ancaq"* sözünü də xüsusi qeyd etmək olar. Məlumdur ki, Azərbaycan dilçiliyində bu sözün omonim olaraq həm ədat, həm bağlayıcı olması fikri müdafiə edilir. Hətta bəzən elə nümunəyə rast gəlmək olur ki, mətndən kənarda "ancaq" sözünün ədat və ya bağlayıcı olduğunu dəqiq söyləmək mümkün olmur. Məsələn, *"Cəmil əkin barədə ayrıca danışmadı, ancaq suallara cavab verdi"* cümləsindəki "*ancaq"* sözünü məqsəddən asılı olaraq iki cür təhlil etmək olar: ədat və bağlayıcı kimi. Bunun əsas səbəbi, fikrimizcə, həmin sözlərin məhz ədatdan bağlayıcıya keçidi olmasıdır. M.Kazımbəy göstərir ki, "*Türk dilində* (Azərbaycan dili — K.Ə.) *bəzi ədatlar, hətta mürəkkəb nitq vahidləri bu funksiyanı (əlaqələndirmə funksiyasını yerinə yetirir*" [15, 632].

Dilimizdə bölüşdürmə bağlayıcılarının da sintaktik zəmindəki funksiyasında müəyyən spesifik cəhət vardır. "*Ya", "..ya", "və ya", "yainki", "yaxud", "və yaxud", "gah", "..gah da", "istər", "..istərsə (də)"* bölüşdürmə bağlayıcılarıdır. Digər tabesizlik bağlayıcıları kimi, bunlar da bərabərhüquqlu sözləri, həmcins üzvləri və tabesiz mürəkkəb cümlənin komponentlərini bağlayır. Sonuncularla bağlı, hətta onu demək lazımdır ki, bölüşdürmə əlaqəli tabesiz mürəkkəb cümlələr bu bağlayıcılar istifadə edilmədən yaranmır. Bu

bağlayıcıları bölüşdürmə əlaqəli tabesiz mürəkkəb cümlənin daxilindən çıxarsaq, həmin konstruksiya eynizamanlı tabesiz mürəkkəb cümləyə çevrilir. Deməli, bu bağlayıcılar birbaşa müəyyənləşdirici, formalaşdırıcı xüsusiyyətə malikdir. Lakin bu bağlayıcıların daxili məna əlaqəsinin xarakterini formalaşdırmaqda fərqli xüsusiyyəti özünü göstərir. Qeyd etmək lazımdır ki, ümumi adı bölüşdürmə olan bu əlaqəli tabesiz mürəkkəb cümlələrdə əsaslı fərqə malik çalar vardır. Belə ki, "*ya,..ya da*" bağlayıcısı hadisə və faktların bölüşdürülməsi, daha doğrusu, iki və ya daha çox hadisə və faktlardan birinin mümkünlüyü məzmununu yaradırsa, "*gah, ..gah da"* bağlayıcısı növbələşmə məzmunu yaradır. Bu isə o deməkdir ki, birinci halda bir hadisənin mümkünlüyündən bəhs edilirsə, ikinci halda müəyyən bir zaman çərçivəsində bir neçə hadisə və faktın ardıcıl, bir-birini əvəz etmə şərti ilə baş verdiyi göstərilir. Deməli, bu bağlayıcıların sintaktik səviyyədə yaratdığı semantik özəlliklər uyğun olsa da, eyni deyil.

Onu da deyək ki, bu qoşa bağlayıcılar mətndə bir neçə dəfə təkrarlana bilir ki, bu fakt daha çox üslubi səciyyə daşıyır, lakin sonda bu bağlayıcının "*da*" bağlayıcısı ilə işlədilən formasının gəlməsi "sadalanan həmcins üzvlərin və ya mürəkkəb cümlənin tərkib hissəsinin sonuncu olduğunu bildirir", ondan sonra başqa komponentin işlədilməsi mümkün deyil: *"Bu gün ya sən, ya Murad, ya Sərxan, ya da Cəlal bu tapşırığı yerinə yetirməlidir".* Bu fakt digər təkrarlanan bağlayıcılara da (gah,..gah da, istər,..istərsə də, həm,..həm də) eyni dərəcədə aid edilə bilər.

"*İstər", "..istərsə (də)"* bağlayıcısı da fərdi işlənmə xüsusiyyətinə malikdir. Hər şeydən əvvəl, müasir dilimizdə az işlək olan bu bağlayıcı bərabərhüquqlu söz, ifadə və cümlələri bağlasa da, konkret məzmunla yanaşı, məhdud qrammatik quruluşla əlaqələnir; belə ki, yalnız arzu və əmr şəklində xəbərli ifadələrin bağlanmasında iştirak edir. Məsələn: "*Bu kişi tayfası ki var, görünür, elə ürəyinin bir guşəsi elə anadangəlmə qaranlıqdır, istər uşaq olsun, istər böyük".* Digər tərəfdən, bu bağlayıcı semantik özəlliyə də malikdir; belə ki, onların işləndiyi cümlələrdəki faktlar, bir qayda olaraq, gələcək zamanlı hadisə və ya faktla bağlı olur (bunu əmr və ya arzu şəkli ilə işlənməsi də sübut edir), ona görə də bölüşdürmə bağlayıcılarının digərləri ilə, demək olar ki, əvəzlənməsi çətin olur.

T.Hacıyev bu bağlayıcının tabeli mürəkkəb cümlənin transformasiyası nəticəsində formalaşdığını qeyd edir: ""*İstəmək" feili şərt budaq cümləsinin təkrarlandığı qarışıq tipli mürəkkəb cümlədə budaq cümlənin xəbəri funksiyasını yerinə yetirir...Şərt şəkilçisinin düşməsi ilə, hətta şəxs şəkilçisinin işlənməsinə baxmayaraq, həmin ifadələrin bir qismində ümumilik bildirmə, standart konstruksiyaya can atma meyli güclənir...Şəxs şəkilçisinin düşməsi ilə ümumilik bildirmə keyfiyyəti daha da artır ki, bu da onların bağlayıcı kimi möhkəmlənməsinə təkan verir"* [7, 84]. Bu zaman həmin bağlayıcının

ayrıldığı şərt konstruksiyasının məzmunu qalmasa da, ardıcıl bölüşdürmə məzmunu qalmışdır.

Maraqlı sintaktik-semantik xüsusiyyətə malik bağlayıcılardan biri də "*yoxsa"* sözüdür. Bu bağlayıcı cümlədə şərtli qarşılaşdırma mənasının yaranmasına xidmət edir. Bu bağlayıcı əlaqəli komponenti olan konstruksiyanın ikinci komponentinin əvvəlində işlənərək, əks, zidd olan nəticəni bildirir. Əslində, burada qarşılaşdırma məzmunu şərtlə birləşmiş şəkildə özünü göstərir, daha dəqiq desək, bu bağlayıcı əvvəlki komponentdə şərt anlayışı yaradır, icra yerinə yetirilmədikdə isə sonrakı komponentdə əvvəlki komponentdəkinin əksi olmalıdır. Məsələn: *"Xəyanətkar vaxtında tapılıb aşkar edilməlidir, yoxsa belə hadisələrlə çox rastlaşmalı olacağıq"*. Bəzi əsərlərdə bu bağlayıcının "*yaxud"* bağlayıcısının sinonimi kimi çıxış etdiyi də qeyd olunur [8, 234; 10, 360 və b.] Məsələn: *"Qurbanın olum, ay oğul, sənsən, yoxsa yuxu görürəm?"* Amma buradakı sinonimliyi tam hesab etmək olmaz, ona görə ki, eyni qrammatik-semantik funksiyada bunları əvəzləmək olmur.

Bağlayıcılarla bağlı məsələlərdən biri onlarla bağlayıcı sözlərin bəzən qarışdırılmasıdır. Belə ki, bir sıra əsərlərdə bağlayıcı sözlərin də bağlayıcıların içərisində verilməsi faktı ilə qarşılaşırıq. Lakin məlum olduğu üzrə, bağlayıcı sözlər leksik vahid olaraq müəyyən lüğəvi mənaya malik olan sözlər-əsasən, əvəzliklərdir. Onlar cümlədə müəyyən sintaktik vəzifə, daha doğrusu, cümlə üzvü vəzifəsini daşıyır, habelə budaq cümlə daxilində işlənərək, baş cümlədə müvafiq qarşılıq söz - qəlib söz tələb edir. Bağlayıcıların isə leksik mənası yoxdur, cümlə üzvü olmur və bəziləri baş, digərləri budaq cümlə daxilində işlənir. Bu baxımdan bağlayıcılarla bağlayıcı sözlərin funksiyaları arasında oxşarlıqlar olsa da, istər morfoloji, istərsə də sintaktik baxımdan müxtəlif səviyyələrə malikdir. Başqa bir məsələ, əsasən eyni fonetik tərkibə malik olan bəzi ifadələrin bağlayıcı kimi təqdim edilməsidir; belə ki, *"ona görə (də)", "buna görə (də)", "onun üçün (də)", "bunun üçün (də)* tipli ifadələr bəzi əsərlərdə səbəb-məqsəd bağlayıcısı kimi verilir [8, 242]. Dilimizdə *"ona görə, buna görə, onun üçün, bunun üçün, ondan ötrü, bundan ötrü"* ifadələrinin "*ki*" ədatı ilə işlənməsi nəticəsində səbəb-məqsəd bağlayıcısı yaranmışdır ki, bunlar da budaq cümlənin daxilində işlənərək, komponentlərin əlaqələnməsində və müvafiq məna növünün yaranmasında ciddi rol oynayır. Məsələn: "*Sofi indiyə qədər evlənməmişdi, ona görə ki, Sofinin özü barədə fikirləşməyə vaxtı olmamışdı"*. Bu cümlədəki "ona görə ki" ifadəsini digər səbəb-məqsəd bağlayıcıları ilə asanlıqla əvəz etmək mümkündür. Lakin aşağıdakı cümlədə bunu etmək mümkün deyil: *"Maya bir də ona görə (onun üçün, ondan ötrü, o səbəbə) Rüstəm kişinin qəzəbini coşdururdu ki, evində yetişmiş Pərşan vardı" (*M.İbrahimov) [8, 242].

Bu cümlədə "*ona görə"* ifadəsinin bağlayıcı deyil, qəlib söz olduğu bir neçə səbəbdən özünü göstərir; birincisi, bu ifadə əvvəldə işlənmiş baş

cümlənin içərisində gəlmişdir, ikincisi, sual tələb edir (*nəyə görə?)* və bu baxımdan cümlə üzvü olduğu (səbəb zərfliyi) aşkara çıxır. Nəhayət, tam sabitləşmiş "*çünki*" bağlayıcısı ilə əvəzlənə bilmir. Maraqlıdır ki, bəzən əks halı müşahidə edirik, daha doğrusu, ayrı yazılan bağlayıcılar (ona görə ki,..) bağlayıcı sözlər kimi təqdim edilərək, morfologiyanın predmeti kimi götürülür [1, 112; 9, 271; 19, 83 və s.]. Kazımov bu növdən olan ifadələri nəticə bildirən bağlayıcılar adlandırır. Buraya "*ona görə", "buna görə", ona görə də", "buna görə də", "onun üçün də", "bunun üçün də", "odur ki"* və s. ifadələri aid edir. Verilən nümunələr isə onların qəlib söz olduğunu göstərir: "*O hamıya xoş gəlməyə çalışırdı, məhz buna görə də o, Şirzada pis təsir bağışlayırdı"* [10, 364]. Z.Budaqova isə həmin ifadələrdən ayrıca bəhs etməsə də, nümunəni qarşılaşdırma bağlayıcısına misal olaraq verir: *"O ağlamırdı, ona görə də o mənə yazıq görünmürdü"* (İ.Əfəndiyev) [4, 168]. Maraqlıdır ki, müəllif başqa yerdə bu ifadələri səbəb bağlayıcısı kimi təqdim edir [4, 172]. Təbii ki, bu fikirlərin heç biri ilə razılaşmaq olmaz; bunlar xalis sintaktik vahidlərdir.

**Nəticə.** Köməkçi nitq hissələri leksik mənaya malik olmasa da, özlər və cümlələr arasında müəyyən semantik əlaqələrin formalaşmasında müəyyən rol oynayır. Digər tərəfdən isə, onlar müxtəlif sintaktik mühitdə fərqli funksiyalar yerinə yetirə bilir. Nəhayət, bağlayıcılar komponentlər arasındakı müvafiq məna əlaqələrini qüvvətləndirmə funksiyasına da malikdir.

**ƏDƏBİYYAT**


1.Abdullayev Ə. Müasir Azərbaycan dilində tabeli mürəkkəb cümlələr. - Bakı: Maarif, - 1974, - 420 s.

2.Abdullayev K. Bağlayıcılar // Oğuz qrupu türk dillərinin müqayisəli qrammatikası. II hissə. Morfologiya. - Bakı: Elm, - 1986, - s.89-99.

3.Azərbaycan dilinin qrammatikası. I hissə. Morfologiya. - Bakı: Azərb. SSR EA nəşriyyatı, - 1960, - 335 s.

4.Будагова З. Основы грамматики современного азербайджанского языка. - Баку: Элм, - 1987, - 188 с.

5.Черкасова Е.Т. Русские союзы неместоименного происхождения: Пути и способы их образования. - Москва: Наука, - 1973, - 221 с.

6.Əlizadə S. Azərbaycan ədəbi dilində bağlayıcıların inkişaf səviyyəsi // Azərbaycan dilində adların morfologiyası (Elmi əsərlərin tematik məcmuəsi). - Bakı: AU nəşriyyatı, - 1984, - s. 37-41.

7.Hacıyev T.M. Bəzi qoşa bağlayıcıların mənşəyinə dair // Azərbaycan dilində adların morfologiyası. - Bakı: BU nəşri, - 1984, - s.82-85.

8.Hüseynzadə M. Müasir Azərbaycan dili. III hissə. Morfologiya. - Bakı: Elm və təhsil, - 2007, - 280 s.

9.Kazımov İ. Türk dillərinin müqayisəli morfologiyası. - Bakı: Elm, - 2019, - 304 s.

10.Kazımov Q. Müasir Azərbaycan dili. Morfologiya. Bakı: Elm və təhsil, 2010, 400 s.

11.Кононов А.Н. Грамматика современного турецкого литературного языка. - Москва-Ленинград: Изд. АН СССР, - 1956, - 572 с.

12.Кононов А.Н. Грамматика современного узбекского литературного языка. - Москва-Ленинград: Изд. АН СССР, - 1960, - 446 с.
13.Майтинская К.Е. Служебные слова в финно-угорских языках. - Москва: Наука, - 1982, - 188 с.
14.Mehdiyeva S. Bağlayıcılar // "Kitabi-Dədə Qorqud" dastanının qrammatik tədqiqi. - Bakı: Elm, - 2019, - 492 s
15.Mirzə Kazımbəy. Türk-tatar dilinin ümumi qrammatikası // Tərcümə, tədqiq və şərh:İdris Abbasov. - Bakı: Zərdabi LTD MMC, - 2017, - 1000 s.
16.Oğuz qrupu türk dillərinin müqayisəli qrammatikası. II hissə, morfologiya. - Bakı: Elm, - 1986, - 134 s.
17.Покровская Л.А. Грамматика гагаузского языка. - Москва: Наука, - 1964, - 298 с.
18.Tanrıverdi Ə. Azərbaycan dilinin tarixi qrammatikası. - Bakı: Elm və təhsil, - 2010, - 458 s.
19.Təhməzov Z. Müasir Azərbaycan dilində köməkçi nitq hissələrinin təsnifi. - Bakı: AFPoliqrAF, - 2017, - 152 s.
20.Zeynalov F. Müasir türk dillərində köməkçi nitq hissələri. - Bakı: Maarif, - 1971, - 312 s.

## МОРФОНОСИНТАКСИС СОЮЗОВ

**Кямаля А.АЛИЕВА**

## РЕЗЮМЕ

Союз как часть речи, являясь морфологической единицей, на морфологическом уровне связывает компоненты словосочетаний, члены предложений и предложения. Союзов недостаточно для связи слов и предложений, они играют роль в укреплении определенных смысловых отношений. Хотя каждый союз имеет определенное место и функцию, многие из них также выполняют стилистическую функцию. Стилистические функции непосредственно связаны с лексико-семантическими и грамматическими особенностями слов, из которых они выделяются. Например, союзы «və» и «ilə» хотя и синонимичны, но имеют существенные функциональные различия. В отличие от союза «və», союз «ilə» не может связать компоненты сложносочиненного предложения, а также члены предложения, имеющие соответствующие морфологические признаки, что обусловлено обособленностью союза от предлога. Тот факт, что морфема «ilə» имеет ту же функциональность, что и частица, создающая условное содержание или дифференцирующий союз, также обусловлена тем, что они возникают от одного корня. Однако тот факт, что эта морфема функционирует не как противопоставление, а в функции союза «və» следует рассматривать исключительно как стилистический фактор. В частности, некоторые трудности возникают при определении противительных союзов с соответствующими частицами в связи с тем, что союзы появляются в результате развития частиц. Даже в некоторых случаях слова «amma, ancaq» в предложении можно объяснить и как частицу, и как союз. В общем, союзы в пределах одного и того же типа значения имея одну и ту же функцию, также создают разное содержание; например, факт выражения значений распределения, чередования и др. в союзах, относящихся к типу разделительных, ya, ya da, gah, ..gah da, istər, istərsə də. Такая ситуация наблюдается и у слов с самостоятельным лексическим значением.

**Ключевые слова**: азербайджанское языкознание, союз, функция, морфология, синтаксис, синоним, омоним

## MORPHONOSYNTAX OF UNIONS

**Kamala A.ALIYEVA**

**SUMMARY**

The union as a part of speech, being a morphological unit, at the morphological level connects not words, but components of phrases, members of sentences and sentences. Unions are not enough to link words and sentences; they play a role in strengthening certain semantic relationships. Although each union has a specific place and function, many of them also have a stylistic function. Stylistic functions are directly related to the lexico-semantic and grammatical features of the words from which they are distinguished. For example, the unions "və" and "ilə", although synonymous, have significant functional differences. Unlike the union "və", the union "ilə" cannot connect the components of a compound sentence, as well as the members of the sentence that have the corresponding morphological features, due to the isolation of the union from the postposition. The fact that the morpheme "ilə" has the same functionality as a particle that creates a conditional content or a differentiating conjunction is also due to the fact that they arise from the same root. However, the fact that this morpheme does not function as a contrast, but in the function of the conjunction "və" should be considered solely as a stylistic factor. In particular, some difficulties arise in determining adversarial conjunctions with the corresponding postpositions due to the fact that the conjunctions appear as a result of the development of postpositions. Even in some cases, the words "amma", "ancaq" in a sentence can be explained both as a postposition and as a conjunction. In general, conjunctions within the same meaning type have the same function and also create different content; for example, the fact of expressing the meanings of distribution, alternation, etc. in conjunctions related to the type of separators, ya, ya da, gah,..gah da, istər, istərsə də. This situation is also observed in words with an independent lexical meaning.

**Keywords:** Azerbaijani linguistics, union, function, morphology, syntax, synonym, homonym

BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№1 Humanitar elmlər seriyası 2023*

## ƏDƏBİYYATŞÜNASLIQ

**UOT 82:316.3**

# XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCAN ƏDƏBİ-MƏDƏNİ MÜHİTİNDƏ MİLLİ ƏDƏBİ DİLİ OSMANLILAŞDIRMAQ MEYİLLƏRİNƏ QARŞI MÜBARİZƏ

**Günel K.YUNUSOVA***

*XX əsrin əvvəllərində Azərbaycanda füyuzatçılar və onların ardıcılları, "Yeni füyuzat", "Şəlalə" jurnallarının əməkdaşları yeni Azərbaycan ədəbi dilini "osmanlılaşdırmaq" uğrunda kəskin mübarizə aparırdılar. Bu təşəbbüs onların türkçülük, turançılıq mövqeyi ilə bağlı idi. Lakin bu ideya bir sıra Azərbaycan ziyalılarının müqaviməti ilə üzləşmişdi. Cəlil Məmmədquluzadə başda olmaqla molla nəsrəddinçilər, həmçinin bir çox maarifçilərimiz bu ideyaya qarşı kəskin müqavimət göstərirdilər. Onlar sadə xalq dilində yazmağa üstünlük verir, yeni yaranacaq ədəbi dilin bazasına ümumxalq danışıq dilini qoyurdular. Beləliklə, deyilən problemdə bu iki cəbhə arasında ciddi fikir ayrılığı, mübahisələr özünü göstərirdi.*

*Məqalədə deyilən bu məsələlər ətraflı şəkildə şərh olunur. Problemin səbəbləri, mahiyyəti və nəticələri nəzərdən keçirilir.*

**Açar sözlər:** ədəbi dil, XX əsr Azərbaycan ədəbiyyatı, ədəbi-mədəni mühit, osmanlı türkcəsi, ədəbi-nəzəri fikir

**Giriş.** XIX əsrin II yarısı-XX əsrin əvvəlləri Azərbaycan xalqının həyatında hərtərəfli mənada milli intibah dövrü kimi səciyyələnir. Xalqımız bu dövrdə həm də bir millət kimi formalaşmağa başladı. Eyni zamanda ictimai, siyasi, iqtisadi, hüquqi sahələrdə olduğu kimi, maarif, pedaqoji və ədəbi-mədəni həyatda da yeniliklər baş verdi. Bütün bunlar, azərbaycançılıq ideyasının yaranması ana dilinə münasibəti də dəyişdi. Dildə bir sıra islahatlar aparmaq, onu yeniləşdirmək, onun fəaliyyət dairəsini genişləndirməklə yanaşı, onu yad təsirlərdən qorumaq və qurtarmaq zərurəti yarandı. XX əsrin əvvəllərində dili osmanlılaşdırmaq cəhdləri də özünü göstərirdi və bunun qarşısını almaq üçün müəyyən addımlar atılırdı.

Belə bir zəruri tendensiya öz növbəsində yeni dövrdə ədəbi dilin bütün

***AMEA-nın Z.Bünyadov adına Şərqşünaslıq İnstitutu; filologiya üzrə fəlsəfə doktoru; yunusova_edu@mail.ru;ORCİD İD: 0000-0002-2375-2829***

üslublarını əhatə edən yeni ədəbi dilin yaranmasına da ehtiyac yaratdı. Daha doğrusu, "*XIX əsrin son rübündə ölkədə baş verən dəyişikliklər, bunların milli zəmində əmələ gətirdiyi islahatlar, xüsusilə millətin təşəkkülü, azərbaycançılıq ideyasının dirçəlişi ictimai həyatda ana dilinin fəal rolunu təmin etmək, rəsmi dairələrdə funksiyasını genişləndirmək ədəbi fikrin ifadəsi üçün qüdrətli ünsiyyət vasitəsinə çevirmək ideyası ədəbi dairələrdə işgüzar müzakirələrə səbəb oldu*" [11, 124]. Müzakirələrin başlıca mövzusu yaradılması zəruri olan ədəbi dili hansı şəkildə, hansı baza əsasında, necə və hansı vasitələrlə yaratmaq idi.

**Osmanlılaşdırmaq meyillərinə münasibət.** Ana dili, onun ictimai-mədəni həyatda mövqeyi, çağdaş milli ədəbi dilin yaradılması, bir sözlə, "dil müşkülatı" ilə bağlı XIX əsrin son rübündə başlayan müzakirələr XX əsrin ilk illərindən daha da intensivləşdi, məhsuldar şəkil aldı. Həm də müzakirələrə, mübahisələrə yeni notlar, yeni çalarlar əlavə olundu. Türk qövmlərini birləşdirə biləcək dil birliyi ("ittihadi-lisan") ideyası cücərib boy atdı və ictimai-ədəbi düşüncəni ciddi surətdə məşğul etməyə başladı.

Mirzə Fətəli Axundovla başlayan bu müzakirələr XX əsrin əvvəllərində daha da məhsuldar, faydalı, çoxparametrli şəkil aldı. Yeni ədəbi dilin hansı baza əsasında yaranması ilə əlaqəli fikir ixtilafları ortalığa çıxdı. İdeoloq Əli bəy Hüseynzadə başda olmaqla türkçülər, turançılar, füyuzatçılar və onların ideya xələfləri ana dilini osmanlılaşdırmaq, ümumi türk dili yaratmaq təşəbbüsü və ideyası ilə çıxış etdilər. Nəzəri və əməli olaraq bu istiqamətdə mübarizə apardılar. Azərbaycançılar, bu milli ideyanın daşıyıcıları və tərəfdarları, o cümlədən molla nəsrədinçilər, bir sıra milli maarifpərvərlər isə əksinə, milli dilin müdafiəsinə qalxdılar. Ədəbi dilin milli xalq dili əsasında formalaşması ideyasını müdafiə edib öz nəzəri və əməli fəaliyyətlərini bu istiqamətə yönəltdilər.

Mirzə Cəlil 1906-cı il aprelin 7-də nəşrə başlayan "Molla Nəsrəddin" jurnalının ilk nömrəsində çap etdirdiyi proqram xarakterli "Sizi deyib gəlmişəm" sərlövhəli ilk yazısında "türkün açıq-aydın ana dilində" yazmaq öhdəliyini elan etdi və sona qədər də bu məramını davam etdirdi. Əlbəttə, burada müəllif "türkün açıq-aydın ana dili" dedikdə Azərbaycan türkcəsini nəzərdə tuturdu. Jurnalın səhifələrində molla nəsrəddinçilərin dil siyasətini müdafiə və təbliğ edən yazılara vaxtaşırı rast gəlmək mümkün idi. Məcmuənin dili isə onların ədəbi dillə bağlı mövqeyinin bariz ifadəsi idi. Mirzə Cəlil jurnalda öz ana dilini bəyənməyib ərəb, fars və rus dillərinə meyil edən dönük ziyalıları kəskin şəkldə tənqid etdiyi kimi osmanlı türkcəsinə meyil edən "millət ürəfalarını" da məsxərəyə qoyur, ifşa hədəfinə çevirirdi. "Etidaliyyun" adlı felyetonunda ədib istehzalı bir notla yazırdı: "*Qorxma, osmanlıca yazmıram! Öz dilimizdə yazacağam. Yoxsa başdan "Etidaliyyun" sözünü görüb elə xəyal elərsən ki, biz də "osmanlılaşdıq"; yəni "ərəbləşdik", yəni*

*mötəbər qələm sahiblərinin cərgəsinə soxulduq. Maşallah qəzetlərimizi görəndə adamın "tamahı" düşür: lap elə bil ki, təzə Osmanlıda çıxan "Hikmət" qəzetidir ki, mərhum Melkum xan deyən kimi, maşallah, adını da oxumaq olmur ki, biləsən bari nə qəzetdir*" [9, 109]. Göründüyü kimi, burada yazıçı osmanlı türkcəsinin və mətbuatının dil baxımından "ərəbləşməsini" və anlaşılmaz hala düşdüyünü kinayəli şəkildə nəzərə çatdırır.

"Xatiratım" adlı memuarında Mirzə Cəlil "Məcmuəmizdə dil məsələsi" adlı ayrıca bölmə verir və burada "Molla Nəsrəddin"in dil siyasətindən danışır. Bir sıra osmanlı müəllifləri kimi "ibarəli yazmaq şivəsindən" imtina edib "dərdi-dilimizi hal-hazırda camaat başa düşən dildə" yazmağa qeyrət etdiklərindən söhbət açır. Məcmuənin əsas məramının sadə xalq dilində yazmaq olduğunu vurğulayır [10, 159-162]. "Anamın kitabı" pyesində isə sənətkar öz milli varlığına, ruhuna, dilinə dönük çıxıb etnik kökündən qopan, rus və fars dilinə meyil edən ziyalıları nə qədər tənqid edirsə, osmanlı dilinə üz tutan vətən övladlarını da bir o qədər ifşa hədəfinə çevirir.

"Şəlalə" jurnalının baş redaktoru Xalid Xürrəm Səbribəyzadə dil siyasətində füyuzatçıların ənənəsini davam etdirir, milli ədəbi dili osmanlılaşdırmaq uğrunda ciddi səy göstərirdi. Onun bu təşəbbüsü molla nəsrəddinçilərin etirazı ilə qarşılaşırdı. "Molla Nəsrəddin"çi şair Salman Mümtaz Əsgərov "Bir tuluq" və "Qafqaz şivəsinə gəl busə" kimi şeirləri ilə bilavasitə "Şəlalə" redaktorunun bu istiqamətdə fəaliyyətini satirik planda tənqid etmişdir.

Görkəmli maarifçi ziyalı Həsən bəy Zərdabi 1906-cı il 11 yanvar tarixində "Həyat" qəzetində çıxan "İttihadi-lisan" məqaləsində Rusiyada yaşayan "türk tayfaları üçün ümumi dil işlətməyin" vacib olduğunu söyləyir. Lakin onu da qeyd edir ki, belə bir ortaq dili "bina etmək çox çətindir". Ona görə də camaatın başa düşməsi üçün yaxşı olar ki, hər bir türk qövmü öz dilində yazıb oxusun: "*Lazımdır ki, hər kəs elə danışsın, elə yazsın ki, onu mümkün mərtəbə avam da başa düşsün*" [17, 244].

Abdulla Şaiq 1913-cü ildə "İqbal" qəzetində (18, 21 oktyabr) oxuculara təqdim edilən "Dilimiz və ədəbiyyatımız" məqaləsində el dili və yazılı dil, onların qarşılıqlı münasibəti və təsiri ilə bağlı bir sıra məsələlərə toxunur, maraqlı nəzəri izahatlar, həmçinin bədii nümunələr verir. Milli ictimai varlığı dilimizin "islahı və mükəmməliyyati uğrunda səy və guşiş etməyə", onu "ən fəsih və ən mükəmməl bir dil dərəcəsinə və qibtə ediləcək ədəbi dil halına" gətirməyə çağırır. Ancaq bu yolda el, yəni xalq dilini ən münbit, əlverişli qaynaq hesab edir. Son onilliklərin osmanlı türkcəsinin ədəbi dil variantını isə qətiyyən bəyənmir. İzah edir ki, osmanlı ədib və şairləri ərəb və fars dillərinin şiddətli təsiri altına düşmüş ədəbi dil düşüncəsində həqiqi yoldan sapmışlar. Doğrudur, onlar öz dillərini sevirlər. Lakin ədəbi dil yaratmaqda yetərincə tələskənliyə yol vermiş, ciddi səhvlər buraxmış, ərəb-fars-türk qarışığından ibarət əcaib bir dil hasilə gətirmişlər. Nəticədə bu dil qeyri-

məqbul bir hala düşmüşdür. Osmanlı münəvvərləri bu sahədə öz parlaq ideallarına, xoş məqsədlərinə nail ola bilməmişlər. Abdulla Şaiq problemin mahiyyətini bu cür şərh edir: "*Osmanlı türk ədib və şairləri... dillərini vüsətləndirmək, mükəmməl və ədəbi bir dil zümrəsinə keçirməyə göstərdikləri əcələ məqsədlərindən bütün-bütünə uzaqlaşdırmışdır. Halbuki ədəbiyyat (yazı dili) dediyimiz əcələ ilə başa gələn şeylərdən deyildir. Əsrlərcə müqtədir və təbii şairlərin yaratdıqları bədiələrdən hüsulə gələn bir dildir*" [15, 123].

Əli bəy Hüseynzadə 1909-cu ildə "Tərəqqi" qəzetində dərc olunan "Yazımız, dilimiz, ikinci ilimiz" məqaləsində Mahmud bəy Mahmudbəyovun "İkinci il" dərsliyini bir sıra məziyyətlərinə görə tənqid etmişdi [94]. Bu tənqidlər sırasında dərslikdə osmanlı "şüəra və üdəbasının" əsərlərinə yer verilməməsi, həmcinin dərsliyin imlasının, yəni orfoqrafiyasının ümumtürk dilinə uyğunlaşdırılmaması da var idi. "İkinci il"in müəllifi Mahmud bəy Mahmudbəyov, habelə Qafur Rəşad Mirzəzadə, Ömər Faiq Nemanzadə kimi ziyalılar eyni qəzetdə eyni adla cavab yazıları çap etdirərək Əli bəyin mövqeyini, mülahizələrini tənqid etmişdilər [8; 11;12]. Ömər Faiq Nemanzadə Əli bəyə cavabında yazırdı ki, biz min illərdir nənələrimizin öyrətdiyi sadə türk dilimizi buraxıb "bizə lazım olan elm, fənn istilahlarını" ərəbdən, farsdan və qeyrilərindən qəbul edib, yazımızda, ədəbiyyatımızda işlədib ana dilimzi yazıq günə salmışıq. Qələm əhlindən bəziləri belə bir yanlış fikir söyləyir ki, guya şairlər, yazıçılar, qəzetçilər "avam" üçün deyil, "xas", yəni təhsilli oxucu üçün yazırlar. Əsas şərt isə ümumi kütləni başa salmaq, ayıltmaqdır. Əgər yazılanları avam kütlə başa düşmürsə, onu yazmağın faydası nədir? Millətə xidmət etmək istəyənlər ərəb-fars kəlmələri ilə doldurulmuş bir dildə yox, hamının başa düşə biləcəyi sadə türkcədə yazmalıdır. Müəllifin ədəbi dil barədə qəti mövqeyi belə idi: "*Bu gün bizim işlətdiyimiz dil ədəbiyyat dili deyil, oğurlanmış, çirkin bir dildir. Ərəb və fars sözləri ilə yazılan uyğunsuz yazılara ədəbiyyat dili demək ədəbiyyatın nə olduğunu bilməməkdir. Camaatımızı bu fikirdən daşındırmaq çağıdır. Dilimizin qədrini bilmək çağıdır*" [13, 197]. Ömər Faiq osmanlı yazıçılarının, mühərrirlərinin osmanlı türkcəsini qəliz, dolaşıq bir hala saldıqlarından da gileylənir, onların dilinin kütlə üçün qəbuledilməz olduğunu söyləyirdi.

XX əsrin əvvəllərində ədəbi-mədəni mühitimizdə Azərbaycan dilini osmanlılaşdırmaq cəhdlərinə qarşı ən sərt reaksiya göstərən millət xadimlərindən biri Firidun bəy Köçərli idi. O, həmin təşəbbüsün qəti əleyhdarı kimi çıxış edirdi. Tənqidçinin bu barədə ədəbi-nəzəri və tənqidi mülahizələri onun "Ana dili" və bəzi başqa məqalələrində, Abdulla Şaiqə məktublarında və s. əsərlərində öz əksini tapmışdır.

"Ana dili" məqaləsində Firidun bəy Köçərli ilk növbədə XX əsrin əvvəllərində Azərbaycan ictimai və ədəbi-mədəni gerçəkliyində dil siyasəti ilə bağlı mövcud olan müzakirələrə, mübahisələrə, təmayüllərə diqqət yetirir.

Göstərir ki, son zamanlar ana dilimizin taleyi ilə bağlı müzakirələrdə fərqli fikirlər yürüdülür. Kimi Azərbaycan türklərinin "şiveyi-lisanını bəyənib" ona üstünlük verir, kimi İstanbulda işlənən osmanlı türkcəsini tərifləyib onu təqlid etməyi məsləhət görür, kimi bütün türklər üçün ümumi bir dil təsis etməyi təklif edir və s. Daha sonra müəllif diqqətini İstanbul türkcəsini bizim ədəbi mühitiə tətbiq etmək təşəbbüsündə olanların tənqidinə yönəldir. Onun səbəbini də aydın və elmi şəkildə izah edir: "*İstanbulda nəinki ədiblərin, hətta balaca bir qəzetdə xəbər yazan hərifin dilini İstanbuldan başqa sayir yerin türkləri anlamaz. Bundan məlum olur ki, osmanlı ədibləri ana dilinin qədrini bilməyib, onu unudublar və özləri üçün başqa "volapuk" ittixaz ediblər*" [7,293]. Firidun bəy Köçərli fikrinə davam edərək problemin təhlükəli tərəfinə diqqəti cəlb edir. Narahatçılıq və qəzəb hissi ilə qeyd edir ki, İstanbulda "yarımçıq elm təhsil edib gələnlər" son zamanlar dilimizə ciddi xələl yetirməkdədirlər. Bu şəxslər "*nə elmdən elm və nə mərifətdən mərifət öyrənməyib və adlarına əlqab olaraq quyruq yapışdırıb, qəliz ibarələr atına minib, ədəbiyyat meydanında cövlan*" edir, ana dilimizi yaman günə qoyurlar. Həmin dil pozğunluğunun, xaosunun başında isə Əli bəy Hüseynzadə cənabları dayanır. "*Allah ona insaf versin. O cənabın elm və kamalına sözümüz yoxdur. Sözümüz ondadır ki, elm və kamalından bizə bir bəhrə vermədi, ancaq dilimizə pozğunluq saldı, təzə dil gətirdi. Ətrafını bir dəstə meymunlar bürüdü və onu təqlid etməkdə bir-birinə macal verməyib, "böyük hünərlər" göstərdilər. Az vaxtın içində Qafqaz türklərinin dili osmanlı sözləri və istilahları ilə doldu*" [7, 294].

Bu cür osmanlılaşma təşəbbüslərinin Azərbaycanda mətbuatın, təlim və tədris kitablarının, bir sıra bədii və elmi əsərlərin dilinə ciddi ziyan vurduğunu israr edən tənqidçi bu zərərli missiyanı "müqəllidlik və millətə xəyanət" kimi qiymətləndirir. Firidun bəy Köçərli "Şəlalə" jurnalının yeritdiyi dil siyasətindən də kəskin narazılığını bildirir və onu tənqid edir. Milli meydandakı qələm əhlinə "meymunluqdan" əl çəkib sadə xalq dilində yazmağı məsləhət görür. Bunu millətə xidmət hesab edir. Abdulla Şaiqə göndərdiyi 26 may 1911-ci il tarixli məktubunda məsləhət məqsədilə sənətkara yazır: "*Gələcəkdə yazdığınız nağıl və hekayələri daha da sadələndirib osmanlı ibarələrinin əvəzində bizim öz sözlərimizivə tərzi kəlamı işlətsəniz daha yaxşı olar*" [16, 404].

Ədəbi dilin formalaşmasına və osmanlılaşdırılmasına münasibətdə Yusif Vəzir Çəmənzəminlinin mövqeyi Firidun bəy Köçərlinin mövqeyi ilə üst-üstə düşürdü. O, həmin mövqeyini "Dil məsələsi", "Bizə ciddi mətbuat çoxdan lazım idi" və s. məqalələrində ortalığa qoymuşdur. 1914-cü ilin 25 fevralında "Sədayi-həq" qəzetində çıxan "Dil məsələsi" məqaləsində Çəmənzəminli osmanlı dilini bütün türk xalqları üçün "ümumi bir dil sayan", qəliz və ibarəli osmanlı türkcəsində qəzetlər nəşr edən, kitablar, əsərlər yazıb

Azərbaycan türklərinə sırıyan osmanlıpərəst qələm sahiblərinin bu sahədə "əqidə və məslək işi" görmədiklərindən şikayətlənir. "Üç-dörd adamın" hansısa bir dildə yazmağı ilə vahid bir dil yaratmaq mümkün olmadığını, dilin üzunmüddətli tarixi-ictimai bir prosesdə yarandığını göstərirdi. Hökm etməklə, zor göstərməklə dil yaratmaq mümkünsüzdür. Ədib Azərbaycan ədəbi dilini hansı bazada yaratmağın mümkünlüyü barədə qənaətlərini də irəli sürür. Göstərir ki, Azərbaycan türklərinin "gözəl, asan və möhkəm" dilləri vardır. "*Dilin kökü camaatımızın yaratdığı el ədəbiyyatındadır... Dil axtaran gərək camaatımızın arasında gəzsin, dolaşsın*" [1, 173]. Müəllif ədəbi dil yaratmaqdan ötrü xalq dilinə üz tutmağı məsləhət görür. Ərəb-fars ibarələri, sözləri ilə dolaşıq hala salınmış osmanlı türkcəsinin ictimai-ədəbi mühitdə işə yaramadığına, dilə və ədəbiyyata ancaq zərər vurduğunu söyləyir. Yusif Vəzir Çəmənzəminli öz baxışlarını bu şəkildə ifadə edir: "*Belə olan suratdə qəzet və jurnallarımızı osmanlı dili ilə doldurmaq camaata yol göstərmək olmayıb onu yoldan çıxartmaq deməkdir. "Necə" sözü əvəzində "nasıl", "arvad" əvəzində "qadın", "ata" yerinə "baba" və ya pədər yazmaq millətin dilini dolaşdırıb, işini çətinləşdirməkdən savayı bir şeyə yaramır*" [1, 174].

1916-cı ildə "Açıq söz" qəzetində çap olunan "Bizə ciddi mətbuat çoxdan lazım idi" (№160, 162-164) məqaləsində Yusuf Vəzir Əli bəy Hüseynzadənin elmini, təfəkkürünü, istedadını tərifləyir. Lakin onun bizim ədəbi-mədəni mühitimizə, mətbuatımıza "ərəbləşmiş osmanlı dili" gətirdiyindən, onu təqlid edənlərin "ağıl və məsləkinə" qalib gəlib dilimizi korladığından, onun dil siyasəti sayəsində "mətbuatımızın bilmərrə xalqdan ayrıldı"ğından şikayətlənir [1, 176].

Məhəmməd Əmin Rəsuladənin 1913-cü ildə "Şəlalə" jurnalında çap olunan "Asan dil-yeni lisan" (№19, 20), "Yeni lisançılar və türkçülər" (№24, 25), "Dil ictimai mühüm bir amil" (№27) məqalələri bilavasitə dil, onun ictimai-mədəni həyatda rolu, ədəbi dilin xalq dili ilə əlaqəsi və münasibəti problemlərinə həsr edilmişdir. Əvvəlki iki məqalə bir-birinin davamıdır. Hər iki məqalədə Türkiyədə əski lisançılarla yeni lisançılar arasında mübarizədən, bu mübarizənin osmanlı ədəbi dilinə, o cümlədən Azərbaycan ədəbi mühitinə təsirindən və zərərindən danışılır. Belə ki, XIX-XX əsrlərin hüdudlarında Türkiyədə dilə münasibətdə iki təmayül formalaşmışdı. Birincisi, əski lisançılar adlanırdı. Onlar ərəb-fars kəlmə və izafətlərindən ibarət ibarəli, çətin anlaşılan bir dildə yazırdılar. Xalq onları başa düşmürdü. Sonradan meydana atılan və Məhəmməd Əmin Yurdaqulun başçılıq etdiyi yeni lisançılar isə xalqa doğru amalı ilə ancaq sadə xalq dilində yazırdılar. Ədəbi-mədəni mühitdə bu iki təmayül arasında mübarizə gedir, təbii ki, xalq ikinci təmayülün tərəfini tuturdu. Məhəmməd Əmin Rəsulzadə adı çəkilən məqalələrində haqqında danışdığımız məsələnin mahiyyətini və nəticələrini şərh edirdi. Bildirirdi ki, Türkiyədə ədəbiyyatda İbrahim Şinasi ilə

avropalaşma meyli başlasa da, "ədəbi lisan"da ərəb-fars təsiri ortadan qalxmadı. Xalq dilini loru, ədəbi əsərlər üçün yararsız dil hesab edən yeni baxışlı türk ədib və şairləri də "İstanbul kübar şivəsi" deyilən qəliz bir dildə yazmağa başladılar. Circi Zeydanın hesablamasına görə həmin şivədəki sözlərin yalnız otuz faizi türkcə idi. XX əsrin əvvəllərində Əli bəy Hüseynzadə, Əhməd Kamal kimi emissarlar Bakıya gəldilər və osmanlıda işlənən həmin dili Azərbaycanda tətbiq etməyə başladılar. Bu model və təqlidçilik milli mühitdə bir dil anarxiyasına gətirib çıxardı: "*Bakıda fəal bir dövreyi-ədəbi başladı. Möhtərəm ədibimiz Əli bəy Hüseynzadə ilə Əhməd Kamal bəylər Bakıya gəldilər. "Füyuzat" təsis olundu. Osmanlıcanı təqlid həvəsində olanlar üçün əlləri altında bir nümunə hazırlandı. Yerli mühərrirlər onların təntənəli üslublarını tənzirə başladılar... Nə isə gəlişi gözəl bir təqlidçilik başlamış və gediyordu. Fəqət bundan hasil olan nə idi? Bir yazı anarşisi (anarxiyası), hərc-mərc, ara qarışmış, məzhəb itmiş idi...Biz, həqiqətən, nə İstanbul mühərriri olmuşduq, nə də azərbaycanlı*" [14, 220]. Məhəmməd Əmin Rəsulzadə izah edir ki, əski lisançıların ədəbiyyatda yaratdığı dil ənənəsi həm Türkiyənin özündə, həm də Azərbaycanda ədəbi dilə heç də fayda gətirmədi. Ədəbi hərəkatdakı sonrakı gedişat da bunu sübut etdi. Məsələn, Türkiyədə əski lisançıların dilinə nisbətən xalq yeni lisançıların dilini daha rəğbətlə qarşıladı və bəyəndi. Azərbaycanda da xalq məhz onun öz dilində yazanların dilini qəbul etdi.

"Dil ictimai mühüm bir amil" məqaləsində dilin ictimai həyatdakı rolunu kütləyə anlatmağa çalışan müəllif qeyd edir ki, bizim əsas vəzifələrimizdən biri də dilimizi hamı üçün asan, əlçatan etməkdən ötrü yazı dili ilə danışıq dili arasındakı böyük fərqi aradan qaldırmaqdır. Xalqımızın böyük mütəfəkkir oğlunun rəyinə görə "*dilmizi, həqiqətən də, millətimizin ruhu və onun vasiteyi-bəqası məqamında görmək istəyirsək və onu cameiyyəti-milliyyəmizdə ən mühüm bir ittihad və tərəqqi amili ədd edirsək, yazımız ilə danışığımız arasında olan fərqi azaltmalıyız*" [14, 235].

Milli ədəbi dilin osmanlılaşdırılmasına müxalif olan etirazçılardan biri də tənqidçi Seyid Hüseyn Kazımoğlu (Hüseyn Sadiq) idi. O, bir müddət də "İqbal" qəzetinin redaktoru olmuşdur. Seyid Hüseyn istər dərsliklərin, istərsə də mətbuatın dilindəki "osmanlıpərəstliyə" və qərb türkcəsi elementlərinə etirazını bildirir, bu barədə mətbu yazılarla çıxış edirdi. Fərhad Ağazadənin "Ədəbiyyat məcmuəsi" dərsliyinin istər məzmunu, orada osmanlı ədəbiyyatı nümunələrinə həddindən ziyadə yer verilməsi, istərsə də dili Firidun bəy Köçərli kimi Kazımoğlunun da qəzəbinə səbəb olmuşdu. Bununla bağlı o, geniş həcmli bir məqalə yazaraq "Dirilik" jurnalında ictimai rəyə təqdim etmişdi [6]. Dərsliyin dilindən danışarkən tənqidçi onun müqəddiməsində verilən belə bir hikmətli fikrə diqqəti cəlb edir: "*Nazik hissləri qaba sözlər ilə oyandırmaq mümkün deyil. İnsan övladında incə hissləri oyatmaq üçün ümdə*

*vasitə ana dilidir*". Sonra o, dərslikdən osmanlı sənətkarlarına mənsub iki mətn seçib nümunə kimi verir. Bu mətnlərdən birincisi"Məktəb" şeiri, digəri isə "Şair rəssamdır, rəssam şair" hekayəsidir. Hər iki əsərin dili qəliz, məktəb şagirdləri üçün anlaşılmazdır. Həmin nümunələrdən çıxış edərək tənqidçi deyir:"*Bu şeirdə türkiliyə məxsus bir şey varmı?.. Bəlkə, türklüyü bu günkü hala qoyan da həmin bu kimi ədəbiyyatlar olmuşdur*" [6].

Seyid Hüseyn başda jurnalın baş redaktoru Xalid Xürrəm Səbribəyzadə olmaqla "Şəlalə" jurnalının dil siyasətinə də kəskin etirazını bildirir, bununla bağlı mətbu yazılarla çıxış edirdi. O, özü müəyyən müddət "İqbal" qəzetinin redaktoru olmuşdu. Bu iki mətbuat orqanının ədəbi dilə münasibətini onların dili də aydın şəkildə göstərirdi. Bu məsələdə onların arasında kəskin ixtilaf və fikir ziddiyyəti var idi. "İqbal" sadə, anlaşıqlı Azərbaycan dilində, "Şəlalə" isə jurnalın əməkdaşlarının "yüksək dil" deyə təbliğ etdikləri ərəbləşmiş-farslaşmış "osmanlı lisanı"nda nəşr olunurdu. Xalid Xürrəm Səbribəyzadə deyirdi ki, "ərəb və fars kəlmələrini əxz etməkdən çəkinmək lazım deyil və çəkinə də bilməyəcəyik" [3]. Doğrudur, "Şəlalə" öz yazılarını "Qafqaz şivəsilə kitabət" şüarı ilə çap edirdi. Lakin əslində onun dili bütünlüklə İstanbul şivəsi idi.

Kazımoğlunun "İqbal" qəzetində "Hüseyn Sadiq" imzası ilə dərc olunmuş bir məqaləsindən bəlli olur ki, "şəlalə"çilərin dil siyasətinə qarşı ilk dəfə tənqidi münasibət göstərənlərdən biri o, olmuşdur. Tənqidçi bu münasibətlə yazırdı: "*Vaxtilə "Şəlalə"nin "Qafqaz şivəsi ilə kitabət" deyə yazdıqları bir taqım məntiqsiz fikirlərini və Qafqaz şivəsinə edilən iftira və böhtanlarını birinci olaraq "İqbal" sütunlarında yazdıq. "Şəlalə"nin başlamış olduğu bu yolun bir nəticəyi-hüsnə verməyəcəyini irəlidən görərək...həm tutmuş olduğu bu yoldan keçməyi və həm də dilin asan və anlaşılan bir şivədə yazılması tövsiyəsində bulunduq*" [3].

Şəlaləçilər Seyid Hüseynin dilə münasibətini tənqid edən yazılar çap edirdilər. O isə cavab yazılarından birində bildirirdi ki, *"Şəlalə" əməkdaşlarının dil çətinliyi bütün ictimaiyyət tərəfindən narazılıqla qarşılanır. Biz əslində onun ana dilimizə yarıtmaz münasibətini tənqid etməklə bütün Qafqaz türklərinin rəyini ifadə edir, məcmuəni tutduğu yanlış yoldan xilas etməyə çalışırıq* [4,2]. Tənqidçi "Dil ətrafında mütaliələr" məqaləsində qeyd edirdi ki, Xalid Xürrəm Səbribəyzadənin yazdıqlarını nəinki Anadolu türkləri, heç İstanbulun az-çox oxumuş gəncləri belə anlamırlar: "*Bir millətin ki, ədiblərinin, şairlərinin, mühərrirlərinin, filosoflarının yazdıqlarını əhalisi anlamaya...o millət tərəqqi və səadət üzü görə bilərmi?"* [2]. Müəllif bu məqaləni belə bir fikirlə yekunlaşdırırdı ki, hər bir "vicdanlı və insaflı" qələm sahibinin vəzifəsi dilə yad kəlmə və ibarələri soxmaq deyil, "bizi bu dilsizlik bəlasından qurtarmaqdır".

**Nəticə.** Məqalədə ilk dəfə olaraq XX əsrin əvvəllərində Azərbaycan

ədəbi-mədəni mühitində milli ədəbi dili osmanlılaşdırmaq meyillərinə qarşı mübarizədən bəhs olunub. Bu mübarizədə ayrı-ayrı sənətkar və maarifçilərin fikirləri, atdıqları addım təqdirəlayiqdır.

Bu cür osmanlılaşma təşəbbüslərinin Azərbaycanda mətbuat, tədris kitabları, bir sıra bədii və elmi əsərlərin dilinə ciddi ziyan vurduğunu söyləyən tənqidçilər bu missiyanı zərərli hesab edərək "müqəllidlik və millətə xəyanət" kimi qiymətləndirir, osmanlı dilini bütün türk xalqları üçün ümumi bir dil sayan, qəliz və ibarəli osmanlı türkcəsində qəzetlər nəşr edən, kitablar, əsərlər yazıb Azərbaycan türklərinə qəbul etdirmək istəyən osmanlıpərəst qələm sahiblərinin bu sahədə "əqidə və məslək işi" görmədiklərindən şikayətlənirdilər. Onlar dərsliklərin dilindən danışarkən uşaqlarda qaba və qəliz sözlərlə incə hissləri oyatmağın mümkün olmadığını, bunun üçün ən ümdə vasitənin ana dili olduğunu da dilə gətirirdilər.

Aparılan bu cür məhsuldar, intensiv mübahisə və müzakirələr nəticədə böyük səmərələr verdi. Yeni tarixi epoxada Azərbaycan ədəbi dilinin sadə, anlaşıqlı xalq dilinin bazası əsasında formalaşmasına, bütün üslubları əhatə edən mükəmməl bir ədəbi dilin yaranmasına gətirib çıxardı.

**ƏDƏBİYYAT**


1. Çəmənzəminli Yusif Vəzir. Əsərləri: [3 cilddə], c.3. - Bakı: Elm, - 1977. -327 s.
2. Hüseyn Sadiq (Seyid Hüseyn). Dil ətrafında mütaliələr //"İqbal" qəz., - Bakı: 1913, 28 aprel
3. Hüseyn Sadiq (Seyid Hüseyn). Bir mütaliə //"İqbal" qəz., -Bakı, 1913, - №504
4. Hüseyn Sadiq (Seyid Hüseyn). Dil, imla və məslək haqqında // "Şəlalə" jur., Bakı: 1914.- №1,-s.1-3
5. Hüseynzadə Əli bəy. Yazımız, dilimiz, ikinci ilimiz //"Tərəqqi" qəz., -Bakı: 1909, 9, 10 fevral
6. Kazımoğlu (Seyid Hüseyn). "Ədəbiyyat məcmuəsi" //"Dirilik" jur.. -Bakı: 1914. - №4,-s.4-6; 1915.- №13, 16,-s.4-5
7. Köçərli Firidun bəy. Seçilmiş əsərləri. -Bakı: Azərb. SSR EA nəşri, - 1963.- 341 s.
8. Mahmudbəyov Mahmud. Yazımız, dilimiz, ikinci ilimiz. //"Tərəqqi" qəz., -Bakı:1909, 20, 24, 25, 30 mart, 6 aprel
9. Məmmədquluzadə Cəlil. Əsərləri: [6 cilddə]. c.4. - Bakı: Azərnəşr, - 1985.- 276 s.
10. Məmmədquluzadə Cəlil. Əsərləri: [6 cilddə]. c.6. - Bakı: Azərnəşr, - 1985.- 311 s.
11.Məmmədov Xeyrulla. Azərbaycan ədəbi tənqidi XIX-XX əsrlərin hüdudlarında / X.Məmmədov. - Bakı: ADPU,- 1999.- 145 s.
12. Mirzəzadə Qafur Rəşad. Yazımız, dilimiz, ikinci ilimiz //"Tərəqqi" qəz., -Bakı: 1909, 12 aprel
13. Ömər Faiq Nemanzadə. Yazımız, dilimiz, "İkinci il"imiz //"Tərəqqi" qəz., -Bakı: 1909, 20, 22, 26 fevral, 3, 12, 15, 16 mart
14. Nemanzadə Ömər Faiq. Seçilmiş əsərləri. -Bakı: Yazıçı,- 1992.- 563 s.
15. Rəsulzadə Məhəmməd Əmin. Əsərləri: [5 cilddə]. c.2 [1909-1914]. -Bakı: Şirvannəşr, - 2001.-528 s.
16. Şaiq Abdulla Talıbzadə. Əsərləri: [5 cilddə]. c.4. -Bakı: Azərnəşr, - 1977.– 477 s.
17. Şaiq Abdulla Talıbzadə. Əsərləri:[5 cilddə].c.5. -Bakı: Yazıçı, - 1978.– 502 s.
18. Zərdabi Həsən bəy. Seçilmiş əsərləri. -Bakı: Azərnəşr, - 1960. -476 s.


**БОРЬБА С ТЕНДЕНЦИЯМИ ОСМАНИЗАЦИИ НАЦИОНАЛЬНОГО**

**ЛИТЕРАТУРНОГО ЯЗЫКА В ЛИТЕРАТУРНО-КУЛЬТУРНОЙ СРЕДЕ АЗЕРБАЙДЖАНА В НАЧАЛЕ XX ВЕКА**

**Гюнель К. ЮНУСОВА**

**РЕЗЮМЕ**

В начале 20 века в Азербайджане «Фуюзат» и их последователи, сотрудники журналов «Ени фуюзат» и «Шалала» яростно боролись за «османизацию» нового азербайджанского литературного языка. Эта инициатива была связана с их позицией тюркизма и туранизма. Однако эта идея столкнулась с сопративлением ряда азербайджанской интеллигенции. Джалил Мамедгулузаде, члены «Молла Насреддин», а также многие наши просветители решительно выступали против этой идеи. Писать они предпочитали простым просторечным языком, а в основу вновь возникшего литературного языка ставили национальный разговорный язык. Таким образом, между этими двумя фронтами по указанной проблеме проявлялись серьезные разногласия и споры.

Эти упомянутые вопросы, подробно разъясняются в статье. Рассматриваются причины, сущность и итоги проблемы.

**Ключевые слова:** литературный язык, азербайджанская литература XX века, литературно-культурная среда, османский турецкий язык, литературно-теоретическая мысль

## THE STRUGGLE AGAINST THE TENDENCIES TO OTTOMANIZE THE NATIONAL LITERARY LANGUAGE IN THE LITERARY-CULTURAL ENVIRONMENT OF AZERBAIJAN AT THE BEGINNING OF THE 20TH CENTURY

**Gunel K. YUNUSOVA**

**SUMMARY**

At the beginning of the 20th century, in Azerbaijan, "Fuyuzat" and their followers, employees of "Yeni fuyuzat" and "Shalala" magazines fought fiercely to "Ottomanize" the new Azerbaijani literary language. This initiative was related to their position of Turkism and Turanism. However, this idea was opposed by a number of Azerbaijani intellectuals. Jalil Mammadguluzade, members of "Molla Nasreddin", as well as many of our intellectuals strongly opposed this idea. They preferred to write in a simple vernacular language, and put the national colloquial language on the basis of the newly emerging literary language. Thus, there were serious differences of opsions and disputes between these two fronts in the said problem.

These issues mentioned in the article are explained in detail. The causes, essence and consequences of the problem are considered.

**Keywords:** literary language, Azerbaijani literature in the 20$^{th}$ century, literary-cultural environment, Ottoman Turkish, literary-theoretical thought

## TARİX

**UOT 94 (479.24)**

# HEYDƏR ƏLİYEV: AZƏRBAYCANIN MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİ İNTİBAH DÖVRÜNDƏ (1969-1982-ci illər)

**İbrahim X.ZEYNALOV***

*Elmi məqalədə Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə (1969-cu il 14 iyul) Azərbaycanda dirçəliş, inkişaf, cəmiyyətin keyfiyyətcə irəliyə, milli özünüdərkə, milli özünəqayıdışa dönüş mərhələsinin başladığı bir şəraitdə milli-mənəvi dəyərlərimizin qorunması, tərəqqisi və zənginləşməsi sahəsində onun səyi və fədakarlığı sayəsində görülən işlər araşdırılır.*

*Məqalədə milli-mənəvi dəyərlərimizin qorunması və tərəqqisinə, milli mədəniyyətimizin yüksəlməsinə müsbət təsir edən sahələr: elm, təhsil, incəsənətin müxtəlif sahələri, kütləvi kitabxana, kinomotoqrafiya, heykəltaraşlıq, rejissorluq, rəssamlıq, memarlıq, musiqi, ifaçılıq sahələri, klassik ədəbiyyat, mədəni irsimizin təbliği ilə bağlı Azərbaycanın mədəni əlaqələri və bu istiqamətdə nailiyyətlərin əldə olunmasında Heydər Əliyevin rolu, qayğısı və təşəbbüsləri öyrənilir.*

**Açar sözlər:** Heydər Əliyev, Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsi, milli-mənəvi dəyərlər, Azərbaycan mədəniyyəti, Azərbaycan dili

**Giriş.** Azərbaycan xalqının 5 minillik dövlətçilik tarixində əldə etdiyi, qoruyub saxladığı və hazırda tərəqqi etməkdə olan zirvələrindən biri də, heç şübhəsiz, onun milli-mənəvi dəyərləridir. Xalqımızın milli-mənəvi dəyərləri bu ümumbəşəri yolun əvəzsiz nailiyyətidir. Azərbaycan xalqının inkişaf və təkamül prosesinin əsasında dövlətçilik ənənələri ilə yanaşı, həm də onun milli-mənəvi dəyərləri, düşüncə sistemi dayanır.

Məhz xalqımızın milli-mənəvi dəyərləri tarixən onun zəngin inam-inanc amalı, saf düşüncəsi olmuşdur. Çox təəssüf ki, Sovetlər dövründə kommunist ideologiyasının təsiri altında Azərbaycan xalqının milli-mənəvi dəyərləri totalitar rejim tərəfindən buxovlanmaq təhlükəsi ilə, ciddi qadağalarla üzləşmişdir.

XX əsrin ikinci yarısında Azərbaycan KP MK-nın birinci katibi İman Mustafayevin milli-mənəvi dirçəlişə yönələn tədbirləri Moskvanın çox ciddi müqaviməti ilə üzləşmişdi. 1954-1959-cu illər tariximizdə milli oyanışın başlanğıc mərhələsi hesab olunur. Lakin bu çox çəkmədi. 1959-cu il iyulun

* *Bakı Dövlət Universitetinin professoru; ibrahimzeynalov@bsu.edu.az;*
*ORCİD İD: 0000-0002-5503-4801*

8-də İman Mustafayev millətçilikdə günahlandırıldı və respublika rəhbərliyindən uzaqlaşdırıldı [31, 614-619].

1969-cu ilin 14 iyulunda Heydər Əliyev Azərbaycanda rəhbərliyə gəldi [6]. Bununla da, mərkəzin təzyiqlərinə, qadağalarına baxmayaraq Azərbaycanda dirçəliş, inkişaf, cəmiyyətin keyfiyyətcə irəliyə, milli özünüdərkə, milli özünəqayıdışa dönüş mərhələsinin başlanğıcı qoyuldu, intibah dövrü başladı. Heydər Əliyevin 1969-1982-ci illərdə Azərbaycana rəhbərliyi həm ictimai-siyasi, o cümlədən sosial-iqtisadi intibaha, həm də respublikada zəngin milli-mənəvi dəyərlərimizin qorunması və inkişafına səbəb olmuşdur. Belə ki, bu illər Azərbaycanın milli və mənəvi həyatında milli, mənəvi dəyərlərimizin zənginləşməsində mühüm inkişaf dövrü olmuşdur.

Məqalədə bu mövzu arxiv sənədləri və ilkin mənbələr əsasında əsas proses və istiqamətlər üzrə araşdırılmışdır.

**Heydər Əliyevin Azərbaycan xalqının milli-mənəvi dəyərlərinə qayğısı.** Azərbaycan xalqının mədəniyyət, incəsənət sahəsindəki nailiyyətləri, milli-mənəvi dəyərləri bütün mədəni dünyaya yaxşı məlumdur. XX əsrin 70-ci illərindən başlayaraq Azərbaycanda elmin, təhsilin, incəsənətin, mədəniyyətin digər sahələrinin sürətli inkişafı müstəqillik dövründə milli-mənəvi dəyərlərimizin qorunması və daha da yüksəlməsinə təsir edən təkzib edilməz faktlardır. XX əsrin ortalarında Azərbaycan tarixində ölkənin sosial-iqtisadi, mədəni inkişafında yeni mərhələnin başlanması, Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin qorunması və tərəqqisi istər Sovetlər dövründə, istərsə də müstəqillik dövründə (1993-2003-cü illərdə) Heydər Əliyevin adı ilə bağlıdır [6]. Görkəmli dövlət xadimi Heydər Əliyevin 32 ildən artıq davam edən ictimai-siyasi fəaliyyətində milli-mənəvi dəyərlərimizin qorunmasına, elmə, təhsilə, incəsənətə, milli dilin inkişafına, milli tariximizin obyektiv, olduğu kimi, düzgün yazılmasına göstərilən qayğı daim mühüm yer tutmuşdur [19, 272-299].

Ulu Öndər həmişə qeyd edirdi ki, "*Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir*" [24, 54]. Yüksək mədəniyyətə və incəsənətə malik olan xalqın milli-mənəvi dəyərləri də yüksək olur, o xalq həmişə yaşayacaq, həmişə irəli gedəcək və inkişaf edəcəkdir [25, 38].

Əsrlərdən bəri Azərbaycan xalqının yaratdığı mədəniyyət öz milliliyini saxlayaraq, bu zəmin əsasında klassik mədəniyyət səviyyəsinə gəlib çatmışdır. Azərbaycan mədəniyyəti bəşəriyyətin topladığı ən yaxşı nümunələrlə xalqının milli-mənəvi dəyərlərini zənginləşdirir.

XX əsrin 70-80-ci illərində Azərbaycan tarixində əldə edilən nailiyyətlər o vaxt Azərbaycana rəhbərlik edən, 1980-1982-ci illərdə SSRİ Nazirlər Soveti sədrinin 1-ci müavini Heydər Əliyevin rəhbərliyi və uzaqgörənliyi, prinsipiallığı, xalqına, vətəninə sevgisi və bağlılığı ilə onun milli-mənəvi

dəyərlərinin çox böyük yüksəkliyi ilə bağlı idi.

**İntibah dövründə dil siyasəti.** Ulu Öndər Heydər Əliyev milli-mənəvi dəyərlərimizin mənimsənilməsində milli dilimizin roluna müstəsna əhəmiyyət verirdi. Milli-mənəvi dəyərlərimizə yiyələnməkdə gənc nəslin milli, vətənpərvərlik ruhunda tərbiyə olunması məsələsi Heydər Əliyev tərəfindən əsas vəzifələrdən biri kimi irəli sürülmüşdür. Ümummilli lider bu məsələdən bəhs edərkən bildirirdi ki, "Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, bizim milli-mənəvi dəyərlərimiz əsasında tərbiyələnməlidirlər. Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz" [19, 296].

Milli-mənəvi dəyərlərimizin mənimsənilməsində milli dilimizin roluna yüksək qiymət verən Heydər Əliyev qeyd edirdi ki, Sovet hakimiyyəti illərində bütün milli dillər kimi Azərbaycan dilinin mənimsənilməsində, onun inkişafında ciddi çətinliklər və maneələr var idi. Belə ki, Azərbaycan dilinə münasibətdə də Moskva tərəfindən hüquqlar pozulur, qeyri obyektivliyə yol verilirdi. Ayrı-ayrı vaxtlarda isə Azərbaycan dilinin qanuni hüququnun özünə qaytarılması üçün edilən cəhdlər SSRİ rəhbərliyinin ciddi müqaviməti ilə qarşılaşırdı.

1954-cü ildə Azərbaycanda rəhbərliyə İmam Mustafayevin gəlməsi ilə Respublikanın ictimai-siyasi həyatında milli oyanış başladı [26]. İmam Mustafayev Azərbaycana SSRİ-də ictimai-siyasi həyatında mülayimləşdiyi, sovet rejiminin liberallaşdığı və cəmiyyətin müxtəlif təbəqələri içərisində partiya və dövlətə inam yaratmaq üçün müəyyən islahatların keçirildiyi bir şəraitdə rəhbərlik etmişdir. Həmin dövrdə (1956) Stalinin şəxsiyyətinə pərəstişin Sovet İKP XX qurultayında N.S.Xruşşovun məruzəsində rəsmən tənqid olunmasından dərhal sonra bütün ölkədə humanist bəraətvermə prosesi başlamışdır. Bu prosesin gedişində 100 minlərlə azərbaycanlının üzərindən "xalq düşməni" adı götürülmüş və 1956-cı ildə yüzlərlə partiya, dövlət, ədəbiyyat və incəsənət xadiminə bəraət verilmişdi. Bəraət alanların arasında Heydər Hüseynov, Əhməd Cavad, Hüseyn Cavid, Mikayıl Müşfiq, Yusif Vəzir Çəmənzəminli kimi vətənpərvər şair və yazıçılarımız da var idi. Azərbaycan xalqının milli-mənəvi dəyərlərini özündə ifadə edən yüzlərlə kitabların, o cümlədən "Kitabi Dədə Qorqud" dastanı, A.A.Bakıxanovun, akademik Heydər Hüseynovun, Hüseyn Cavidin əsərləri üzərindən qadağalar götürülmüşdü.

Respublika rəhbəri İmam Mustafayevin düşünülmüş və uzaqgörən siyasəti və həyata keçirdiyi tədbirlərlə Bakıda azərbaycanlıların say üstünlüyünə nail olmaqla, Moskvanın Bakını beynəlmiləl şəhər kimi İttifaq tabeliyinə keçirtmək planını alt-üst etdi.

Bu dövrdə Azərbaycan dilinin Azərbaycan dövlətinin dövlət dili statusu

məsələsi qaldırılmış və Azərbaycanın qüvvədə olan 1937-ci ildə qəbul edilmiş Konstitusiyasına Azərbaycanın dövlət dilinin Azərbaycan dili olması haqqında maddə əlavə olunmuşdu. Əlavə olunan maddə aşağıdakı kimi yazılmışdı (Maddə 151): Azərbaycan SSR-nin dövlət dili Azərbaycan dilidir. Azərbaycan SSR ərazisində yaşayan millətlərin həm mədəniyyət idarələrində, həm də dövlət idarələrində ana dilini sərbəst inkişaf etdirmək və işlətmək hüququ təmin edildi.

Rəsul Rza qeyd edirdi: "*Doğma Azərbaycan dilinin formal yox, əsl həqiqətdə bütün həyat və işimizdə özünə layiq olan yeri tutmasını təmin etmək lazımdır. Milli siyasətimizin ruhuna uyğun olaraq dilimizin tərəqqi və inkişafı uğrunda mübarizə aparmaq lazımdır*" [30, 13-14].

Konstitusiyaya (151-ci maddəyə) edilmiş dəyişiklikləri sovet rəhbərliyi qısqanclıqla, hətta hiddətlə qarşıladı. Moskva, başda Kremlin rəhbəri N.S.Xruşşov Azərbaycanın ictimai-siyasi və mədəni həyatında başlamış bu prosesi (oyanışı, özünəqayıdışı) millətçilik təmayülü kimi qiymətləndirdi. Nəticədə, Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin sədri Mirzə İbrahimov vəzifədən uzaqlaşdırıldı. Respublikanın nazirliklərində, komitə və idarələrində, müəssisələrdə və s. sahələrdə rəsmi sənədləşmə və kargüzarlıq işlərinin ana dilimizdə aparılması prosesi dayandırıldı. Azərbaycanda milli oyanışın başlanması Moskvada rus şovinistləri tərəfindən kəskin etirazla qarşılandı və Sov.İKP MK-dan Azərbaycan KP MK-nın fəaliyyətini yoxlamaq üçün xüsusi komissiya göndərildi. Sov.İKP MK-nın məsul işçisinin rəhbərliyi altında Azərbaycanda olmuş komissiyanın saxtalaşdırılmış sənədlər üzərində hazırlanmış və Sov.İKP MK-ya təqdim edilən hesabatı əsasında 1959-cu il iyulun 8-10-da keçirilən Azərbaycan KP MK-nın IX Plenumunda İmam Mustafayev millətçilikdə günahlandırılaraq Respublika rəhbərliyindən - Azərbaycan KP MK-nın birinci katibi vəzifəsindən uzaqlaşdırıldı. Bununla da, Respublikada başlamış oyanış, dirçəliş prosesi iflasa uğradı [5].

İstər ideoloji inhisarçılıq dövründə, istərsə də müstəqillik dövründə Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin qorunması və inkişafı, şübhəsiz ki, Heydər Əliyevin 1969-1982-ci illərdə həyata keçirdiyi məntiqə söykənən uzaqgörən və fədakar fəaliyyəti nəticəsində mümkün olmuşdur. Bu illərdə milli-mənəvi dəyərlərimizin kökündə dayanan milli dilin qorunmasına, onun inkişafına böyük diqqət yetirilirdi. Respublikanın təhsil müəssisələrində təhsil alan şagird və tələbələrin 70%-dən çoxu Azərbaycan dilində təhsil alırdı [8].

Milli dilin, mədəniyyətin, milli-mənəvi dəyərlərin itib-batmaq səviyyəsinə çatdığı bir dövrdə bunları xilas etmək üçün Azərbaycan dili haqqında qanunun qəbul edilməsi çox böyük cəsarət istəyirdi. Totalitar rejimin hökmranlığı şəraitində Moskvanın ciddi müqavimətinə baxmayaraq Azərbaycan

xalqının ümummilli lideri Heydər Əliyevin cəsarətli, möhkəm iradəsi sayəsində 1978-ci ilin aprel ayında Azərbaycan SSR-nin yeni Konstitusiyası qəbul edilərkən onun mətninə respublikada Azərbaycan dilinin dövlət dili olması haqqında ayrıca 73-cü maddə daxil edilmişdir.

Bu siyasət müstəqillik dövründə də diqqətdə saxlanılmışdır. Belə ki, müstəqil Azərbaycan Respublikasının 1995-ci il noyabrın 12-də ümumxalq referendumu əsasında qəbul olunmuş ilk konstitusiyasında (maddə 21) təsbit olundu ki, "Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir. Azərbaycan Respublikası Azərbaycan dilinin inkişafını təmin edir" [20].

Azərbaycan dilinin dövlət dili statusunda təkcə azərbaycanlılara deyil, Azərbaycan ərazisində yaşayan bütün xalqlara eyni dərəcədə sədaqətlə xidmət etməsi milli-mənəvi dəyərlərimizin qorunması və tərəqqisi baxımından yeni və mühüm bir mərhələni təşkil edir.

**İntibah dövründə Azərbaycanda mədəniyyət sahələrinin inkişafı.** Azərbaycan mədəniyyəti və incəsənəti çoxsahəli və çoxtərəflidir: muzey, kitabxana, ədəbiyyat, muğam, kino, teatr, incəsənət, xalça sənəti, memarlıq, tətbiqi sənət, idman, miniatür və s. Bu illərdə Heydər Əliyevin xüsusi qayğısı və təşəbbüsü ilə Azərbaycan mədəniyyəti nəzərəçarpacaq dərəcədə inkişaf etmişdir. Bu sahənin inkişafında baş verən dəyişikliklərə nəzər salaq.

1970-1980-ci illərdə Ulu Öndər Heydər Əliyevin mədəniyyət sahəsində həyata keçirdiyi siyasət nəticəsində Azərbaycan **ədəbiyyatı** inkişaf etmişdi. O, 1969-1982-ci illərdə Azərbaycan yazıçılar ittifaqının qurultaylarında iştirak edərək inkişaf prosesini istiqamətləndirmişdi (V qurultay 1971, VI qurultay 1976, VII qurultay 1981). 1969-1973-cü illərdə Heydər Əliyevin birbaşa rəhbərliyi ilə Azərbaycan folklorunun tarixi ənənələrinin qorunub saxlanması və zənginləşdirilməsinə yönəlmiş partiya və hökumətin 15 qərarı qəbul edilmişdir. Həmin illərdə "Ədəbiyyat və incəsənət", "Azərbaycan gəncləri", həmçinin "Qobustan", "Ulduz" və "Azərbaycan" jurnallarında Azərbaycan ədəbiyyatı və folklorunun problemləri ilə bağlı yüzlərlə material dərc edilmişdir ki, bu materiallar xalqımızın milli-mənəvi dəyərlərinin zənginləşməsində çox böyük rol oynamışdır.

Heydər Əliyev Azərbaycanda klassik ədəbiyyatın təbliğinə, klassik Azərbaycan ədəbiyyatının çoxcildlik külliyyatının nəşr olunmasına böyük diqqət yetirirdi. Həmçinin onun təşəbbüsü və göstərişi əsasında XX əsrin 70-ci illərində görkəmli xadimlərin, yazıçıların və şairlərin əsərləri – Azərbaycan klassik ədəbiyyatının ən dəyərli nümunələri rus, ingilis, fransız və müxtəlif xarici dillərə tərcümə olunurdu. Respublika səviyyəsində Hüseyn Cavidin yaradıcılıq gecəsinin keçirilməsi, onun haqqında olan məlumatların, şairin seçilmiş əsərlər toplusunun nəşr olunması, yubiley çərçivəsində Elmlər Akademiyasında elmi sessiya keçirilməsi və Hüseyn Cavidin seçilmiş əsərlərinin rus dilində nəşr olunması haqqında qərar qəbul olunmuşdu [16].

Şairin 100 illik yubileyi ərəfəsində, Heydər Əliyevin böyük səyləri nəticəsində 1937-ci ildə "pantürkist" kimi repressiya olunmuş böyük Azərbaycan şairinin qəbri tapılmış, Qərbi Sibirdən Azərbaycana gətirilmiş və vətənində dəfn olunmuşdur. Şairin 100 illik yubileyi qeyd olunan dövrdə Bakıda 1920-1937-ci illərdə yaşadığı və işlədiyi mənzildə H.Cavidin ev muzeyi, doğma yurdu Naxçıvanda isə onun memorial ev-muzeyi açılmışdır [3].

Görülən tədbirlər nəticəsində respublikada kitab çapı və mətbuat əhəmiyyətli dərəcədə inkişaf etmişdi. 1976-1987-ci illərdə Azərbaycanda ilk dəfə böyük informasiya tutumlu 10 cildlik "Azərbaycan Sovet Ensiklopediyası" nəşr edilmişdi. İndi bu təcrübə əsasında Azərbaycanın Milli Ensiklopediyası hazırlanır.

XX əsrin 70-80-ci illərində Azərbaycan mətbuatının inkişafında keyfiyyətcə yeni mərhələ başlamışdı. Bakıda "Sovet türkologiyası" jurnalı (1970), "Qobustan" incəsənət almanaxı (1969), "Ulduz" jurnalı (1967), 1976-1987-ci illərdə ilk milli ensiklopediya çapı xalqın özünüdərk və milli dirçəliş prosesində mühüm rol oynayırdı. Ümumiyyətlə, 1970-1980-ci illərdə respublikada 168 adda qəzet, 91 adda jurnal, hər il orta hesabla 1300 adda kitab çap olunurdu.

1969-1982-ci illərdə Azərbaycanın milli-mənəvi dəyərlərinin zənginləşməsində başlıca sahə olan milli **musiqi** sənəti də xeyli inkişaf etmiş, hətta dünya musiqi sənətinə böyük tövhələr vermişdi. Heydər Əliyev Azərbaycan musiqisinin inkişafı barədə belə demişdir: "*Üzeyir Hacıbəyovun Azərbaycanda yaratdığı musiqi məktəbi elə bir məktəb olub ki, ondan sonra xalqımız dünyaya bir çox görkəmli bəstəkarlar, musiqiçilər, mədəniyyət xadimləri verib*" [25, 38-51]. Musiqi sənətimizin inkişafında Üzeyir Hacıbəyovun musiqi məktəbinin, Qara Qarayevin, Fikrət Əmirovun, Arif Məlikovun, Soltan Hacıbəyovun və Cahangir Cahangirovun böyük rolu olmuşdu. Heydər Əliyev Azərbaycan incəsənətinin inkişafında böyük xidmətləri olan görkəmli bəstəkarlara xüsusi qayğı ilə yanaşmış, onların xidmətlərini yüksək qiymətləndirmişdir. Belə ki, böyük bəstəkar Fikrət Əmirov 1974-cü ildə SSRİ Bəstəkarlar İttifaqının katibi vəzifəsinə seçilmişdir [27, 36-85].

Azərbaycan klassik professional musiqiçi-bəstəkarlarının yaratdığı əsərlər şərq dünyasında, demək olar ki, klassik musiqi nümunələridir.

XX əsrin 70-80-ci illərində respublikada ifaçılıq mədəniyyətində də böyük irəliləyişlər olmuşdur. Azərbaycanda ifaçılıq sənətinin inkişafında Xan Şuşinskinin, Bülbülün, Rəşid Behbudovun, Sara Qədimovanın, Şövkət Ələkbərovanın, Rübabə Muradovanın, Zeynəb Xanlarovanın, tarzənlərdən Əhməd Bakıxanovun, kamança ifaçısı Habil Əliyevin böyük xidmətləri olmuşdur.

1969-1982-ci illərdə milli-mənəvi dəyərlərimizin, milli ənənələrimizin qorunub saxlanması və nəsildən-nəsilə ötürülməsində qədim köklərə və tarixə

malik, müxtəlif musiqi və mahnı janrlarının kökündə dayanan aşıq sənətinin inkişafına da xüsusi diqqət yetirirdi.

1969-1982-ci illərdə Azərbaycan mədəniyyətinin **kinomatoqrafiya** sahəsi də sürətlə inkişaf etmişdir. Belə ki, əgər Azərbaycan kinomatoqrafiya tarixində cəmi 400 kino çəkilmişdirsə, təkcə 1969-1982-ci illərdə 104 film çəkilmişdir. Bu illərdə Heydər Əliyevin Azərbaycan xalqının milli-mənəvi dəyərlərinə diqqəti və qayğısı nəticəsində "Dəli Kür", "Bizim Cəbiş müəllim", "Yeddi oğul istərəm", "Axırıncı aşırım", "Nəsimi", "Babək", "Dədə Qorqud", "Şərikli çörək", "O qızı tapın", "Bir cənub şəhərində", "Ulduzlar sayrışanda", "Gün keçdi", "Alma almaya bənzər", "İstintaq", "Ad günü", "Nizami", "Tütək səsi" və s. filmlər çəkilmişdir [14].

Heydər Əliyev tarixi filmlərin çəkilməsinə, onun yayılmasına çox böyük diqqət yetirirdi. Bununla Ulu Öndər bütün dünya ictimaiyyətinə Azərbaycanın milli-mənəvi dəyərlərini göstərmək istəyirdi. Totalitar sovet cəmiyyətinin qadağalarına, məhdudiyyətlərinə, çətinliklərinə, mövcud kommunist ideologiyasının sərt tələblərinə baxmayaraq onun uzaqgörənliyinə söykənən, xalqımızın düşmənə qarşı öz azadlığı uğrunda apardığı qəhrəmanlıq mübarizəsinə həsr olunmuş "Babək" filminin çəkilməsinə nail oldu. "Babək" filmi sovet kinomatoqrafiyasına ən yaxşı filmlərdən biri kimi daxil oldu. Film çox çətin tarixi şəraitdə çəkilsə də, filmin çəkilişinə 5 min nəfərdən çox adam cəlb olunmuşdur [25, 9-10]. Filmin çəkilişinə Heydər Əliyev şəxsən nəzarət edirdi: Azərbaycanın, Rusiyanın, Gürcüstanın və Özbəkistanın 16 fabrikində film üçün 1500 kostyum tikilmişdir.

1969-1982-ci illərdə görkəmli rejissorlardan Adil İsgəndərov, Tofiq Kazımov, Mehdi Məmmədov və digərlərinin quruluşunda aktyorlardan Ələsgər Ələkbərov, Mərziyə Davudova, İsmayıl Osmanlı, Leyla Bədirbəyli, Möhsün Sənani, Nəsibə Zeynalova, Barat Şəkinskaya, həmçinin bir qədər sonrakı illərdə Azərbaycan rejissorluq sənətinin daha da inkişafında rejissorlardan Tofiq Tağızadə, Həsən Seyidbəyli, Eldar Quliyev, Rasim Ocaqov, Vaqif Mustafayev tanınmış aktyorlar Məlik Dadaşov, Əliağa Ağayev, Bəşir Səfəroğlu, Lütvəli Abdullayev, Amalya Pənahova, Rasim Balayev, Fuad Poladov, Həsən Turabov, Həsən Məmmədov, Səməndər Rzayev, Səyavuş Aslan, Hacıbaba Bağırov, Yaşar Nuri və başqalarının iştirakı ilə maraqlı kino və səhnə (tamaşa) əsərləri yaratmışlar.

1969-1982-ci illərdə Azərbaycanda **rəssamlıq** məktəbi çox yüksək səviyyəyə çatmışdır. XX əsrdə respublikada böyük rəssamlıq məktəbinin yaranması, çox görkəmli rəssamların, heykəltaraşların, memarların yetişməsi və onların yaratdıqları əsərlər milli-mənəvi dəyərlərimizin zənginləşməsində böyük rol oynamışdır. Görkəmli rəssamlardan Səttar Bəhlulzadə, Tahir Salahov, Mikayıl Abdullayev, Vəcihə Səmədova, Maral Rəhmanzadə, Toğrul Nərimanbəyov, xalçaçı rəssam Lətif Kərimov, heykəltaraşlardan Fuad

Əbdürrəhmanov, Cəlal Qaryağdı, Ömər Eldarov, Tokay Məmmədov və d. xalqın milli-mənəvi dəyərlərin zənginləşməsinə böyük tövhə olan əsərlər yaratmışdılar.

Arxiv sənədləri arasında görkəmli ədəbiyyat və incəsənət xadimlərinə fəxri adların, mükafat və b. təltiflərin verilməsi haqqında zəngin materiallar vardır. Bu faktlar görkəmli dövlət xadimi Heydər Əliyevin mədəniyyət xadimlərinə dövlət qayğısını göstərir. Məhz 1970-1980-ci illərdə Heydər Əliyevin Azərbaycanın milli mədəniyyətinin inkişafına yüksək səviyyədə diqqət və qayğısı, fədakarlığı və böyük səyi nəticəsində Azərbaycanın böyük bir qrup mədəniyyət və incəsənət nümayəndələri SSRİ-nin orden və medallarına, Sosialist Əməyi Qəhrəmanı, SSRİ-nin xalq artisti adlarına, SSRİ Dövlət Mükafatı laureatı kimi fəxri adlara layiq görülmüşlər [32, 6].

Maestro Niyazi 1972-ci ildə Lenin Komsomolunun, 1974-cü ildə Beynəlxalq Nehru mükafatları laureatı adlarını almışdır. Simli kvartet musiqisinin müəllifi Qara Qarayev 1978-ci ildə Sosialist Əməyi Qəhrəmanı adına, simfonik əsərlər yaradan ("Torpağın səsi", "Vətən və Füzuli" və s.) Arif Məlikov isə 1978-ci ildə Azərbaycan SSR-nin xalq artisti adına layiq görülmüşdür. Həmçinin pianoçu Fərhad Bədəlbəyli 1972-ci ildə, kamança ustası Habil Əliyev 1978-ci ildə Azərbaycan SSR-nin xalq artisti adına layiq görülmüşdür [27, 40-43]. 1970-1980-ci illərdə aşıqlardan Hüseyn Cavan, Şəmşir Qocayev, Şakir Hacıyev, Əkbər Cəfərov, İmran Qasımov, Ədalət Nəsibov və Pənah Pənahova aşıq sənətinin inkişafında göstərdikləri xidmətə görə "Əməkdar mədəniyyət işçisi" fəxri adları verilmişdir [32, 6-7]. Həmçinin Sabit Rəhmana (1972-ci il 17 mart), Müslüm Maqomayevə (1972-ci il 24 may), Tahir Salahova (1972-ci il 24 noyabr), Mehdi Məmmədova (1974-cü il 19 mart), İsmayıl Osmanlıya (1974-cü il 19 mart), Zeynəb Xanlarovaya (1975-ci il 17 mart), Rəşid Behbudova (1975-ci il 11 noyabr), Süleyman Rüstəmə (1976-ci il 10 fevral), Mir Cəlal Paşayevə (1978-ci il 25 mart) dövlət mükafatları verilmişdir. 1970-ci ildə Səməd Vurğun adına Azərbaycan rus dram teatrının 50 illik yubileyi, Mirzə İbrahimovun 60 illiyi (1971-ci il 17 sentyabr), görkəmli bəstəkar və drijor Niyazi Tağızadənin 60 illik yubileyləri keçirilmişdir. Azərbaycan teatrının 100 illiyi (1973-cü il) təntənə ilə qeyd edilmişdir [2].

**Azərbaycanın mədəni irsinin təbliği istiqamətləri.** Görkəmli dövlət xadimi Heydər Əliyev milli-dəyərlərimizin əsasını təşkil edən Azərbaycan mədəniyyətinin və incəsənətinin təbliğinə yönəldilmiş ədəbiyyat günlərinin, mədəniyyət dekadalarının keçirilməsinə böyük diqqət yetirirdi. Belə ki, 1972-ci ilin oktyabrında Azərbaycanda Rusiya Sovet Federativ Respublikasının mədəniyyət və incəsənət günləri, 1975-ci ilin oktyabrında Azərbaycanda sovet ədəbiyyatı günləri, 1979-cu ildə Azərbaycanda Ukrayna SSR-nin ədəbiyyat və incəsənət günləri keçirilmişdir.

1970-ci il dekabrın əvvəllərində İran şahının xanımı Fərəh Pəhləvi öz anası Fəridə Diba ilə Bakıya gəlmiş və yüksək şəkildə görüş keçirilmişdi [10].

1975-ci ilin avqustunda Pakistanın baş nazirinin həyat yoldaşı Nüsrət Bhuttonun başçılığı ilə hökumət nümayəndəliyi 1980-ci ilin əvvəlində Fransa milli məclisinin sədri Yak Şaban KİV nümayəndələrinin müşayiəti ilə Bakıda olmuşdu.

Heydər Əliyev Azərbaycanın 1976-cı ildə Hindistanda, 1977-ci ildə Parisdə, 1978-ci ildə Finlandiyada beynəlxalq sərgidə müstəqil bölmə ilə iştirak etməsinə nail olmuşdu. 1978-ci ilin oktyabrında Böyük Britaniyada SSRİ günlərini Azərbaycan təmsil etmişdi. Azərbaycan nümayəndəliyinə Azərbaycan SSR təhsil naziri, SSRİ MEA-nın müxbir üzvü M.C.Cavadzadə başçılıq edirdi. Bu nümayəndəliyin tərkibinə SSRİ xalq artisti Rəşid Behbudov və onun mahnı teatrının solistləri, həmçinin respublikanın başqa elm və incəsənət xadimləri daxil idi.

1981-ci ilin dekabrında Parisdə "Azərbaycan xalçaçılıq sənəti" sərgisi keçirilmişdi. 1979-cu ilin payızında Azərbaycanda Bakı ilə qardaşlaşmış şəhər – Sarayevanın günləri keçirilmişdi [15]. 1974-cü il 12-20 apreldə Bakıda 7-ci Ümumittifaq kinofestivalı təşkil edilmişdi [11]. 1976-cı il 13-15 may tarixlərində Bakıda keçirilmiş IV sovet Asiya və Afrika xalqlarının həmrəylik konfransının işində 200 sovet nümayəndəsi, Asiya və Afrika ölkələrindən 25 nəfər və sosialist ölkələrindən 15 nümayəndə iştirak etmişdi. Konfransda Heydər Əliyev təbrik nitqi ilə çıxış etmişdi [13]. 1978-ci il 2-11 sentyabrda Bakıda Asiya ölkələrinin müasir problemləri üzrə Sovet-ABŞ simpoziumu keçirilmişdi. ABŞ tərəfindən simpoziuma Kolumbiya və Stenford kimi nüfuzlu Amerika universitetlərindən görkəmli alimlər iştirak etmişdilər [9].

Müxtəlif ölkələrin təşkil etdiyi sərgilərdə nadir milli sərvətlərimizin nümayiş etdirilməsi xalqımızın milli-mənəvi dəyərlərinin dünya xalqlarına çatdırılmasında başlıca rol oynamaqdadır.

**Mədəniyyətin maddi-texniki bazasının qurulması.** Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin təbliğində, nəsildən-nəslə ötürülməsində, mədəni səviyyənin yüksəldilməsində təhsil və mədəni-maarif müəssisələri, kütləvi informasiya vasitələri də mühüm rol oynayır. 1969-1982-ci illərdə Heydər Əliyev Azərbaycan mədəniyyətinin maddi-texniki bazasının möhkəmləndirilməsinə də diqqətlə yanaşmış və böyük qayğı göstərmişdir.

1969-1982-ci illərdə baş verən dəyişikliklərin miqyası, iqtisadi və sosial sahələrdə aparılan dərin struktur islahatları, xalqın maddi rifahının yüksəlməsi Azərbaycanda maddi-mədəniyyət sahəsində böyük inkişafa səbəb olmuşdur. Respublikada geniş sosial-mədəni quruculuq proqramı həyata keçirilirdi. Azərbaycanın şəhərləri böyümüş, ətrafında yeni yaşayış massivləri salınmışdı. 1972-ci ildə Şıxovda Xalqlar Dostluğu parkının bünövrəsi qoyulmuşdur. Həmin il Bakıda böyük kinokonsert mərkəzi, indiki Heydər

Əliyev adına Respublika sarayı tikilmişdir. 1974-cü ilin 6 avqust tarixli Azərbaycan KP MK-nın iclasında (protokol №100, 13-cü bənd) yeni müasir avadanlıqlarla təchiz olunmuş "Kommunist" nəşriyyatının qəzet kompleksinin tikintisi haqqında qərar qəbul olunmuşdur. Bu nəhəng kompleksin tikintisi üçün Mətbuat prospektində yerləşən nəşriyyat korpusundan 10 ha torpaq sahəsi ayrılmışdır [12].

Bu illərdə Bakı şəhərində, həmçinin respublikanın digər şəhər və qəsəbələrində, hətta kəndlərində çoxlu sayda kinoteatrlar, muzeylər, kitabxanalar tikilib istifadəyə verilmiş və layihələşdirilmişdir. Bu illərdə Azərbaycanın şəhər və kəndlərində 2220 min yerlik 1066 mədəniyyət evi və klub müəssisəsi, 50 min yerlik 111 kinoteatr istifadəyə verilmişdi [17, 31-32].

Bu illərdə dövlət klub müəssisələrinin sayı 2146-dan 3680-ə, kütləvi kitabxanaların sayı 2922-dən 4605-ə, kinoqurğularının sayı 2004-dən 2167-ə çatmışdır [19, 174-178]. Kütləvi kitabxanalarda kitab və jurnalların sayı 23 milyon nüsxədən 45,3 milyon nüsxəyə çatmışdır. Hər 1000 nəfər sakinə 6,4 min nüsxə kitab və jurnal düşürdü.

Heydər Əliyevin milli-mənəvi dəyərlərin zənginləşdirilməsi ilə bağlı fəaliyyətində klassik ənənələrin qorunub saxlanmasına yönələn tədbirlərdən birini də mavzoleylərin və heykəllərin tikilməsi təşkil edirdi [25, 42]. Mədəniyyət mərkəzi elan edilən Şuşada M.P.Vaqifin heykəli qoyulmuş, mavzoleyi tikilmişdi. Bu heykəl – M.P.Vaqifin məqbərəsi erməni vandalizminə məruz qalsa da, Qarabağın, o cümlədən 2020-ci il 8 noyabrda Şuşanın azad edilməsindən sonra ölkə Prezidenti İlham Əliyevin səyi və göstərişi ilə bərpa olundu.

**Milli-mənəvi dəyərlərin müstəqillik dövründə qorunması siyasəti.** Ümummilli lider Heydər Əliyev tərəfindən qorunub saxlanılan və bu gün Prezident İlham Əliyevin müdrik rəhbərliyi sayəsində siyasi, iqtisadi cəhətdən daha da möhkəmləndirilən müstəqilliyimizin 32-ci il dönümündə qürurla deyə bilərik ki, Azərbaycanda bu müddət ərzində bütün sahələrdə – siyasi, iqtisadi, sosial-mədəni və hərbi sahələrdə nəzərəçarpacaq tərəqqi, böyük uğurlar əldə edilmiş və bir çox önəmli yeniliklərə imza atılmışdır. Ən əhəmiyyətlisi isə 30 ilə yaxın işğal altında olan doğma torpaqlarımız qalib sərkərdə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə qəhrəman, qüdrətli ordumuz tərəfindən azad edilmiş, Qarabağ, Şuşa həsrətinə son qoyulmuşdur.

Bu illər ərzində zəngin siyasi və idarəçilik təcrübəsinə malik Ulu Öndər Heydər Əliyevin və onun layiqli davamçısı olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin uzaqgörən, müdrik rəhbərlikləri sayəsində Azərbaycan dövlətinin dünya birliyində nüfuzu gündən-günə artmaqda davam edir, bu gün Azərbaycan bölgədə baş verən strateji, siyasi və iqtisadi proseslərin gedişatına birbaşa təsir edə biləcək qüdrətə sahib bir ölkəyə

çevrilmişdir.

Müstəqilliyin bərpasından bəri respublikanın daxili və xarici siyasətində əldə edilən bu uğurların, nailiyyətlərin ümumi nəticələri, həm də xalqımızın milli-mənəvi dəyərlərinin, onun mədəniyyətinin inkişafına özünün nəzərəçarpacaq müsbət təsirini göstərmişdir.

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş milli-mənəvi dəyərlərin qorunması və inkişaf strategiyası 2003-cü ildən bəri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mədəniyyətin müxtəlif sahələrinin inkişafı ilə bağlı dövlət proqramı, 500-dən çox fərman və sərəncam imzalamışdır ki, onların həyata keçirilməsi nəticəsində Azərbaycan mədəniyyəti dünya mədəniyyəti məkanında layiqli yer tutur [18, 307].

Azərbaycan xalqının dili, dini milli-mənəvi dəyərləri onun kimliyini ortaya qoyur, onun zənginliyinin, mənəvi varlığının səviyyəsini göstərir. Azərbaycan dövləti ölkənin ərazi bütövlüyünü, onun sərhədlərini qorumaqla yanaşı, həm də xalqın dilinin, milli-mənəvi dəyərlərinin qorunmasına, inkişafına xidmət etmişdir.

Müstəqillik illərində də Azərbaycan milli musiqisinin bütün növlərinin inkişafında, milli musiqimizin dünyada tanınmasında, muğam sənətinin inkişafında, aşıq sənətinin dirçəldilməsində və onun dünyada tanınmasında böyük işlər görülür.

Xalqımızın milli varlığının əsasını təşkil edən qeyri-maddi mədəni irs abidələrinin qorunub gələcək nəsillərə çatdırılması Respublika Prezidentinin diqqət mərkəzindədir. Bu sahədə Mədəniyyət və Turizm Nazirliyi dövlət strategiyasının həyata keçirilməsində mühüm işlər görür.

Heç təsadüfi deyil ki, xalqımızın milli-mədəni dəyərlərinin qorunması, təbliği, gələcək nəsillərə çatdırılması məsələlərini daim diqqət mərkəzində saxlayan Respublika Prezidenti İlham Əliyev "Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qurulması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı"nı təsdiq etmişdir. Həmçinin Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasına əsaslanan bu Proqram mədəni irsin qorunması istiqamətində aparılan islahatların davamı olaraq daşınmaz tarix və mədəniyyət qoruqlarının mühafizəsinin müasir səviyyədə təşkilinə, daşınmaz mədəni irsin bərpası, öyrənilməsi, təbliği və inkişafı üzrə tədbirlərin həyata keçirilməsinə yönəldilmişdir.

Dövlət Proqramının icrasına uyğun olaraq 2014-cü ildə Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişaf və Bərpası üzrə Dövlət Xidməti yaradılmış, Xidmətin

Əsasnaməsi və Strukturu təsdiq edilmişdir [21].

Daha sonra 2008-ci ildə Nazirlər Sovetinin qərarı ilə "2009-2013-cü illər üçün Azərbaycan Respublikasında uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərinin fəaliyyətinin yaradılması üzrə inkişaf Proqramı" təsdiq edilmiş və son 17 ildə Respublika rəhbəri İlham Əliyev mədəniyyət, elm və ədəbiyyat, incəsənət xadimlərinin yubileylərinin keçirilməsi, fəxri adların və mükafatların verilməsi ilə bağlı ayrı-ayrı sərəncamlar verir, onların yubiley təntənələrində iştirak edir, onları şəxsən təbrik edir [28, 7-538]. O, bunu özünün mənəvi borcu hesab edir və bununla ümummilli lider Heydər Əliyevin nəcib ənənəsini davam etdirir.

**Nəticə.** Beləliklə, qeyd edə bilərik ki, Azərbaycanın dövlətçilik tarixinin bütün mərhələlərində xalqımızın milli-mənəvi, mədəni dəyərləri ümumbəşəri dəyərlərlə sıx əlaqədə və təmasda yaranıb və tərəqqi etmişdir. Xalqımızın milli-mənəvi dəyərlərinin ümumbəşəri dəyərlərlə sıx əlaqəsini təmin edən amillərdən biri də Azərbaycanın əlverişli coğrafi məkanda yerləşməsidir.

Araşdırmalar göstərir ki, xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları arasında özünə yer tapır və fərqlənir. Bu xüsusiyyətlərdən ən başlıcası, ən yüksəyi milli-mənəvi, mədəni dəyərləridir. Məhz Azərbaycan xalqı da əsrlər boyu bu xüsusiyyətləri ilə, milli-mənəvi keyfiyyətləri ilə həmişə fərqlənib, sayılıb, irəli gedib. Milli-mənəvi dəyərlər və mədəniyyət xalqımızın topladığı, formalaşdırdığı, qoruyub saxladığı və inkişaf etdirdiyi ən yaxşı xüsusiyyətdir. Azərbaycan xalqının milli-mənəvi dəyərləri öz milliliyini saxlayaraq daim tərəqqi etmiş və klassik mədəniyyət səviyyəsinə qalxa bilmişdir.

1969-1982-ci illər milli-mənəvi dəyərlərimizin tərəqqi etdiyi illərdir. Ulu Öndər Heydər Əliyevin 1969-cu il 14 iyulda Azərbaycanda hakimiyyətə gəlməsi ilə bütün sahələrdə olduğu kimi milli-mənəvi dəyərlər və mədəniyyət sahəsində də tənəzzüldən tərəqqiyə dönüş başladı, Azərbaycan xalqı içərisindən milli-mənəvi dəyərlərimizin, mədəniyyətimizin zənginləşdirilməsinə böyük töhfələr verən istedadlı şəxsiyyətlər yetişdi. Mədəniyyətimizə yeni-yeni yollar, yeni cığırlar açıldı.Cəmiyyət keyfiyyətcə irəliyə, milli özünüdərkə, milli özünəqayıdışa dönüşün başlanğıcını qoydu.

1969-1982-ci illərdə milli-mənəvi dəyərlərimizin formalaşmasında, tərəqqisində müstəsna rolu olan Azərbaycan elmi, maarifi, təhsili, incəsənətin müxtəlif sahələri, o cümlədən musiqi, muğam, aşıq sənəti, vakal sənəti, rəssamlıq, memarlıq, heykəltaraşlıq, aktyor, rejissor, bəstəkar və ifaçılıq sənəti, kino və b. sahələrdə intibah başladı. Alimlərimiz, şair və yazıçılarımız xalqımızın milli-mənəvi dəyərlərini zənginləşdirən əsərlər yaratdılar. Dünyaya görkəmli alimlər, bəstəkarlar, rəssamlar bəxş etdilər. Dünya miqyasında zirvələrə yüksələn professional musiqi yarandı.

Ulu Öndər Heydər Əliyev qeyd edirdi ki, "*Azərbaycan mədəniyyəti öz milliliyini saxlayaraq, bu zəmin əsasında klassik mədəniyyət səviyyəsinə gəlib çatmışdır. Xalqımız öz böyük şəxsiyyətləri vasitəsilə Azərbaycanın milli-mənəvi dəyərlərini qoruyub saxlamış, zənginləşdirmiş və bu gün ümumbəşəri dəyərlərin bir hissəsinə çevrilmişdir...*

*Azərbaycan xalqı bəşər tarixinə böyük, dəyərli, dahi simalar bəxş etmiş, onların əsərləri, yaradıcılığı dünya elmini, mədəniyyətini zənginləşdirmiş, insanları maarifləndirmişdir*" [22].

Aparılmış araşdırmalar, tədqiqatlar nəticəsində bir həqiqət ortaya çıxır, əgər Azərbaycan xalqı müsəlman Şərqində ilk dəfə 1873-cü ildə milli teatr yaratmış və dünya mədəniyyətinə, Avropa mədəniyyətinə qovuşmuşsa, bu xalqın nə qədər böyük mənəviyyatı var! O nə qədər böyük mədəniyyətə, nə qədər zəngin milli-mənəvi dəyərlərə, intellektə malikdir və onun nə qədər böyük daxili qüdrəti var!

### ƏDƏBİYYAT


1. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Büro iclası, 13 fevral, 1974-cü il tarixli Büro iclası. Protokol № 78, bənd 14.
2. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Büro iclası, 13 fevral 1974. Protokol № 87, bənd 14
3. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Bürosunun qərarı, 11 dekabr 1980. Fond 1, siyahı 67, iş 127
4. Azərbaycan Respublikasının Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi, fond 1, siyahı 43, iş 87.
5. Azərbaycan Respublikasının Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi, fond 1, siyahı 46, iş 25.
6. Azərbaycan Respublikasının Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi, fond 1, siyahı 56, 16, 406, 412, 65, 70 / iş 9, 22, 29, 36-37, 83, 85, 106, 127.
7. Azərbaycan Respublikasının Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi, fond 1, siyahı 56, iş 9.
8. Azərbaycan Respublikasının Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi, fond 1, siyahı 56, iş 9 / siyahı 65, iş 45.
sizdir" [42, 17] və tarix onları mühakimə edəcək. Onun öz sözü ilə desək - "bu qurdlu ağac çürüyəcək, bəlkə də artıq çürümüşdür"; "həqiqi günahkarları cəzalandırmayan bütün məhkəmə və icra sistemi günahkardır" [33]. Məhkəmə hakimləri T.Əraninin məntiqli sözləri müqabilində aciz qalıb, onun "aslan ürəkli" [34] olduğunu etiraf etsələr də, 10 il müddətinə həbsinə qərar verdilər və nəticədə ölümünə səbəb oldular.

T.Ərani Qərb imperializminə və onun xidmətçisi olan Rza şah Pəhləvi hakimiyyətinə qarşı mübarizəsinə, inqilabi marksist düşüncələrinə görə 1940-cı ildə həbsxanada işgəncələr nəticəsində öldü [21, 455]. Onun soyuq döşəmədə ac-susuz, paltarsız saxlandığı, yoluxucu xəstəliyə qəsdən yoluxdurularaq öldürüldüyü bildirilmişdir [13, 4; 18, 4]. Məhkum 53-lərin xatirələrində də bu qeyd edilir [35].

Bu faciəvi hadisə nəinki "Təbrizin ürəyini dağlamış", bütün İranı və Azərbaycanı yasa bürümüşdür [16, 3].

Əslən təbrizli olan İran tarixçisi Ə.Kəsrəvi yazırdı ki, "T.Əraninin ölümü İran üçün böyük acı idi" [21, 444]. Məhkum 53-lərdən biri olan iranlı yazar Bozorg Ələvi öz xatirələrini "Əlli üç nəfər" adı ilə 1944-cü ildə Tehranda çap etdirmişdi. B.Ələvi özlərinin saxlandığı ağır həbs şəraitindən, qanunsuzluqlardan yazaraq həbsxana məmurlarının dilindən yazırdı ki, "Qanun zindanın qapısından gəlməz" [36, 36].

S.C.Pişəvəri tərəfindən əsası qoyulan Azərbaycan Demokrat Firqəsinin orqanı olan "Azərbaycan" qəzeti T.Əraninin bölgədəki inqilabi, elmi-fəlsəfi hərəkata təkanverici qüvvə olmasını göstərir və belə yazırdı: "İranda elə bir adam tapılmaz ki, müasir elmi əsərlər ilə tanış olub, lakin Azərbaycanın qəhrəman alim və mübariz oğlu doktor Əraninin elmi, fəlsəfi əsərləri ilə tanış olmasın" [15, 3]. Hətta İranın M.Mütəhhəri kimi görkəmli ilahiyyatçı alimləri T.Əraninin fəlsəfə və şərqşünaslıq biliyini yüksək qiymətləndirmiş, onun İranda marksist fəlsəfənin, dialektik materializmin ən yaxşı təmsilçilərindən biri olduğunu yazmışdı [44; 45, 33]. İran kommunist hərəkatının görkəmli tədqiqatçılarından biri olan S.Tohidi yazır ki, "T.Ərani İran kommunist hərəkatının ən parlaq siması olub, onun ölümü İran kommunistləri üçün həqiqətən böyük itki idi" [17, 2, 424].

**T.Əraninin iranpərəst düşüncələri.** T.Ərani, həmçinin qatı İran millətçisi olub, ölkənin bütünlüyü, milli azlıqların fars dili və mədəniyyətinə daha sıx inteqrasiyası uğrunda mübarizə aparmış, bu məsələni İranın "ölüm-dirim mübarizəsi" adlandırmışdı [40]. O, həmçinin fars dilinin saflığını, onun xarici mənşəli qəliz sözlərdən təmizlənməsi ideyasını da müdafiə edirdi [29, 54]. T.Ərani fars dilinin qəliz ərəb sözlərindən təmizlənməsi ilə yanaşı, Qərb elminin və texnoloji terminlərin, latın əlifbasının qəbul edilməsinin vacibliyini bildirirdi [41].

Tarixə baxışında iranpərəst mövqedə olan T.Ərani bu fikirlərini millətçi

"İranşəhr" jurnalında nəşr olunan "İranın böyük qəhrəmanları", "Fərəngestan" jurnalında çap olunan "Azərbaycan və ya İranın həyati və ölümcül problemi" adlı məqalələrində ortaya qoymuşdur. T.Əraniyə görə Zərdüşt, Məzdək, Firdovsi, İbn Sina, Ömər Xəyyam kimi böyük şəxsiyyətlər İranın böyük qəhrəmanlarıdır [27, 156-157]. Ona görə "Azərbaycan ari tayfalarının məskəni və İran sivilizasiyasının ən mühüm beşiklərindən biridir. Bu ərazi bütün dünya arilərinin fəxr etməli olduğu əsərlər yaratmışdır. İnsanları təmiz əqidə və davranışa dəvət edən, bu gün də sivil xalqın mənəvi lideri ola biləcək qanunlar yaradan Zərdüşt bu torpaqlardan idi". Mütəfəkkir Qafqazda və İran Azərbaycanında zərdüştiliyin izlərinin hələ də yaşadığını qeyd edir, "azəri" sözünün zərdüşti dininin təzahürü olduğunu bildirir, bu əqidənin canlanmasına çalışırdı. O, Azərbaycanın əslən irandilli ari tayfalarının əhalisinin monqol işğalları dövründə, türk tayfalarının köçü nəticəsində yerli xalqın türkləşməyə məruz qalmış azərilər olduğunu iddia edirdi [40].

Müəllifə görə "türklər İrana gələndə barbar idilər və iranlılar onları islam dininə keçirib sivilizasiya paltarı geyindirdilər. Buna görə də, türklər iranlıları sivilizasiyaya gedən yolda öz müəllimləri hesab etməlidirlər". T.Ərani uzun əsrlər sürən Osmanlı-Səfəvi müharibələrinin də Azərbaycan xalqına faciələr gətirdiyini, osmanlılara qarşı düşmənçilik yaratdığını irəli sürürdü. Orta əsrlərdəki bu fəlakətlərə baxmayaraq, XX əsrin əvvəlində Azərbaycan xalqının kürd-erməni hücumları qarşısında ona yardıma gələn Osmanlı ordusunu sevinclə qarşıladığını, lakin osmanlıların öz soyğunçu hərəkətləri ilə azərbaycanlılarda nifrət yaratdığını göstərmişdir. Mütəfəkkir bütün bu acı proseslərə baxmayaraq İran və Türkiyə xalqlarını Qərb müstəmləkəçiliyinə qarşı birləşməyə, dost və müttəfiq olmağa çağırırdı [40]. Lakin T.Əraniyə görə "öz İran mənşəli dilini unudub türkcə danışsalar da azərilər türk deyildir və Azərbaycanın İrandan ayrılmasına yol vermək olmaz" [27, 388].

T.Əraniyə görə İran dövlətinin öz əzəmətini bərpa etməsində Səfəvilər sülaləsinin padşahlarının böyük səyi olmuşdur, əgər onlar olmasa idi, bu gün İran da mövcud olmazdı. Həmçinin ona görə məşrutə inqilabında İranda azərbaycanlıların fədakarlığı hər kəsə aydındır. Mütəfəkkir İranın bütünlüyü naminə xalqı türkçülükdən uzaq olmağa və fars dili ətrafında birləşməyə çağırır, hökuməti fars dilini Azərbaycanda daha çox təbliğ etməyə, əhalini pulsuz dərsliklər, qəzet-jurnallar və s. ilə savadlandırmağa dəvət edirdi [40].

T.Əraninin iranpərəst tarixi fikirləri Ə.Kəsrəvi kimi bir çox İran tarixçisi tərəfindən də müdafiə edilmişdir [5; 25, 151-155]. Buna qarşı çıxan Z.Bünyadov ərəbdilli qaynaqlara, xüsusilə Yaqut əl-Həməviyə əsaslanaraq yazırdı ki, "Türkləşmənin XI-XII əsrlərdə baş verdiyini qəbul etmək səhv olardı" (3, 200-203). Z.Bünyadovun bu fikirləri N.Vəlixanlı, N.Əliyeva və bir çox müasir Azərbaycan tarixçisi tərəfindən də qəbul edilmişdir [6, 265; 7, 121; 20, 105].

**Tağı Əraninin inqilabi və elmi-fəlsəfi düşüncələri.** Tehrana qayıtdıqdan sonra ömrünü Pəhləvi monarxiyasına, Qərb imperializminə qarşı mübarizəyə həsr edən T.Ərani əmin idi ki, hökumət sistemində islahatların aparılması və demokratik rejimin qurulması siyasi şüurlu gənclərin birgə səyi ilə həyata keçirilə bilər. O, İranın neft sənayesinin milliləşdirilməsini və qadın azadlığını, yaşayış və təhsil səviyyəsinin yüksəldilməsini tələb edirdi. O, öz inqilabi, elmi-fəlsəfi düşüncələrini yaymaq üçün dərs dediyi tələbələrin ideoloji olaraq yetişməsinə xüsusi diqqət ayırırdı. O, istər məktəblərdə, istərsə də şəxsi görüşlərdə gənclərlə söhbətlərində qadınların cəmiyyətdəki aktiv rolu, azad seçkilərin zəruriliyi, Qərb imperializminə qarşı mübarizə və ölkənin siyasi həyatında gənclərin hərtərəfli iştirak etməsinin vacibliyi kimi xalqı narahat edən məsələlərdən danışırdı. O, mühazirələri zamanı dinləyiciləri marksist-materialist metodlarla tanış edir, marksizm klassiklərini öyrənməyə həvəsləndirirdi [28]. “Ancaq kütlənin mənafeyini qoruyan qanun müqəddəsdir!” [41, 5] deyən T.Ərani “onlara ictimai vəzifələrini başa salırdı. Doktoru buna vadar edən İranın bərbad vəziyyəti və Rza xanın qarətkarlıq və zalım siyasəti idi” [4, 1].

Onun 1933-cü ildən etibarən Tehranda Qacar nəslindən olan İrəc İsgəndəri və şair Bozorq Ələvinin yardımı ilə nəşr etdiyi “Dünya” jurnalı İran kommunistlərinin gizli orqanı olub [31], ölkədə inqilabi, elmi-fəlsəfi, marksist-materialist ideyaların təqdim və təbliğ edildiyi əsas mətbu orqanı idi. Tağı Ərani materializm ideologiyasına inanırdı və onu “insan düşüncəsinin bu günə qədərki inkişafının zirvə nöqtəsi” kimi təsvir edirdi. O, öz nəzəriyyələrini “Dünya” jurnalında dərc olunan "İrfan və osul-e maddi" (“İrfan və materialist prinsiplər”), “Dialektik materializm”, "Bəşər əz nəzər-e maddi" (“Materialist nöqteyi-nəzərdən insanlıq”), “Silsileye-osul-e olum-e dəqiqə” (“Dəqiq elmlər seriyasının əsasları”), “Eqtesad və siyasət-e eqtesad” (İqtisadiyyat və iqtisadi siyasət”) və s. silsilə məqalələrində yaydı [28]. Jurnalda qadınların azadlıq hərəkatı, ziyalı qadınlar, “Zən (qadın) və materializm”, “Tarix-e olum” (“Elmlər tarixi”), texnolojik yeniliklər və s. mövzular haqqında da materiallar verilirdi. “Dünya” jurnalı “İranın mətbuat tarixində birinci ictimai, fəlsəfi və elmi nöqteyi-nəzərdən misli görünməmiş ən düzgün jurnal idi və İran cavanlarının fikrində inqilab yaratdı” [4, 1]. “Dünya” jurnalı öz məzmunu cəhətdən İranda çap olunan digər jurnal və qəzetlərdən fərqlənirdi. Cavan nəsil bir çox elmi məsələlərin həqiqətini “Dünya” jurnalından öyrənirdi [14, 1]. Alman faşizmindən ilham alan Rza şah hakimiyyətini tənqid edən “Dünya” jurnalı yazırdı ki, “Faşizm siniflərin mənafeyini müdafiə edən sonuncu silahdır”. Lakin Qərb imperializminə qarşı mübarizədə “Dünya” jurnalı, demək olar ki, tək idi. Nəşrinə icazə verilmiş digər mətbu orqanlarının əksəriyyəti “pula satılmış idi və Rza xan diktatorluğunun məddahı idilər” [14, 4]. Məhz bu qətiyyətli mövqeyinə görə “Dünya” jurnalı

təxminən ilyarımlıq fəaliyyətindən sonra 1935-ci ildə İran Mədəniyyət Nazirliyinin göstərişi ilə ilə bağlandı.

Ömrünü İranda inqilabi, elmi hərəkata həsr etmiş Tağı Ərani fəlsəfəyə ("Dialektik materializm"), dəqiq elmlərin əsaslarına ("Fizika elminin əsasları", 4 cilddə; "Kimya elminin əsasları", 4 cilddə) aid əsərlərin də müəllifidir [10].

T.Əraninin mülahizələri təfəkkürün yalnız beyin vasitəsilə mümkün olması, beyinin maddi substansiya olması və təfəkkür qüdrətinin bu maddənin xüsusiyyəti olması prinsipinə əsaslanırdı. Təbii amillərlə yanaşı, daha bir amil, yəni cəmiyyət, bütün insan münasibətlərinin qurulduğu çərçivədə işləyir. Bu münasibətlərin əsasını fərdlərin sağ qalmasını təmin edən əmək təşkil edir və buna görə də insanlar bir-birinə təsir edir [28]. O, idealizmi rədd edərək ruhun və həyatın maddiliyini irəli sürür [32, 164], dialektik materializm fəlsəfəsindəki bazisin üstqurumu müəyyənləşdirməsi fikrinə əsaslanaraq, maddi mühitin əqidə və düşüncəyə təsirini ortaya qoyurdu [32, 94].

T.Ərani "Dünya" jurnalındakı məqalələrində "İnsan – ictimai varlıqdır" [32, 61] fikrini irəli sürür, həyatı materialistcəsinə izah edirdi. İnsan övladı yaşamaq uğrunda mübarizədə səbəb-nəticə qanunları zəncirini ayırd edir və onların sayəsində ümumi qaydaları kəşf edir. Bu şəkildə elm yaradılmışdır. Bəşəriyyətin kəşf etdiyi hər bir həqiqət elm inkişaf etdikcə tədricən təkmilləşir və müəyyən şeylər ilə təbiətin qalan hissəsi arasındakı əlaqəyə dair daha dəqiq və bol dəlillər üzə çıxır. Təcrübə həqiqəti tapmaq, yəni bilik əldə etmək üçün lazımdır; "Təcrübə - bəşəriyyətin təbiəti təhlil etdiyi vasitədir" [28]. Dialektik materializmin "əksliklərin vəhdəti və mübarizəsi" müddəasına əsaslanan T.Ərani yazırdı ki, "İnkişafın əsası ziddiyyət və mübarizədir" [32, 41] və "Həqiqəti müəyyənləşdirmədə insanın meyarı təcrübə və əməkdir" [32, 19]. T.Ərani cəmiyyətdəki demokratik, maarifçi islahatlar üçün hər kəsin öz ətrafındakılarını şüurlandırmasını, tərbiyələndirməsi gərəkdiyini irəli sürürdü [33]. Mütəfəkkir dini adət-ənənələri, ərəb dili və əlifbasını müqəddəsləşdirənləri tənqid edir, "islam dini orta əsrlərin ictimai xüsusiyyətlərinə uyğundur" [42] deyirdi. Bu fikirlər İranda elmi, dünyəvi inkişafın qarşısında maneə olan, T.Əraninin "Dünya" jurnalını və əməkdaşlarını əslində bir hədis olan "dünya bir leşdir, onu arzulayanlar isə köpəkdir" [33] ifadəsi ilə təhqir edənlərlə, zalım şah hakimiyyətini "islampənah" [23, 4] və "zillullah (Allahın kölgəsi)" [24, 4] adlandıran mürtəce ruhanilərlə, xurafat və mövhumatla mübarizədə əsas rol oynadı.

T.Əraninin mütərəqqi ideyaları Azərbaycan Demokrat Firqəsinin orqanı olan "Azərbaycan" qəzetində təbliğ edilir, mütəfəkkirin inqilabi mübarizəsi, elmi-fəlsəfi fikirləri təqdim edilir, onun şanlı həyat yolu gənc nəsillərə nümunə göstərilirdi. Qəzetdə T.Əraninin "Sülh və demokratiya uğrunda mübarizə bütün dünya cavanlarının müştərək hədəfidir" adlı məqaləsi də nəşr olunmuşdur [9, 1]. Qəzet yazırdı ki, "Azərbaycanın yeganə alimi, ba-

carıqlı və şücaətli oğlu Doktor Ərani birinci dəfə olaraq məntiq və elm silahı ilə istibdad və diktatorluq əleyhinə qiyam etmişdi” [1, 1], “Doktor Ərani cəlladlar əlində məhv olsa da, onın arzu və əməlləri həmfikirlərinin ürəyində əbədi olaraq yaşayacaqdır. Doktorun yetişdirdiyi tələbələr həmin arzuların carçısı və davam etdirənləri olub çalışmaqdadırlar” [4, 3].

Qəzetdə nəşr olunan bir şeirdə belə yazırdı:

“Hanı Xiyabani, Səttarxan hanı?
Hanı bir göstərin Doktor Ərani?
Deyin tərk eylədi bizim dünyanı
Xəstəmi, ya ölüm yatağındadır?
***
Qədrini bilmədi hər nadan sənin
Məskənin oldusa daş zindan sənin
Ərani! Ayrıdır öz “Dünya”n sənin
Mərkəzi könüllər otağındadır” [2, 3].

Tağı Ərani ölsə də öz ideyaları ilə İranda marksist-materialist inqilabi hərəkatın, “Hizbi-Tudeyi-İran”ın yaranmasına səbəb oldu [12, 1]. 1941-ci ildə SSRİ və Böyük Britaniyanın İrana hücum etməsi Rza şahın istefasına və Ərani tərəfdarlarının həbsdən azad edilməsinə və onların İran Tudə Partiyasının əsasını qoymalarına imkan yaratdı [27, 282]. T.Əraninin ölümündən bir il sonra, 1941-ci ildə qurulan bu partiyanın qurucuları T.Əraninin davamçıları idi və onu özlərinə “fəxri rəhbər” [26, 22], partiyanın “mənəvi qurucusu” sayırdılar [27, 162]. “Azərbaycan” qəzeti yazırdı ki, “baxmayaraq ki, Tağı Ərani axırda azadlıq yolunda xainlərin əliylə öldürüldü, lakin o, məntiqi məfkurənin, mütərəqqi quruluşun elmi toxumunu əkdi və həmişəlik olaraq İran xalqını öz xidmətlərinə borclu qoydu” [1, 1]. “Azərbaycan” qəzeti də S.C.Pişəvərinin yaratdığı Azərbaycan Demokrat Firqəsini T.Ərani yolunun davamçısı adlandırmışdı [13, 4]. O, öz canını İranda azadlıq hərəkatına qurban verdi [11, 1]. “Azərbaycan” qəzetinin dediyi kimi - “Səttarxan, Şeyx Xiyabani, Əranilərdən mübarizə və qəhrəmanlıq dərsi almalıyıq” [19, 4].

**Nəticə.** T.Əraninin fikirləri, davamçıları İranda və Cənubi Azərbaycanda Pəhləvi monarxiyasına qarşı inqilabi mübarizə ideyasının öncülü olmuşdur. Azərbaycan xalqı Təbrizin yetişdirdiyi bu böyük alim, mərd inqilabçı və səmimi insanın xatirəsini həmişə əziz saxlayacaqdır. T.Ərani İranda elmi bir silahla azadlıq hərəkatının tarixinin mühüm bir səhifəsini təşkil edir. O, özündən sonra böyük izlər qoyaraq, gələcək nəsillərə, inqilabi hərəkatlara mühüm təsir göstərdi. Diktatura və zülmə qarşı ziyalıların mübarizə gücünü göstərdi. Xalqı zalım hakimiyyətə qarşı təşkilatlandırmanın mükəmməl nümunəsini verdi. Onun yolu 1945-1946-cı illərdə Azərbaycan Demokrat Firqəsinin fədailəri tərəfindən davam etdirildi, ədalətsiz Pəhləvi hakimiyyətinə qarşı mübarizə məktəbi oldu. Müasir Azərbaycan nəsli də bu

şanlı tarixdən ibrət götürməli, T.Ərani irsini, onun elmi və inqilabi yolunu tədqiq və təbliğ etməlidir.

**ƏDƏBİYYAT**


1. "Azərbaycan milləti və məşrutiyyət tarixi" // "Azərbaycan" qəz., № 70, 4 avqust 1948, s.1.
2. Azəroğlu. "Doktor Ərani" // "Azərbaycan" qəz., № 20, 7 fevral 1948, s.3.
3. Bünyadov Z. Azərbaycan VII-IX əsrlərdə. - Bakı: Şərq-Qərb, - 2007, - 424 s.
4. Cahanşahlu. "Qəhrəman və fədakar doktor Ərani" // "Azərbaycan" qəz., № 20, 7 fevral 1948, s.1, 3.
5. "Əhməd Kəsrəvi" // http://ensiklopediya.gov.az/az/terms/17614/cild/20
6. Əliyeva N. "Mucəm əl-Buldən" əsərində Azərbaycan və Qafqaz. - Bakı: Elm və təhsil, - 2020, - 424 s.
7. Əliyeva N. Şeyx əs-Siləfi və Azərbaycan. - Bakı: Elm və təhsil, - 2016, - 160 s.
8. Ərani T. Difaiyyə. "Azərbaycan" ruznaməsinin nəşriyyəsi, - 1972.
9. Ərani T. "Sülh və demokrasi uğrunda mübarizə bütün dünya cavanlarının müştərək hədəfidir" // "Azərbaycan" qəz., № 103, 24 noyabr 1948, s.1.
10. "Ərani Tağı Əbülfət oğlu" // http://ensiklopediya.gov.az/az/terms/19269/cild/20
11. Həbibi Q.M. "Azərbaycan İranda azadlıq hərəkatının məşəldarıdır" // "Azərbaycan" qəz., № 69, 31 iyul 1948, s.1.
12. "Hizbi-Tudeyi-İran" İran xalqlarının mübarizəsinə rəhbərlik edir" // "Azərbaycan" qəz., № 91, 13 oktyabr 1948, s.1.
13. "Xalqımızın alim və şəhamətli oğlı Doktor Tağı Əraninin xatirəsi" // Azərbaycan qəz., № 125, 9 fevral 1949, s.1, 4.
14. "İranda həqiqi mətbuat azadlığı yoxdur" // "Azərbaycan" qəz., № 42, 24 aprel 1948, s.1, 4.
15. Müciri. "Azərbaycan millətinin Şərq dünyasında təsiri" // "Azərbaycan" qəz., № 67, 21 iyul 1948, s.3.
16. Müciri. "Təbriz" // "Azərbaycan" qəz., № 63, 10 iyul 1948, s.3.
17. Rüstəmova-Tohidi S.. Kominternin Şərq siyasəti və İran. 1919-1943. - Bakı: Xəzər Universiteti Nəşriyyatı, - 2001, - 507 s.
18. "Rza xanın heykəlinə və məqbərəsinə xalq nifrət edir" // "Azərbaycan" qəz., № 99, 10 noyabr 1948, s.4.
19. "Şəhidlərin xatirəsi" // "Azərbaycan" qəz., № 112, 25 dekabr 1948, s.4.
20. Vəlixanlı N. Azərbaycan VII-XII əsrlərdə. - Bakı: Elm və təhsil, - 2016, - 476 s.
21. Yəqubi Ə.R. Azərbaycanda təlim-tərbiyə mədəniyyəti, təhsil və pedaqoji fikir tarixi. - Bakı: Nurlan, - 2005, - 628 s.
22. Yəqubi Ə.R. Doktor Tağı Ərani" // "Kredo" qəz., 22 yanvar 2016, s.7.
23. Yusifi. "Şahın avamfiribliyi" // Azərbaycan qəz., № 58, 18 iyun 1948, s.4.
24. Zakir İ. "Azərbaycanlıların dili bağlanmaz" // Azərbaycan qəz., Azərbaycan qəz., №111, 22 dekabr 1948, s.4.
25. Koç M.A. "Modenleşme sürecinde "İran milliyetçiliği" yanlısı Tebrizli bir aydın: Ahmed Kesrevi – hayatı, şahsiyeti, dünya görüşü, mücadelesi ve eserleri" // Kadim Akademi Sosyal Bilimler Dergisi, C.3, Sayı 2, 2019, s.115-155.
26. Vaghefi S. 20. Yüzyılda İran`da sosyalist hareketler ve sol partiler. - İstanbul: İstanbul Üniversitesi, - 193 s.
27. Abrahamian E. Iran between two revolutions. New Jersey: Princeton University Press, 1983, 561 p.
28. Abrahamian E., Alavi B. "Arani Taqi" // https://www.iranicaonline.org/articles/arani-taqi
29. Abrahamian E. Tortured Confessions: Prisons and Public Recantations in Modern Iran. Berkeley: University of California Press, 1999, 284 p.
30. Chaqueri C. Taqi Arani and the Comintern: The Revolutionary Republican Party of Persia in the 1920s and 1930s // https://www.kommunismusgeschichte.de/jhk/jhk-2004/article/detail/taqi-arani-and-the-comintern-the-revolutionary-republican-party-of-persia-in-the-1920s-and-1930s

31. “History of the Tudeh Party of Iran” // https://www.iranchamber.com/history/tudeh/tudeh_party01.php
32. اثار و مقالات دکتر تقی ارانی. تهران، ۱۳۵۷، ۳۲۱ ص.
33. احسان طبری. ارانی فیلسوف بزرگ ایران در دادگاه رضا خانی. https://www.rahetudeh.com/rahetude/yadbood/html/mai/drarani.html
34. احسان طبری. دکتر تقی ارانی.
https://www.tudehpartyiran.org/2008/06/10/%d8%af%da%a9%d8%aa%d8 %b1-%d8%aa%d9%82%db%8c-%d8%a7%d8%b1%d8%a7%d9%86%db%8c/
35. انور خامه‌ای: گرایش به مارکسیسم اشتباه ما بود/ ابتلای ارانی به تیفوس عجیب نبود.
http://tarikhirani.ir/fa/news/3079/%D8%A7%D9%86%D9%88%D8%B1-%D8%AE%D8%A7%D9%85%D9%87-%D8%A7%DB%8C-%DA%AF%D8%B1%D8%A7%DB%8C%D8%B4-%D8%A8%D9%87-%D9%85%D8%A7%D8%B1%DA%A9%D8%B3%DB%8C%D8%B3%D9%85-%D8%A7%D8%B4%D8%AA%D8%A8%D8%A7%D9%87-%D9%85%D8%A7-%D8%A8%D9%88%D8%AF-%D8%A7%D8%A8%D8%AA%D9%84%D8%A7%DB%8C-%D8%A7%D8%B1%D8%A7%D9%86%DB%8C-%D8%A8%D9%87-%D8%AA%DB%8C%D9%81%D9%88%D8%B3-%D8%B9%D8%AC%DB%8C%D8%A8-%D9%86%D8%A8%D9%88%D8%AF
36. بزرگ علوی. پنجاه و ثه نفر. تهران ۱۳۵۷
37. پدر معنوی حزب توده. https://newspaper.hamshahrionline.ir/id/107904/%D9%BE%D8%AF%D8%B1-%D9%85%D8%B9%D9%86%D9%88%DB%8C-%D8%AD%D8%B2%D8%A8-%D8%AA%D9%88%D8%AF%D9%87.html
38. حسین فرزانه. پرونده پنجاه و سه نفر. تهران۱۳۷۲، ۶۰۰ ص.
39. حسین زرینی. سندی نویافته از پنجاه وسه نفر. http://ensani.ir/fa/article/11710/%D8%B3%D9%86%D8%AF%DB%8C-%D9%86%D9%88%DB%8C%D8%A7%D9%81%D8%AA%D9%87-%D8%A7%D8%B2-%D9%BE%D9%86%D8%AC%D8%A7%D9%87-%D9%88%D8%B3%D9%87-%D9%86%D9%81%D8%B1-
40. دکتر تقی ارانی. آذربایجان یا یک مسئله حیاتی و مماتی در ایران. // https://vista.ir/m/a/gfjec
41. دکترتقی ارانی. دفاعیه. آذربایجان روزنامع سینین نشریه سی, ۱۹۷۲, ۳۴ ص.
42. دکتر تقی ارانی. تکامل و تغییر زبان فارسی. // http://aryaadib.blogfa.com/post/401
43. دکتر عباس طاهری. دکتر تقی ارانی و بنیانگزاری روانشناسی در ایران.
https://asre-nou.net/php/view.php?objnr=55986
44. نبرد روحانیت و حزب بر سر توده مردم. مهدی خلجی. // https://www.bbc.com/persian/iran/2012/01/120121_l44_tudeh_party_mullah_people
45. محمدحسین طباطبایی. اصول فلسفه و روش رئالیسم. جلد اول، تهران، ۱۳۹۷ ۲۲۰ ص.

## ИЗ ИСТОРИИ ОБЩЕСТВЕННОГО МНЕНИЯ В ЮЖНОМ АЗЕРБАЙДЖАНЕ В ПЕРВОЙ ПОЛОВИНЕ XX ВЕКА: НА ПРИМЕРЕ ТАГИ АРАНИ

**Али Р. ФАРХАДОВ**

### РЕЗЮМЕ

В статье история общественного мнения периода Пехлеви в Южном Азербайджане представлена на примере Таги Арани, философа из Тебриза, жившего и творившего в первой половине XX века. Т. Арани был философом-марксистом, боролся против режима Пехлеви-шаха. Он отстаивал права человека, демократическое государственное строительство, научный диалектический метод. Он внес большой вклад в просвещение Ирана и Азербайджана через издаваемый им журнал «Дунья». Будучи

специалистом в области востоковедения, философии и точных наук, Т. Арани известен также своей педагогической и благотворительной деятельностью. Его общественно-политическая, научная деятельность, постоянная критика внутренней и внешней политики Пехлеви привели к его аресту и убийству. Хотя Т. Арани был убит, его деятельность и творчество всегда были источником вдохновения для его сторонников. Лидеры партии Иран Туде и Демократической партии Азербайджана считали его своим почетным лидером. Борьба Т. Арани, старшего сына азербайджанского народа, против режима Пехлеви-шаха, его научная, общественная и политическая деятельность, его борьба за права человека являются уроком и должны быть примером для подрастающих поколений.

**Ключевые слова**: Таги Арани, журнал «Дунья», история общественного мнения, научная и философская мысль, Азербайджан, Пехлеви

## FROM THE HISTORY OF PUBLIC OPINION IN SOUTH AZERBAIJAN IN THE FIRST HALF OF THE 20TH CENTURY: THE EXAMPLE OF TAGI ARANI

**Ali R. FARHADOV**

### SUMMARY

In the article, the history of public opinion during the Pahlavi period in South Azerbaijan is presented in the example of Taghi Arani, a philosopher from Tabriz who lived and created in the first half of the 20th century. T. Arani was a Marxist philosopher and fought against the Pahlavi Shah regime. He defended human rights, democratic state building, scientific dialectical method. He made a great contribution to the education of Iran and Azerbaijan through the "Dunya" magazine he published. A specialist in oriental studies, philosophy and exact sciences, T. Arani is also remembered for his pedagogic and philanthropic activities. His socio-political, scientific activity, constant criticism of Pahlavi's domestic and foreign policy led to his arrest and murder. Although T. Arani was killed, his activities and creativity have always been a source of inspiration for his supporters. Leaders of Iran Tudeh Party and Azerbaijan Democratic Party considered him their honorary leader. The struggle of T. Arani, the eldest son of the Azerbaijani people, against the Pahlavi Shah regime, his scientific, social and political activities, and his struggle for human rights is a lesson and should be an example for the younger generations.

**Keywords**: Taghi Arani, "Dunya" magazine, the history of public opinion, Azerbaijan, Pahlavis

**UOT 39**

# AZƏRBAYCANDA AĞACİŞLƏMƏ SƏNƏTİ HAQQINDA (MİLLİ AZƏRBAYCAN TARİXİ MUZEYİNİN MATERİALLARI ƏSASINDA)

**Tural M.ŞİRİYEV***

*Məqalə Azərbaycanda ənənəvi xalq sənətkarlığının mühüm sahələrindən olan ağacişləmə sənətinin etnoqrafik baxımdan öyrənilməsinə həsr edilir. İlk dəfə olaraq problemin Milli Azərbaycan Tarixi Muzeyinin müvafiq kolleksiyası əsasında araşdırılması qarşıya məqsəd qoyulmuşdu. Məqalədə Azərbaycanda ağacişləmə sənətinin tarixi ənənələri, xalqın təsərrüfat məişətindəki rolu və digər məsələlər tədqiq edilir. Milli Azərbaycan Tarixi Muzeyinin Etnoqrafiya fondunda keçmişdə ağacişləmə sənətinin yüksək inkişafı və əhalinin məişətində mühüm yer tutduğunu göstərən xeyli sayda etnoqrafik material qorunmaqdadır. Bu materiallar əhalinin gündəlik məişətdə istifadə etdiyi ev avadanlığı və qablardan, kənd təsərrüfatında istifadə etdiyi əmək alətlərindən, habelə müxtəlif musiqi alətləri və digər mamulatlardan ibarətdir. Muzeydə qorunan müvafiq materialların tədqiqi də göstərir ki, keçmişdə Azərbaycanda ağacişləmə sənətinin əsas mərkəzləri Şamaxı, Quba, Naxçıvan, Lənkəran, Şəki və digər etnoqrafik rayonlar olmuşdur.*

**Açar sözlər:** xalq sənətkarlığı, ağacişləmə sənəti, xarrat dəzgahı, nəccarlıq

**Giriş**. Azərbaycanda xalq sənətkarlığının inkişaf etmiş ənənəvi sahələrindən biri ağacişləmə sənəti olmuşdur. Arxeoloji və yazılı mənbələr Azərbaycanda ağacişləmə sənətinin hələ qədim dövrlərdən mövcud olduğunu, orta əsrlərdə müstəqil sənətkarlıq sahəsi kimi xeyli inkişaf etdiyini göstərir.

Aparılan etnoqrafik tədqiqatlara görə, Azərbaycanda təsərrüfatın müxtəlif sahələrində ağacdan olan əmək alətlərinə tələbat və eyni zamanda, ölkə ərazisinin zəngin meşə ehtiyatları bu sənət sahəsinin inkişafını şərtləndirən ən başlıca amillərdən idi. Məhz bu səbəbdən ağacişləmə ilk dövrlərdə, əsasən, kənd yerləri üçün xarakterik olmuşdur. Lakin zaman-zaman ölkədə gedən iqtisadi və mədəni inkişafın təsiri altında bu sənət sahəsi də geniş-

*** Milli Azərbaycan Tarixi Muzeyinin aparıcı elmi işçisi; dosent; tural.shiriyev@mail.ru; ORCİD İD: 0000-0002-9867-4649***

lənərək müxtəlif məişət avadanlıqlarının hazırlanmasına tətbiq edilmişdir.

Bu günə qədər bu sahədə müəyyən tədqiqat işləri aparılmış, Qəmərşah Cavadovun bir neçə samballı elmi məqaləsi dərc edilmişdir. Lakin əsasən, nəzəri xarakter daşıyan bu məqalələrdə müəllif problemə dair yalnız bəzi nümunələr göstərməklə kifayətlənmişdir. Odur ki, etnoqrafik ədəbiyyatda mövcud boşluq nəzərə alınaraq, məqalədə Milli Azərbaycan Tarixi Muzeyinin zəngin ağac məmulatları kolleksiyasının böyük bir qismi ilk dəfə konkret inventarlar altında təqdim olunur. Məqalədə ənənəvi xalq sənətkarlığının inciləri sırasında olan bir neçə ağac məmulatı haqda isə xüsusi məlumat verilir.

**Orta əsr mənbələrində ağacişləmə sənəti.** Orta əsrlərə dair yazılı qaynaqlarda rast gəlinən müəyyən məlumatlar Azərbaycanda ağacişləmə sənətinin ənənəvi sənət sahəsi kimi inkişaf etdiyini göstərir [6, 127]. Moisey Kalankaytuklunun "Aqvan tarixi" əsərində Azərbaycanda ağacişləmə sənətinin mövcud olduğu və inkişafına dair ötəri məlumatlara rast gəlmək olur. XIII əsrin ərəb coğrafiyaşünası və səyyahı Yaqut əl-Həməvi "Mucəm əl-buldən" əsərində Azərbaycanda bir çox sənətkarlıq sahələri ilə yanaşı ağacişləmə sənətinin də inkişaf etdiyini yazır. Səyyah 1220-ci ildə Ərdəbildə olarkən ağacişləmə ustaları ilə görüşünü belə təsvir edir: "Ərdəbilin meşələrində doğranan ağacdan taxta (xələnc) kasa və tabaqlar düzəldirlər. Buradan aparılan qablar çox da şümal olmur. Doğrudan da onlardan eləsi yoxdur ki, eybdən xali, düz-əməlli olsun. Mən onların sənətkarlarının yanında oldum və onlardan nöqsansız bir qab istədim. Mənə bildirdilər ki, eləsi yoxdur" [4, 102]. Səyyah qeyd edir ki, burada olan "meşələrdə doğranılan "əl-xələnc" ağacından taxta kasa və tabaqlar hazırlayırlar. Şəhərdə onları təmir edən və düzəldən çoxlu sənətkarlar var" [4, 130]. Eyni dövrdə yaşamış Elxani sarayının məmuru, tarixçi Həmdullah Qəzvini də Ərdəbildə əhalinin ağacişləmə sənəti ilə məşğul olduğu haqda məlumat verir [13, 51]. Nərgiz Əliyevaya görə, Yaqut əl-Həməvinin ağacişləmə ustaları haqqında verdiyi məlumat elmi ədəbiyyatda səhvən Həmdullah Qəzviniyə aid edilmişdir [4, 102]. XVII əsrdə Azərbaycanda olmuş fransız Jan Şarden burada keçirilən mərasimlərdə ağacdan hazırlanmış qablardan söz açır [10, 20]. XVII əsrin fransız səyyahı Rafael du Mans nəccarların, əsasən, çinar və qoz ağacından ayrı-ayrı bölmələri (şəbəkəsi – T.Ş.) olan böyük qapı və pəncərələr hazırladıqlarını məlumat verir. Daha sonra nəccarların ağır iş şəraitini təsvir edən səyyah qeyd edir ki, adətən, oturaq vəziyyətdə çalışan ustalar xüsusi dəzgahlar olmadığı üçün ağacı ayaqları ilə tutub saxlayırlar [12, 199].

**Azərbaycanda ağacişləmə sənətinin əsas xüsusiyyətləri.** Azərbaycanda ağacişləmə sənətinin yüksək inkişafı hər nə qədər əhalinin öz məişətində ağacdan hazırlanmış məişət avadanlığı və istehsal vasitələrinə olan tələbatından irəli gəlmişdirsə də, ölkə ərazisində münasib ağac növlərinin

mövcud olması da bu sahənin geniş yayılmasına zəmin yaratmışdır. Belə ki, iş prosesində müxtəlif ölçülü burğu, iskənə, balta, kərki, rəndə və s. kimi alətlərdən istifadə edən ustalar hər bir alət üçün müvafiq ağac növü seçər və onun harada, hansı məqsəd üçün istifadə ediləcəyini nəzərə alardılar. Bir sıra ağaclardan həm də bəzək materialı kimi istifadə edilərdi. Keçmişdə ev avadanlıqları, məişətdə istifadə edilən müxtəlif növ qablar, istehsal alətləri və digər vasitələrin hazırlanmasında qarağac, palıd, göyrüş, vələs, qaraçöhrə, cökə, nil, dəmirağacı, zoğal, alça, yemişan, əzgil, qoz, fındıq kimi ağac növlərindən geniş istifadə olunurdu. Məhz belə zəngin ağac növlərinə malik olan meşələrinə görə Azərbaycanda ağacişləmə sənətinin əsas mərkəzləri Quba, Lənkəran, Şamaxı, Şəki və Naxçıvan qəzaları, habelə Kiçik Qafqaz ərazisi olmuşdur [1, 384]. Qəmərşah Cavadov yazır ki, ağacdan müxtəlif məmulatların hazırlanmasına görə Azərbaycanın ayrı-ayrı bölgələri bir-birindən fərqlənirdi; Bakı, Gəncə şəhərlərində çəlləkçilik, Salyanda arabaçılıq, Lənkəran, Göyçay, Naxçıvanda təknə-tabaqçılıq ölkənin digər şəhər və qəzalarına nisbətən daha geniş inkişaf etmişdi. Müəllif haqlı olaraq bunun səbəbini yerli təbii şərait və əhalinin təsərrüfat məşğuliyyəti ilə əlaqələndirir [2, 143-144].

Ustalar, xüsusilə xarratlar hazırladıqları məmulatları formaya salmaq və onlara bəzək vermək üçün lisə, əydi, tişə, xətkeş kimi alətlərdən istifadə edirdilər [5, 29]. Ağacişləmənin ayrı-ayrı sahələrində istifadə edilən alətlər müvafiq olaraq kəsici, yonucu, oyucu, deşici və kərtləyici funksiya daşıyırdı. Bu baxımdan, dəmir və poladdan olan kəsici alətlərin istehsalının genişlənməsi də bu sahənin inkişafında müəyyən rol oynamışdır [5, 9]. Ustalar bəzən sifarişlə mücrü, beşik, rəhil, tar, kamança, saz kimi sənət nümunələrini sədəflə bəzəyərdilər ki, buna xatəmkarlıq, yaxud rizakarlıq üsulu deyilirdi [7, 85].

Əsasən, kənd yerləri üçün səciyyəvi olmuş ağacişləmə sənətinin Azərbaycanda yüksək inkişafı nəticəsində onun müxtəlif qolları da müstəqil sənət sahəsi kimi formalaşmışdır. Bu sahələri nəzərdə tutan istilahlar onun məzmununa uyğun olaraq xarratlıq, dülgərlik, nəccarlıq, şəbəkəçilik, sazbəndlik, sandıqçılıq, qudaqsazlıq, çanaxçılıq və sairə adlanırdı.

**Milli Azərbaycan Tarixi Muzeyinin ağac məmulatları.** Etnoqrafiya fondunda keçmişdə ağacişləmə sənətinin yüksək inkişafı və əhalinin məişətində mühüm yer tutduğunu göstərən xeyli sayda etnoqrafik material qorunmaqdadır. Bu materiallar əhalinin gündəlik məişətdə və bəzi mərasimlərdə istifadə etdiyi tabaq [8, №207, 621, 7417, 7427, 7754, 7858, 8064, 8890], qaşıq [8, №135, 740, 1166-1168, 1240, 7010-7013, 8245-8247], şərbət qaşığı [8, №3396-3399, 3568, 4080, 4271, 4791-4798, 5109, 7325-7330], çömçə [8, №1241, 1244, 2915-2918, 4574, 5331], kəfgir [8, №9060], qənddoğrayan [8, №213, 4188, 5138], duzqabı [8, №5193], xəlbir [8, №1301, 1302, 3855,

5481, 5725], oxlov [8, №7348, 7349], digər məişət əşyalarından beşik [8, №673a, 761, 2921, 9304, 9414], əkinçilik alətlərindən xış [8, №524, 831, 4046, 4047, 4191, 5654], kotan [8, №5502], boyunduruq [8, №121, 7464], mala [8, №5236, 7476, 7895], yaba [8, №36, 60, 118, 1130, 7470], vəl [8, №4192, 4048, 7493], kürək [8, №1127, 1258, 8891], araba təkəri [8, №7466, 7708], çanaq [8, №578, 1003, 4380, 4509, 7450, 8080], toxuculuq alətlərindən cəhrə [8, №4042], bağ xanası [8, №667], adətən, ipək və çit parça üzərində basma-qəlib üsulu ilə naxış salmaq üçün istifadə edilən möhür [8, №2794, 2809, 2818, 3470, 4207, 9202], musiqi alətlərindən tar [8, №3434, 5298, 5489, 6801, 7070, 7970], kamança [8, №1503, 3433, 3552, 4650], qaval [8, №3436, 4378, 4649, 5809, 9175, 9700], saz [8, №4011, 5210, 5490, 9256], çoğur [8, №4010], nağara [8, №130, 2392, 3379, 4013, 4708], nəfəs alətləri (tütək, zurna, balaban) [8, №568, 4273, 4274, 4651-4653, 5491, 7072, 8313-8324, 9225-9228], mədrəsələrdə kitab oxumaq üçün rəhil [8, №540, 575, 1929, 2453, 3401, 3402] və sairə kimi məmulatlardan ibarətdir.

Etnoqrafiya fondunda ağac məmulatları kolleksiyasına aid bəzi nümunələr öz zərif işlənməsi və bədii tərtibatına görə Muzeyin inciləri sırasındadır. Onların arasında şərbət qaşıqları xüsusi yer tutur. İkiüzlü oyma üsulu ilə bəzədilən belə qaşıqların sapı üzərində onun təyinatına uyğun olaraq dini məzmunlu kalliqrafik yazılar həkk olunurdu. Bu qaşıqlarla keçmişdə dini mərasimlərdə şərbətxordan təbərrük suyu götürmək üçün istifadə edilərdi. Məhərrəmlik mərasimində icra edilən belə bir adət var idi ki, məclisə daxil olan şəxs xüsusi hazırlanmış şərbət suyundan təbərrük kimi içərdi. İnanca görə, belə bir təbərrük suyunu içmək savab hesab edilirdi [11, 12-13].



**Şək. 1.** Şərbət qaşığı

Keçmişdə Azərbaycan kəndində geniş istifadə edilən ağac məmulatlarından biri də beşik idi. Kasıb ailələr üçün, adətən, sadə quruluşda, tavanalı ailələr üçün isə nisbətən mürəkkəb dekorasiya ilə hazırlanan beşiklərin tərtibatında keçirmə üsulundan istifadə edilirdi. Milli Azərbaycan Tarixi Muzeyində qorunan Şəki xanı Məhəmmədhüseyn xana məxsus beşik [8,

№2682] Azərbaycanda ağacişləmə sənətinin XVIII əsrin ortalarına aid ən gözəl nümunələrindən sayıla bilər. Altı ədəd yonma üsulu ilə hazırlanmış ayaqlar üzərində dayanan beşiyin yatacaq hissəsi oval formalı olub, üst hissəsi ona millər vasitəsilə birləşdirilmişdir. Beşiyi yatacaq hissəyə dirək vasitəsilə birləşdirən dəstəyi isə oturacağa dayanmış və baş hissəsi fiqurlu elementə bərkidilmişdir. Yüksək sənətkarlıqla hazırlanmış beşiyin üzərinə qaxma üsulu ilə sədəf, metal tel və fil sümüyündən naxışlar bərkidilmişdir. Bu naxışlar ürək, yarpaq və üçguşə formalıdır.



**Şək. 2.** Beşik



**Şək. 3.** Rəhil

Etnoqrafiya fondunda qorunan ağac məmulatları arasında rəhillər də xüsusi yer tutur. Keçmişdə, əsasən, mədrəsə və mollaxanalarda "Quran" və

digər dini kitablar, adətən, rəhil üzərində oxunardı. Fərdi istifadə üçün sadə quruluşlu tək qüllə rəhildən və şagirdlər üçün isə mürəkkəb quruluşlu çoxqülləli rəhillərdən istifadə edilərdi. Fondda XIX – XX əsrin əvvəllərinə aid üç ədəd sadə, üç ədəd keçirmə üsulu ilə hazırlanmış rəhil saxlanılır. Onlardan biri yeddi qülləli olub, mürəkkəb quruluşa malikdir [8, №540].

Keçmişdə Azərbaycan əhalisinin təsərrüfat məişətində ağacdan daha çox istifadə edilən sahələrdən biri də əkinçilik idi. Əkinçilik prosesinin, demək olar ki, bütün mərhələlərində istifadə olunan əmək alətlərinin hazırlanmasında ağacdan istifadə edilirdi. Etnoqrafiya fondunda XIX – XX əsrin əvvəllərinə aid, ümumi sayı 100-dən artıq olan əkinçilik texnikasının bütün nümunələrinə rast gəlmək mümkündür. Onların arasında muxtəlif quruluşlu xışlar hazırlanma səviyyəsinə görə xüsusi qeyd edilməlidir. Azərbaycanda geniş istifadə edilən və əsasən, bir cüt öküz qoşulan xışların hazırlanması üçün bəzən forması xışa bənzəyən bütöv bir ağac seçilirdi [8, №4046]. Tədqiqatçılara görə, XIX əsr və XX əsrin əvvəllərində Azərbaycanın ənənəvi əkinçilik alətləri hər bölgənin, eləcə də dağlıq və düzənlik olması etibarilə, hər bir ərazinin təsərrüfat sahələri və təbii şəraitinə uyğun olaraq lokal xarakter daşımışdır [3, 25].



**Şək. 3.** Xış

Muzeyin Etnoqrafiya fonduna daxil olan müxtəlif təyinatlı ağac məmulatları arasında içərisi şəbəkəli olan sini [8, №5292], oyma üsulu ilə hazırlanmış barıt qabı [8, №566], qəlyan küpü [8, №9375], mücrü [8, №3217, 5300], yəhər [8, №2550] və s. kimi materiallar da Azərbaycan xalq sənətkarlığının inciləri sırasındadır [9, 94-129].

**Nəticə.** Beləliklə, Milli Azərbaycan Tarixi Muzeyinin materialları əsasında aparılan tədqiqat göstərir ki, keçmişdə müxtəlif ev avadanlığı və əmək alətləri, habelə musiqi alətlərinin hazırlanması sahəsində zəngin təcrübə əldə olunmuş və bir sənətkarlıq sahəsi kimi, ağacişləmə əsrlər boyu xalqın məişətində öz əhəmiyyətini qoruyub saxlamışdır. Orta əsrlərdə əhalinin məişətində getdikcə daha geniş yer tutan ağacişləmə məmulatları arasında artıq şəhər əhalisi tərəfindən də geniş istifadə edilən beşik, sandıq, taxt, ağac çarpayı kimi ev əşyalarına rast gəlinirdi. Beləliklə, orta əslər boyu gedən bu inkişaf prosesi və əldə olunmuş əməli təcrübə ağacişləmə ustalarının nəccar, xarrat, şəbəkəçi, sazbənd, sandıqsaz, daha sonralar dülgər və başqa adlarla ixtisaslaşmasına səbəb olmuşdur. Muzeyin Etnoqrafiya fondunun müvafiq kolleksiyası əsasında aparılan araşdırma problemə dair əvvəlki tədqiqat işlərinin nəticələrini təsdiq edir. Araşdırma nəticəsində məlum olur ki, əhali ənənəvi ağacişləmə sənətinə təkcə məişət və təsərrüfat ehtiyacını ödəmə məqsədi kimi yanaşmamış, eyni zamanda, öz bədii-estetik zövqünü, yaradıcı istedadını ifadə vasitəsi kimi baxmışdır. Bu cəhət xatəmkarlıq üsulu ilə işlənmiş əşyalarda özünü daha çox göstərirdi.

**ƏDƏBİYYAT**


1. Cavadov Q.C. Ağacişləmə // Azərbaycan etnoqrafiyası. Üç cilddə, I cild, - Bakı: Şərq-Qərb, - 2007, - s.384-390.
2. Cavadov Q.C. Azərbaycanda ağacişləmə sənəti haqqında // Azərbaycan Etnoqrafik Məcmuəsi. III buraxılış, - Bakı: Elm, - 1977, - s.141-159.
3. Cavadov Q.C. XIX əsr və XX əsrin əvvəllərində Azərbaycanın əkinçilik alətləri (Şimal-şərq rayonlarının materialları əsasında tarixi-etnoqrafik tədqiqat). - Bakı: Elm, - 1979, - 127 s.
4. Əliyeva N.A. "Mucəm əl-buldən" əsərində Azərbaycan və Qafqaz. - Bakı: Elm və təhsil, - 2020, - 424 s.
5. Mustafayev A.N. Azərbaycanın maddi mədəniyyət tarixi (etnoqrafik materiallar əsasında tipoloji tədqiqat). - Bakı: Bakı Universiteti, - 2009, - 420 s.
6. Mustafayev A.N. Azərbaycanda sənətkarlıq. - Bakı: Altay, - 1999, - 323 s.
7. Həvilov H.A. Azərbaycan etnoqrafiyası (oçerklər). - Bakı: Elm, - 1991, - 256 s.
8. Milli Azərbaycan Tarixi Muzeyi. Etnoqrafiya fondu.
9. Milli Azərbaycan Tarixi Muzeyinin kolleksiyasının inciləri. Baş red.: akad. N.Vəli-xanlı. - Bakı: Ziya, - 2010, - 256 s.
10. Şardən J. Səyahətnamə. - Bakı: Elm, - 1994, - 96 s.
11. Şiriyev T.M. İslam mədəniyyəti və Azərbaycan məişəti. Kataloq. Red.: N.Əliyeva. - Bakı: Avropa, - 2021, - 170 s.
12. Raphaël du Mans. Estat de la Perse en 1660. Publications de lecole des langues orientales vivantes, Charles Schefer, vol 20. - Paris: Ernest Leroux, - 1890, - 465 p.
13. Али-заде А.А. Социально-экономическая и политическая история Азербайджана XIII-XIV вв. - Баку: Изд-во Акад. наук АзССР, - 1956, - 419 с.


## ОБ ИСКУССТВЕ ДЕРЕВООБРАБОТКИ В АЗЕРБАЙДЖАНЕ
## (на основе материалов национального Музея Истории Азербайджана)

**Турал М.ШИРИЕВ**

**РЕЗЮМЕ**

Статья посвящена изучению с этнографической точки зрения одной из важнейших отраслей традиционных народных ремесел в Азербайджане – искусства деревообработки. Впервые поставлена цель исследования данной проблемы на основе соответствующей коллекции Национального Музея Истории Азербайджана. В статье рассматриваются исторические традиции искусства деревообработки, его роль в хозяйственном быту народа и другие вопросы. В фонде этнографии Национального Музея Истории Азербайджана хранится большой этнографический материал, демонстрирующий высокое развитие искусства деревообработки в прошлом и его важное место в народном быту. Он состоит из ежедневно употребляемой населением в быту домашней утвари и сосудов, орудий труда, используемых им в сельском хозяйстве, а также различных музыкальных инструментов и иных изделий. Также исследование хранящихся в Музее соответствующих материалов указывает на то, что в прошлом основными центрами деревообработки в Азербайджане были Шемаха, Губа, Нахчыван, Лянкяран, Шеки и другие этнографические районы.

**Ключевые слова:** народное ремесло, искусство деревообработки, столярный станок, плотничество

## ABOUT THE ART OF WOODWORKİNG İN AZERBAİJAN (based on the materials of the National Museum of the history of Azerbaijan)

**Tural M.SHIRIYEV**

**SUMMARY**

The article is devoted to the study from an ethnographic point of view of one of the most important branches of traditional folk crafts in Azerbaijan - the art of woodworking. For the first time, the goal of studying this problem was set on the basis of the corresponding collection of the National Museum of History of Azerbaijan. The article discusses the historical traditions of woodworking, its role in the economic life of the people and other issues. The ethnographic fund of the National Museum of History of Azerbaijan contains a large ethnographic material demonstrating the high development of the art of woodworking in the past and its important place in folk life. It consists of household utensils and vessels used daily by the population, tools used in agriculture, as well as various musical instruments and other products. A study of the relevant materials stored in the Museum indicates that in the past the main centers of woodworking in Azerbaijan were Shemakha, Guba, Nakhchivan, Lankaran, Sheki and other ethnographic regions.

**Keywords:** folk craft, woodworking art, carpentry machine, carpentry

BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№1 Humanitar elmlər seriyası 2023*

**UOT 94"19/...**

# TÜRKİYƏ-ERMƏNİSTAN MÜNASİBƏTLƏRİ (2002-2010-cu illər)

**Hüseyn A.HÜSEYNLİ***

*2002-ci ildə R.T.Ərdoğan rəhbərliyində Ədalət və İnkişaf Partiyasının hakimiyyətə gəlişi ilə "qonşularla sıfır problem" xarici siyasətdə prioritet rol oynadı. C.Qafqaz ölkələri ilə münasibətlərin daha da inkişaf etdirilməsi əsas hədəflərdən biri idi. Bu baxımdan Ermənistanla münasibətlərin bərpası və inkişafı istiqamətində mühüm addımlar atıldı. Məqalədə Türkiyə və Ermənistan arasında münasibətlərin qurulması və inkişaf etdirilməsi üçün dövlətin və qeyri-hökumət təşkilatlarının 2002-2010-cu illərdəki fəaliyyəti tədqiq olunmuşdur.*

**Açar sözlər:** Türkiyə, Ermənistan, TARC, R.T.Ərdoğan, R.Köçəryan

**Giriş.** SSRİ-nin dağılmasından sonra Türkiyə yeni müstəqillik əldə edən Cənubi Qafqaz respublikalarını ardıcıllıqla tanıdı (9 noyabr 1991-ci ildə Azərbaycanı, 16 dekabr 1991-ci ildə Ermənistan və Gürcüstanı) [1, 97]. Bölgənin mühüm geostrateji nöqtədə yerləşməsi Türkiyənin region ölkələri ilə münasibətlərində özünü göstərdi. Bu mənada Azərbaycan və Gürcüstanla mehriban qonşuluq münasibətləri olan Türkiyə Ermənistanla münasibətlərin normallaşmasında da maraqlı tərəf olmuşdur. Xüsusən də Ədalət və İnkişaf partiyasının iqtidara gəlişindən sonra qonşularla sıfır problem siyasətini rəhbər tutan Türkiyə Ermənistanla münasibətlərin qaydaya salınmasına xüsusi diqqət göstərmişdir. Bu baxımdan 2002-2010-cu illər Türkiyə-Ermənistan münasibətlərində diplomatik cəhətdən hərəkətli illər oldu.

**"Türkiyə-Ermənistan Barışıq Komissiyası".** 1993-cü ildə quru sərhədin bağlanması və rəsmi əlaqələrin kəsilməsindən sonra müxtəlif QHT-lər icmalararası dialoqdakı boşluğu doldurmaq üçün xüsusi səylər göstərdilər. Qarşılıqlı dialoqun inkişafı məqsədilə iki ölkənin akademik heyəti arasında mübadilə proqramlarının həyata keçirilməsi sınandı. Bundan əlavə, sərhədin bağlanmasının ən çox mənfi təsir göstərdiyi sərhəd bölgələrində yerli idarəçilər və regional işgüzar dairələr mövcud vəziyyəti dəyişdirmək istiqamətində

* ***Bakı Dövlət Universitetinin müəllimi; tarix üzrə fəlsəfə doktoru; huseyn.huseynli@bsu.edu.az; ORCİD İD: 0000-0001-7954-0381***

cəhdlər edərək beynəlxalq təşkilatları sərhədin açılmasına təsir göstərməyə çalışırdılar. Bütün bu sadalananlara əlavə olaraq iki ölkə hökumətlərinin icazəsi ilə münasibətlərin normallaşdırılması istiqamətində 9 iyul 2001-ci il tarixində "Türkiyə-Ermənistan Barışıq Komissiyası" (TARC) yaradılmışdır [2, 19-20]. Türkiyədən dörd və Ermənistandan altı nümayəndənin daxil olduğu komissiya Vyanada fəaliyyətə başladı. Türkiyə və Ermənistan hökumət başçılarının məlumatı daxilində yaradılmış komissiya ABŞ Dövlət Katibliyinin də dəstəyini almış və bu çərçivədə komissiyanın fəaliyyətində amerikalı diplomat Devid Filips də yaxından iştirak etmişdir. "Türkiyə-Ermənistan Barışıq Komissiyası" hər nə qədər qeyri-hökumət təşkilatı olsa da, onun fəaliyyətinin rəsmi tərəfinin kifayət qədər güclü olması nəzərdən qaçmamalıdır.

Komissiyanın əsas məqsədi Türkiyə-Ermənistan münasibətlərinin inkişafına mane olan məsələlərin araşdırılması və onların aradan qaldırılması üçün strategiyalar qurmaqdır. Bu baxımdan TARC diplomatik əlaqələrin qurulması üçün Türkiyə-Ermənistan sərhədinin açılmasını prioritet hesab etsə də, erməni tərəfinin "soyqırım" iddiaları qısa müddət ərzində digər mövzuların müzakirəsini kölgədə qoymuşdur. Türkiyə tərəfinin tarixçilər, arxivçilər və psixoloqların 1915-ci il hadisələrini qarşılıqlı müzakirə etmək təklifini erməni nümayəndə heyəti "soyqırım" adlandıraraq və bu "həqiqət"in beynəlxalq ictimaiyyət tərəfindən qəbul edildiyini əsas gətirərək rədd etdi. Belə olduqda ortaya çıxan fikir ayrılığı ucbatından tərəflər XX əsrin əvvəllərində baş verən hadisələrə rəy bildirmək xahişi ilə Nyu-Yorkda yerləşən nüfuzlu qeyri-hökumət təşkilatı ICTJ-ə (Beynəlxalq Ədliyyə Mərkəzi) müraciət etdilər. Mərkəzin sözügedən hesabatı 4 fevral 2003-cü ildə dərc edildi. Bu hesabata görə Konvensiyanın geriyə işləməsi beynəlxalq hüquqa ziddir. Ona görə də Ermənistanın Türkiyəyə qarşı nə ərazi, nə də maddi təzminat tələb etmək hüququ yoxdur. Digər tərəfdən hesabatda qeyd olunurdu ki, əgər qanun geriyə şamil olunarsa baş verən hadisələr soyqırım anlayışına uyğun gələ bilər. Bu da ermənilərin beynəlxalq hüquq çərçivəsində "soyqırım" arqumentini dəstəkləyən bir vəziyyət yaratdı. David Filipsə görə bu hesabat iki ölkə arasındakı dalana dirənmiş vəziyyəti həll etmək üçün "qazan-qazan" fürsəti yaradırdı. Ancaq nə Türkiyə "soyqırımı" qəbul edir, nə də Ermənistan tərəfi saxta soyqırım iddialarının beynəlxalq səviyyədə tanınması məqsədindən əl çəkmək niyyətində deyildi. Filips tərəfindən də dəstəklənən bu hesabat həll yolunda yeni bir mexanizmi təmin edə bilmədi və bir növ TARC-ın sonunu da hazırladı. Bəzi türkiyəli mütəxəssislər belə düşünürdü ki, ICTJ öz hesabatında ona verilməyən suala cavab verib. ICTJ-in hüquq təşkilatı olmadığını, soyqırımla bağlı səlahiyyəti və səriştəsinin olmadığını nəzərə alsaq da hazırlanan hesabat erməni tərəfinin tezislərini qanuni şəkildə müdafiə etməsi üçün zəmin yaratdı. Bu da öz növbəsində

ermənilərə çox qorxduqları arbitraj və məhkəməyə getmədən qanuni cəhətdən haqlı olduqlarını iddia etmək imkanı verdi. Komissiyanın fəaliyyətini başa çatdıran amil təkcə hesabatla bağlı deyil. Komissiya yarananda erməni icmasının geniş təbəqələri, xüsusilə Daşnaksütyun Partiyası tərəfindən şiddətli tənqidlərə məruz qaldı. Komissiyanın əsas məqsədinin iki ölkə arasında münasibətləri inkişaf etdirmək və bu istiqamətdə tarixi müzakirələrdən yayınması onu tənqid hədəfinə çevirdi. Daşnaksütyun Partiyası "tarixi gerçəkliyin" Türkiyə tərəfindən tanınmadan ikili münasibətlərin mümkün olmayacağını və komissiyanın "soyqırım"ın beynəlxalq səviyyədə qəbulunu təhlükəyə atdığını iddia edən bəyanat yaydı. Bütün bu hadisələrin nəticəsi olaraq TARC 2004-cü il aprelin 14-də Moskvada Türkiyə və Ermənistan hökumətlərinə sərhədlərin dərhal açılması da daxil olmaqla bir sıra tövsiyələr verdi və fəaliyyətinə xitam verdi [3, 296].

**Türkiyə-Ermənistan Biznesin İnkişafı Şurası (TABDC) və digər QHT təşəbbüsləri.** TABDC 3 may 1997-ci ildə Türkiyə və Ermənistan biznesmenlərinin təşəbbüsü ilə iki ölkə arasında əməkdaşlığı inkişaf etdirmək məqsədi ilə qurulmuşdur. XXI əsrin əvvəllərində Şuranın fəaliyyəti əhəmiyyətli dərəcədə artdı. Əlaqələrin inkişaf etdirilməsi üçün həyata keçirilən layihələr çərçivəsində mədəniyyət sahəsində tədbirlər keçirilmişdir. Eyni zamanda TABDC-ın təşəbbüsü ilə Orta Doğu Texniki Universiteti (ODTÜ) və İrəvan Dövlət Universiteti arasında protokol imzalandı. Protokola əsasən iki universitet arasında tələbələrarası mübadilə nəzərdə tutulmuş və bu kontekstdə İrəvandan bir qrup tələbə ODTÜ-də təlim keçmişdir. Digər protokol da Ankara Universiteti tərəfindən imzalandı. Lakin akademik əməkdaşlığa dair bu müqavilələrdən indiyə qədər əhəmiyyətli nəticələr alınmadı [4].

Regional əməkdaşlığın inkişaf etdirilməsi üçün digər mühüm təşəbbüs "Anadolu Kültür A.Ş."-nin fəaliyyətidir. 2005-ci ilin fevral ayında fəaliyyətə başlayan və Qars İncəsənət Mərkəzi ilə birlikdə Cənubi Qafqaz ölkələrinin təşkilatları ilə birgə mədəniyyət və incəsənət fəaliyyətləri ilə məşğul olan təşkilat, xüsusilə Türkiyə-Ermənistan əlaqələrini gücləndirməyi hədəfləyirdi. Bu çərçivədə Ermənistandan gələn sənətçilərlə musiqi, kino və fotoqrafiya tədbirləri təşkil edilmişdir. "Anadolu Kültür A.Ş."-nin dəstəyi ilə İstanbullu fotoqraflar İrəvanın, İrəvandan gələn fotoqraflar isə İstanbulun çoxsaylı şəkillərini çəkmiş və beləliklə, 2006-cı ilin noyabr ayında "Merhabarev" adlı ilk birgə sənət tədbiri keçirildi.

TABDC tərəfindən təməli qoyulan digər layihə isə Van gölündəki Akdamar kilsəsinin restavrasiyasıdır [5, 132-133]. Təmir işləri Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə aparılmış və 29 mart 2007-ci ildə kilsə muzey kimi istifadəyə verilmişdir. Bu addım Türkiyənin Ermənistanla münasibətləri yaxşılaşdırmaq istəyini ortaya qoymuşdur.

Qarşılıqlı dialoq yaratmaq məqsədi daşıyan başqa bir QHT Helsinki

Vətəndaş Dərnəyidir. Dərnəyin təşəbbüsü ilə 2005-ci ilin avqustunda Türkiyədən və Ermənistandan iyirmi dörd universitet tələbəsi Antakyada təşkil olunan on günlük seminarda iştirak etdi. Bu fəaliyyətlərə əlavə olaraq, Türkiyə İqtisadi və Sosial Araşdırmalar Vəqfi (TESEV) 2005-ci ildə "Ermənistan və Türkiyə vətəndaşlarının Qarşılıqlı Anlayış və Dialoq Layihə"si çərçivəsində hesabat dərc etmiş və 2006-cı ilin dekabrında İrəvana səfər etmişdir [6, 101]. Bu səfər zamanı Ermənistanın aparıcı qeyri-hökumət təşkilatları ilə iki ölkə arasında münasibətlərin inkişafı istiqamətində müzakirələr olub. Bu cəhdlərdən başqa Arı Hərəkatı, ASAM, USAK, Fridrix Nauman Stiftung kimi vətəndaş cəmiyyətiləri [7, 23] və QHT-lər Türkiyə-Ermənistan əlaqələri ilə bağlı araşdırmalar aparır.

**Diplomatik təşəbbüslər.** Türkiyə-Ermənistan münasibətlərinin normallaşması üçün səylər təkcə vətəndaş cəmiyyəti təşəbbüsləri ilə məhdudlaşmır. Rəsmi nümayəndələr müxtəlif platformalarda bir araya gələrək problemli sahələri müzakirə edib, onların həlli yollarını tapmağa çalışır.

Hər iki tərəf münasibətləri normallaşdırmaq istəyini açıqlasa da, hələlik siyasi konsensusa çatmaq mümkün olmayıb. Rəsmi təmaslar çərçivəsində ən mühüm hadisələrdən biri 2005-ci ildə Türkiyə Cümhuriyyətinin Baş naziri R.T.Ərdoğan və Ermənistanın Prezidenti. R.Köçəryan arasında məktub mübadiləsi olmuşdur [8]. Daha əvvəl də qeyd edildiyi kimi, bu gedişdən əvvəl hər iki tərəfin rəsmi nümayəndələri bir neçə dəfə gizli şəkildə Vyanada görüşüb və danışıqlar aparıblar. Bu danışıqlar silsiləsi də öz növbəsində məktub mübadiləsinə yol açdı, eyni zamanda, hər iki tərəfə öz problemlərini danışıqlar yolu ilə həll etməyə fürsət verdi. Vyana danışıqları gizli olduğundan bu görüşlərin məzmunu haqqında indiyədək rəsmi açıqlama verilməyib. Vyana danışıqlarının ictimaiyyətdən gizlədilməsi hər iki tərəfin müxalifət partiyalardan və ictimaiyyətdən gələ biləcək reaksiyalara qarşı ehtiyatlı davrandığını göstərmək baxımından əhəmiyyətlidir.

2005-ci ilin aprelində Türkiyə Respublikasının baş naziri R.T.Ərdoğan tərəfindən Ermənistan Prezidenti R.Köçəryana göndərilən məktubda "soyqırım" məsələsinin iki ölkə arasında yaranacaq münasibətlərə mənfi təsir göstərcəyi vurğulanırdı. Ərdoğanın sözlərinə görə, eyni tarixi və coğrafiyanı paylaşan iki cəmiyyət arasında keçmişdə baş vermiş ağrılı hadisələr bugün iki ölkə arasında dostluq əlaqələrinin yaranmasına mane olur. Baş nazir Ərdoğan gələcək nəsillər üçün qarşılıqlı hörmətin və anlayışın hökm sürəcəyi dinc mühitin yaradılması baxımından 1915-ci il hadisələrinin araşdırılmasının mühüm olduğunu qeyd edirdi və Ermənistanı birgə tarix komissiyası yaratmağa çağırırdı [9]. Dövrün ana müxalifət lideri Dəniz Baykalın da dəstəklədiyi bu təklifə görə, təkcə Türkiyə və Ermənistanın deyil, üçüncü ölkələrin arxivləri də tədqiqatçılar üçün açılmalı və nəticələr beynəlxalq ictimaiyyətlə paylaşılmalı idi. Belə olduqda hər iki ölkə də nəticəyə hörmətlə

yanaşacaq və münasibətləri normallaşdırmaq yolunda mühüm bir addım atılacaqdı.

Ermənistan prezidenti R.Köçəryanın 2005-ci il aprelin 25-də baş nazir Ərdoğana ünvanladığı cavabda isə iki ölkə arasında rəsmi əlaqələrin olmamasına diqqət çəkərək, əsas hədəfin sərhədlərin açılması və diplomatik münasibətlərin qurulmalı olduğu vurğulanırdı. Bu kontekstdə Ermənistanın ön şərt olmadan diplomatik əlaqələr qurmağa hazır olduğu qeyd olunurdu. Köçəryan vaxtilə Avropada mövcud olan fikir ayrılıqlarına baxmayaraq, ikitərəfli münasibətlərini normal qoruyub saxlamağı bacaran ölkələrin olduğunu ifadə edirdi. O, Türkiyə və Ermənistan arasında təkcə tarixi keçmişlə bağlı yox, eyni zamanda bugünə və gələcəyə hesablanacaq bir anlayışa ehtiyac olduğunu, iki ölkə arasında mövcud olan bütün problemləri müzakirə edəcək hökumətlərarası komissiyanın yaradılmasını təklif edirdi. Qeyd etmək lazımdır ki, R.T.Ərdoğanın məktubu münasibətlərin normallaşması istiqamətində müsbət addımdır. Məktubda müştərək tarix komissiyasının yaradılması təklifinə Ermənistan tərəfi də mənfi yanaşmırdı. Türkiyə baxımından komissiyanın məqsədi türk və erməni tədqiqatçılar arasında birbaşa əlaqə yaratmaqla bu sahədə araşdırmaların aparılması üçün sağlam mühit yaratmaq idi. Türkiyə komissiyanın fəaliyyətinin açıq və şəffaf olmasının tərəfdarı idi. Birgə fəaliyyətin nəticəsindən aslı olmayaraq Türkiyə bu məsələdə Ermənistanın riskə getməsini istəyirdi. Türkiyə rəsmiləri komissiyanın fəaliyyəti ilə bağlı çeviklik nümayiş etdirdiyini vurğulayırdı və Ermənistandan da analoji yanaşma tələb edirdi. R.T.Ərdoğanla R.Köçəryan arasında bu məktub mübadiləsinə baxmayaraq, yuxarıda qeyd olunan komissiya və ya komissiyalar bugünə qədər yaradılmayıb. Hər nə qədər bu addımlar uğursuz olsa da, iki dövlət arasında münasibətləri normallaşdırmaq üçün birgə komissiyanın yaradılması tez-tez gündəmə gəlmişdir.

**Münasibətlərin normallaşmasının iqtisadi tərəfi.** Ermənistanın ərazi və əhalisi baxımından məhdud ticarət həcminə malik olması sərhədlər açıldıqdan sonra bunun Şərqi Anadolu iqtisadiyyatına böyük qatqı etməyəcəyinin bariz nümunəsidir. Hal-hazırda İran, Gürcüstan və Azərbaycanın Naxçıvan bölgəsilə sərhədlər açıq olsa da, Şərqi Anadolunun Türkiyənin ən az inkişaf etmiş bölgəsi olması bu tezisləri gücləndirir. Türkiyənin ümumi daxili məhsulu (ÜDM) Ermənistandan qırx dəfə çoxdur, lakin Şərqi Anadolu bölgəsinin payı 4,14%-lə məhdudlaşır [10]. Türkiyə ilə Ermənistan arasında sərhədin bağlanmasından mənfi təsir görən əsas şəhərləri Qars və Trabzondur. Belə ki, Qars vilayəti ilə Gürcüstan arasında Ərdahan şəhərinin olması və Naxçıvanla İğdır şəhərinin qonşu olması Qarsın Ermənistandan başqa xarici ticarət edə biləcəyi ölkələrlə sərhəd əlaqəsinin olmadığını göstərir. 1993-cü ildə Ermənistanla sərhəd bağlananda bu vəziyyət Qars şəhərinin iqtisadiyyatına mənfi təsir göstərdi; həm ictimaiyyət, həm də yerli

özünü idarəetmə orqanları sərhədin bağlanmasından narazı qaldılar. Bu narazılığın əsas səbəbi Ermənistanla iqtisadi əlaqələrin İstanbul, Qara dəniz və Gürcüstan üzərindən davam etdirilməsi idi. Qars vilayəti kimi Trabzon da sərhədin qapalı qalmasından mənfi təsirlənən şəhərdir. 1993-cü ildə sərhəd bağlandıqdan sonra Trabzon limanın iqtisadi gücü zəifləmiş və Gürcüstan limanları ilə rəqabət qabiliyyəti azalmışdır. Türkiyə-Ermənistan sərhədinin açılması Trabzon limanının inkişafına və şəhərin iqtisadiyyatının yüksəlməsinə töhfə verə bilər.

Sərhədin qapalı olmasından ən çox əziyyət çəkən ölkə şübhəsiz ki, Ermənistandır. Bu vəziyyət ilk növbədə Ermənistanın nəqliyyat xərclərini artırır və iqtisadiyyatına mənfi təsir göstərir. Ermənistanın xarici ticarətinin 90%-i Gürcüstan sərhədi üzərindən həyata keçirilir və bu da Gürcüstana müəyyən mənada inhisarçılıq imkanı verir. Odur ki, Türkiyə ilə sərhədin açılması Gürcüstanın monopoliyasına son qoya bilər və Ermənistanın nəqliyyat xərclərini azalda bilər. Sərhədin açılmasının Ermənistan iqtisadiyyatına daha bir müsbət təsiri Ermənistanın ixracatını artırmaq potensialı ilə bağlıdır. Dünya Bankının 2001-ci ildə apardığı araşdırmaya görə Ermənistanın Türkiyə və Azərbaycanla münasibətlərini bərpa etməsi onun ixracatın 100% həcmində artıra bilər. Digər tərəfdən, Ermənistan-Avropa Siyasi və Hüquq Məsləhət Mərkəzinin hesabatında Ermənistanın ümumi milli məhsulunda 2005-2010-cu illərə görə 2,7% artım olacağı proqnozlaşdırılırdı.

**Normallaşma cəhdləri.** R.T.Ərdoğan və R.Köçəryan arasında məktub mübadiləsinin məntiqi davamı olaraq İsveçrənin Sürix şəhərində 2009-cu ilin 10 oktyabr tarixində iki ölkə arasında protokollar imzalandı. Protokollardan birincisi Ermənistan Respublikası və Türkiyə Cümhuriyyəti arasında diplomatik əlaqələrin qurulması haqqındadır. Digər protokol iki ölkə arasında münasibətlərin inkişafı ilə bağlıdır. Diplomatik münasibətlərin qurulmasına dair protokolla tərəflər protokollar qüvvəyə mindikdən sonra diplomatik əlaqələrin qurulması barədə razılığa gəlirdilər. Protokol, həmçinin iki ölkə arasında müvafiq beynəlxalq hüquq müqavilələri ilə müəyyən edilmiş sərhədlərin tanınmasını təsdiq edirdi. Protokolların imzalanması ilə iki ölkə mehriban qonşuluq münasibətlərinə zidd siyasət yürütməkdən çəkinməyi öhdəsinə götürür, terrorizmin, zorakılığın və ekstremizmin bütün növlərini pisləyərək bu cür fəaliyyətləri dəstəkləməkdən çəkinəcəklərini və ona qarşı mübarizə aparacaqlarını qəbul edirdilər [11]. İki ölkə arasında münasibətlərin inkişafı haqqında protokolda ən diqqət çəkən məqam odur ki, tərəflər protokol təsdiq olunduqdan sonra iki ay ərzində sərhədləri açmağa razılaşırdılar. Protokollarda əks olunan mühüm məqamlardan biri də yaradılacaq alt komitələr idi. Tarixi hadisələrlə bağlı komissiyanın yaradılması Türkiyənin 2005-ci ildə tarixçi və ekspertlərdən ibarət komissiya yaradılması təklifinin Ermənistan tərəfindən qəbul edilməsi kimi də şərh edilə bilər. Protokolların

Türkiyə üçün problem yaradan tərəfi onun təsdiqindən sonra Türkiyə ilə Ermənistan arasında sərhədin 60 gün ərzində açılacaq olması idi. Bildiyimiz kimi, Türkiyə-Ermənistan sərhədi Ermənistanın Azərbaycana qarşı yürütdüyü işğalçılıq müharibəsinə görə bağlanmışdı. Protokollarda isə Qarabağla bağlı heç bir ifadə yox idi və Ermənistan bu problemin həlli istiqamətində addım atmaqdan uzaq görünürdü. Protokolların qüvvəyə minməsindən sonra iki ay ərzində sərhədin açılacağı bildirilsə də, Türkiyə Qarabağ məsələsinin ən yüksək səviyyədə həlli olmadan Azərbaycan tərəfinə sərhədin açılmayacağını bildirdi.

Ermənistan Prezidenti Sarkisyan 2009-cu il oktyabrın 14-də Türkiyə və Ermənistan milli futbol komandaları arasında keçirilən oyunda iştirak etmək üçün Türkiyəyə gəldi [12, 108]. Bu zaman Azərbaycan protokollarla bağlı öz narahatlığını bildirdi. Türkiyədə futbol matçının keçiriləcəyi stadiona gətirilən Azərbaycan bayraqlarının yığışdırılması və buna adekvat olaraq Bakıda "Şəhidlər" məscidinin və Dini işlər üzrə müşavirliyin qarşısındakı Türkiyə bayraqlarının endirilməsi iki ölkə arasında gərginliyə səbəb oldu. Türkiyə Azərbaycana nota verdi. Türkiyə ilə Azərbaycan arasında münasibətlərdə gərginliyin yaranması və iki ölkənin siyasətində fikir ayrılığı Ermənistanın Milli Təhlükəsizlik Strategiyası sənədində vurğulandığı kimi, Ermənistan üçün ən mühüm təhlükənin aradan qalxması demək idi. Qeyd edək ki, Ermənistanın Milli Təhlükəsizlik Strategiyası sənədində Türkiyə Azərbaycanın strateji tərəfdaşı kimi qeyd edilir və bu vəziyyət Ermənistan üçün təhdid olaraq qiymətləndirilir. Bu səbəbdən Türkiyə ilə Azərbaycan arasında yaxın münasibətlərin korlanması Ermənistan hökumətinin uğuru hesab oluna bilərdi. Belə olduqda hərbi yolla davam edən işğala diplomatiya yolu ilə son qoymaq daha da çətin olacaqdı. Əgər Ermənistan fövqəladə xarici təzyiqlərlə üzləşməsə idi, onun Qarabağ probleminin həllində tələsik hərəkət etməyəcəyini təxmin etmək olardı. Bununla yanaşı, Ermənistan prezidenti S.Sarkisyan "soyqırım" iddialarının araşdırılmasını, yəni tarixi tədqiqatla bağlı komissiyanın yaradılmasını qəbul etdiyinə görə diaspora tərəfindən tənqid edilirdi. Yol xəritəsinin açıqlanmasından sonra İrəvanda "Erməni İnqilab Federasiyası" kimi qrupların da reaksiyası sərt olmuşdu.

Türkiyə qonşularla "sıfır problem siyasəti"nin tərkib hissəsi olaraq Ermənistanla münasibətlərinin normallaşması istiqamətində mühüm addımlar atdı [13]. Türkiyə və Ermənistan arasında normallaşma prosesinin meydana çıxmasında beynəlxalq və regional sistemdən irəli gələn təsirlərin rolu böyükdür. ABŞ və Aİ-yə görə Ermənistan Cənubi Qafqazda Rusiyanın təsiri altında olan, ərazisi Rusiya hərbi qüvvələri tərəfindən qorunan bir ölkədir. Bununla yanaşı yürütdüyü siyasətə görə enerji və nəqliyyat layihələrindən kənarda qalmışdır. Ermənistanı Qərb sisteminə daxil etmək vacibdir. Bu baxımdan Türkiyə ilə əməkdaşlıq xüsusi əhəmiyyətlidir və ilk növbədə Tür-

kiyə və Ermənistan arasında münasibətləri normallaşdırmaq, iki ölkə arasında quru sərhədini açmaq əsasdır. Ona görə Türkiyənin Ermənistanla münasibətlərini normallaşdırmaq üçün ABŞ və Aİ-nin intensiv səyləri var. 2008-ci ilin avqustunda Rusiya-Gürcüstan münaqişəsi zamanı Rusiya-Qərb münasibətlərindəki gərginlik Ermənistanı da tamamilə Rusiyanın təsiri altına salırdı. Şübhəsiz ki, Qərb bu vəziyyətlə barışa bilməzdi. 2008-ci ilin avqust müharibəsində Gürcüstan yolunun bağlanması Ermənistanın tamamilə təcrid olunmasına gətirib çıxardı. Türkiyə və Azərbaycandan sonra Gürcüstan sərhədinin də bağlanması Ermənistan iqtisadiyyatına mənfi təsir etdi. Gürcüstanın Ermənistandan idxalında 121 milyon dollar azalma oldu və bu böhran Ermənistan iqtisadiyyatına 700 milyon ABŞ dolları ziyan vurdu. Bu vəziyyət Ermənistanı Türkiyə ilə münasibətlərini normallaşdırmaq üçün səy göstərməyə vadar etdi. Buna qarşılıq olaraq Türkiyənin müsbət reaksiyası Azərbaycanla sıx olan əlaqələrdə problem yaratdı. Qeyd etmək lazımdır ki, Türkiyənin Cənubi Qafqaz siyasətində Azərbaycanla əməkdaşlıq əhəmiyyətli yer tutur. Bakı-Tbilisi-Ceyhan neft kəmərindən Bakı-Tbilisi-Ərzurum boru xətti ilə nəql olunan təbii qazla enerji sahəsində əməkdaşlıq və Türkiyənin Mərkəzi Asiyaya giriş qapısı olan Azərbaycanın Qərbə inteqrasiyası Türkiyə üçün də vacib əhəmiyyət kəsb edir. Lakin Ermənistanla münasibətlərin normallaşmasına və quru sərhədinin açılmasına Türkiyə ön şərt kimi Qarabağ münaqişəsinin həllini tələb edirdi. Belə olduqda isə Ermənistan protokolların icrasından imtina edərək onu təsdiq etmədi. Bu da iki ölkə arasında münasibətləri bərpa etmədən sonlandırmış oldu [14, 384].

**Nəticə.** Ermənistanın Türkiyə üçün mühüm iqtisadi tərəfdaşlığa kifayət qədər potensialı yoxdur. Lakin Türkiyə Ermənistan üçün Qərbə inteqrasiya yolunda mühüm partnyor ola bilər. Türkiyə ilə Ermənistan arasında quru sərhədi açılsa, ticarət həcmi baxımından 500 milyon dollardan 1 milyard dollara qədər qatqı ehtimal edilir. Bu da sərhədyanı bölgələrə mühüm fayda verə bilər. Ermənistanın 2009-cu ildə ümumi idxalı 3 milyard 304 milyon ABŞ dolları, ixracı isə 697,8 milyon ABŞ dolları olmuşdur. Ermənistanın idxalında Türkiyənin 5,6% payı var. 2009-cu ildə ixracatda 34% azalmanın olması, xüsusilə enerjidə xarici mənbələrdən asılılıq Ermənistanın Türkiyə ilə quru sərhədinin açılacağı təqdirdə belə ciddi iqtisadi fərqin yaranması çətin görünürdü [15].Türkiyə-Ermənistan münasibətləri Cənubi Qafqazdakı digər problemlərdən və ən əsası Qarabağ problemindən müstəqil şəkildə həll edilə bilməz. Qarabağ problemini həll etmədən Cənubi Qafqazda sabitliyə, Türkiyə-Ermənistan münasibətlərində daimi normallaşmaya nail olmaq çox çətindir.

Bununla yanaşı Türkiyə-Ermənistan sərhədinin açılması Cənubi Qafqazda aşağı nəqliyyat xərcləri və yeni bazarların yaranması ilə regionun iqtisadi səmərəliliyini artırar, eləcə də, regionda nəqliyyat imkanlarının və

təhlükəsizliyin yaxşılaşmasına töhfə verə bilər. Bu səbəbdən sərhədlərin açılması bölgədə müsbət atmosfer yaradar və iqtisadi gəlirlərin əhəmiyyətli dərəcədə artmasına gətirib çıxara bilər. Regionda etnik münaqişələrin həlli, tərksilahın dəstəklənməsi və bütün Qafqaz regionunda sabit mühitin təmin edilməsi, regionun iqtisadi cəhətdən inkişafı kimi təxirəsalınmaz hədəflər qəbul edilməlidir. Üstəlik Cənubi Qafqazda etnik problemlərin tamamilə həll olunması və sərhədlərin açılması iqtisadi baxımdan böyük nəticələrə gətirib çıxaracaq.

**ƏDƏBİYYAT**


1. Alan Makovsky. The New Activism in Turkish Foreign Policy SAIS Review. Cilt 19, Sayı 1 (Kış-Bahar, 1999) / 333 s.
2. Aybars Görgülü. Türkiye-Ermenistan ilişkileri: Bir kısır döngü, Dış politika analiz serisi-8, TESEV yayınları 204 s.
3. David L. Philips. Unsilencing the past: Track Two Diplomacy and Turkish-Armenian Reconciliation / Oxford: Berghahn Books, 2005, 160p.
4. https://dergipark.org.tr/tr/download/article-file/394797 (baxılma tarixi: 22.01.2023)
5. Hacer Arslan Kalay, Sevcan Yıldız. Akdamar Anıt Müzesi'nin (Kilisesi) Tarihsel Süreçleri ve Kültürel Miras Turizmi Açısından Önemi/ Bitlis Eren Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi 2017, 318 s.
6. Ermenistan ve Türkiye vatandaşları karşılıklı algılama ve diyalog projesi, Erivan-İstanbul 2005/TESEV yayınları 516 s.
7. Umur Bedir. Türkiye'de Düşünce Kuruluşlarının Dış Politika Bağlamında Kamu Diplomasisi İşlevleri, 35 s. / http://iletisimdergisi.gsu.edu.tr/en/download/article-file/1532773 (baxılma tarixi: 04.02.2023)
8. https://www.mfa.gov.tr/no_62---15-nisan-2005_-basbakan-sayin-recep-tayyip-erdogan_in-ermenistan-devlet-baskani-robert-kocaryan_a-gonderdigi-mektup-hk_.tr.mfa (baxılma tarixi: 11.02.2023)
9. https://www.mfa.gov.tr/data/DISPOLITIKA/text-of-the-letter-of-h_e_-prime-minister-recep-tayyip-erdogan-addressed-to-h_e_-robert-kocharian.pdf (baxılma tarixi: 11.02.2023)
10. Nathalie Tocci. "The Case for Opening the Turkish-Armenian Border", TEPSA http://www.europarl.europa.eu/activities/expert/eStudies/download.do?file=18288 (baxılma tarixi: 14.02.2023)
11. https://www.mfa.gov.tr/site_media/html/zurih-protokolleri-tr.pdf (baxılma tarixi: 18.02.2023)
12. Kamer Kasım. Soğuk Savaş Sonrası Kafkasya, Ankara: USAK Yayınları, 2009, 352s.
13. https://www.mfa.gov.tr/yeni-donemde-sifir-sorun-politikasi.tr.mfa (baxılma tarixi: 18.02.2023)
14. Türk Dış Politikası Yıllığı / SETA Yayınları 2010, 665s. (https://tdpyilligi.setav.org/tdp/turk-dis-politikasi-yilligi-2010.pdf)
15. https://dergipark.org.tr/tr/download/article-file/802096 (baxılma tarixi: 01.03.2023)

## ТУРЕЦКО-АРМЯНСКИЕ ОТНОШЕНИЯ (2002-2010 гг.)

**Гусейн А.ГУСЕЙНЛИ**

### РЕЗЮМЕ

В 2002 г., когда к власти пришла Партия справедливости и развития под руководством Р.Т.Эрдогана, «ноль проблем с соседями» играла приоритетную роль во внешней политике. Одной из главных целей было дальнейшее развитие отношений со странами Кавказа. В связи с этим были предприняты важные шаги по восстановлению и развитию отношений с Арменией. В статье изучена деятельность государственных и неправительственных организаций в 2002-2010 годах по установлению и развитию отношений между Турцией и Арменией.

**Ключевые слова:** Турция, Армения, ТАРС, Р.Т.Эрдоган, Р.Кочарян

## TURKIYE-ARMENIA RELATIONS (2002-2010)

**Huseyn A.HUSEYNLI**

### SUMMARY

In 2002, when the Justice and Development Party came to power under the leadership of R.T. Erdogan, "zero problems with neighbors" played a priority role in foreign policy. Further development of relations with South Caucasus countries was one of the main goals. In this regard, important steps were taken towards the restoration and development of relations with Armenia. In the article, the activities of the state and non-governmental organizations in 2002-2010 for the establishment and development of relations between Turkiye and Armenia were investigated.

**Keywords:** Turkiye, Armenia, TARC, R.T. Erdogan, R. Kocharyan

**UOT 94 (470)`19/...`**

# RUSİYA-POLŞA MÜNASİBƏTLƏRİ (1991-2022-Cİ İLLƏR)

**Aynurə M.MƏMMƏDOVA*, Əsgər A.ZEYNALABDİNOV†**

*1991-dən 2022-ci ilədək Rusiya-Polşa münasibətləri enən xətlə inkişaf etməkdədir. Bu baxımdan bəhs edilən dövrdə Rusiya-Polşa münasibətlərinin müxtəlif sferalarda inkişaf istiqamətlərinin araşdırılması maraq doğurur. XX əsrin 90-cı illərində iki ölkə arasında müxtəlif müqavilələr imzalansa da, Polşanın NATO ilə yaxınlaşması Rusiyanı ciddi narahat etdi. 1994-2001-ci illər ərzində Rusiya hökumət başçılarının Polşaya heç bir rəsmi səfərinin olmaması ikitərəfli münasibətlərə təsirsiz ötüşmədi. Çeçenistan müharibələri, Ukraynada baş verən Narıncı inqilab, 2008-ci ildə Rusiya-Gürcüstan müharibəsi, 2010-cu ildə Lex Kaçinskinin də olduğu təyyarənin Rusiya ərazisində qəzaya uğraması, 2014-ci ildə Krımın Rusiya tərəfindən ilhaq edilməsi, Ukraynanın Donetsk bölgəsindəki separatizmin Rusiya tərəfindən dəstəklənməsi və nəhayət, 2022-ci ilin fevral ayında Rusiyanın Ukraynaya təcavüzü ilə başlanan və hələ də davam edən müharibə Rusiya-Polşa münasibətlərinin bu gün də gərgin şəkildə davam etməsinə səbəb oldu.*

**Açar sözlər:** Rusiya, Polşa, siyasət, müharibə, müqavilə

**Giriş**. XX əsrin 90-cı illərində beynəlxalq münasibətlər sistemində baş verən dəyişikliklər nəticəsində formalaşan yeni geosiyasi mühit dövlətlərarası münasibətlərə də ciddi təsir göstərdi. Sosialist sistemin çökməsi nəticəsində müxtəlif ölkələrdə formalaşan yeni hökumətlər öz xarici siyasətlərində yeni siyasi kurslara üstünlük verməyə başladılar. Elə bu məntiqlə Polşanın da xarici siyasət strategiyasında dəyişikliklər baş verdi. 90-cı illərin əvvəllərində nisbətən mülayim xətlə inkişaf edən Rusiya-Polşa münasibətləri Ukraynada Narıncı inqilab, Rusiya-Gürcüstan müharibəsi, Rusiyanın Ukraynaya müdaxiləsi ilə başlanan Rusiya-Ukrayna müharibəsi fonunda daha da gərginləşdi. Yuxarıda qeyd edilən reallıqlarla bağlı Rusiyaya qarşı ən sərt addımlar atılmasının əsas təşəbbüskarlarından biri Polşa oldu. Bu kontekstdə Rusiya-Polşa qarşılıqlı əlaqələri fərqli dinamikada inkişaf etməyə başladı.

* ***Bakı Dövlət Universitetinin müəllimi; tarix üzrə fəlsəfə doktoru; aynur_mammedova@bk.ru; ORCİD İD: 0000-0002-5835-4798***
† ***Bakı Dövlət Universitetinin müəllimi; asgarzeynalabdinov@bsu.edu.az; ORCİD İD: 0000-0001-8835-680X***

Buna görə də 90-cı illərin əvvəllərindən günümüzədək tamamilə ziddiyyətli mərhələlərdən keçən Rusiya-Polşa münasibətlərində meydana gələn dəyişikliklərin səbəb və nəticələrinin araşdırılması məqalədə qarşıya qoyulan əsas məqsədlərdəndir.

**XX əsrin 90-cı illərində Rusiyanın Polşa siyasəti.** Özünü SSRİ-nin varisi hesab edən Rusiya Federasiyası XX əsrin 90-cı illərinin əvvəllərindən fəal xarici siyasət kursu yeridərək Şərqi Avropa ölkələri ilə münasibətlərin qurulması və inkişafına önəm verməyə başladı. Bu baxımdan Polşa ilə münasibətlərdə də müəyyən addımlar atıldı.1992-ci il mayın 22-də Moskvada Rusiya Prezidenti Boris Yeltsin və Polşa Prezidenti Lex Valensa arasında "Dostluq, mehriban qonşuluq və əməkdaşlıq" haqqında müqavilə imzalandı. Burada diqqət çəkən əsas məqam hələ müqavilənin hazırlanması zamanı Stalin rejiminin qurbanları üçün kompensasiya ilə bağlı məsələnin tərəflər arasında ciddi fikir ayrılıqları yaratması oldu. Rəsmi Varşava Polşa qurbanları haqqında bəndi müqaviləyə daxil etməklə müvafiq qaydada kompensasiya verilməsinə nail olmaq istəsə də, rəsmi Moskva bu problemin Rusiyanın öz daxili qanunvericiliyi çərçivəsində həll edilməsinin vacibliyini vurğuladı. Elə həmin ilin oktyabr ayının 2-də Varşavada sərhədyanı əməkdaşlıq üzrə hökumətlərarası saziş imzalandı. Şimal qrupu qoşunlarının son hissələri 1993-cü ilin payızında ölkəni tərk etdi. XX əsrin 90-cı illərinin əvvəllərində Rusiya ilə Polşa bir sıra müqavilələr imzalasa da, müəyyən tarixi dövrlər çərçivəsində iki ölkə arasında meydana gələn gərginlik fonunda qarşılıqlı münasibətlər yüksələn xətlə inkişaf edə bilmədi. Bundan sonrakı mərhələdə Polşanın qərbyönümlu siyasəti kontekstində NATO-ya daxil olmaq cəhdləri Rusiya-Polşa münasibətlərinin gərginləşməsinə səbəb oldu. Rusiyanın Xarici işlər naziri A.V.Kozıryev və onun varisi Y.M.Primakov Polşanı NATO-ya daxil olmaq fikrindən uzaq tutmağa çalışırdılar. Belə ki, 1996-cı ildə Y.M. Primakov Polşanın NATO-ya daxil olmaqdan imtina etməsi əvəzində ona təhlükəsizliyinin zəmanətini təklif etdi. Rəsmi Varşava tərəfindən məsələ ilə bağlı qəti rədd cavabı verildi. Polşa tərəfi heç bir Rusiya arqumentini qəbul etmədən NATO-ya daxil olmağın möhkəm tərəfdarı idi. Bu məsələdə bütün Polşa liderləri onların siyasi iradəsindən asılı olmayaraq möhkəm qətiyyət göstərirdilər [1, 4].

Yuxarıda qeyd edilən reallıqlar, xüsusilə rəsmi Varşavanın NATO-ya üzv olmaq istiqamətində atdığı addımlar öz maraqlarını hər şeydən üstün tutan Rusiya üçün ABŞ başda olmaqla Qərb dövlətlərinin Şərqi Avropa regionunda möhkəmlənməsi baxımından qəbuledilməz idi.

Bəhs edilən dövrdə Varşava vağzalında Rusiya sərnişinlərinə hücum, Krakovda çeçen informasiya mərkəzinin açılması, Prezident L.Valensa tərəfindən Baş nazir Y.Oleksın Rusiyanın xüsusi xidmət orqanları ilə əməkdaşlıq etməsi ittihamları kimi ikitərəfli münasibətləri gərginləşdirən hadisələr

baş verdi. 1995-ci ildə prezident seçkilərində A.Kvasnevskinin qələbəsindən sonra seymin iclası zamanı L.Valensa və daxili işlər naziri A.Milçanovski açıq şəkildə baş nazir Y.Oleksi Rusiyanın xeyrinə casusluqda ittiham etdilər. İttiham nəticəsində başlanmış istintaqın gedişatında bu təsdiqlənməsə də, bu qalmaqala görə Y.Oleks istefa verdi. 1995-ci ildə A.Kvasnevskinin Polşa Prezidenti seçilməsi ilə münasibətlərdə bir qədər istiləşmə müşahidə olundu [ 3, 407].

Polşa prezidenti A.Kvasnevski 1998-ci ilin iyulunda Moskvada qeyri-rəsmi səfərdə olarkən Rusiya Prezidenti B.Yeltsinlə Polşanın NATO-ya daxil olmaq istəyi və Rusiya prezidentinin Varşavaya qarşıdakı səfəri ilə bağlı məsələlər müzakirə olundu. Müzakirələr aparılmasına baxmayaraq, 1998-ci ilin dekabrına planlaşdırılan bu səfər baş tutmadı [ 1, 11].

XX əsrin 90-cı illərində Rusiya-Polşa münasibətlərini gərginləşdirən ən mühüm problemlərdən biri də Çeçenistan məsələsi oldu. Rəsmi Varşavanın Qroznı ilə yaxın əlaqələr qurmağa çalışması kontekstində Polşa Xarici İşlər Nazirliyinin nümayəndələri Şamil Basayevlə görüşdülər. Bundan əlavə Polşada bir neçə çeçen informasiya mərkəzi mövcud idi. Onların içərisində ən nüfuzlu mərkəzlər «Azad Qafqaz» və «Polşa-Çeçenistan» idi. Varşavada çeçenlər tərəfindən dəfələrlə anti-Rusiya aksiyaları təşkil edilirdi. Ən böyük rezonans doğuran aksiya isə 2000-ci ilin fevralın 24-də Poznanda Rusiya konsulluğunun qarşısında baş verdi. Nümayiş zamanı Rusiya bayrağı təhqir edildi. 2000-ci ildə Polşa Xarici İşlər Nazirliyi bir neçə Rusiya diplomatını cəsusluqda ittiham edib onların Polşadan göndərilməsini tələb etdi. Lakin Rusiya və Polşa prezidentlərinin səyləri sayəsində iki ölkə arasında münasibətlərin daha da gərginləşməsinin qarşısı alındı [5, 87].

İkitərəfli formatda həyata keçirilən səfərlər qarşılıqlı münasibətlərə müəyyən təsir göstərsə də, müsbət məcrada inkişafa gətirib çıxarmadı.

**2000-2022-ci illərdə Rusiya-Polşa münasibətlərində gərginlik və onun əsas səbəbləri.** Qarşılıqlı əlaqələr kontekstində 2000-ci ildə A.Kvasnevskinin Rusiyaya, 2002-ci ildə isə V.Putinin Polşaya səfərlərinin reallaşması nəticəsində müəyyən razılaşmalar əldə edilsə də, bu uzunmüddətli olmadı. 2004-cü ildə Ukraynada Narıncı inqilabın baş verməsi ölkədə vəziyyəti gərginləşdirməklə yanaşı, regiondakı proseslərə də təsirsiz ötüşmədi. Ukraynada keçirilən prezident seçkilərində Qərb yönümlü Viktor Yuşenkonun qalib gəlməsi və bu seçimin Polşa tərəfindən dəstəklənməsi Rusiya maraqlarına uyğun gəlmədi.

2007-ci ilin noyabrında formalaşmış Donald Tuskun başçılığı ilə yeni Polşa hökuməti Rusiya-Polşa əlaqələrinin normallaşmasında maraqlı olduğunu bəyan etsə də [4, 19], iki ölkə arasında enerji resursları ilə bağlı ciddi problemlər meydana çıxdı.

Rəsmi Moskvanın təcavüzkar siyasəti kontekstində 2008-ci ildə Rusi-

yanın Gürcüstanın ərazi bütövlüyünü heçə sayaraq, ölkəyə müdaxiləsi ilə başlayan Rusiya-Gürcüstan müharibəsi Rusiya-Polşa münasibətlərinə mənfi təsir göstərdi.

2008-ci ilin 12 avqustunda Ukrayna və Baltikyanı ölkələrin prezidentləri ilə birgə Tbilisiyə gələn Polşa Prezidenti Lex Kaçinski öz nitqində Rusiyanın imperialist ambisiyalarının təkcə Gürcüstan deyil, eyni zamanda Şərqi Avropa ərazilərinə də genişləndiyini bildirdi. O, Rusiyanın regionda öz dominantlığını yenidən qurmağa çalışdığını vurğuladı. Prezident "Bugün Gürcüstan, sabah Ukrayna, birigün Baltikyanı ölkələr və bir az sonra mənim ölkəm Polşaya" növbə çatacaq deyə nitqinə davam etdi [5].

Gürcüstanın ərazi bütövlüyünü tanıyan Polşa Prezidenti Lex Kaçinskinin açıq şəkildə Gürcüstanın haqlı mövqeyinə tərəfdar olması Gürcüstan ərazisində öz maraqları naminə separatizmi dəstəkləyən Rusiyanın mövqeyinə zidd idi. Bu hadisədən bir müddət sonra elə həmin ilin 20 avqustunda ABŞ ilə Polşa arasında raketdən müdafiə sistemlərinin Polşa ərazisində yerləşdirilməsi haqqında saziş imzalandı. Sazişə əsasən, ABŞ-ın 10 raket sistemi Rusiyanın qərb sərhədlərindən 115 mil məsafədə yerləşdirilməli idi. Bu saziş Rusiya tərəfinin sərt reaksiyasına səbəb oldu. 2010-cu ildə isə Polşa Prezidentinin olduğu təyyarə Rusiya ərazisində qəzaya uğradı və bu günə qədər bu qəzanın tam şəkildə hansı səbəbdən baş verdiyi bilinmir. Qeyd etdiyimiz bu reallıqlar fonunda Rusiya-Polşa münasibətləri daha da gərginləşdi.

2010-cu ildə Komorovski Polşa prezidenti seçildikdən sonra Polşanın xarici siyasət strategiyasının prioritet istiqamətlərindən biri kimi Rusiya ilə münasibətlərin yaxşılaşması olduğunu qeyd etdi. Komorovski güman edirdi ki, Rusiya tərəfindən Polşanı ciddi tərəfdaş kimi tanımaq üçün əlverişli vəziyyət formalaşıb.

Uzun fasilədən sonra 2010-cu ilin dekabrında Rusiya Prezidenti Dmitri Medvedyevin Polşaya səfəri Rusiya-Polşa münasibətlərinin inkişafında əhəmiyyətli hadisə oldu. B.Komorovski bu səfərin Rusiya-Polşa münasibətlərində yeni mərhələnin başlanğıcı olduğunu qeyd etdi. Rusiya Federasiyası İqtisadi İnkişaf Nazirliyi ilə Polşa İqtisadiyyat Nazirliyi arasında iqtisadiyyatın müasirləşdirilməsi üçün əməkdaşlıq haqqında bəyannamə, Baltik dənizinin çirkləndirilməsinə qarşı mübarizədə əməkdaşlıq haqqında hökumətlərarası razılaşma, poçt, telekommunikasiya sahəsində əməkdaşlıq haqqında memorandum imzalanmaqla yanaşı energetika sahəsində birgə bəyanat qəbul edildi. Bunlarla yanaşı səfər zamanı Rusiya Federasiyasında "Rusiya-Polşa dialoqu və razılıq Mərkəzi", Polşada isə "Polşa-Rusiya dialoqu və razılıq Mərkəzi"nin yaradılması haqqında qərar qəbul edildi. Səfərin gedişində Komorovski Rusiyanın NATO ilə yaxınlaşması və Rusiyanın Ümumdünya Ticarət Təşkilatına qoşulmasının təşviqi ilə əlaqədar olaraq Polşanın məmnunluğunu vurğuladı. Polşa prezidenti Rusiya Federasiyasının Dövlət Duma-

sında Xatın faciəsi ilə bağlı qəbul edilmiş bəyanatı yüksək qiymətləndirdi və qeyd etdi ki, o «siyasətdə mülayim iqlimi formalaşdırır» [6, 120].

Rusiya Federasiyası Prezidentinin 2010-cu ildə uzun fasilədən sonra Polşaya səfəri ikitərəfli münasibətlərin inkişafına müsbət təsir göstərsə də bu uzun müddət davam etmədi.

2014-cü ildə Krımın Rusiya tərəfindən ilhaqı ilə Ukrayna ətrafında beynəlxalq böhranın başlanmasından sonra Rusiya-Polşa münasibətləri yenidən gərginləşdi. Ukrayna böhranının ilk günlərindən proqnozlaşdırıldığı kimi Polşa Rusiyanın ən fəal tənqidçilərinin və ən sərt sanksiyaların tərəfdarlarının sırasında oldu. Bundan sonra rəsmi Varşava Moskva ilə siyasi dialoqu məhdudlaşdırdı. Bütün bunlarla yanaşı, mürəkkəb məsələlər üzrə dialoq formatı qrup, İctimai forum, o cümlədən iki ölkə parlamentlərinin yuxarı palatalarının himayəsi altında yaradılmış forum öz fəaliyyətlərini dayandırdı. Lakin xarici işlər nazirlikləri çərçivəsində əlaqə saxlanılırdı. Belə ki, 2014-cü ilin iyun ayının 10-da Sankt-Peterburqda Rusiya, Almaniya və Polşa xarici işlər nazirlərinin üçtərəfli görüşü keçirildi. Sergey Lavrov, Radoslav Sikorski və Frank Volter Ştaynmayerin iştirak etdiyi bu görüşdə tərəflər Ukrayna məsələsini müzakirə etdilər. Rusiya və Polşa hökumətləri arasında 2014-cü il dekabrın 14-də sərhədlərin nizama salınması haqqında saziş imzalandı. 2015-ci ilin yanvar-noyabrında Polşa ilə Rusiyanın əmtəə dövriyyəsi 13 milyard dollar təşkil etdi. Buna baxmayaraq 2015-ci ildə Polşa kütləvi informasiya vasitələrində genişmiqyaslı anti-Rusiya kampaniyası açıldı. Polşa tərəfinin birgə tarixi mübahisəli məsələləri siyasiləşdirmək cəhdi ikitərəfli münasibətlərin inkişafını əhəmiyyətli dərəcədə çətinləşdirdi [7].

Bundan sonrakı illərdə Polşadakı sovet müharibə abidələrinin sökülməsi, qaz böhranı çərçivəsində Polşanın Rusiya qazından aslılığın aradan qaldırılması istiqamətində atdığı addımlar ikitərəfli münasibətlərə mənfi təsir göstərdi.

Nəhayət, 2022-ci ilin fevral ayında Rusiyanın Ukraynaya təcavüz etməsi nəticəsində formalaşan yeni geosiyasi mühit Rusiya-Polşa münasibətlərinin daha da pisləşməsinə səbəb oldu.

Polşanın Baş naziri Mateusz Moraviecki 2022-ci ilin 15 martında Ukraynaya səfər edərək bu faciənin mümkün ən yaxın müddətdə dayandırılmasının vacibliyini vurğuladı [8]. Elə həmin ilin mart ayının 23-də Polşa hökuməti 45 rus diplomatını casusluqda ittiham edərək ölkədən qovdu [9].

Polşa Prezidenti Andrej Duda 2022-ci ilin may ayında Ukraynaya səfər edərək Rusiyanın Ukraynaya qarşı müharibəyə başlamasından bəri Ukrayna parlamentində çıxış edən ilk xarici ölkə lideri oldu [10]. Polşa Prezidenti Andrey Duda 2022-ci ilin 8 noyabr tarixində Misirin Şarm-əl Şeyx şəhərində keçirilən COP 27-də (Climate Change Conference-İqlim Dəyişikliyi Konfransı) çıxışı zamanı bildirdi ki, Rusiyanın Ukraynaya təcavüzü nəticə-

sində iqlim hədəflərinin vaxtında həyata keçirilməsi risk altındadır. Biz Rusiyaya təzyiq göstərməli və Rusiya enerji resurslarından asılılığa son qoymalıyıq [11]. Rusiyanın Ukrayna torpaqlarını işğal etməsi ilə meydana gələn enerji böhranı Avropada ciddi fəsadlara səbəb olmuşdur. Bu isə öz növbəsində rəsmi Moskva tərəfindən Avropa ölkələrinə təhdid kimi istifadə olunmaqdadır ki, bu baxımdan Polşa, o cümlədən digər Avropa ölkələri üçün bu asılılığa son qoymaq prioritet məsələ olaraq qalmaqdadır.

**Nəticə.** Sosialist sisteminin çökməsindən sonrakı dövrdə Rusiya-Polşa münasibətləri aşağı səviyyədə inkişaf etməyə başladı. Zamanla ikitərəfli münasibətlər çərçivəsində müəyyən məsələlərdə razılıq əldə edilsə də, yüksək səviyyəli əlaqələrin qurulması mümkün olmadı.

Rəsmi Moskvanın Gürcüstan (2008-ci il Abxaziya və Cənubi Osetiya) və Ukraynaya (2014-cü il Krımın ilhaq edilməsi, 2022-ci ildə Rusiyanın Ukrayna torpaqlarını işğala başlaması) qarşı təcavüzkar siyasəti fonunda Polşa ilə Rusiya arasında zəif inkişaf edən münasibətlər daha da gərginləşdirdi. Ukrayna böhranı ilə əlaqədar Avropa İttifaqı tərəfindən Rusiyaya qarşı ən sərt sanksiyaların təşəbbüskarlarından olan Polşa bu gün də Ukraynaya hərtərəfli dəstək verməkdədir və nəhayət, Polşa Rusiya Federasiyası tərəfindən elan edilən "dost olmayan ölkələr" siyahısındadır.

Qeyd edilən bu reallıqlar fonunda Rusiya-Polşa münasibətlərinin yaxın perspektivdə yüksək səviyyədə inkişafının mümkünsüzlüyünü hesab edirik.

**ƏDƏBİYYAT**


1. Буневич Д.С. Становление и развитие российско-польских отношений в 1990 гг.: от идеализма Козырева к политике Примакова (17 октября 2012). Проверено 23 ноября 2012. Архивировано из первоисточника 9 января 2013, 20 с.
2. Кожокин Е.М. Основные приоритеты внешней политики России (1992-1999), Внешняя политика Российской Федерации (1992-1999), - Москва: РОССПЕН – 2000, - 206 с.
3. Носкова А.Ф. Польша в XX веке. Очерки политической истории. - Москва: Индрик, - 2012, - 453 с.
4. Неменский О. Асимметрия польско-русских отношений: исторические причины и современные проявления, 2011, № 1(14): 38 с.
5. "Words that stopped Russia": Polish President's Georgia speech remembered- https://tvpworld.com/38485759/words-that-stopped-russia-polish-presidents-georgia-speech-remembered 18.08.2008
6. Российский совет по международным делам И.М. Бусыгина Отношения России и Европейского Союза: Современное состояние и перспективы развития. Аналитический доклад, - Москва, - 2013, - 128 с.
7. В Санкт-Петербурге - встреча глав МИД России, Германии и Польши- https://www.svoboda.org/a/25417347.html 10.06.2014
8. Polish PM says he has arrived in Kyiv- https://www.reuters.com/world/europe/polish-pm-says-he-has-arrived-kyiv-2022-03-15/ 15.03.2022
9. Poland Expels 45 Russian Diplomats for Espionage-

https://www.themoscowtimes.com/2022/03/23/poland-expels-45-russian-diplomats-for-espionage-a77044 23.03.2022
10. Polish President Duda first to address wartime Kyiv parliament-https://www.aljazeera.com/news/2022/5/22/polish-president-visits-kyiv-addresses-parliament 22.05.2022
11. Russia's aggression in Ukraine puts climate transition at risk: Polish President-08.11.2022

## РОССИЙСКО-ПОЛЬСКИЕ ОТНОШЕНИЯ (1991-2022 ГГ.)

**Айнура М.МАМЕДОВА, Аскер А.ЗЕЙНАЛАБДДИНОВ**

### РЕЗЮМЕ

Российско-польские отношения находятся на спаде с 1991-го по 2022 гг. С этой точки зрения интересно рассмотреть, как развивались российско-польские связи в нескольких областях за вышеупомянутое время. Хотя две страны подписали несколько соглашений в 90-х годах XX века, сближение Польши с НАТО серьезно обеспокоило Россию. Отсутствие каких-либо официальных визитов в Польшу представителей российского правительства в период с 1994 по 2001 год оказало влияние на отношения двух стран. Российско-польские отношения по сегодняшний день остаются напряжёнными в результате русско-чеченской войны, Оранжевой революции на Украине, российско-грузинской войны в 2008 году, крушения самолета, перевозившего Леха Качиньского в 2010 году, аннексии Крыма Россией в 2014 году, сепаратизма в Донецкой области Украины при поддержке России, и, наконец, продолжающейся войны, которая началась с агрессии России против Украины в феврале 2022 года.

**Ключевые слова**: Россия, Польша, политика, президент, договор

## RUSSIA-POLAND RELATIONS (1991-2022)

**Aynura M.MAMMADOVA, Asgar ZEYNALABDINOV**

### SUMMARY

Russian-Polish relations are on the decline between 1991 and 2022. It is fascinating to consider how Russian-Polish ties developed in several fields over the aforementioned time from this perspective. Even though the two nations signed several agreements in the 1990s of the 20th century, Poland's closeness with NATO caused Russia great concern. The absence of any formal visits to Poland by representatives of the Russian government between 1994 and 2001 had an impact on the two countries' relations. Russian-Polish relations remain tense as a result of the Russian-Chechen war, the Orange Revolution in Ukraine, the Russian-Georgian war in 2008, the crash of the plane carrying Lech Kaczynski in 2010, the annexation of Crimea by Russia in 2014, separatism in the Donetsk region of Ukraine with Russia's support, and finally the ongoing war that began with Russia's aggression against Ukraine in February 2022.

**Keywords:** Russia, Poland, policy, president, contract

**UOT 94"19/...**

# "NÜVƏ QIŞI" ANLAYIŞI: SOYUQ MÜHARİBƏ DÖVRÜNDƏ NÜVƏ YARIŞINA QARŞI ALİMLƏRİN FƏALİYYƏTİ

**Zərifə F. NƏZİRLİ***

*İkinci Dünya müharibəsindən sonra iki qütblü dünya yeni müharibənin astanasına gəlmişdi. Bu dövrdə formalaşan yeni fövqəldövlətlər və tarazlaşdırma siyasətindəki dəyişikliklər elmi sahədə rəqabətə səbəb olurdu. Nüvə tədqiqatları ilə bağlı fəaliyyətlər siyasi arenada daha diqqətli olmağı zəruri edirdi. Çünki tarixin bu mərhələsində sosioloji və psixoloji amillərə boyun əyərək bütün dünyanın taleyinə təsir edə biləcək bir silah yaranmışdı. Silahlanma yarışının ilk illərindən bu yarışın dünyanı fəlakətə sürükləyəcəyini anlayan elm adamları konfranslar, yığıncaqlar və petisiyalarla bu silahlanmaya qarşı çıxdılar.*

*Məqalə, Soyuq müharibənin başlanğıcı və gedişatına işıq salmaqla yanaşı, nüvə tədqiqatlarının aparılması, "Nüvə Qışı" anlayışının formalaşması istiqamətində həyata keçirilən fəaliyyətlərə də diqqət çəkir. Nüvə silahına sahib olmağın fəsadları haqqında geniş məlumat verən araşdırma bu silaha verilən əhəmiyyətin dünyada nə qədər aktual olduğunu da müzakirə mövzusuna çevirir. ABŞ və Rusiyanın dövlət arxivlərindən, elmi nəşrlərindən əldə edilən qaynaqlar əsasında Soyuq müharibə dövründə alimlərin nüvə strategiyasına yanaşmasına aydınlıq gətirilir.*

**Açar sözlər:** "Nüvə Qışı", nüvə fəlakəti, Soyuq müharibə, silahlanma yarışı

**Giriş.** Soyuq müharibə illərində beynəlxalq siyasətin daim dəyişən tarazlıq oxunda nüvə silahının mövcudluğu milli və beynəlxalq təhlükəsizlik baxımından böyük əhəmiyyət kəsb etmişdi. 1921-ci ildə ingilis kimyaçı Fredrik Soddi (Frederik Soddi) və fizik Ernest Ruzerford (Ernest Ruterford) radioaktiv enerjini kəşf edərək dünyanı atom gələcəyinə aparan dövrün əsasını qoydular. Soddi və elmi-tədqiqat qrupu bu araşdırmalar nəticəsində bəşəriyyətin, səhra qitəsinin və donmuş qütblərin taleyini dəyişəcəyini və dünyanı cənnət bağı kimi bir yerə çevirəcəyini düşünürdülər. Lakin gözləntilər özünü doğrultmamışdı. Qlobal güclər nüvə tədqiqatlarını daha çox hərbi istiqamətdə istifadə etməyə meyl göstərirdilər. Beləcə, XXI əsrdə dünya əhalisi nüvə partlayışı qorxusu ilə yaşamağa məhkum oldu.

Albert Eynşteyn (Albert Einstein) 1939-cu il avqustun 2-də ABŞ

**Bakı Dövlət Universitetinin müəllimi, tarix üzrə fəlsəfə doktoru; nezirli.zerife@gmail.com; Orcid ID: 0000-0002-7069-1922*

prezidenti Franklin Ruzvelti (Franlin D. Roosevelt), Almaniyanın üzərində tədqiqat apardığı uran maddəsinin yarada biləcəyi təhlükə haqqında məlumatlandırdıqdan sonra Ruzvelt Uran Elmi Tədqiqat komissiyasının yaradılması haqqında əmr verdi [17, 79]. 1941-ci il oktyabrın 11-də Ruzvelt ictimai yığıncaqda Vinston Çörçillə (Winston Churchill) birlikdə atom bombası hazırlamaq təklifi ilə çıxış etdi. Əvvəlcə bu fikrə çox da həvəsli olmayan Çörçill 1942-ci ilin əvvəlində alman təyyarələri Britaniyanı bombaladıqdan sonra ABŞ-ın atom bombası tədqiqatı üzərində əməkdaşlıq təklifini qəbul etdi [17,82]. Bunun üçün parlamentin qərarı ilə ABŞ hökuməti tərəfindən toplanan elm adamları ilə Ordu Mühəndislər Korpusu yaradıldı. Beləcə, "Manhetten Layihəsi" ölkə miqyasında aparılan nüvə tədqiqatlarının kod adına çevrildi [1].

Tarixdə ilk atom bombası sınağı, 1945-ci il iyulun 16-da səhər saat 05:30-da Nyu-Meksikodan 193 km cənubda, Alamoqordo aviabazasının yaxınlığında keçirildi [1]. 1950-ci illərdən bəri istehsalı daim artan və daim yenilənən nüvə silahları Soyuq müharibə dövründə həm siyasi, həm də hərbi baxımdan təzyiq vasitəsi olmuşdu. Bu silah, geniş təsir dairəsi ilə kütləvi dağıdıcı potensialına malik idi. Dövrümüzdə ictimai rəyin gündəmində olan nüvə təhlükəsi Soyuq müharibənin ən şiddətli dövrlərində daha da aktuallıq qazanmışdı.

Tədqiqat zamanı etibarlı mənbələrə istinad etmək məqsədiylə arxiv sənədlərindən xüsusən də, ABŞ-ın Milli Təhlükəsizlik Arxivi (National Security Archive), Milli Arxiv (The National Archives), Villiam J. Klintonun Kitabxanası (William J. Clinton Library), Rusiya Federasiyasının Dövlət Arxivindən (Государственный архив Российской Федерации) əldə edilən materiallardan istifadə edilmişdir.

**Soyuq müharibə dövründə nüvə silahı tədqiqatları.** İkinci dünya müharibəsi davam ettiyi dövrdə, Almaniyaya qarşı vuruşan müttəfiqlər Yalta (Krım) konfransında görüşərkən, F.D.Ruzvelt Ser V. Çörçil ilə nüvə məsələsini müzakirə etmişdi. Ruzvelt Stalinə nüvə silahı barədə məlumat verilməsinin əhəmiyyətini Çörçilə bildirmişdi. Xartiya (Charter) üzvləri (Britaniya və ABŞ) Stalinin bu xəbərə təəccüblənəcəyini güman edirdilər, lakin Stalin bu xəbəri soyuqqanlılıqla qarşılamışdı. Bunun əsas səbəbi İngiltərə və ABŞ-ın Manhettendə hazırladıqları nüvə planlarından Stalinin xəbərdar olması idi. London və Vaşinqton bu silahı gizli şəkildə hazırladıqlarını düşünsələr belə, SSRİ-nin Xalq Daxili İşlər Komissarlığı (NKVD) bütün məlumatları Stalinə çatdırmışdı [19, 20]. Bu kontekstdə, Sovet İttifaqına qarşı psixoloji təzyiq vasitəsi kimi istifadə olunmağa çalışılan nüvə silahı, əslində istənilən nəticəni verə bilməmişdi.

Villiam Şillard (William Schillard) 1943-cü ildə Vaşinqton rəsmilərinə verdiyi hesabatda Sovet İttifaqının təxminən altı il ərzində kifayət qədər güclü

nüvə silahı potensialına sahib olacağını bildirmişdi [17, 83]. Müharibədən sonrakı silahlanma yarışı beləcə sürətlənmiş oldu. Dünyanın nəhəng dövlətləri olan ABŞ və Sovet İttifaqı sürətləndirilmiş nüvə tədqiqatları üçün beynəlxalq siyasəti iki qütbə ayırdı.

Soyuq müharibənin ilk illərində, Sovet İttifaqının nüvə istehsalında geri qalmasından istifadə edən ABŞ atom enerjisi üzərində öz inhisarını qurdu və beynəlxalq aləmdə bu sahədə ən güclü amilə çevrildi. Bu məqsədlə, 1945-1948-ci illər arasında bir neçə müxtəlif növ nüvə sınaq əməliyyatları həyata keçirilmişdir [26, 52]. 1951-1992-ci illər arasında isə ABŞ 1032 müxtəlif növ nüvə sınağı aparmışdı. Bu arada 1951-ci ildə ilk yeraltı sınağını müvəffəqiyyətlə həyata keçirən ABŞ, son hava sınağını 1962-ci ildə, ümumilikdə son nüvə sınağını isə 23 sentyabr 1992-ci ildə həyata keçirmişdi [7]. Əslində, Sovet İttifaqının nüvə silahına marağı gec oyanmamışdı. Bu sadəcə Sovet ictimaiyyətinə belə nümayiş edilirdi. Arxivlərdən əldə edilən faktlarda görüldüyü kimi əslində nüvə tədqiqatları gizli kodlar altında qorunaraq həyata keçirilirdi [5]. İş o yerə çatmışdı ki, Sovet İttifaqında nüvə enerjisi ilə bağlı tədqiqatlar 1920-ci illərdə başlasa da, nüvə silahı və ya raketlərinin hazırlanması və hərbi sənayedə istifadəsi 1942-1949-cu illər arasında reallaşmışdı [20, 56]. Soyuq müharibə dövründə ABŞ və Sovet İttifaqı arasında nüvə başlıqlı raketlərin istehsalı ilə başlayan silahlanma yarışı daha sonra kosmik tədqiqatlar yarışına doğru irəlilədi.

Moreover, the persistent resistance of the local judges to the foreign aggression of the Azerbaijani khans and the fact that they created a coalition together, albeit temporarily, became a serious obstacle on this path. Another reason was the appointment of the inexperienced young count V. Zubov as the commander of this march. This was a very serious mistake and had a significant impact on the results of the campaign.The Russian side made a serious mistake in this matter. In particular, Count V. Zubov's incompetence and his direct adherence to Catherine II's directive to "remove resisting and disobedient rulers" prompted local magistrates to resist in the face of fear of losing their power. In addition, the various promises of the Russian invaders to the Armenians and Georgians under the protection of Christians, and extensive cooperation with them, angered the local people. This resulted in the local population supporting their rulers. All these reasons led to the collapse of the Russian Empire's policy of invading Azerbaijan at the end of the 18$^{th}$ century. Thus, Russia's plans to invade Azerbaijan were postponed until the beginning of the 19$^{th}$ century.

## LITERATURE


1. A.A. Bakıxanov adına Tarix İnstitutu. Elmi Arxiv, fond 1795, qovluq №3, 147 s. Церемония приведения к присяге Губинского Шейхали-хана, принявшего покровительство Ее Величества Императрицы.
2. A.A. Bakıxanov adına Tarix İnstitutu. Elmi Arxiv, fond 1795, qovluq №1, 263 s. Рапорт генерала Ивана Гудовича Ее Величеству Государыне Императрице Екатерине II.
3. Абдуллаев Г.Б. Из истории Севера-восточного Азербайджана в 60-80 гг. XVIII в. - Баку: Изд-во АН Азерб. ССР, - 1958, - 210 с.
4. Абдуллаев Г.Б. Азербайджан в XIX веке и взаимоотношения его с Россией. - Баку: Изд-во АН Азерб ССР, - 1965, - 620 с.
5. Бабаев. Э.Т. Из истории Гянджинского ханства. - Баку: Nurlan, - 2003, - 234 с.
6. Искендерова. М.С. Бакинское ханство. - Баку: Чашиоглу, - 1999, - 212 с.
7. Мамедова. Г. О походе В.Зубова в Азербайджан в 1796 г. – Баку: Элм, - 2003, - 94 с.
8. Маркова О.П. Россия, Закавказье и международные отношения в XVIII в. - Москва: Наука, - 1966, 323 с.
9. Mustafazadə. T.T. Azərbaycan-Rusiya münasibətləri XVIII əsrin ikinci yarısı – XIX əsrin əvvəllərində. - Bakı: Şərq-Qərb, - 2013, - 528 s.
10. Mustafazadə. T.T. XVIII-XXI əsrin əvvəllərində Azərbaycanın beynəlxalq siyasi münasibətləri (tarixi oçerklər). - Bakı: Avropa, - 2021, - 544 s.
11. Mustafazadə. T.T. Quba xanlığı. - Bakı: Elm, - 2005, - 479 s.
12. Присоединение Азербайджана к России и его прогрессивные последствия в области экономики и культуры (XIX- нач. XX вв.). - Баку: Изд-во АН Азерб. ССР, - 1955, - 293 с.
13. Присоединение Восточной Армении к России и его историческое значение. Сборник статей. - Ереван: Изд-во Ереванского университета, - 1978, - 280 с.
14. Присоединение Восточной Армении к России. Сборник документов. I Том (1801-1813). Редактор: академик АН Арм. ССР Ц.П.Агаян. Изд-во Академии Наук Армянской ССР. - Ереван: 1972, - 714 с.
15. Россия и Азербайджанские ханства во второй половине XVIII-XIX веков (Сборник документов) Т.1 (1751-1775 гг.). Составитель Т.Т.Мустафазаде. - Баку: Турхан ИПО, - 2018, - 337 с.
16. Россия и Азербайджанские ханства во второй половине XVIII-XIX веков (Сборник документов) Т.2 (1776-1800 гг.). Составитель Т.Т.Мустафазаде. - Баку: Турхан ИПО, - 2020, - 568 с.
17. Rusiya dövlət hərbi tarix arxivi, fond 846, siy.16, iş 2799, v. 1-7. Инструкция генералу В.А.Зубову 18 февраля 1796 г.
18. Rusiya dövlət hərbi tarix arxivi, fond 846, siy.1, iş 2801, vərəq 1-3. Из записки майора А.Сереброва генералу В.А.Зубову (3 октября 1796 г.). Доклат № 215.
19. Rusiya dövlət hərbi tarix arxivi, fond 846, siy.1, iş 2802, vərəq 1. Послание Иосифа Аргутинского дербентским армянам (22 мая 1796 г., Астрахань).
20. Rusiya dövlət hərbi tarix arxivi, fond 41, op.1., 384, list 18-19. Приказ отправить генерала И. Савельева в Дербенд.
21. Российский государственный военно-исторический архив: История в документах: 1797-2007 / Отв. ред. И. О. Гаркуша. Москва: «Российская политическая энциклопедия» (РОССПЭН), 2011, 982 с.
22. Российский государственный военно-исторический архив. Путеводитель: В 4-х т. Том 3. / Сост. Е.Н. Дмитроченкова, А.Л. Корнилаева, Н.Ю. Муравейникова, О.А.Пучкова, Л.Я. Сает, Н.Г. Снежко. - Москва: «Российская политическая энциклопедия» (РОССПЭН), - 2008, - 535 с.

## XVIII ƏSRİN SONUNDA AZƏRBAYCAN RUSİYA İMPERİYASININ SİYASƏTİNDƏ (RUSİYA DÖVLƏT HƏRB TARİXİ ARXİVİNİN MATERİALLARI ƏSASINDA)

**Rövşən U.MƏMMƏDLİ**

### XÜLASƏ

Məqalə XVIII əsrin sonunda Rusiya imperiyasının Azərbaycan siyasətinə həsr edilib. Rusiyanın Azərbaycana qarşı işğalçılıq planları tədqiq olunub. Göstərilən dövrdə Rusiyanın Azərbaycana qarşı yürütdüyü siyasət Rusiya dövlət hərb tarixi arxivinin fondlarında qorunan sənədlər əsasında tədqiq edilib. Rusiyanın Qafqaz siyasəti və bu siyasətdə Azərbaycanın işğal planlarına daxil edilməsi, arxiv sənədləri vasitəsilə tədqiq olunub. Belə ki, Azərbaycanın yeni dövrünün tədqiqində arxiv materiallarının əhəmiyyəti böyükdür. Rusiya imperiyasının arxivləri isə bu sahədə ciddi mənbələrdən sayılır.

Rusiya dövlət hərb tarixi arxivinin fondlarında Rusiya imperiyasının hərbi nazirliyinin sənədləri saxlanılır. XVIII əsrin sonunda Rusiyanın Azərbaycan ərazisinə hərbi ekspansiyasının başlaması ilə əlaqədar, arxivin fondlarında bu yürüşün bütün təfərrüatlarını əks etdirən sənədlər qorunur. Arxivdə, xüsusilə qraf Valerian Zubovun Azərbaycana yürüşünün zəmini, gedişi və nəticələri haqda xeyli sənədlər mövcuddur. Sənədlər arasına diplomatik yazışmalar, məktublar, raportlar, dövlət sənədləri, icmallar, təsvirlər və yerli ərazinin şəhərlərinin, qalalarının planları daxildir. Bütün bu materillərın tədqiqi Rusiya imperiyasının Azərbaycana qarşı olan işğalçılıq planları haqda geniş məlumat almağa imkan verib.

**Açar sözlər:** Rusiya Dövlət Hərb Tarixi Arxivi, hərbi ekspansiya, Valerian Zubov

## АЗЕРБАЙДЖАН В ПОЛИТИКЕ РОССИЙСКОЙ ИМПЕРИИ В КОНЦЕ XVIII ВЕКА (ПО МАТЕРИАЛАМ РОССИЙСКОГО ГОСУДАРСТВЕННОГО ВОЕННО-ИСТОРИЧЕСКОГО АРХИВА)

**Ровшан У.МАМЕДЛИ**

### РЕЗЮМЕ

Статья посвящена азербайджанской политике Российской империи в конце XVIII века. В статье были исследованы захватнические планы России против Азербайджана. Политика России в отношении Азербайджана в указанный период изучалась на основе документов, хранящихся в фондах Российского государственного военно-исторического архива. Кавказская политика России и включение Азербайджана в планы вторжения в эту политику изучены по архивным документам. Таким образом, архивные материалы имеют большое значение в изучении Азербайджанской истории XVIII века. Серьезными источниками в этой области считаются архивы Российской империи.

Документы военного министерства Российской империи хранятся в фондах Российского государственного военно-исторического архива. В конце XVIII века, в связи с началом военной экспансии России на территорию Азербайджана, в архивах имеются документы, отражающие все подробности этого похода. В архиве много документов, особенно о предыстории, ходе и результатах похода графа Валериан Зубова в Азербайджан. Документы включают дипломатическую переписку, письма, отчеты, государственные документы, обзоры, описания и планы городов и замков местности. Изучение всех этих материалов позволило получить обширную информацию о планах вторжения Российской империи против Азербайджана.

**Ключевые слова:** Российский государственный военно-исторический архив, военная экспансия, Валериан Зубов

BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№1 Humanitar elmlər seriyası 2023

UOT 94"19/...

# BREXİT PROSESİ: SOSİAL-İQTİSADİ VƏ SİYASİ TƏSİRLƏRİ

**Aidə N.BƏŞİROVA***

*Avropa məkanının XX əsrdə üzləşdiyi çətinliklərdən birgə səylərlə çıxmaq təcrübəsi Avropa İttifaqının (Aİ) bu günlərdə qarşılaşdığı problemlərə də sinə gərmək iqtidarında olduğunu deməyə əsas verir. Lakin bunun üçün ilk öncə üzv dövlətlərin siyasi iradə nümayiş etdirərək öz vətəndaşlarını birgəyaşayış ənənələrini qoruyub saxlamağa inandırmaları, "Vahid Avropa" ideyasına yeni nəfəs vermələri olduqca zəruridir. Lakin müasir dövrdə Aİ-yə daxil olan bəzi ölkələrdə milli maraqların ümumi maraqları üstələməsi müşahidə edilməkdədir. Bu proses ən qabarıq şəkildə Böyük Britaniyada özünü büruzə verdi. Nəticədə Böyük Britaniya Aİ-ni tərk etdi. Beynəlxalq münasibətlərdə Brexit adlanan bu proses təbii ki, Aİ-yə təsirsiz ötüşmədi. Bir tərəfdən ənənəvi iqtisadi əlaqələrdə problemlər yarandı, digər tərəfdən Aİ-nin ümumi və təhlükəsizlik siyasətinə mənfi təsir etdi, eyni zamanda İttifaqa üzv olan digər dövlətlərdə mərkəzdənqaçma meyllərinin formalaşmasına səbəb oldu. Bütün bu proseslər məqalənin elmi problemini təşkil edir. Məqalənin məqsədi brexitin yaranmasına təsir edən amilləri araşdırmaq və Böyük Britaniyanın Aİ-ni tərk etməsinin sosial-iqtisadi və siyasi təsirlərini təhlil etməkdən ibarətdir. Eyni zamanda brextin Aİ-yə təsirləri məqalənin sonunda ümumiləşdirilərək təhlil edilmişdir.*

**Açar sözlər:** Avropa İttifaqı, Böyük Britaniya, Maastrix, Brexit, Devid Kameron

**Giriş.** İkinci dünya müharibəsindən sonra aparıcı Avropa dövlətlərinin iqtisadi inteqrasiyası nəticəsində yaranan Avropa İqtisadi Birliyi tez bir zamanda iqtisadi güc mərkəzinə çevrilərək tədricən siyasi müstəvidə də beynəlxalq münasibətlər sisteminə təsir etməyə başladı. 1993-cü ildə Maastrix müqaviləsinin imzalanması ilə birlik Avropa İttifaqı (Aİ) adlandırıldı. Eyni zamanda Maastrix müqaviləsi ilə Aİ iqtisadi inteqrasiya təşkilatı olmaqla yanaşı, həm də regional siyasi birliyə çevrildi. Aİ-nin təsiri ilə digər regionlarda da inteqrasiya meylləri gücləndi. Təsadüfi deyildir ki, Aİ-nin təsis olunmasından sonra Şərqi Asiyada, Afrikada, Cənubi Amerikada, eləcə də türk dövlətləri coğrafiyasında regional əməkdaşlığın dərinləşməsinə yönələn

* ***Azərbaycan Dillər Universitetinin baş müəllimi; bashirovaaida@mail.ru; ORCİD İD: 0000-0002-8154-0126***

regional birlik modelləri üzərində diskussiya və təşəbbüslər müntəzəm hal aldı. Lakin bu gün Aİ-yə daxil olan dövlətlər və onlara daxil olan xalqlar əvvəllər çox nikbinliklə təşviq edilən İttifaq coğrafiyasının genişlənməsinə, xüsusilə, mövcud iqtisadi durumun perspektivinə skeptik yanaşmağa başlamışlar.

Bu gün Aİ-yə üzv olan dövlətlərdə cərəyan edən hadisələrin, radikallaşma meyllərinin, bütövlükdə regionda baş verən proseslərin Aİ kimi nümunəvi regional birliyin dayaqlarını sarsıda biləcək qədər təhlükəli xarakter alması da diqqətdən yayına bilməz. Müasir dövrdə Aİ daxilində ən mühüm məsələ Böyük Britaniyanın ittifaqdan çıxması məsələsidir.

Milli maraqlarla Aİ maraqları arasında ziddiyyətlər tədricən B.Britaniyada daha kəskin şəkil alırdı. Məhz bunun nəticəsi olaraq B.Britaniya Avropa ittifaqından ayrıldı. Brexit adlanan bu proses Aİ-nin fəaliyyətinə ağır zərbə vurdu. Bu baxımdan mövzunun öyrənilməsi elmi və siyasi cəhətdən mühüm aktuallıq kəsb edir.

B.Britaniyanın Aİ-ni tərk etməsi beynəlxalq münasibətlərdə obrazlı olaraq "Brexit" (ingiliscə: "Britain" və "exit" sözlərinin birləşməsi) adlanır. Artıq bu, siyasi termin kimi işlədilir. Yəni, "Brexit" sadəcə yeni söz deyil, özündə konkret siyasi məzmun daşıyan anlayışdır.

Məqalənin məqsədi Brexit prosesini və bu prosesin sosial-iqtisadi və siyasi təsirlərini araşdırmaqdan ibarətdir. Eyni zamanda brexit prosesinin nəticələrini təhlil etmək nəzərdə tutulmuşdur. Məqalədə müxtəlif tədqiqatlardan, o cümlədən Azərbaycan alimlərindən S.S.Həmidovun, Türkiyə tədqiqatçılarından E.Tatoğlu və G.Topaloğlunun, Rusiya alimlərindən A.A.Qromkonun mövzu ilə bağlı tədqiqatlarından, eyni zamanda müxtəlif sənədlərdən və internet resurslarından istifadə edilmişdir.

**Avropa İqtisadi Birliyinin yaranması və inkişaf dinamikası.** II Dünya müharibəsindən sonrakı dövrdə Qərbi Avropada liderlər uzunmüddətli sülh və sabitliyin mümkünlüyünü təmin etməyə və iqtisadi bərpa və inkişaf üçün əlverişli mühit yaratmağa çalışdılar. 1951-ci ildə altı ölkə - Belçika, Almaniya Federativ Respublikası, Fransa, İtaliya, Lüksemburq və Hollandiya Avropa Kömür və Polad Birliyinin (AKPB) qurulmasına qərar verdilər [14, l6]. Altı qurucu dövlət iqtisadiyyatlarını bir-birinə bağlayaraq inkişaf üçün strateji xammal olan kömür və poladı nəzarətdə saxlayaraq həm iqtisadi, həm də siyasi inteqrasiyanı gücləndirmək (xüsusilə Fransa ilə Almaniya arasında) və bununla da gələcəkdə baş verə biləcək fəlakətlərdən sığortalanmağa çalışırdılar. AKPB 1952-ci ildə fəaliyyətə başladı. Növbəti beş ildə altı üzv arasında kömür və polad ticarəti 129% artdı [1, 134].

AKPB-nin uğurlu fəaliyyətinin nəticəsi olaraq 1957-ci ildə altı AKPB ölkəsi Romada iki yeni müqavilə imzaladı. Bu müqavilələr ümumi iqtisadi siyasəti inkişaf etdirmək və ayrı-ayrı milli bazarları vahid bazara birləşdirmək

üçün Avropa İqtisadi Birliyini (AES) qurdu. 1967-ci ildən etibarən Avropa İqtisadi Birliyi qısa olaraq Avropa Birliyi (AB) adlanmağa başladı.

AB-nə ilk dəfə 1973-cü ildə Birləşmiş Krallıq, İrlandiya və Danimarkanın daxil olması ilə yeni üzvlər əlavə edildi. 1981-ci ildə Yunanıstan, 1986-cı ildə isə İspaniya və Portuqaliya birliyin üzvü oldu [14, 158].

1993-cü ildə Avropa Birliyi Müqaviləsi (Maastrixt Müqaviləsi olaraq da bilinir) imzalandı ki, bu müqavilə nəticəsində AB Aİ-na çevrildi. Maastrixt müqaviləsi Aİ daxilində nəinki daha geniş iqtisadi inteqrasiya, eyni zamanda daha sıx siyasi əməkdaşlığa doğru mühüm bir addım kimi düşünülmüşdür. Maastrixt müqaviləsi, üzvlərin ortaq pul vahidi, ortaq mərkəzi bank (Avropa Mərkəzi Bankı və ya ECB) və ortaq pul siyasətini paylaşdığı Avrozonanın yaradılmasına gətirib çıxaran müddəaları da ehtiva edirdi [13].

Maastrixt müqaviləsində xarici siyasət və daxili təhlükəsizlik məsələlərində koordinasiyanın gücləndirilməsi də nəzərdə tutulurdu. Artıq 1990-cı illərin ortalarından etibarən Aİ üzvü olan ölkələr təhlükəsizlik və müdafiə siyasəti də daxil olmaqla ümumi xarici və təhlükəsizlik siyasətinin inkişaf etdirilməsinə çalışırlar. Lakin uğurlu inteqrasiya prosesi ilə bərabər ittifaq daxilində bəzi problemlər də yaranmağa və tədricən ittifaqın fəaliyyətinə təsir etməyə başlayırdı. Bu problemlərin kökündə əsasən üzv dövlətlərin siyasi, iqtisadi və təhlükəsizlik maraqları dayanırdı.

**Brexit prosesinin yaranmasına təsir edən amillər.** Soyuq müharibənin bitməsindən sonra Aİ genişlənməyə başladı. 1995-ci ildə Avstriya, Finlandiya və İsveç Aİ-yə qoşuldu. Aİ-nin Orta və Şərqi Avropa istiqamətində genişlənməsi, qitəni sülh yolu ilə daha da inteqrasiya etdirmək və Avropada sabitlik və rifahı təmin etmək istiqamətində vacib bir prioritetə çevrilmişdi [11, 216].

2004-cü ildə Aİ-yə Kipr və Malta ilə birlikdə keçmiş sosialist blokuna və SSRİ-yə daxil olan 8 ölkə (Çexiya, Estoniya, Macarıstan, Latviya, Litva, Polşa, Slovakiya və Sloveniya), 2007-ci ildə Bolqarıstan və Rumıniya, 2013-cü ildə isə Xorvatiya üzv oldu.

Yeni üzvlərin ittifaqa daxil olması bir tərəfdən Aİ-nin təsir dairəsini genişləndirirdisə, digər tərəfdən daxili problemlərin artmasına və yeni problemlərin yaranmasına da səbəb olurdu. Aİ-nin coğrafi sərhədlərini genişləndirməyə başladığı 2004-cü ilə qədər qeyd olunan təsisatların fəaliyyəti ilə Aİ üzvü olan dövlətlərin hökumətləri arasında hər hansı ciddi fikir ayrılığı olmamışdı. Hətta B.Britaniyanın baş naziri T.Bleer 1998-ci ildə "Müasir Britaniyanın xarici siyasətinin prinsipləri" adlanan proqram çıxışında qeyd edirdi ki, "Britaniya Avropanın mərkəzinə qayıdacaq və orada lider mövqe tutacaq" [7]. Göründüyü kimi B.Britaniya rəsmi dairələri nəinki, Aİ-dan çıxmaq barədə düşünmürdülər, onlar hətta inteqrasiyanı daha da dərinləşdirmək və Avropada B.Britaniyanın mövqelərini gücləndirmək siyasətinə üstünlük

verirdilər. Lakin məhz 2004-cü ildən sonrakı dövrdə Aİ-də baş verən siyasi proseslər fərqli istiqamətə yönəlməyə başladı. Üzv dövlətlərin Aİ-dən ayrılmasına yönəlmiş ilk cəhd 2004-cü ildə Fransa və Hollandiya tərəfindən edilsə də, keçirilən referendumların nəticəsində hər iki dövlətin əhalisi ittifaqda qalmağa səs vermişdi [6].

2008-ci ildən başlayan ümumdünya maliyyə böhranı və böhranın Aİ-yə daxil olan ölkələrdə özünü kəskin şəkildə büruzə verməsi İttifaq tərkibində ciddi fikir ayrılıqlarının və ziddiyyətlərin yaranmasına səbəb olmuşdu. Çünki yeni üzv dövlətlərin çoxu keçmiş sosialist blokuna üzv dövlətlər idi. Bu dövlətlərin siyasi elitası uzun müddət kommunist ideologiyasının təsiri altında fəaliyyət göstərmişdi və SSRİ-dən asılı olmuşdu. İqtisadi cəhətdən isə bu dövlətlər əsasən SSRİ-nin satış bazarı olaraq tranzit funksiya yerinə yetirmişdi və birtərəfli sənayeləşmə nəticəsində kifayət qədər inkişaf etməmişdi. Bundan başqa keçmiş sosialist blokuna daxil olan ölkələrdə sənayenin strukturu da Qərbi Avropanın azad bazar iqtisadiyyatı əsasında inkişaf edən ölkələrindən fərqli idi. Planlı iqtisadiyyatın qalıqları, texniki gerilik və s. problemlər inteqrasiyanı çətinləşdirirdi. Bu səbəbdən B.Britaniya və AFR kimi inkişaf etmiş ölkələr dərin iqtisadi problemlərlə üzləşən yeni üzv dövlətlərdən gələ biləcək təhlükənin qarşısını almaq üçün proteksionist siyasət həyata keçirməkdə maraqlı idilər. Bu dövlətlərdə hətta böhranlı ölkələrin vətəndaşlarına qarşı miqrasiya qaydalarının sərtləşdirilməsi məsələsi də gündəmə gətirilirdi. Bu tələblər Aİ-nin təməl prinsiplərindən olan insanların azad hərəkəti ideyası ilə açıq şəkildə təzad yaradırdı.

Bundan başqa B.Britaniya, Fransa, AFR kimi dövlətlərin hökumətləri öz nöqsanlarını örtmək üçün eyni zamanda inflyasiyadan sığortalanmaq üçün bütün məsuliyyəti bir təsisat olaraq Aİ-nin üzərinə yıxmağa çalışırdılar.

Artıq XXI əsrin ikinci onilliyində B.Britaniya hökuməti Avropa İttifaqının ümumi qaydaları çərçivəsində fəaliyyət göstərmək istəmədiyini açıq şəkildə bəyan etməyə başladı. 2013-ci ilin yanvar ayında B.Britaniyanın baş naziri Devid Kameron bildirmişdi: *“Əgər 2015-ci ilin parlament seçkilərində mühafizəkarlar yenidən qalib gələrlərsə, Britaniya hökuməti Britaniyanın Aİ üzvlüyünə davamı üçün daha əlverişli şərtlərdə danışıqlar aparacaq və daha sonra Aİ üzvlük barədə referendum keçiriləcək. Hökumətin mövqeyi Aİ ilə danışıqların nəticəsindən asılı olacaq”* [3].

**Brexit prosesi və onun sosial-iqtisadi və siyasi təsirləri.** Ekspertlərə görə, "Brexit" Aİ-yə daxil olan böyük dövlətlər arasında liderlik uğrunda rəqabətin güclənməsi nəticəsində B.Britaniyanın ortaya atdığı siyasi-diplomatik manevrdir. AFR hələ bir neçə il öncə müstəqil qlobal güc olmaq niyyətində olduğunu rəsmi bəyan etdi. Belə ki, AFR artıq çox güclü iqtisadiyyata, maliyyə ehtiyatlarına və cəmiyyətə malikdir. Bu ölkə dünya miqyasında getdikcə daha yüksək tonda fikir bildirir, müxtəlif regionlardakı proseslərə

təsir göstərir. Bir sözlə, AFR Aİ-də liderlik edir və bu prosesi daha da inkişaf etdirməkdədir. Bu məqam isə B.Britaniyanı və Fransanı qane etmir. Xüsusilə B.Britaniya əsrlərdir ki, etdiyi hökmranlığı itirmək arzusunda deyil.

2015-ci ilin may ayında keçirilən seçkiləri qazandıqdan sonra B.Britaniyanın baş naziri Devid Kameron brexitlə bağlı referendum keçirilməsi ilə əlaqədar Aİ ilə danışıqlar aparmaq və daha sonra referendum keçirmək qərarını təsdiqlədi. 28 May 2015-ci il tarixində referendumun keçirilməsi təklifi İcmalar Palatasına təqdim edildi. Digər partiyaların referendumla əlaqədar mövqeyinə gəldikdə, Ed Milibandın rəhbərlik etdiyi B.Britaniyanın Leyborist Partiyası (2010-2015) Aİ ilə danışıqların yekununu gözləməyi təklif etdi və referendumun əleyhinə çıxdı. Liberal Demokratlar referendum keçirilməsini ancaq Aİ müqavilələrində yeni düzəlişlər qəbul edildiyi təqdirdə tələb etdilər [3].

2015-ci ilin may ayında keçirilən seçkilərdən dərhal sonra Devid Kameron Aİ-na üzvlük qaydalarına yenidən baxılması üçün Aİ ilə danışıqlara başladığını elan etdi. Müzakirə kompaniyası 22 may 2015-ci il tarixində Riqada keçirilmiş Şərq Tərəfdaşlığı Sammitində başladı. 26 may 2015-ci il tarixində Devid Kameron Avropa Komissiyasının sədri Jan-Claud Junker ilə görüşdü. Bu görüşdə miqrasiya qanunvericiliyindəki dəyişikliklər və B.Britaniyanın Aİ ilə siyasi yaxınlaşmasının rədd edilməsi məsələləri müzakirə edildi. 26 iyun 2015-ci il tarixində Avropa Şurasının iclasında Devid Kameron ilk dəfə Aİ üzv dövlətlərinin 27 liderinin qarşısında Aİ-nin rəsmi orqanı səviyyəsində islahatlar planını təqdim etdi. 2015-ci ilin noyabr ayında B.Britaniya hökuməti Avropa Şurasının Prezidenti Donald Tuska göndərdiyi açıq məktubda danışıqlar nəticəsində əldə etmək istədiyi əsas hədəfləri açıqladı. Bu hədəflərə dörd blok daxil idi:

1. Avro bölgəsindən kənar ölkələrin valyuta fərqlərinə görə ayrıseçkiliyə qarşı qorunması. Yalnız Avrozona ölkələri üçün deyil, bütün Aİ ölkələri üçün ortaq bazarın birliyinin təmin edilməsi.

2. Aİ-nin rəqabət qabiliyyətinin artırılması və bürokratiya səviyyəsinin azaldılması.

3. Hər hansı bir siyasi ittifaqın qurulmasında Britaniyanın iştirak etmək məcburiyyətindən imtina etmək. Ölkənin suverenliyinə hörmət.

4. Britaniyaya digər Aİ ölkələrindən gələn miqrantlar müavinət və sosial mənzil almaq üçün ölkədə ən azı 4 il çalışmış olmalıdırlar [3].

2015-ci il dekabrın 17-18-də Avropa Şurasının iclasında bütün Aİ dövlətlərinin liderləri B.Britaniyanın tələblərini müzakirə etdilər. Dörd məsələdən üçündə irəliləyiş əldə edildi, mühacirət mövzusunda heç bir razılıq əldə edilmədi, çünki bir sıra Aİ ölkələrinə görə, B.Britaniyanın bu təklifi Aİnin vahid bazarında fəaliyyət azadlığı hüququnu pozurdu [4].

Danışıqlar 19-20 fevral 2016-cı il tarixlərində Avropa Şurasının ic-

lasında davam etdirildi. 20 fevralda Aİ ölkələrinin liderləri B.Britaniyanın tələbləri ilə bağlı razılığa gəlməyi bacardılar. Həmin gün Devid Kemeron B.Britaniyanın Aİ-də üzvlüyünün qorunmasını dəstəklədiyini və referendumun 23 iyunda keçiriləcəyini açıqladı.

Avropa Şurasının iclasında yekdilliklə təsdiqlənən razılaşmaya əsasən, B.Britaniya əsas maliyyə əməliyyatlarını funt sterlinqlə həyata keçirəcək, qarşılığında avro ilə əlaqəli qərarlar üzərində veto hüququ almayacaqdı. İqtisadiyyatlarının inteqrasiyasını dərinləşdirmək istəyən və avronu əsas valyuta hesab edən ölkələrdə isə avro ilə əlaqəli qərarlar üzərində veto hüququ saxlanacaqdı və avro Aİ-nin əsas valyutası olaraq qalacaqdı.

Razılaşmada Aİ iqtisadiyyatının rəqabət qabiliyyətinin artırılması və iş üzrə inzibati yükün azaldılması barədə öhdəliklərini bir daha təsdiqlədi. Razılaşma B.Britaniyanın Aİ-nin gələcək siyasi inteqrasiyasında iştirak etmək məcburiyyətində olmadığını təsdiqləyirdi. Ayrıca, Aİ-nin idarəçilik mexanizminə yeni bir qayda əlavə edilirdi. Bu qaydaya əsasən, Aİ səlahiyyətliləri tərəfindən baxılan hər hansı bir qanun layihəsinə milli parlamentlərin təyin etdiyi səslərin 55%-dən çoxunu təmsil edən bir qrup əsaslandırılmış bir etiraz qəbul edərdisə Aİ Şurası bu layihənin baxılmasını dayandırmalı və ya milli parlamentlərin etirazlarına cavab verəcək düzəlişlər etməli idi [5, 103].

Aİ ilə danışıqların uğurla yekunlaşmasına baxmayaraq 2015-ci ilin sonunda B.Britaniya Parlamenti tərəfindən referendum haqqında qanun qəbul edildi. Bu referendum B.Britaniya tarixində Aİ ilə bağlı keçirilən üçüncü ümumxalq referendumu olacaqdı (ilk referendum 1975-ci ildə AEC üzvlüyü məsələsində, ikincisi 2011-ci ildə seçki sisteminin dəyişdirilməsinə dair keçirilmişdi) [4].

2016-cı il 12 fevral tarixində Britaniya Parlamenti Aİ ilə mövcud münasibətlər və Aİ-dən çıxmaq və Aİ-də qalma qərarının nəticələri barədə bir hesabat yayımladı. Hesabatda göstərilirdi ki, Aİ B.Britaniyanın əsas ticarət tərəfdaşıdır. 2014-cü ildə ittifaq Britaniya mal və xidmət ixracatının 45%-ni (295 milyard Avro) və Britaniyaya idxalın 53%-ini (370 milyard Avro) təşkil etmişdi. Aİ ölkələri Britaniyadakı birbaşa xarici investisiyaların ümumi həcminin demək olar ki yarısını - 48%-ni (636 milyard avro) təşkil edirdi [4].

Əgər referendum Aİ-dən çıxmaq qərarını təsdiq edərdisə, bunun nəticələri birbaşa xarici investisiyalar, Aİ-nin büdcəsi və B.Britaniya əmək bazarına miqrasiya kimi sahələrə daha çox təsir edəcəkdi [2]. Çünki Britaniya Aİ-nin əsas maliyyə donoru idi. Təkcə 2015-ci ildə B.Britaniyanın Aİ-yə ayırdığı qrantın həcmi 10,9 milyard avro təşkil edirdi. Miqrasiya proseslərinə gəlincə isə digər Aİ ölkələrinin təxminən 3 milyon vətəndaşı Britaniyada yaşayırdı və bunların təxminən üçdə ikisi işləyirdi. Eyni zamanda 1,3 milyon Britaniya vətəndaşı digər Aİ ölkələrində yaşayırdı [15]. B.Britaniyanın Aİ-

dən çıxması həm Britaniyada yaşayan və ya bu ölkəyə köçmək istəyən digər Aİ ölkələri vətəndaşları, həm də Aİ-dəki İngilis mühacirlər üçün əhəmiyyətli dərəcədə arzuolunmaz nəticələrə səbəb ola bilərdi.

Britaniya Aİ-dən çıxmaq qərarı aldığı təqdirdə, Aİ şirkətlərində qalan 27 ölkə ilə yeni bir ticarət müqaviləsi bağlamaq məcburiyyətində qalacaqdı. Brexit tərəfdarları İngiltərənin Aİ ilə sıx ticarət əlaqələrini davam etdirməsi məqsədilə aşağıdakı təklifləri irəli sürürdülər:

1. Norveç seçimi: Böyük Britaniya Aİ-dən çıxır və iqtisadiyyatın maliyyə sektorunun bir hissəsi istisna olmaqla, vahid Avropa bazarına çıxışı təmin edəcək Avropa İqtisadi Bölgəsinə qoşulur. Eyni zamanda Norveç variantının üstünlüyü onda idi ki, bu variant Britaniyanı kənd təsərrüfatı, balıqçılıq, hüquq və daxili işlər məsələlərində Aİ qaydalarından azad edəcəkdi.

2. İsveçrə variantı: Britaniya Aİ-nin bir parçası olmayan, lakin Şengen bölgəsinin bir hissəsi olan İsveçrəni nümunə götürəcək və ayrıca Brüssel ilə iqtisadiyyatın hər bir sahəsi üçün ayrı müqavilələr imzalayacaq.

3. Türkiyə variantı: Britaniya Aİ ilə bir gömrük ittifaqına girə bilər ki, bu da sənayesinə Avropa bazarına sərbəst giriş imkanı verəcək, lakin maliyyə sektoru bu cür imkanlara malik olmayacaq.

4. Britaniya İsveçrə modelinə riayət etməklə bərabər, həm də maliyyə sektorunun Avropa bazarına giriş zəmanətləri və ümumi ticarət qaydalarının formalaşdırılması və icrası üzərində müəyyən bir nəzarət olmaqla Aİ ilə hərtərəfli sərbəst ticarət müqaviləsi bağlamağa cəhd edə bilər.

5. İngiltərə Aİ ilə münasibətlərini tamamilə kəsə bilər və yalnız ÜTT qaydalarına etibar edə bilər [12].

Brexit tərəfdarları arasında da fikir ayrılıqları var idi. Belə ki, onların bir çoxu nə Norveç, nə İsveçrə, nə də Türkiyə variantlarının Britaniya üçün uyğun olmadığını söyləyirdilər. Onlar Böyük Britaniyanın Aİ qanunlarına tabe olmayacağı, ölkənin Avropa Ədalət Məhkəməsinin yurisdiksiyasından azad ediləcəyi şəraitdə sərbəst ticarət müqaviləsi bağlamaq istəyirdilər. Onlar Aİ ilə bütün öhdəlikləri bitirmək istəyirdilər. Təklif edilən variantda Aİ ölkələri vətəndaşlarının Britaniyada sərbəst hərəkət etmək hüququ olmayacaqdı. Britaniya Aİ-yə heç bir üzvlük haqqı ödəməyəcəkdi [12].

Sərt xətt tərəfdarı olan bu insanlar Aİ üzvlüyünün İngiltərə iqtisadiyyatının böyüməsini yavaşlatdığına və bununla yanaşı Londonun bunun müqabilində çox az gəlir əldə edərək əvəzində Aİ xəzinəsinə əhəmiyyətli bir məbləğ ödədiyinə inanırdılar. Onlar həm də sərhədlərə tam nəzarətin Britaniyaya qaytarılmasını və miqrant axınının azaldılmasını istəyirdilər.

Qeyd edək ki, birlik daxilində hərəkət azadlığı onun əsas prinsiplərindən biridir; bu o deməkdir ki, Aİ ölkələrinin vətəndaşları birliyin üzvü olan hər hansı bir ölkədə yerləşmək üçün vizaya və ya digər icazəyə ehtiyac duymurlar. Sərt xətt tərəfdarları məhz bu prinsipin Britaniya üçün qəbul-

edilməz olduğunu düşünürdülər. Bundan başqa onlar Aİ daxilində siyasi inteqrasiyanın dərinləşməsini Britaniyanın suverenliyinin məhdudlaşması hesab edirdilər və Avropa Birləşmiş Ştatlarının yaradılmasına səbəb ola biləcək hər hansı bir plana qarşı çıxırdılar.

Britaniyada brexitin əleyhinə olanlar da var idi. Brexit əleyhdarları Aİ üzvlüyünün Britaniya üçün son dərəcə faydalı olduğuna inanaraq bunun nəticəsində Britaniya mallarının Avropa ölkələrinə ixracının daha asan olduğunu və Aİ ölkələrindən gələn miqrantların, əsasən, işləmək istəyən gənclər olmasını nəzərə alaraq, bütün bunların Britaniya iqtisadiyyatının böyüməsini sürətləndirməsinə və büdcəyə əhəmiyyətli gəlir gətirməsinə təkan verəcəyini bildirirdilər [10].

Bundan başqa Brexit əleyhdarları Aİ-dən çıxmağın nəticəsi olaraq Britaniyanın beynəlxalq aləmdə böyük bir güc statusunun pozulacağına və ölkənin təhlükəsizliyinin Aİ-yə üzvlüyünə bağlı olduğuna inanırdılar. Britaniyalı Rob Vaynrayta görə, Britaniyanın Aİ-dən çıxması Britaniya polisinin ümumavropa terrorizmə qarşı mübarizə və kəşfiyyat mübadiləsi proqramlarına girişini itirməsi demək idi. Bu, təhlükəsizlik orqanlarının terrorizm və mütəşəkkil cinayətkarlıqla mübarizə aparmasını çətinləşdirəcəkdi [10].

Brexitin əleyhdarlarından biri də Şotlandiyanın birinci naziri Nicola Sturgeon idi. O, Aİ-nin tərk edilməsinə qarşı çıxaraq, Şotlandiyanın Avropadakı yerini dəyərləndirdiyini və B.Britaniyanın AB-nə üzvlüyünün iqtisadiyyatın inkişafı və Şotlandiyadakı iş yerlərinin qorunması üçün lazım olduğunu bildirirdi. Bundan əlavə, o, B.Britaniyanın Aİ-dən çıxmasının yalnız Böyük Britaniya ərazisində yaşayan bütün xalqların razılığı əsasında mümkün olmasını təklif edirdi. Sosioloji sorğuya görə, şotlandların 51%-i B.Britaniyanın Aİ-də qalmasına səs verəcəklərini bildirmişdi. Yalnız 21%- şotland B.Britaniyanın Aİ-dən çıxmağını dəstəkləmişdi [9].

İstər siyasi elitada, istər siyasi arenada və xalq kütlələri arasında aparılan müzakirələrin nəticələri sonda brexit tərəfdarlarının qalib gəlməsi ilə nəticələndi.

2016-cı il iyunun 23-də B.Britaniyada Brexitlə bağlı keçirilən ümumxalq referendumunda Aİ-dən çıxmaq tərəfdarları qazandı. Dərc olunan son nəticələrə görə, Britaniyalıların 51,9%-i (17.41 milyon nəfər) Böyük Britaniyanın Aİ-yə üzvlüyünün ləğv edilməsinə səs vermiş, referendumda iştirak edənlərin 48,1%-i (16.14 milyon nəfər) isə Britaniyanın Aİ-də qalmasını dəstəkləmişdi [8].

Referendumun siyasi və iqtisadi təsirləri dərhal özünü göstərdi. Referendumdan sonra Reuters-in məlumatına görə, avronun ABŞ dollarına qarşı məzənnəsi 3,5% endi. London İqtisadi Məktəbi nəzdində İqtisadi Mərkəzin 2016-cı il göstəricilərinə görə, uzunmüddətli perspektivdə Aİ ilə ticarət həcminin aşağı düşməsi Britaniyanın ÜDM-in 9,5% azalmasına səbəb olacaqdı.

B.Britaniyanın Baş Naziri Tereza Mey 2017-ci ilin martın 29-da Böyük Britaniyanın Aİ-dən çıxması prosesinin başlamasına qərar verdi. Aİ ilə Britaniya arasında bağlanmış Lissabon sazişinə əsasən, Britaniyanın Aİ-dən çıxışı proseduruna iki il vaxt verildi. Sazişə əsasən Aİ üzvü olan bütün dövlətlərin razılığı əldə edilərdisə, Böyük Britaniya 2019-cu il martın 31-də Aİ-ni tərk edəcəkdi. Lakin 2019-cu ilin aprelində Aİ liderləri Birləşmiş Krallığın Aİ-dən çıxmasının 31 oktyabra qədər təxirə salınması məsələsində razılığa gəldilər. Britaniya daxilində isə brexitin yaratdığı müvəqqəti çətinliklər narazılığı artırdı. Yaranan narazılıq nəticəsində Tereza Mey 24 may 2019-cu ildə istefa verdi. 2019-cu ilin oktyabrın 17-də Aİ və Böyük Britaniya nümayəndələri danışıqlar nəticəsində "Brexit" üzrə razılıq əldə etdilər.

Danışıqlar nəticəsində Brexit 2020-ci il yanvarın 31-də yerli vaxtla 23:00-da baş tutdu. Böyük Britaniyanın Aİ-nin tərkibindən çıxmasından sonra növbəti 11 ay Böyük Britaniya və Aİ bir sıra mexanizmləri razılaşdırmaq və gələcək əməkdaşlığın konturlarını müəyyənləşdirmək məqsədilə tranzit dövrü oldu. 2020-ci ilin dekabrın 24-də B.Britaniya ilə Aİ arasında ticarət sövdələşməsinin şərtlərinə dair razılıq əldə edildi. Aİ üzv dövlətləri və Böyük Britaniya arasında 2020-ci ilin dekabrın 28-də ticarət müqaviləsi imzalandı. Müqavilə B.Britaniyanın Aİ vahid bazarı və gömrük birliyindən çıxmasından sonrakı dövr üçün ticarət qaydalarını müəyyən etdi.

**Nəticə.** Brexit Avropada siyasi inteqrasiya proseslərinə ciddi zərbə vurdu. Birliyin üzvü olan bir çox dövlətlər brexitin Britaniyaya təsirlərini diqqətlə izləyirlər. Artıq Fransa, Almaniya və İspaniya kimi dövlətlərdə suverenlik meylləri artmağa başlayıb. Bu meyllər isə Aİ-nin gələcək taleyinə ciddi şəkildə kölgə salmaqdadır. Avropa parlamentinə keçirilən son seçkilərdə ultramillətçi və sağçı partiyaların qələbə qazanması da inteqrasiya proseslərinə ciddi təhlükə yaratmışdır. Hətta Fransanın Milli Cəbhə partiyasının rəhbəri xanım Marin Lö Pen Avropa Parlamentinə keçirilən seçkilərdə partiyasının qələbə qazanması haqqında bu sözləri söyləmişdi: *"...Fransa ucadan və aydın şəkildə bəyan etdi ki, o, Brüsseldəki xarici komissarlar tərəfindən deyil, fransızlar tərəfindən, fransızlar üçün və fransızlarla idarə olunmalıdır"* [8]. Bu tip populist çıxışlar Avropanın digər millətçi partiyalarının nümayəndələri tərəfindən dəfələrlə səsləndirilmişdir. Avstriyanın ultra-sağçı Azadlıq Partiyasının əsas nümayəndələrindən olan Andres Molzerin Aİ-ni zəncilərin konqlomeratı adlandırması və bütün problemlərin sanki immiqrantlardan irəli gəldiyini əsaslandırması Avropada millətçilik kimi təhlükəli bir tendensiyanın da gücləndiyini göstərir. Göründüyü kimi, Aİ-də radikallaşma meylləri artıq siyasi piramidanın ən yüksək pillələrində müşahidə edilməkdədir [14]. Artıq aparıcı Avropa ölkələrində milli maraqlar ümumavropa maraqlarını üstələməyə başlamışdır. Bu proses yaxın gələcəkdə bu ölkələrdə də yeni siyasi meyllərin yaranacağını deməyə əsas verir.

## ƏDƏBİYYAT


1. Həmidov S.S. Avropa İttifaqında siyasi inteqrasiya prosesləri və Azərbaycan. - Bakı: - 2009, - 271 s.
2. AB'den İngiltere'ye özel reform paketi. /02.02.16/ – http://tr.euronews.com/2016/02/02/cameron-ab-nin-reform-onerilerini-memnuniyetle-karsiladi
3. AB'den İngiltere'ye özel paket. /02.02.16/ – http://www.dw.com/tr/abden-ingiltereye-%C3%B6zel-paket/a-19020663
4. İngiltere'nin Ab Referandumu: Tartişmalar, Analizler Ve Tahminler. (2016). http://politikaakademisi.org/2016/04/12/İngilterenin-ab-referandu mutartismalar-analizler-ve-tahminler/ 1
5. Tatoğlu E. Avrupa Birliğinin Tarihsel Gelişimi. Ankara, 2006. 195 s. 88. Üye Ülkelerin AB Genişleme Politikasındaki Rolü: Doğuya Genişlemesi ve Türkiye'nin Katilim Süreci. (2014). http://researchturkey.org/tr/the-role-ofmemb er-s tates-in-eu-enlargement-policy-the-eastem-enlargement-andturkeys-accession-process/
6. Topaloğlu G. Avrupa Birliginden ayrılma hakkı ve brexit süreci. https://dergipark.org.tr/en/download/article-file/980865
7. Громко А.А. Внешняя и оборонная политика Великобритании в свете иракского кризиса. https://cyberleninka.ru/article/n/vneshnyaya-i-oboronnaya-politika-velikobritanii-v-svete-irakskogo-krizisa
8. Please Leave, Why Brexit would Benefit Europe /21 June 2016/ - http://www.foreignaffairs.com/articles/united-kingdom/2016-06-21/please-leave
9. UK and the EU: Sovereignty and laws. https://www.bbc.com/news/uk-politics-eu-referendum-36247456
10. EU referendum: What are the pros and cons of Brexit? / 27 June 2016/ – http://www.theweek.co.uk/brexit-0
11. Brexit: Why did older voters choose to Leave the EU? /26 June 2016/ – http://www.independent.co.uk/news/uk/politics/brexit-why-did-old-people-vote-leave-young-voters-remain-eu-referendum-a7103996.html
12. Nicola Sturgeon: Scottish parliament could block Brexit. / 26 June 2016 / – http://www.theguardian.com/politics/2016/jun/26/nicola-sturgeon-new-scottish-referendum-brexit
13. JP Morgan says Scottish independence, new currency now its 'base case'. /29 June 2016 / – http://www.reuters.com/article/us-britain-eu-scotland-jpmorgari idUSKCN0ZF15Z
14. The history of the European Union – http://europa.eu/about-eu/eu-history/index_en.htm
15. BBC Rewind: 1983 Labour manifesto /13 April 2015/ – http://www.bbc.com/news/uk-politics-32287585

## ПРОЦЕС БРЕКЗИТА: ЕГО СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКИЕ И ПОЛИТИЧЕСКИЕ ВЛИЯНИЯ

**Аида Н.БАШИРОВА**

### РЕЗЮМЕ

Опыт совместными усилиями выхода из трудностей, стоящих перед европейским пространством в XX веке, дает основание говорить о том, что Европейский союз (ЕС) в состоянии опереться и на проблемы, с которыми он сталкивается в наши дни. Но для этого крайне необходимо, чтобы государства-члены, демонстрируя прежде всего политическую волю, убедили своих граждан сохранить традиции сосуществования, вдохнули новую жизнь в идею «Единой Европы». Однако в настоящее время в некоторых странах, входящих в ЕС, наблюдается преобладание национальных интересов над общими. Наиболее ярко этот процесс проявился в Великобритании. В результате Великобритания вышла из ЕС. Этот процесс, получивший в международных отношениях название Brexit, естественно, не обошелся без влияния на ЕС. С одной стороны, возникли проблемы в традиционных экономических связях, с другой – это негативно сказалось на общей политике безопасности ЕС. В то же время это привело к формированию центробежных тенденций в других государствах-членах союза. Все эти процессы составляют научную проблему статьи. Цель статьи – изучить факторы, повлиявшие на создание Brexit, и проанализировать социально-экономические и политические последствия выхода Великобритании из ЕС. В то же время влияние Brexit на ЕС было обобщено и проанализировано в конце статьи.

**Ключевые слова:** Европейский Союз, Великобритания, Маастрихт, Брекзит, Дэвид Кэмерон

## BREXIT PROCESS: ITS SOCIAL-ECONOMIC AND POLITICAL INFLUENCES

**Aida N.BASHIROVA**

### SUMMARY

The experience of coming out of the difficulties faced by the European space in the 20$^{th}$ century with joint efforts suggests that the European Union (EU) is capable of overcoming with the problems nowadays. But for this, firstly, it is very important for the states to demonstrate their political will and persuade their citizens to protect the traditions of coexistence, to breathe to the new life into the idea of a “Unit Europe”. However in modern times, in some of the states which are parts of the EU is observed the prevailing national interests to the common interests. This process mostly manifested itself in Great Britain. As a result Great Britain left the European Union. The process called “Brexit” in the international relations greatly affected to the EU. On the one hand, there were some problems in the traditional economic relations, on the other hand it had a negative impact on the general and security policy of EU and at the same time it led to the formation of the centripetal tendencies in other member states of the Union. All these processes constitute the scientific problems of this article. The main goal of this article is researching the factors impacting the creation of the Brexit and analyzing the social-economic and political implications of leaving the Great Britain from the EU. At the same time the implications of the Brexit to the EU are analyzed generally at the end of the article.

**Keywords:** European Union, British, Maastrx, Brexit, David Cameron

**UOT 94(479.24)**

# İLHAM ƏLİYEV VƏ AZƏRBAYCAN RESPUBLİKASINDA TƏHSİL SAHƏSİNDƏ DÖVLƏT SİYASƏTİNİN HƏYATA KEÇİRİLMƏSİ (2003-2021-ci illər)

**Vüsalə Z. ƏLLƏZOVA***

*Müstəqil Azərbaycan Respublikasında dövlət siyasətinin prioritet istiqamətlərindən olan müasir təhsilin inkişaf təməlləri Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuşdur. Heydər Əliyevin təhsil strategiyası Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilmiş, Azərbaycan təhsilinin dünya təhsil sisteminə inteqrasiyası sürətlənmişdir. Bu gün Azərbaycan Respublikasının təhsil sistemi dünya standartlarına uyğun, rəqabətə davamlı bir sistemə çevrilmişdir.*

*Təhsil infrastrukturunun inkişafı, məzmununun yeniləşdirilməsi, kadr hazırlığı sahələrində son iki onillikdə əldə edilən böyük nailiyyətlər Azərbaycanda tədris prosesinin müasir tələblərə uyğun həyata keçirilməsinə, məktəbəqədər, orta ümumtəhsil və ali təhsilin respublikanın ümumi inkişafına xidmət etməsinə də imkan yaratmışdır.*

*Bu gün Azərbaycan təhsili Azərbaycançılıq ideologiyasına xidmət edən dövlət siyasətinin bir istiqaməti olmaqla, Azərbaycan gəncliyinin vətənpərvər ruhda tərbiyəsində də böyük rol oynamaqdadır. Bu sahədə toplanan zəngin təcrübə, bu təcrübənin elmi cəhətdən öyrənilməsi və ümumiləşdirilməsi vacibdir.*

**Açar sözlər:** Azərbaycanın təhsil siyasəti, İlham Əliyev, tədris, təlim, kadr, məktəb

**Giriş.** Müasir dövrdə inkişaf etmiş ölkələrdə dövlət siyasətinin prioritet istiqamətlərindən biri – təhsildir. Bu faktor, ilk növbədə dövlətin milli siyasətində, sosial və iqtisadi yüksəlişində, elm və texnologiyanın inkişafında, o cümlədən innovasiyaların tətbiqində insan resursunun əhəmiyyətli rolu ilə bağlıdır. Belə ki, XXI əsrdə istehsalın və texnologiyanın inkişafı nə qədər yüksək olsa da, dövlətin siyasi, mədəni, hüquqi və elmi strukturunda insan resursu, dəqiq desək vətəndaş resursu yenə də öncül olaraq qalmaqdadır.

1991-ci ildə dövlət müstəqilliyini bərpa etmiş və müstəqilliyinin 32-

* ***AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun "Əliyevşünaslıq" şöbəsinin elmi işçisi; vallazova@mail.ru; ORCİD İD: 0000-0002-5156=045X***

ci ilində olan Azərbaycan Respublikası üçün də vətəndaş amili böyük əhəmiyyət kəsb edir və bu səbəbdən də insan resursunun inkişafında Azərbaycançılıq ideyası üzərində qurulmuş, müasir dünyanın innovativ üstünlüklərinə sahib, rəqabətə dözümlü təhsil sistemi strateji önəm daşıyır. Müstəqil dövlət kimi Azərbaycan Respublikasının inkişafının bütün önəmli sahələrində olduğu kimi təhsil sahəsində də köklü dəyişikliklərin, islahatlar və yeniliklərin həyata keçirilməsi zəruri olmuşdur. Yetmiş il ərzində sovet infrastrukturunun tərkib hissəsi olan Azərbaycanda bu yenilikləri həyata keçirmək müstəqilliyin ilk illərində çox ağrılı bir proses olub, təzadlı və mürəkkəb məqamlarla müşayiət olunmuşdur. Təhsildə sosisalist prinsiplərdən xilas olmaq, məzmunca yeni bir sistem qurmaq üçün təhsil strategiyasına ehtiyac var idi. Bu strategiya ölkədə təhsil sahəsindəki tənəzzülü ortadan qaldırmaqla yanaşı dünyaya inteqrasiya etməyə başlamış Azərbaycanın qloballaşma şərtlərinə uyğun təhsil sistemini qurmağa xidmət etməli idi.

1993-cü ildə Azərbaycanda hakimiyyətə Ümummilli lider Heydər Əliyevin qayıdışı ilə ölkədə siyasi, sosial-iqtisadi, mədəni inkişafın kardinal dəyişiklik mərhələsinin başlanğıcı qoyuldu. Sovet dövründən qalmış zəruri təməli ləğv etməmək şərtilə yeni iqtisadi islahatların aparılması, xüsusi neft strategiyasının qurulması sayəsində sənayeyə və kənd təsərrüfatına böyük sərmayələrin cəlb edilməsi uğurlu sosial siyasət üçün, o cümlədən təhsil siyasəti üçün də geniş perspektivlər açdı. Respublikada müstəqil dövlət təsisatlarının yaradılması, beynəlxalq normalara əsaslanan demokratik, hüquqi dövlət quruculuğunun böyük vüsət alması, suveren Azərbaycanın əsas qanunu olan Konstitusiyanın qəbul edilməsi, vətəndaş cəmiyyətinin formalaşdırılması, milli təhlükəsizliyin təmin olunması və yeni iqtisadi kursun müəyyənləşdirilməsi ilə bağlı proseslərin müvəffəqiyyətli həllində Ulu Öndər Heydər Əliyevin böyük xidmətləri oldu [2, 410].

Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan təhsil siyasəti 2004-cü ildən etibarən Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməyə başladı. Qısa zaman kəsiyində təhsil sistemində, o cümlədən təhsil strukturunun təkmilləşdirilməsi, məzmununun yeniləşdirilməsi, kadr hazırlığı sahəsində əhəmiyyətli nailiyyətlər əldə olundu. Bu sahədə toplanan zəngin təcrübə, bu təcrübənin elmi cəhətdən öyrənilməsi və ümumiləşdirilməsi vacibdir. Bu mənada təqdim edilən məqalə mühüm aktuallıq kəsb edir.

Məqalənin əsas məqsədi Prezident İlham Əliyevin rəhbərliyi altında dövlət siyasətinin əsas istiqamətlərindən birini təşkil edən təhsilin inkişafının əsas xüsusiyyətlərinin, prinsip və istiqamətlərinin, təhsillə bağlı proseslərin araşdırılmasıdır. Bu məqsəddən çıxış edərək məqalədə tədqiqat əsərləri ilə yanaşı, Azərbaycan təhsilinin normativ-hüquqi bazasını təşkil edən sənədlər, o cümlədən müvafiq sahədə qəbul edilən qanunlar, sərəncam və fərmanlardan da istifadə edilmişdir.

**Təhsil sahəsində yeni mərhələ və müasir inkişaf konsepsiyası.** Təməli Heydər Əliyev tərəfindən qoyulmuş dövlət siyasəti, o cümlədən təhsil strategiyası 2003-cü ildən başlayaraq, Ümummilli liderin siyasi varisi olan Prezident İlham Əliyevin uğurlu islahatları sayəsində inkişaf etdirilməyə başladı. Ölkənin təhsil sistemindəki dəyişikliklər və nailiyyətlər onun inkişafının yeni mərhələsi üçün imkanlar açdı. Qısa zaman kəsiyində Azərbaycan dünyada gedən inteqrasiya və qloballaşma proseslərinin sürətinə uyğun olaraq, təhsil sistemində böyük addımlar atdı. Dövlət proqramları və sənədləri əsasında həyata keçirilən islahatlar və tədbirlər sayəsində "təhsil infrastrukturunun müasir tələblərə uyğun təkmilləşdirilməsi, təhsilin məzmununun yeniləşdirilməsi və buna müvafiq yeni dərslik siyasətinin reallaşdırılması, təhsil alanların nailiyyətlərinin qiymətləndirilməsi üzrə yeni model və mexanizmlərin tətbiqi, əmək bazarının tələbatına uyğun kadr hazırlığı və təminatının yaxşılaşdırılması, təhsil müəssisələrinin informasiya-kommunikasiya texnologiyaları ilə təmin edilməsi və təhsil sisteminin informasiyalaşdırılması, istedadlı uşaqların inkişafı, xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsilinin təşkili, de-institutlaşdırma və digər bu kimi sahələrdə əhəmiyyətli nailiyyətlər əldə olundu" [20, 22].

2003-2021-ci illər ərzində bu sahədə aparılan islahatlar, qəbul edilən dövlət proqramları, fərman və sərəncamlar Azərbaycan təhsilinin dünya təhsil sisteminə uğurla inteqrasiya edilməsinə yol açdı. Azərbaycanın təhsil sistemi məhz bu strategiya sənədləri əsasında qurularaq inkişaf etdirildi. Təlim-tədris prosesinin sistemli planlaşdırılmasını əks etdirən kurikulum islahatları 2004-cü ildən başlayaraq Azərbaycan təhsilində məzmun dəyişikliklərinə imkan verdi [18, 288-289]. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 oktyabr 2006-cı il tarixli qərarı ilə "Azərbaycan Respublikasında ümumi təhsilin konsepsiyası" (Milli Kurikulum) təsdiq olundu; 3 iyun 2010-cu ildə isə "Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları)" adı ilə təkmilləşdirildi [24]. Nazirlər Kabinetinin 29 sentyabr 2020-ci il tarixli qərarı ilə "Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları)" "Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları" ilə əvəz edilərək yenidən redaktə olundu [25].

19 iyun 2009-cu ildə qəbul edilən "Təhsil haqqında" Azərbaycan Respublikasının yeni Qanunu respublikada təhsilin yeni inkişaf mərhələsinə qədəm qoymasını təsbit etdi. Bu Qanun "vətəndaşların Azərbaycan Respublikası Konstitusiyasında təsbit olunmuş təhsil hüququnun təmin edilməsi sahəsində dövlət siyasətinin əsas prinsiplərini və təhsil fəaliyyətinin tənzimlənməsinin ümumi şərtlərini" müəyyən edərək, "təhsilin ayrı-ayrı pillələri üzrə müvafiq qanunların və digər normativ hüquqi aktların qəbul edilməsində baza rolunu" oynamış oldu [23]. Sonrakı illərdə bu baza əsasında Azərbaycan

təhsilinin "həyata keçirilmə mexanizmləri barədə hökumət tərəfindən çoxsaylı qərarlar qəbul olundu, milli təhsil sisteminin müasir tələblərə cavab verən məzmununun yaradılması, maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində əhəmiyyətli addımlar atıldı, yeni milli dərsliklər yaradıldı, təhsildə informasiya-kommunikasiya texnologiyalarının, müasir qiymətləndirmə sisteminin tətbiqi, idarəetmənin və maliyyələşmənin yeni modellərinin hazırlanması və tətbiqi, müəllim hazırlığı, əlavə təhsilin təşkili sahələrində böyük nailiyyətlər əldə olundu" [18, 289].

Təhsil strategiyasının davamlı həyata keçirilməsini şərtləndirən digər mühüm hüquqi-normativ sənədlər içərisində Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli 13 saylı Sərəncamı ilə təsdiqlənən "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" xüsusi bir mərhələnin başlanğıcını qoydu. Strategiya "Azərbaycan Respublikasında, keyfiyyət nəticələri və əhatəliyinə görə dünya ölkələri sırasında aparıcı mövqe tutan, səriştəli müəllim və təhsil menecerlərinə, qabaqcıl texnologiyalara əsaslanan infrastruktura malik təhsil sisteminin yaradılması üçün genişmiqyaslı tədbirləri" nəzərdə tutmuşdur. Beş strateji istiqamət üzrə nəzərdə tutulmuş Strategiyanın dördüncü istiqaməti "müasir tələblərə uyğun və ömür boyu təhsili təmin edən təhsil infrastrukturunun yaradılmasını, təhsil müəssisələrində informasiya-kommunikasiya texnologiyaları əsaslı təlim metodologiyasına uyğun infrastrukturun yaradılmasını, təhsil müəssisələri şəbəkəsinin rasionallaşdırılmasını, distant təhsili" ehtiva etmişdir [4].

Təhsilin inkişafı üzrə Dövlət Strategiyasının həyata keçirilməsi üçün Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 19 yanvar tarixli Sərəncamı ilə "Fəaliyyət Planı" da təsdiq edildi. Fəaliyyət Planı səriştəyə əsaslanan şəxsiyyətyönlü təhsilin məzmununun yaradılması, təhsilalanların fərdi xüsusiyyətlərini nəzərə alan innovativ təlim metodları və texnologiyaları vasitəsilə təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin edən yüksək nüfuzlu təhsilverənin formalaşdırılması, təhsilin nəticələrə görə cavabdeh, şəffaf və səmərəli tənzimləmə mexanizmlərinə malik, dövlət-ictimai xarakterli və dövlət-biznes partnyorluğuna əsaslanan idarəetmə sisteminin formalaşdırılması, müasir tələblərə cavab verən və ömür boyu təhsili təmin edən təhsil infrastrukturunun yaradılması, təhsilin dayanıqlı və müxtəlif mənbələrdən maliyyələşdirilməsinin yeni mexanizminin yaradılması kimi məqsədlərdən irəli gələn vəzifələri hədəfləmişdir [6].

**Təhsilin bütün pillələri üzrə islahatların davamı və qarşıya qoyulan yeni hədəflər.** Qeyd edək ki, Dövlət Strategiyasının təsdiq edilməsindən keçən müddət ərzində strategiyanın icrası istiqamətində bir sıra əhəmiyyətli nailiyyətlər əldə edilmişdir. Son illərdə təhsilin inkişafı ilə bağlı qəbul olunan mühüm strategiya və proqramlar nəticəsində dövlət büdcəsindən təhsilə ayrılan xərclər əhəmiyyətli şəkildə artmış, 2013-cü ilə nisbətən

60 faizdən çox artaraq, 1,4 milyard manatdan 2019-cu ildə 2,3 milyard manata çatdırılmışdır. 2003-cü ilə nisbətən isə təhsil xərcləri 9 dəfədən çox artmışdır. 2013-2019-cu illərdə 600-dən çox məktəb binası tikilmiş və ya əsaslı təmir edilmişdir. İlk dəfə olaraq ucqar kəndlərdə modul tipli məktəb təcrübəsi tətbiq edilmiş, 2019-cu ildə 24 rayonda 3520 şagird yerlik daha 50 modul tipli məktəb istifadəyə verilmişdir. Məktəb tikintisi sahəsində həyata keçirilən tədbirlər nəticəsində 1 milyondan çox şagirdin təlim şəraiti əhəmiyyətli şəkildə yaxşılaşdırılmışdır. Təkcə 2018-2019-cu tədris ilində regionlarda modul tipli məktəblərin quraşdırılması məqsədilə 18 milyon manat, Bakı şəhəri və onun qəsəbələrində təhsil müəssisələrinin tikintisi, əsaslı təmiri və bərpası işlərinin davam etdirilməsi məqsədilə 40 milyon manat, təhsil müəssisələrinin qazlaşdırılması məqsədilə 5,7 milyon manat vəsait ayrılmışdır. Bu istiqamətdə həyata keçiriləcək tədbirlər təhsil infrastrukturunun müasirləşdirilməsinə və keyfiyyət göstəricilərinin daha da artırılmasına imkan vermişdir [12].

2003-2021-ci illərdə Azərbaycan Respublikasında ali təhsilin inkişafı da prioritet istiqamətlərdən biri olmuşdur. Bu istiqamətdə Azərbaycanın ən böyük nailiyyəti, şübhəsiz, 2005-ci ildə Bolonya prosesinə qatılması və bu istiqamətdə həyata keçirdiyi strategiya sayılır.Azərbaycan Respublikasının ali təhsil sisteminin Avropa təhsil məkanına inteqrasiyası proseslərinin sürətləndirilməsi, ali təhsilin məzmununun Bolonya prinsiplərinə uyğun qurulması, ölkə iqtisadiyyatının inkişaf meyllərinə müvafiq olaraq yüksək hazırlıqlı kadrlara tələbatın ödənilməsi, həmçinin əhaliyə müasir standartlar səviyyəsində ali təhsil almaq imkanı yaradan səmərəli ali təhsil sisteminin formalaşdırılması məqsədi ilə Prezident İlham Əliyevin 2009-cu il 22 may tarixli Sərəncamı ilə təsdiq edilmiş "2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı" bu istiqamətdə həyata keçirilən strategiyanın ən bariz nümunəsidir [5].

Proqramın qəbulu ərəfəsində Azərbaycan Respublikasında ali təhsilin tədris proqramlarını həyata keçirən, 34-ü dövlət və 15-i qeyri-dövlət olmaqla 49 ali təhsil müəssisəsi fəaliyyət göstərirdi ki, bu da 121 fakültə, 688 kafedra, 100-ə qədər elmi-tədqiqat laboratoriyası və 4 elmi-tədqiqat institutu demək idi [1, 2-3]. "2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı"nın əsas məqsədi ölkənin ali təhsilinin Avropa təhsil məkanına inteqrasiyası, onun məzmununun Bolonya prosesinin prinsiplərinə uyğun qurulması, cəlbedici və rəqabət qabiliyyətliliyinin təmin edilməsi, ölkə iqtisadiyyatının inkişaf tələblərinə uyğun ali təhsilli kadrlara yaranan tələbatın ödənilməsi, habelə informasiya cəmiyyətinin və biliklərə əsaslanan iqtisadiyyatın tələblərinə uyğun olaraq kadr potensialının yaradılması, əhalinin müasir tələblərə cavab verən ali təhsil almaq imkanlarının təmin edilməsi üçün iqtisadi və sosial baxımdan səmərəli

ali təhsil sisteminin formalaşdırılması olmuşdur.

**Kadr potensialının formalaşması və dövlət qulluğuna işə qəbul.** “2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı”nın yerinə yetirilməsi nəticəsində ölkədə ali təhsilin normativ hüquqi bazası yenilənmiş, beynəlxalq standartlara uyğun kadr hazırlığı təmin edilmiş, interaktiv təlimi təmin edən yeni metodikalar hazırlanmış, tədris prosesində informasiya texnologiyalarının tətbiqinin elmi-metodiki təminatı yaradılmış, ali təhsilin keyfiyyəti yüksəlmişdir. Bundan əlavə, son on il ərzində Azərbaycan ali təhsilinin beynəlxalq təhsil məkanına inteqrasiyası sürətlənmişdir, ali təhsil müəssisələrinin müasir tələblərə cavab verən kadr potensialı formalaşmış, ali məktəb məzunlarının əmək bazarında işlə təmin olunma imkanları artmışdır.

Dövlət qulluğu üçün kadrların seçilməsini və Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli 13 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”na əsaslanaraq, təhsil müəssisələrinə tələbə qəbulunu beynəlxalq təcrübəyə uyğunlaşdırmaq məqsədi ilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 11 aprel 2016-cı il tarixli Fərmanı imzalamışdır. Fərmana görə, Azərbaycan Respublikasında dövlət qulluğu üçün kadrların müsabiqə əsasında seçilməsini, ümumi təhsil pilləsində təhsilalanların yekun attestasiyasını, orta ixtisas təhsili müəssisələrinə, ali təhsil müəssisələrində ali təhsilin bakalavriat və magistratura (əsas (baza ali) tibb təhsili və rezidentura) səviyyələrinə, Azərbaycan Milli Elmlər Akademiyasında magistratura səviyyəsinə mərkəzləşdirilmiş qəbul imtahanlarının keçirilməsini təşkil etmək məqsədi ilə Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxs yaradılması qərara alınmışdır [7].

Bu prosesin davamı olaraq, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 10 mart 2017-ci il tarixli qərarı ilə “Dövlət qulluğuna qəbul, dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi və dövlət qulluğu vəzifələrinin tutulması məqsədi ilə keçirilən test imtahanları üçün test nümunələrinin hazırlanması, ekspertizası, təsdiqi, test imtahanının təşkili, keçirilməsi, qiymətləndirmənin aparılması Qaydası” təsdiq edilmişdir [3].

**Təhsil sahəsində Heydər Əliyev Fondunun fəaliyyəti.** Qeyd edək ki, Azərbaycan təhsilinin müasir dünya standartlarına müvafiq inkişaf etdirilməsi və qlobal təhsilə inteqrasiya olunması yolunda dövlət siyasətinin həyata keçirilməsində “Heydər Əliyev Fondu”nun da böyük rolu vardır. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Azərbaycanın birinci xanımı, Mehriban xanım Əliyevanın prezidenti olduğu Fond yarandığı ilk illərdən başlayaraq təhsil, səhiyyə, mədəniyyət, idman, elm və texnologiya, ekologiya, sosial və digər sahələrdə müxtəlif layihələr həyata keçirərək

Azərbaycanda yeni cəmiyyət quruculuğunda fəal iştirak edir, ölkənin sosial-iqtisadi inkişafına öz töhfəsini verir. Heydər Əliyev Fondunun prioritet fəaliyyət istiqamətləri içərisində təhsil ön plandadır. Fond öz fəaliyyətində təhsil sahəsini hər zaman diqqətdə saxlayır, bu sahədə müxtəlif layihələr və proqramlar icra etməklə təhsilin inkişafına öz töhfəsini verir. Belə ki, Fondun fəaliyyətinin 24 faizini məhz təhsil sahəsi təşkil edir [13]. Təkcə bu faktı qeyd etmək yerinə düşər ki, fəaliyyətinin artıq ikinci ilində – 2005-ci ildə Azərbaycanda inşa edilmiş 328 məktəbdən 132-si, yəni 40 faizi Heydər Əliyev Fondunun təşəbbüsü ilə tikilmişdir və Azərbaycanın 52 rayonunu əhatə etmişdir [17]. 2020-2021-ci tədris ilində isə Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə 62 təhsil müəssisəsi inşa və əsaslı təmir olunaraq müəllim və şagirdlərin istifadəsinə verilmişdir [14].

Heydər Əliyev Fondu yeni məktəblərin, məktəbəqədər təhsil müəssisələrinin tikilərək istifadəyə verilməsinə də öz dəstəyini əsirgəmir. Keçən müddət ərzində Fondun təhsil sahəsində hazırladığı layihə və proqramlar içərisində "Uşaq evləri və internat məktəblərinin inkişafı", "Məktəbəqədər təhsil müəssisələrinin inkişafı", "Yeniləşən Azərbaycana yeni məktəb" və "Təhsilə dəstək" proqramları uğurla həyata keçirilməkdədir.

**Sağlamlıq imkanları məhdud şəxslərin təhsilinin təşkili.** Xüsusi olaraq qeyd etməliyik ki, Azərbaycanın təhsil strategiyasında sağlamlıq imkanları məhdud olan şəxslərin təhsilinə də xüsusi diqqət ayrılır və bununla əlaqədar respublikada inklüziv təhsilin tətbiqi ilə bağlı 2004-cü ildən başlayaraq təşəbbüslər olmuşdur. İnklüziv təhsil uşaqların fiziki, psixi, intellektual və digər xüsusiyyətlərindən asılı olmayaraq, onların öz həmyaşıdları ilə məktəbdə eyni sinifdə təhsilə cəlb edilməsidir. Sağlamlıq imkanları məhdud uşaqlar dərs prosesində digər həmyaşıdları ilə birgə iştirak etdikdə, onların arasında bir-birinə qarşı anlaşma və hörmət hissi inkişaf edir. Xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqların təhsilinin təşkili ilə əlaqədar 2005-2009-cu illər üçün inkişaf proqramı çərçivəsində inklüziv təhsilin təşkili ilə bağlı 3 pilot layihənin icrasına başlanılmışdır. Layihələrin icrası olaraq 15 ümumi təhsil, 13 məktəbəqədər təhsil müəssisəsində 268 nəfər əlilliyi olan uşaq inklüziv təhsilə cəlb olunmuşdur. "2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı isə bu sahədə mövcud problemlərin həllinə yönəldilmişdir. Dövlət Proqramının məqsədi sağlamlıq imkanları məhdud şəxslərin təhsil hüququnu təhsilin bütün pillələri üzrə digər şəxslərlə bərabər səviyyədə təmin etməkdən və onların təhsili üçün maneəsiz mühit yaratmaqdan ibarətdir [16].

**Təhsil və texnologiyanın inteqrasiyası.** Məlum olduğu kimi, 2019-cu ilin sonlarında Çində COVİD-19 xəstəliyinin aşkar edilməsi və 2020-ci il

martın 11-də Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən koronavirus pandemiyasının elan edilməsi dünyada təhsil sisteminin yeni səviyyəyə keçilməsini, distant təhsilin yeganə təhsil növü kimi tətbiqini zəruri etmişdir. Bu hadisə, bir daha sübut etmişdir ki, son iki onillikdə Azərbaycan Respublikasının həyata keçirmiş olduğu təhsil strategiyası və bu strategiyanın həyata keçirilməsi üzrə fəaliyyət planı zamanında verilmiş qərarlardır və istənilən gözlənilməz şəraitdə təhsilin davam etdirilməsi imkanlarının təmini üçün lazımi şəraiti yaratmışdır. Pandemiyanın başlaması ilə Azərbaycan Respublikasında da təhsilin davamlı olması və yeni şərtlərə uyğunlaşdırılması üçün təxirəsalınmaz fəaliyyətə başlamışdır.

Prezidentin Azərbaycan Respublikasında təhsil infrastrukturunun yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə verilən 8 avqust 2020-ci il tarixli sərəncamında respublika ərazisində modul tipli məktəblərin quraşdırılması məqsədilə 2020-ci il dövlət büdcəsindən Təhsil Nazirliyinə 7 milyon manat ayrılmışdır [9]. Bundan əlavə, 2020-2021-ci tədris ilində ümumi təhsillə bağlı aktual məsələlər və hədəflər barədə Azərbaycan Respublikası Təhsil nazirinin əmrində tam orta təhsil müəssisələrində bütün siniflər üzrə proqram materiallarının şagirdlər tərəfindən mənimsənilməsi vəziyyətini diaqnostik qiymətləndirmə vasitəsilə öyrənib çatışmazlıqların yeni tədris ilində intensiv tədris yolu ilə aradan qaldırılması, müasir dövrün əsas kompetensiyalarından sayılan müstəqil öyrənmə bacarıqlarının inkişafı məsələsinin pedaqoji heyətin, eləcə də valideynlərin diqqətinə çatdırılması, məsuliyyətli təhsilalanların formalaşdırılması, məsafədən öyrətmə və öyrənmənin metodikasının geniş təbliği, “Rəqəmsal bacarıqlar” və “STEAM” pilot layihələri tətbiq olunan təhsil müəssisələrinə bu layihələrin icrası ilə bağlı əməli köməkliyin göstərilməsi qərara alınmışdır [15].

2021-ci ilin əvvəllərinə olan məlumatlara görə, Azərbaycanda 4500 məktəb var və son 17 ildə bütövlükdə Azərbaycanda 3700-ə qədər məktəb tikilib və əsaslı şəkildə təmir edilmişdir. Bundan əlavə, son iki ildə, xüsusilə COVİD-19 xəstəliyi səbəbilə yaranan pandemiya şəraitində kiçik kəndlərdə modul tipli məktəblərin inşasına da start verilmişdir ki, 2020-2021-ci tədris ili üçün modul tipli 62 məktəbin tikintisinə başlanılmışdır [14].

**İşğaldan azad edilmiş torpaqlarda təhsilin bərpası.** Azərbaycan dövlətinin təhsil sahəsində fəaliyyətinin yeni bir istiqaməti isə – işğaldan azad edilmiş torpaqlarda təhsilin bərpası ilə bağlı müəyyən edilmişdir. Məlum olduğu kimi, 1988-1993-cü illər ərzində Dağlıq Qarabağ və ətraf rayonların işğalı səbəbilə bölgədə 220 körpələr evi, 616 ümumtəhsil məktəbi, 35 məktəbdənkənar təhsil müəssisəsi, 11 peşə məktəbi, 9 orta ixtisas məktəbi, 1 ali məktəb, 3 ali məktəb filialı dağıdılmış [21, 10], 1 milyondan çox azərbaycanlı, o cümlədən 175.600 nəfər şagird və tələbə, 19.400 təhsil işçisi, tədris müəssisələrində çalışan texniki işçi öz doğma ölkəsində didərgin sa-

lınmışdır [19, 9]. 2020-ci ilin 44 günlük Vətən müharibəsi gedişində Müzəffər Ali Baş Komandan İlham Əliyevin komandanlığı ilə Azərbaycan Ordusu Ermənistanın işğalı altında olan torpaqlarımızı işğaldan azad etmişdir. Bu qələbə həm Azərbaycanın dövlətçilik tarixinə qızıl hərflərlə yazıldı, həm də müasir hərb tarixində qısa müddət ərzində əldə edilən böyük qələbənin presedentsiz bir örnəyi olmuşdur. Hazırda Azərbaycan dövləti qarşısında dayanan ən mühüm vəzifələrdən biri işğaldan azad olunmuş ərazilərimizin bərpası və bu bölgələrdə təhsilin inkişafı ilə bağlı tədbirlərin görülməsidir. Bu tədbirlərin içərisində işğaldan azad olunmuş ərazilərdəki təhsil ehtiyaclarının müəyyənləşdirilməsi və bu ərazilərdə təhsil infrastrukturunun təşkili ilə bağlı məsələlər prioritet istiqamətlər arasındadır.

"Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində Təhsilin İnkişafı Fondunun yaradılması" haqqında Azərbaycan Respublikası Prezidentinin 14 iyul 2021-ci il tarixli Fərmanı son iki onillikdə təhsil sisteminin daha da inkişaf etdirilməsi istiqamətində həyata keçirilən strategiyanın tərkib hissəsidir. Fərmanın 2.1. bəndində göstərildiyi kimi, "Təhsilin İnkişafı Fondu Azərbaycan Respublikasında təhsil sisteminin inkişafına yönəlmiş proqram və layihələri maliyyələşdirən, dövlət təhsil müəssisələrinin maddi-texniki bazasının müasir tələblərə uyğunlaşdırılmasına yardım edən" qurumdur [8]. Azərbaycanda Elmin İnkişafı Fondu ilə yanaşı, Təhsilin İnkişafı Fondunun da yaradılması dövlətimizin strateji əhəmiyyət daşıyan insan kapitalına, vətəndaş faktoruna və sosial siyasətə verdiyi böyük dəyərin təcəssümüdür.

**Nəticə.** 2003-2021-ci illər ərzində Azərbaycanın təhsil sahəsində əldə etdiyi nailiyyətlər, məqalənin müvafiq bölmələrindən də göründüyü kimi, istər bu sahənin hüquqi bazasının gücləndirilməsində, istərsə də praktikada əldə edilmişdir. Təhsilin bütün pillələri üzrə islahatların davamı üçün qarşıya qoyulan hədəflərə nail olunmuş, o cümlədən kadr potensialının formalaşması sahəsində böyük uğurlar əldə edilmişdir. Sağlamlıq imkanları məhdud şəxslərin təhsilinin təşkili, işğaldan azad edilmiş torpaqlarda təhsilin bərpası istiqamətində Azərbaycan Respublikasının əldə etdiyi uğurlar inkişaf etmiş ölkələrin təhsil sistemi üçün də örnək ola biləcək səviyyədədir. COVİD-19 pandemiyasının dünyanın təhsil sahəsində bir sıra problemlər yaratdığı bir şəraitdə Azərbaycan Respublikasında təhsil sisteminə texnologiyaların geniş inteqrasiyası sayəsində bu problemlərin öhdəsindən gəlmək mümkün olmuşdur.

Bu gün Heydər Əliyevin təhsil strategiyasının Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycan Respublikası müasir dünya standartlarına cavab verən bir təhsil sisteminə sahibdir. Müasir dövrdə kadr potensialının möhkəmləndirilməsi – bütün ümumtəhsil məktəblərinin inkişafı üçün zəruri şərtdir. Bu proses təkcə yeni texnologiyaları mənimsəmiş, yüksək intellektə və innovativ bacarıqlara sahib kadrın

yetişdirilməsi və yerləşdirilməsi deyil, həm də bu potensialın peşəkarlığının davamlı bir şəkildə artırılmasıdır. Məqsədyönlü təhsil strategiyasının həyata keçirilməsi nəticəsində son iki onillikdə Azərbaycanın təhsil sisteminin əhatə imkanları genişləndirilmişdir, təhsil sisteminin yeni iqtisadi modeli qurulmuşdur. Azərbaycan gənclərinin hərtərəfli inkişafı, həmçinin cəmiyyətin həyatında onların fəal iştirakını təmin etmək üçün sosial-iqtisadi və təşkilati-hüquqi şərait yaradılmışdır. Azərbaycanda təhsil sistemi dünyadakı əhəmiyyətli yeniliklərin çərçivəsində inkişaf etməkdədir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkənin strateji əhəmiyyətli sahələrində, o cümlədən təhsil sahəsində həyata keçirdiyi dövlət siyasəti və strategiyası Azərbaycan dövlətçiliyinə və Azərbaycançılıq ideyasına xidmət edir.

**ƏDƏBİYYAT**


1. Ali və orta ixtisas təhsili haqqında // https://edu.gov.az/upload/file/Ali-ve-orta-ixtisas/umumi-melumatt.pdf
2. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin 85 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 11 mart 2008-ci il // Əhmədov H.H. Azərbaycan təhsilinin inkişaf strategiyası. - Bakı: Elm, - 2010, - 800 s.
3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Dövlət qulluğuna qəbul, dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi və dövlət qulluğu vəzifələrinin tutulması məqsədi ilə keçirilən test imtahanları üçün test nümunələrinin hazırlanması, ekspertizası, təsdiqi, test imtahanının təşkili, keçirilməsi, qiymətləndirmənin aparılması Qaydası”nın təsdiq edilməsi haqqında 10 mart 2017-ci il tarixli qərarı // https://e-qanun.az/framework/35054
4. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli 13 saylı Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası” // https://president.az/articles/9779
5. Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 22 may tarixli 295 saylı Sərəncamı ilə təsdiq edilmiş “2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı” //https://old.edu.gov.az/az/page/83/74
6. Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 19 yanvar tarixli 995 saylı Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı” // http://www.e-qanun.az/framework/29145
7. Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsin yaradılması haqqında” 2016-cı il 11 aprel tarixli 860 saylı Fərmanı // https://e-qanun.az/framework/32559
8. “Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində Təhsilin İnkişafı Fondunun yaradılması” haqqında Azərbaycan Respublikası Prezidentinin 14 iyul 2021-ci il tarixli Fərmanı // https://president.az/articles/52454
9. Azərbaycan Respublikasında təhsil infrastrukturunun inkişafı ilə əlaqədar əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 8 avqust 2020-ci il // https://president.az/articles/40373
10. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şuşa şəhərində olub. 16 mart 2021 // https://president.az/articles/50901

11. Bayramov C. Uğurlu təhsil islahatlarının banisi // “Azərbaycan müəllimi”, qəz.. -Bakı: 2019, 12 iyul.
12. Daşsalahlı R. Təhsilin inkişaf strategiyası: nailiyyətlər və əsas hədəflər // “Azərbaycan müəllimi” qəz.. Bakı: 2019, 27 dekabr.
13. Heydər Əliyev Fondu bu il ölkənin bütün I sinif şagirdlərini öz töhfəsilə sevindirəcəkdir // “Azərbaycan” qəz.. Bakı: 2008, 5 sentyabr.
14. Heydər Əliyev Fondu tərəfindən 62 təhsil müəssisəsi istifadəyə verilir. Azərbaycan Respublikası Təhsil Nazirliyi. 15 sentyabr 2020. // https://edu.gov.az/az/news-and-updates/18973
15. 2020-2021-ci tədris ilində ümumi təhsillə bağlı aktual məsələlər və hədəflər barədə Azərbaycan Respublikası Təhsil nazirinin əmri. 14 sentyabr 2020. // https://edu.gov.az/az/page/451/18945
16. “2018–2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // https://president.az/articles/26332
17. Kamalqızı R. Yeniləşən Azərbaycana yeni məktəb // “Səs” qəz.. - Bakı: 2010, - 13 avqust.
18. Kərimova-Koçayeva T.S. Elm və təhsilin inkişafı // Azərbaycan Respublikasının tarixi (2003-2016). 2-ci cild. İlham Əliyev dövrü. Bakı: Azərbaycan Tarixçiləri İctimai Birliyi, 2016, 716 s.
19. Mərdanov M.C. Azərbaycan təhsil tarixi. III cild (Müstəqillik illəri). - Bakı: Təhsil, - 2011, - 672 s.
20. Mərdanov M.C.Azərbaycan təhsili yeni inkişaf mərhələsində. - Bakı: Çaşıoğlu, - - 2009, - 526 s.
21. Novruzov R. Azərbaycan təhsili müstəqillik yollarında // “Xalq qəzeti”, - Bakı: 2019, 18 oktyabr.
22. Prezident İlham Əliyev: Azərbaycan təhsilinin dünya təhsil sisteminə inteqrasiyası sürətlənib. 28 noyabr 2018 // https://az.trend.az/azerbaijan/politics/2986186.html
23. “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanunu. 19 iyun 2009-cu il // http://www.e-qanun.az/framework/18343
24. “Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurrikulumları) haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 3 iyun 2010-cu il tarixli qərarı // http://www.e-qanun.az/framework/19682
25. “Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları)”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 3 iyun tarixli 103 nömrəli Qərarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 29 sentyabr 2020-ci il tarixli qərarı // http://e-qanun.az/framework/46052

## ИЛЬХАМ АЛИЕВ И РЕАЛИЗАЦИЯ ГОСУДАРСТВЕННОЙ ПОЛИТИКИ В ОБЛАСТИ ОБРАЗОВАНИЯ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ (2003-2021)

**Вусала З.АЛЛАЗОВА**

### РЕЗЮМЕ

Общенациональный лидер Гейдар Алиев заложил основы развития современного образования, которое является одним из приоритетных направлений государственной политики в независимой Азербайджанской Республике. Образовательная стратегия Гейдара Алиева была успешно продолжена Президентом Ильхамом Алиевым, ускорилась интеграция азербайджанского образования в мировую систему образования. Сегодня система образования Азербайджанской Республики стала конкурентоспособной системой в соответствии с мировыми стандартами.

Большие достижения, достигнутые за последние два десятилетия в области развития образовательной инфраструктуры, обновления ее содержания и подготовки кадров, создали возможность осуществлять образовательный процесс в Азербайджане в соответствии с современными требованиями и служить общему развитию республика дошкольного, среднего и высшего образования.

Сегодня азербайджанское образование, являясь направлением государственной политики, служащим идеологии азербайджанства, играет большую роль в воспитании азербайджанской молодежи в патриотическом духе. Важно научно изучить и обобщить богатый опыт, накопленный в этой области.

**Ключевые слова:** образовательная политика Азербайджана Ильхам Алиев, преподавание, обучение, кадры, школа

## ILHAM ALIYEV AND THE IMPLEMENTATION OF STATE POLICY IN THE FIELD OF EDUCATION IN THE REPUBLIC OF AZERBAIJAN (2003-2021)

**Vusala Z.ALLAZOVA**

### SUMMARY

National leader Heydar Aliyev laid the foundations for the development of modern education, which is one of the priority areas of state policy in the independent Republic of Azerbaijan. Heydar Aliyev's educational strategy was successfully continued by President Ilham Aliyev, and the integration of Azerbaijani education into the world education system was accelerated. Today, the education system of the Republic of Azerbaijan has become a competitive system in accordance with world standards.

The great achievements achieved in the last two decades in the fields of development of educational infrastructure, renewal of its content, and personnel training have created an opportunity to implement the educational process in Azerbaijan in accordance with modern requirements, and to serve the general development of the republic of pre-school, secondary and higher education.

Today, Azerbaijani education, being a direction of the state policy serving the ideology of Azerbaijanism, plays a major role in educating Azerbaijani youth in a patriotic spirit. It is important to scientifically study and generalize the rich experience gathered in this field.

**Keywords:** Education policy of Azerbaijan, Ilham Aliyev, teaching, training, personnel, school

**UOT 94 (479.24)**

# AZƏRBAYCAN SSR-DƏ 1946-1950-Cİ İLLƏRDƏ SOSİAL-İQTİSADİ PROBLEMLƏR VƏ ÇƏTİNLİKLƏR

**Əzət N.DADAŞOVA***

*İkinci Dünya müharibəsi qurtardıqdan sonra qarşıda duran əsas məsələ dinc quruculuğa keçərək dağıdılmış kənd, şəhər, qəsəbə və dəmir yollarını, sənaye müəssisələrini bərpa edərək əhalinin maddi vəziyyətini yaxşılaşdırmaq idi. Xalq təsərrüfatının təqribən 30 faizi məhv olmuşdu. 1946-1950-ci illərdə Azərbaycan SSR xalq təsərrüfatının bərpası və inkişaf etdirilməsinə dair plan müəyyənləşdirildi. Xalq təsərrüfatının dövlət tərəfindən idarə olunmasında əsaslı dönüş baş versə də, müəyyən nöqsanlar qalmaqda idi. Yerlərdə zorakılıq halları baş verirdi. Kolxoz və sovxozlara rəhbərlikdə totalitar rejimin prinsipləri özünü göstərirdi. İstehsalın planlaşdırılmasında dövlətin tələbləri əsas götürülürdü. Əhalinin şəxsi təsərrüfatının inkişafına şərait yaradılmır və real imkanlar nəzərə alınmırdı. İdarəetmə sistemi dəyişməmiş qalır, özbaşınalıq hökm sürürdü. Məqalədə Azərbaycan SSR-də 1946-1950-ci illərdə mövcud olan sosial-iqtisadi nöqsanlar araşdırılmışdır.*

**Açar sözlər:** Azərbaycan SSR, xalq təsərrüfatı, sosial-iqtisadi problemlər

**Giriş.** Azərbaycan SSR-in XX əsrin 40-50-ci illərində sosial-iqtisadi inkişafında müşahidə olunan dəyişikliklərin öyrənilməsinə dair bir sıra elmi əsərlər nəşr olunmuşdur. M.Poladovun "Azərbaycan SSR-in kənd təsərrüfatı 40 ildə" adlı əsərində sovet quruluşuna xas olan nöqsanlar diqqətdən kənarda qalmış, kənd təsərrüfatının inkişafındakı uğurlar qabardılmışdır. T.Vəliyevin "Sovet Azərbaycanı zəhmətkeşlərinin rifah halının daima yaxşılaşması" əsərində əhalinin sosial vəziyyətində müşahidə olunan müsbət meyllər göstərilsə də, mövcud olan problemlər araşdırılmamışdır. Y.Yusifovun "Azərbaycan Kommunist Partiyası kənd təsərrüfatında əsaslı dönüşün və dinamik inkişafın təşkilatçısıdır" əsərində ciddi qüsurlar kənarda qalmış, kənd təsərrüfatında əldə edilmiş nailiyyətlər Kommunist partiyasının uğuru kimi qeyd olunmuşdur. Yeddi cildlik "Azərbaycan tarixi" kitabının yeddinci cildində bəhs etdiyimiz dövr geniş araşdırılmış, nöqsanlar qeyd olunmuşdur. "XX əsr Azərbaycan tarixi" əsərində mərkəzin Azərbaycan SSR-in hü-

* *Bakı Dövlət Universitetinin doktorantı; ezet_000@mail.ru; ORCİD İD:0000-0002-6531-8170*

quqlarını daha da məhdudlaşdırması, Kommunist partiyasının cəmiyyətin bütün proseslərinə müdaxiləsi göstərilmişdir. İ.X.Zeynalovun "Azərbaycanın sosial-iqtisadi inkişafı-XX əsrin II yarısında" adlı əsərində Azərbaycanın 50-ci illər tarixinə dair faktlardan və məlumatlardan geniş şəkildə istifadə olunmuş, əsərdə sovet dövründə tədqiqatdan kənar qalmış tarixi məlumatlar müasir dövrün tələbləri əsasında təhlil edilmişdir.

Azərbaycan SSR İkinci dünya müharibəsinin törətdiyi dağıntıya məruz qalmamışdır. Ancaq Sovet İttifaqının tərkib hissəsi olduğuna görə Azərbaycan SSR-də müharibə bütün sahələrə, o cümlədən xalq təsərrüfatına da mənfi təsir etmişdir.Sənayenin ümumi məhsulu 1940-cı illə müqayisədə kəskin aşağı düşmüşdür, neft hasilatı yarıbayarı azalmışdır. Kənd təsərrüfatının maddi-texniki bazası xeyli zəifləmişdir. Qara metal, elektrik enerjisi, sement, pambıq parça və başqa sənaye məhsullarının istehsalı azalmışdır. Pambıqçılıq geridə qalırdı, taxıl təsərrüfatı, bağçılıq və tərəvəzçilik başlı-başına buraxılmışdı. Müharibənin qurtarması SSRİ-nin xalq təsərrüfatının bərpasına yenidən imkan yaratdı. Bütün ölkələr öz istehsalını və iqtisadiyyatını dirçəltməli oldular.

SSRİ Ali Sovetinin 1946-cı ilin 18 martında açılan birinci sessiyası xalq təsərrüfatının inkişafı və bərpası üçün 1946-1950-ci illərə aid planı müzakirə edib qəbul etdi [7,96]. Planın əsas məqsədi xalq təsərrüfatını bərpa etmək, xalqın maddi vəziyyətini yaxşılaşdırmaq, müharibədən əvvəlki səviyyəni ötməkdən ibarət idi. Xalq təsərrüfatının dövlət tərəfindən idarə olunmasında struktur dəyişiklikləri həyata keçirildi. Dövlət Müdafiə Komitəsi 1945-ci il sentyabrın 4-də ləğv olundu. Ölkənin idarə edilməsində bütün işlər Xalq Komissarları Sovetinin, 1946-cı il martın 15-dən isə yeni adı ilə SSRİ Nazirlər Sovetinin əlində cəmləşdi [10,127]. Azərbaycanda isə Kommunist Partiyasının Mərkəzi Komitəsinin birinci katibi Mircəfər Bağırov respublikanın idarəsini bütünlüklə öz əlində cəmləşdirdi. XX əsrin 40-cı illərində böyük siyasi uğursuzluqlara, cinayətlərə yol açan şəhər və rayon milis orqanlarında siyasi şöbələr yaradıldı. 1949-cu il avqustun 9-da paytaxtlarda, o cümlədən Bakı şəhərində milisə xüsusi hüquqlar verildi [11,99]. Növbədənkənar məcburi iş norması ləğv olundu, 8 saatlıq iş günü və əmək haqqı ödənilməklə illik məzuniyyətlər bərpa edildi.

**Azərbaycan SSR-də sosial-iqtisadi vəziyyət.** Azərbaycan SSR-də 40-cı illərin ikinci yarısı-1950-ci illərin əvvəllərində vəziyyət ağır olaraq qalmaqda idi. Xalq təsərrüfatının qarşısında duran əsas vəzifələr kənd təsərrüfatının vəziyyətini dirçəltmək, ağır sənayenin və dəmir yolu nəqliyyatının bərpası və inkişafı, bütün sahələrin texniki tərəqqisinin təmin edilməsi, ölkənin müdafiə qabiliyyətinin artırılması, silahlı qüvvələrin ən yeni hərbi texnika ilə təchiz edilməsi və s. idi.

1946-1950-ci illər ərzində Azərbaycan SSR-də kənd təsərrüfatı sahə-

sində əkin sahələrini genişləndirmək, istehsalatın mexanikləşməsi, bütün kənd təsərrüfatı bitkilərinin məhsuldarlığının artırılması nəzərdə tutulurdu. Bundan başqa heyvandarlıq sahəsində heyvandarlığın məhsuldarlığını yüksəltmək, mal-qaranın sayını artırmaq, cinsini yaxşılaşdırmaq nəzərdə tutulurdu. Heyvandarlıq inkişafı üzrə dövlət planı qənaətbəxş həyata keçirilmişdi. 1948-ci ilin iyul ayına olan vəziyyətə görə heyvandarlığın inkişaf planı belə yerinə yetirilib: atlara görə 96,6%, iribuynuzlu heyvanlara görə 101,1 %, o cümlədən inək və camışlar üzrə 85,8 %, qoyun və keçilər planı 107,1, donuzlar üzrə 83,4 % [2]. Tərəvəz, meyvə, çay və sitrus bitkilərinin istehsalının genişləndirilməsi də qarşıya qoyulan əsas məqsədlərdən idi.

Əkin sahələrinin genişləndirilməsi, dənli və texniki bitkilərin məhsuldarlığının artırılması, sovxozların işinin yaxşılaşdırılması, kənd təsərrüfatı maşınları istehsalının artırılması barədə tədbirlərin həyata keçirilməsi nəticəsində Azərbaycanın kənd təsərrüfatının istehsalat-texniki bazası xeyli möhkəmləndirildi. Kənd təsərrüfatının yüksək inkişafı üçün respublikada şoran torpaqların yaxşılaşdırılıb istifadəyə verilməsinə xüsusi diqqət yetirilirdi.

Azərbaycan SSR-də xalq təsərrüfatının, xüsusilə neft sənayesinin bərpası və inkişafı üçün mühüm tədbirlər görüldü. SSRİ DMK 1945-ci il mayın 28-də Bakıda neft hasilatını artırmaq tədbirləri haqqında qərar qəbul etdi. 1946-1947-ci illərdə Azərbaycanda turbinli qazma daha çox tətbiq olunmağa başlandı. 1947-ci ildə Azərbaycan neftçiləri illik neft hasilatı planını artıqlaması ilə yerinə yetirirdilər. 1946-1950-ci illərdə nəinki Abşeronda, həmçinin respublikanın digər rayonlarında da yeni neft yataqlarının kəşfiyyatına başlanıldı. Dəniz neft yataqları əsasən Xəzərdə geniş şəkildə yayılmışdı. İlk dəfə olaraq 1946-cı ildə dənizin dibində geoloji kəşfiyyat işləri aparılmağa başlanıldı. 1949-cu ildə “Neft daşları” adlanan rayonda qazma ustası olan kommunist M.Kaveroşkin tərəfindən ilk quyu qazılmağa başlandı. Neft yataqlarının öyrənilməsində əsas yeri 1948-ci ildə dənizdə neft yataqları estakadalarının tikilməsi tuturdu. Xəzərin təlatümlü suları ilə mübarizə apararaq və digər çətin şərtlər altında işləyən neftçilər, onlarla və yüzlərlə ton neft hasil edirdilər. Onlar 1950-ci ildə 1949-cu illə müqayisədə neftin hasilatını yüksəltdilər. Bununla yanaşı, neft sənayesində müəyyən nöqsanlar qalmaqda idi.

Azneftzavodlar birliyinin neft təhvilinin yekunlarına dair avqustun ilk on günlüyündə Azneft tresti üzrə 4500 ton neft əskikliyi aşkarlandı. Trest rəhbərləri cari hasilatın əskikliyini gizlətmək, məqsədilə neft mədənləri tərəfindən trestlərin neft vurma kontorlarına qrafik üzrə təhvil tarixlərini özbaşına geriyə çəkərək və bununla da növbəti günlərin və ya qalıqlardan neftin vurulması hesabına cari hasilatın göstəricilərini yüksəldirdilər [5]. Kəşfiyyat trestlərində bütün iş sahələrinə, qazma kontorlarına gündəlik operativ rəhbərliyin zəifləməsi, Azneft kəşfiyyat birliyinin rəhbərləri Qasım-

zadə, Rüstəmbəyov, Babazadə, Çeplakov, Petrosov tərəfindən kəşfiyyat sahələrində işin icrasına göstərilən nəzarətin kafi nəticəsində olması Azərbaycan SSR-də yeni neft yataqlarının kəşfiyyatına dair dövlət tapşırıqları yerinə yetirilmirdi.

1949-cu il və 1950-ci ilin birinci yarısı üçün bircə dənə də olsun neft yatağı aşkarlanmayıb və respublikanın neft sənayesi mədən işləri üçün yeni sahələr əldə edə bilmirdi. Kəşfiyyat tresti qazma kontorlarının, xüsusilə də qazma partiyalarının texniki cəhətdən olduqca zəif idarəsi üzündən çoxlu sayda qəzalar baş verirdi [3]. Quyularda qəzalar ona görə baş verirdi ki, Azneft kəşfiyyat birliyinin, neft kəşfiyyat trestlərinin rəhbərləri, müdirləri, baş mühəndisləri və qazma kontorlarının baş geoloqları onlara tapşırılan fəaliyyət sahəsinə görə şəxsən məsuliyyət daşıdıqlarını hiss etmirdilər[4].

Respublikada M.C.Bağırov tərəfindən uzun illərdən bəri qüsurlu rəhbərlik metodu tətbiq olunmaqda idi. Bağırov kadrların fəaliyyəti üçün düzgün olmayan bir şərait yaratmışdı. İşçilərin seçilməsi kobudcasına pozulur, ona şəxsən sədaqətli olanları irəli çəkirdi. Respublikada təsərrüfat quruculuğunda olan nöqsanların əsas səbəbi qüsurlu rəhbərlik idi. Rəhbər işçilər və mühəndis-texniki kadrlar heç bir əsas olmadan işdən götürülür və başqa işə keçirilirdi ki, bu da qüsurlu iş üsulu idi. Bu qüsurlu iş üsulu neft sənayesindən də yan keçmədi. Azərbaycanda neftçıxarma sənayesində 1946-cı ildən 1953-cü ilədək hər il rəhbər işçilərin 30 faizdən çoxu dəyişdirilirdi. Nəticədə neft hasilatı yarıbayarı azalırdı [8,695].

Azərbaycan KP MK VƏ BK sənayenin perspektiv inkişafı məsələlərinə lazımınca diqqət yetirmirdilər. Kəndin iqtisadi və maliyyə vəziyyəti ağır olaraq qalırdı. Kənd təsərrüfatında gərginliyin əsas səbəblərindən biri də dövlətin kəndlə bağlı həyata keçirdiyi siyasətlə bağlı idi. Dövlət kəndə xammal bazası kimi baxırdı. Müxtəlif yollarla kəndi istismar edirdi. Nəticədə kənd təsərrüfatı işçilərinin sayı, əkin sahələri və mal-qaranın sayı azalmış, məhsuldarlıq aşağı düşmüşdü. Çətinlikləri aradan qaldırmaq üçün bir sıra tədbirlər görüldü. “Kolxozlarda kənd təsərrüfatı arteli Nizamnaməsinin pozuntularını ləğv etmək tədbirləri haqqında” SSRİ XKS və ÜİK (b) P MK-nın 1946-cı il 19 sentyabr tarixli qərarına uyğun olaraq kolxozların ictimai mülkiyyətini möhkəmləndirmək, torpaqlardan istifadə edilməsini nizama salmaq, kolxozçuların əməyini səmərəli təşkil etmək, artelin Nizamnaməsinin prinsiplərinə riayət etmək sahəsində mühüm işlər görüldü [7, 100]. Kənd təsərrüfatının inkişafında kolxozların təşkilat-təsərrüfatca möhkəmləndirilməsi mühüm əhəmiyyətə malik idi.

Kənd təsərrüfatı artelləri Nizamnaməsinin pozulması kolxozun ictimai torpaqlarının toplanmasında özünü göstərirdi. Kolxozçuların həyətyanı sahələri qanunsuz olaraq artır, müxtəlif təşkilatlar özbaşına olaraq kolxoz torpaqlarında fəhlə və qulluqçuların yardımçı təsərrüfatı və şəxsi bağçaları ya-

radılacağı adı altında tuturdular. Respublikanın bütün rayonlarında komissiya təşkil olunmuşdur ki, kolxozlara məxsus torpaqlardan istifadə vəziyyətini araşdırsın. Araşdırma nəticəsində xeyli ərazi kolxoza qaytarılmışdır. Bundan başqa, qanunsuz zəbt edilmiş kolxoz torpaqlarında yetişdirilmiş məhsullar dövlətə və kolxoza təhvil verilmişdir. Kolxoz əmlakının qanunsuz mənimsənilməsi Kürdəmir, Şamaxı, Xudat və digər rayonlarda rast gəlinmişdir. Respublikanın bir çox rayonlarında icraiyyə komitələri, rayon partiya komitələri və rayon kənd təsərrüfatı şöbələri kolxozlarda heyvanların sayının tənzimlənməsi üçün lazımi tədbirlər görmürlər, bu da kolxoz fermalarında heyvanların oğurlanmasına şərait yaradırdı.

N.S.Xruşşovun dövründə şəxsi təsərrüfatların sıxışdırılması , kəndlilərin illərlə məşğul olduqları təsərrüfat sahələrinin ləğvinə, əhalinin maddi durumuna da mənfi təsir göstərdi. Azərbaycanın kənd təsərrüfatında bir çox kolxoz, MTS və sovxozların işində 1953-cü ildən əvvəl çoxlu ciddi nöqsanlar baş vermişdi. Nöqsanların mahiyyəti “SSRİ kənd təsərrüfatını daha da inkişaf etdirmək tədbirləri haqqında” Sovet İKP MK-nın sentyabr (1953-cü il) plenumunun N.S.Xruşşovun məruzəsi üzrə qərarında bütünlüklə aşkara çıxarılmışdı. Partiyanın Mərkəzi Komitəsi kənd təsərrüfatında məhsuldar qüvvələrin artmasına mane olan səbəbləri təhlil edərkən qeyd etmişdi ki, geriliyin obyektiv səbəbi keçmişdə həm ağır sənayeni, həm kənd təsərrüfatını, həm də yüngül sənayeni eyni zamanda çox sürətlə inkişaf etdirməyin mümkün olmamasından ibarət idi.

Ciddi zərər görmüş sahələrdən biri də kənd təsərrüfatı idi. Kənd təsərrüfatının geriliyinin subyektiv səbəbləri rəhbərliyin səhvlərindən ibarət idi. [8,703]. Yerli şəraitə uyğun olaraq, əsasən, dağ və dağətəyi rayonlarda təşkil olunmuş 2200-ə qədər xırda kolxoz camaatın narazılığına baxmayaraq ləğv edildi və başqa təsərrüfatlara birləşdirildi [9,145]. Respublikada heyvandarlıq fermaları, kolxozlar və sovxozlar, traktor briqadaları kənd təsərrüfatında yüksək məhsulun əldə edilməsi uğrunda daim çalışırdılar. Kənd təsərrüfatında mövcud problemləri aradan qaldırmaq üçün respublikada kolxoz və sovxozların möhkəmləndirilməsi üçün yüksək ixtisaslı kadrlar və kənd təsərrüfatı üzrə mütəxəssislərin hazırlanması üçün xüsusi orta təhsil müəssisələri, rayon və kolxoz məktəbləri yaradıldı. Kənd təsərrüfatı nümayəndələri, müdirlər və digər sahələr üzrə plan yerinə yetirən mütəxəssislər altı aylıq və yaxud bir illik ixtisasartırma kursları keçirdilər. 1951-ci ilin əvvəllərində respublikanın 40 rayonunda kolxozların möhkəmləndirilməsi işləri başa çatdı. Kənd təsərrüfatında 3136 artel 1044 təsərrüfatda birləşdirildi [6]. Yüngül, yerli, yeyinti və digər sənaye sahələrinin ayrı-ayrı müəssisələri, ümumi məhsul üzrə planı yerinə yetirərək, heç də həmişə bəzi mühüm məhsul növlərinə aid dövlətin qoyduğu planları yerinə yetirmirdilər.

Azərbaycan SSR-də iqtisadi sahədə xeyli mənfi halların mövcud olma-

sına baxmayaraq, aidiyyatı qurumlar bunun səbəbini araşdırmadan günahsız insanları cəzalandırırdı. İdarə rəhbərləri kütləvi saxtakarlığa, rəqəmlərin süni şəkildə şişirdilməsinə yol verirdilər. Kənd təsərrüfatında kadrların seçilməsi və yerləşdirilməsində ciddi səhvlərə yol verilirdi. Çox vaxt işçilər iş keyfiyyətinə görə yox, şəxsi sədaqət, dostluq və qohumluq prinsiplərinə görə seçilirdi.

Sənayenin bir sıra sahələrində, xüsusilə neft sənayesində inkişaf əvəzinə hasilat aşağı düşmüşdü. Respublikanın digər sənaye sahələrində də artım hiss olunmurdu, hətta mühüm istehsal sahələrində inkişaf çox cüzi hiss olunurdu. Kənd təsərrüfatına xüsusi diqqət yetirilsə də, bir sıra sahələrdə istehsal göstəriciləri müharibədən əvvəlki səviyyədən də geri qalırdı. Xüsusilə əkinçilik bitkilərinin istehsalında vəziyyət ağır olaraq qalırdı. Məhsuldarlıq aşağı idi. Bütünlükdə bərpa illərində nəzərdə tutulan nəticələr əldə olunmadı, məhsuldar qüvvələrin düzgün yerləşdirilməsi, birtərəfli inkişaf əlamətlərinin qalması illərdən bəri yığılıb qalan problemləri həll etmədi.

Müharibədən sonra hökumətin yeritdiyi sosial siyasət cəmiyyətin demoqrafik vəziyyətinə də təsir göstərmişdir. Əhali problemində əsas məsələ say artımı idi. Müharibədən sonrakı dövrdə say artımı prosesi çox ləng gedirdi.1950-ci illərdən başlayaraq Azərbaycan SSR-də əhalinin sayında artma müşahidə olunurdu. 1946-1953-cü illərdə şəhər əhalisi artmışdır.Gənc nəsil kənddən şəhərlərə üz tutduğu üçün kəndlilərin sayı azalırdı. Əhalinin sıxlıq və çoxluq təşkil etdiyi Bakı, Sumqayıt və Gəncə bölgəsinə daimi əhali axını prosesi baş verdi ki,bu da bütövlükdə republikada ciddi sosial-iqtisadi problemlərin yaranmasına şərait yaradırdı. Əhalinin həyat səviyyəsi çox aşağı olaraq qalırdı, gündəlik tələbat mallarını ödəməyə ərzaq çatışmırdı. Ərzaq və sənaye malları kartoçka sistemi ləğv edildikdən sonra dövlətin müəyyən etdiyi vahid tarif qiyməti ilə mağazalarda açıq satılırdı. Maliyyə çətinliyini aradan qaldırmaq məqsədilə pul islahatı keçirildi. Ölkədəki istehlak bazasındakı vəziyyəti pul islahatı və kartoçka sisteminin ləğv edilməsi düzəldə bilmədi. Kartoçka siteminin ləğv edilməsi qiymətlərin artmasına səbəb oldu. Dövlət ildən-ilə çox işlənən gündəlik tələbat mallarının qiymətlərini aşağı salmağa başladı, qiymətlərin aşağı salınmasına baxmayaraq əhalinin maddi vəziyyəti heç də ürək açan deyildi.

**Nəticə.** Azərbaycanda iqtisadi, sosial inkişaf ölkənin milli maraqları əsasında deyil, mərkəzin maraqları əsasında həyata keçirilirdi. Kənd təsərrüfatında ağır vəziyyət yaranmışdı. Mühüm sahələr dövlət planlarını yerinə yetirmirdilər. Pambıqçılıq geridə qalırdı, ictimai heyvandarlıq, taxıl təsərrüfatı, bağçılıq, tərəvəzçilik və digər sahələrdə özbaşınalıq hökm sürürdü. İqtisadiyyatı idarəetmə daha çox siyasi metodlarla həyata keçirilirdi. Təsərrüfatda nöqsanların və uğursuzluqların əsas səbəbi rəhbərliyin çatışmazlığı, ayrı-ayrı təsərrüfatçıların bacarıqsızlığı, onların məsuliyyətlə işləmək

istəməmələri idi.

Bakıda açılan yeni iş yerlərinə kəndli gənclərin cəlb edilməsi burada demoqrafik vəziyyəti dəyişdi. Eyni zamanda Sumqayıt və Daşkəsən bölgəsinə də əhali axını prosesi baş verirdi. Nəticədə, Azərbaycan SSR-də müəyyən çətinliklər yaranırdı.

XX əsrin 40-50-ci illərində iqtisadi inkişafı səciyyələndirən planlaşdırmada ciddi qüsurlar var idi. Ölkə iqtisadiyyatının inkişaf planları aşağıdan, yerli iqlim şəraiti, imkanlar nəzərə alınmaqla hazırlanmalı olduğu halda əksinə planlaşdırma yuxarıdan aşağılara hazır göndərilirdi. Planda öz əksini tapan göstəriş və tapşırıqlar, sözsüz yerinə yetirilməli idi. Burada zorakılıq siyasəti altında yerlərdə ciddi saxtalaşdırmalara, pozuntulara yol verilirdi [11, 118]. Azərbaycanın iqtisadi və sosial inkişafı imperyanın maraqları əsasında həyata keçirilirdi.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi İctimai-Siyasi Sənədlər Arxivi f.1, s.32, i.39, v.142.
2. ARPİİSSA f.1, s.33, i.41, v.35.
3. ARPİİSSA f.1, s.36, i.46, v.34.
4. ARPİİSSA f.1, s.36, i.62, v.35.
5. ARPİİSSA f.1, s.36, i.83, v.84.
6. ARPİİSSA f.1, s.247, i.17, v.19-21.
7. Azərbaycan tarixi. 7 clddə. VII c. – Bakı: Elm, - 2008. - 693 s.
8. Azərbaycan Kommunist partiyası tarixinin oçerkləri. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, - 1964. -817 s.
9. Qaffarov T. Azərbaycan tarixi (1920-1991). – Bakı: Mütərcim, - 1999. - 279 s.
10. Siyasi tarix. Dərs vəsaiti. II hissə. - Bakı: Azərbaycan Ensiklopediyası, - 1998. - 415 s.
11. Zeynalov İ.X. Totalitar Sovet cəmiyyəti: tarixin ibrət dərsləri. – Bakı: "Ləman nəşriyyat poliqrafiya" MMC, 2017. -720 s.


## СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКИЕ ПРОБЛЕМЫ И ТРУДНОСТИ В АЗЕРБАЙДЖАНСКОЙ ССР В 1946-1950 ГГ.


**Азат Н. ДАДАШОВА**


### РЕЗЮМЕ


После окончания Второй Мировой Войны главным вопросом стояло улучшение материального положения населения за счет восстановления разрушенных сел, городов, поселков и железных дорог, промышленных предприятий, перехода к мирному строительству. Было разрушено около 30 процентов народного хозяйства. В 1946-1950 годах был определен план восстановления и развития народного хозяйства Азербайджанской ССР. Хотя в управлении народным хозяйством со стороны государства произошли коренные изменения, некоторые недостатки оставались. Местами были случаи насилия. Принципы тоталитарного режима проявлялись в управлении колхозами и совхозами. Планирование производства основывалось на текущих требованиях. Не

создавались условия для развития частного хозяйства населения, не учитывались реальные возможности. Система управления осталась неизменной, преобладал произвол. В статье исследованы социально-экономические недостатки, существовавшие в Азербайджанской ССР в 1946-1950-х гг.

**Ключевые слова:** Азербайджанская ССР, народное хозяйство, социально-экономические проблемы

## SOCIO-ECONOMIC PROBLEMS AND DIFFICULTIES IN THE AZERBAIJAN SSR IN 1946-1950

**Azat N. DADASHOVA**

### SUMMARY

After the end of the World War II, the main issue was to improve the material situation of the population by restoring the destroyed villages, cities, towns and railways, industrial enterprises, and the transition to peaceful construction. About 30 percent of the national economy was destroyed. In 1946-1950, a plan for the restoration and development of the national economy of the Azerbaijan SSR was determined. Although fundamental changes have taken place in the management of the national economy by the state, some shortcomings remain. There were cases of violence in places. The principles of the totalitarian regime were manifested in the management of collective farms and state farms. Production planning was based on current requirements. Conditions were not created for the development of the private economy of the population, real opportunities were not taken into account. The control system remained unchanged, arbitrariness prevailed. The article examines the socio-economic shortcomings that existed in the Azerbaijan SSR in 1946-1950.

**Keywords:** Azerbaijan SSR, national economy, socio-economic problems

**UOT 94 "19/..."**

# ALMAN İSLAM ANLAYIŞININ NƏZƏRİ-TARİXİ ASPEKTLƏRİ

**Fəridə M.ALLAHVERDİYEVA***

*Avropanın iqtisadi və siyasi cəhətdən ən güclü ölkələrindən biri sayılan Almaniya, digər böyük Avropa dövlətləri kimi, İslam və müsəlmanlar mövzusunda öz maraqlarına uyğun fərqli siyasətlər həyata keçirir. Bu çərçivədə Almaniyanın izlədiyi daxili və xarici siyasətdə Qərbin digər qlobal güclərindən fərqli davranması da diqqət çəkir. İslamın doğulduğu və müsəlman ölkələrinin daha çox olduğu Yaxın Şərq regionu, Almaniyanın daima xüsusi diqqət mərkəzində saxladığı bölgə olmuşdur. Bu çərçivədə, siyasi və iqtisadi gücə malik olan Almaniyanın, müsəlman ölkələrinin tarixində xüsusi yerə malik olan Ərəb baharı hadisələrinin yaşandığı dövr əsas alınmaqla, "Alman İslamı" (German Islam) düşüncəsinin təşəkkül prosesi araşdırılır. Qərb düşüncəsi kontekstində İslamın yenidən şərh edilməsi prosesi, Alman tipli, liberal İslam anlayışının yaradılması, bu mənada İslamın xüsusiləşdirilməsi və Alman İslamının yaranması kimi müzakirələr müasir dövrün aktual müzakirə mövzuları sırasındadır. Müzakirələrin əksini müəyyən etmək isə Ərəb baharı hadisələri dövründə və sonrasında dünyaya geniş yayılan İslam dininin geniş kateqoriyalarda təhlilinə dayanır. Bu kontekstdə, İslamın sülh dini olaraq vurğulanması kimi müzakirələrlə yanaşı, onun terror qaynaqlı din olması fikirləri də az səslənmir. Almaniya da daxil olmaqla, Avropada İslamın terrorla eyniləşdirilməsinə səbəb olan hadisələrin başında Ərəb baharı hadisələrindən öncə yaşanmış 11 sentyabr terror hadisəsi, Əfqanistanda Əl-Qaidə terror təşkilatının yaranması, Madridə terror hücumları İslamdan söz düşəndə mənfi təsəvvürlərin və fikirlərin ortaya çıxmasına zəmin yaratmışdır. Müsəlmanları və dünyanı xaosa sürükləməməyin, İslamın mahiyyət etibarı ilə sülh dini olması fikirləri də, Alman İslamı düşüncəsinin yaranmasının tərkib hissəsində sayıla bilər. Bu baxımdan, Almaniyada İslam anlayışının nəzəri-tarixi aspektlərini araşdırmaq aktuallıq cəhətdən xüsusi əhəmiyyət kəsb edir.*

**Açar sözlər:** Alman İslamı, Yaxın Şərq, Alman İslam konfransı, Ərəb baharı, İslamofobiya

**Giriş.** Almaniya Birinci və İkinci Dünya müharibələrini məğlub olaraq başa çatdıran, yarım əsrə yaxın iki yerə bölünmüş halda varlığını davam etdirən, Soyuq Müharibənin sona çatması ilə birləşən, ABŞ-ın təmin etdiyi təhlükəsizlik çətiri altında güclənərək bir çox dağıntılardan xilas olmuş Avropa dövlətidir. Yeni dünya düzəninə keçid prosesində, nasizmin törətdiyi

* ***Bakı Dövlət Universitetinin doktorantı; Faridaallahverdiyeva@gmail.com;***
***ORCİD İD: 0000-0001-5141-2900***

mənəvi dağıntıların öhdəsindən gəlməyə çalışaraq, Avropaya inteqrasiya prosesinə diqqət yetirmiş, beynəlxalq ictimaiyyətin etimadını qazanaraq, Avropanın iqtisadi və siyasi birliyinin formalaşmasında aparıcı rol oynamışdır. Almaniya daxilində baş verən siyasi qarşıdurmalar, bölünmələr səbəbindən, Yaxın Şərq regionuna, Avropanın digər hegemon dövlətlərindən olan İngiltərə və Fransa kimi xüsusi maraq göstərməmişdir. Bunun əvəzinə, uzun illər tərkib hissəsində olduğu Avropa Birliyinin nəzdində Yaxın Şərqə yönəldilmiş iqtisadi siyasət yürütmüş, ortaq addımlar atmağa çalışmışdır. Bundan əlavə, Almaniyanın Yaxın Şərqdə müstəmləkəçilik keçmişi olmadığından, digər Qərb ölkələri ilə müqayisədə, nisbətən müsbət münasibət mövcuddur.

2010-cu ildə Tunisdə başlayan, bütün Yaxın Şərq regionuna təsir edən Ərəb baharı hadisələri Avropada da xüsusi maraqla izlənmişdir. Ərəb baharı hadisələrinin başlanmasından sonra Almaniyanın nüfuzu başda Tunis olmaqla, digər ərəb ölkələrində üstün mövqeyə gəldi. Tunisdə Ben Əli hakimiyyəti devriləndən sonra Almaniyanın regiona yönəldilmiş iqtisadi və texniki məsələlər ilə bağlı əməkdaşlıq prosesi gücləndi. Yaxın Şərqin neft ölkəsi olan Liviyanın Tunislə yaxınlığı, Almaniyanın regiona marağını iqtisadi cəhətdən daha da artırdı. Fransa və İngiltərədən fərqli olaraq, Almaniya Tunisin demokratikləşməsi üçün dəstək verərək, özünə burada dayaq yaratmağa çalışdı.

Ərəb baharı anlayışı, Yaxın Şərqdə müsəlman ölkələrinin demokratiya uğrunda apardıqları inqilab dalğası kimi bilinsə də, hadisələr ilk olaraq Tunisdə başlandığında, Ərəb baharı adı ilə yox, "Yasəmən İnqilabı" olaraq adlandırılırdı. Tunis küçələrində etirazçılara atəş açan polisə qarşı Yasəmən çiçəklərinin atılması inqilabın adını müəyyənləşdirdi. Lakin inqilab dalğası Tunislə məhdudlaşmadı, Misir, Liviya, Suriya, Yəmən kimi digər Ərəb ölkələrinə də yayıldı. Bu baxımdan, Yasəmən inqilabı, Ərəb baharı olaraq adlandırılmağa başlandı.

**Almaniyada İslamofobiyanın təşəkkülü.** Bu gün Qərbi Avropada İslam dininin geniş yayılması və müsəlman kimlik problemləri ilə bağlı aparılan sosioloji tədqiqatların mərkəzində duran əsas anlayış "İslamofobiya", yəni İslam düşmənliyidir. İslamofobiya termin olaraq daha yeni anlayış sayılsa da, Avropa ölkələri üçün bu düşüncənin formalaşması prosesi Ərəb baharı hadisələrindən daha əvvələ dayanır. İslamofobiyanın Amerika və Avropada geniş müzakirə mövzusuna çevrilməsi, xüsusən, 2001-ci il 11 sentyabr terror hadisələrindən sonraya təsadüf edir. ABŞ-da yaşanan terror hadisəsindən sonra Amerika və Avropada İslamı anti-demokrat siyasətin və terrorun mənbəyi kimi göstərən təbliğatlar geniş yayılmağa başlandı. Bu təbliğatlar müsəlmanlara qarşı təqib və təzyiqlərin artmasına da səbəb oldu.

İslamofobiya termini heç bir reallığa əsaslanmasa da, İslamdan və

müsəlmanlardan qorxmaq və uzaqlaşmaq instinkti kimi qəbul edilir. İslamın Avropada yayılması ilə bərabər, xristian yazıçıları, nəzəriyyəçiləri, siyasətçiləri öz gətirdikləri iddialar vasitəsilə, İslamın xristian təlimi ilə müqayisə olunmayan “terror dini” olmasını sübut etməyə çalışmışlar. İslamın iddia və qanunlarını təkzib edərək, daha çox xristianın İslamı qəbul etməsinin qarşısını almağı düşünürdülər. Avropanın İslam düşmənliyi mövzusunu oryantalist düşüncə kontekstində dəyərləndirən Edvar Səidə görə, qərblilərin şüurunda İslamla bağlı mənfi fikirlərin varlığı müəyyən ardıcıllıqla süzgəcdən keçirilərək XIX əsrdən bəri davam etmişdir [2, 217]. Buna görə də, Avropa təxəyyülündə İslamofobiyanın tarixi varlığını əsaslandırmaqda tarixi mənbələrdən istinad verməkdə çətinlik çəkmirlər.

Müsəlmanların kütləvi olaraq, yaxşı iş və yaşayış ümidi ilə, şərqdən qərbə doğru “köç” prosesi, Ərəb baharı hadisələrindən sonra başlasa da, 1961-ci il noyabrın 30-da Almaniyanın əmək bazarı üçün Türkiyədən işçi qəbulu haqqında müqavilə imzalaması ilə 5 milyona yaxın türk mühacirin qəbulu Almaniyada müsəlman əhalinin artımı problemini başlatmışdı [9, 42]. Almaniya mühacirlərin yaşamağa başladığı bir dövrə girdikdən sonra inteqrasiya problemlərinin gətirdiyi səbəblər, xüsusən, müsəlmanlara qarşı mənfi ictimai reaksiyanın başlanmasına səbəb oldu. Son dövrlərdəki araşdırmalar isə, bu reaksiyanın artıq irqçi ayrı-seçkilik və müsəlmanlara qarşı zorakılıq həddinə çatmasını göstərir. Almaniyadakı İslamofobiyadan bəhs edən “Almaniyada İslamofobiya Milli Hesabatı 2015” hesabatı, İslamofobiyanın Almaniyada son on ildə, ən aktual bir mövzu olduğunu bildirir. İslama qarşı olan Alman düşüncəsinə görə, İslam qaydaları və müsəlman həyat tərzi Alman mədəniyyətindən fərqlidir və ona uyğunlaşa bilmir [1]. Bertelsmann Fondunun 2015-ci ilin yanvarında dinlərlə bağlı verdiyi hesabatda, almanların 61%-i İslamın onlara uyğun olmadığını, 57%-i isə müsəlmanları özləri üçün təhlükə olaraq gördüklərini bildirdilər [3]. Alman yerli mədəniyyəti irqçiliyə və sinfi ayrı-seçkiliyə qarşı görünsə də, müsəlmanların həyat tərzi və inanclarının mahiyyətcə fərqli olduğu, bu iki mədəniyyətin əsla bir-birinə uyğunlaşa bilməyəcəyi fikrinə əsaslanır.

**Ərəb baharı fonunda Almaniyanın İslama yanaşması.** Yaxın Şərqdə müsəlman cəmiyyətlərinin demokratiya uğrunda başlatdığı inqilab dalğası Almaniyanın regionla bağlı siyasətini təhlükəsizlik, iqtisadi və siyasi maraqlar çərçivəsində yenidən formalaşdırmasına səbəb oldu. Neft mənbələri ilə zəngin olan Yaxın Şərq ölkələri Almaniyanın iqtisadi gəlir və enerji mənbələrinə çıxışı üçün diqqətini çəkmişdir. Lakin digər Avropa ölkələri və Avropa Birliyinə daxil ölkələrdən fərqli siyasət aparması, xüsusən regiondakı problemlərə qarşı silah və güc tətbiq etməməsi, Almaniyanın region siyasətində öz iqtisadi maraqlarını ön plana çəkməsi kimi qiymətləndirilir. Deməк olar ki, Ərəb baharı hadisələri qarşısında Almaniya hərbi güc

tətbiqinə qarşı mövqeyini qoruyub saxlayaraq, regiona yönəlik stabil siyasət həyata keçirir. Ərəb baharı hadisələrindən qaynaqlanan, əsasən Suriyadan gedən kütləvi qaçqın böhranında, ən çox müsəlman immiqrantı qəbul edən ölkə Almaniya oldu. Almaniyada A.Merkelin kanslerliyi dövründə 2 milyondan çox müsəlman immiqrant qəbul edilmişdi, lakin mühacirlərin daha çox müsəlman ölkələrindən gəlməsi Alman hökümətini və siyasi partiyaları təzyiqlər altında qoydu. Ərəb baharı hadisələrindən sonra müsəlman mühacirlərin axınının daha da artması Almaniyanın terrorizm və miqrasiya ilə bağlı təhlükəsizliyi nəzarətdə saxlamasını çətinləşdirdi. Suriyadan sonra Almaniya üçün strateji əhəmiyyətə malik Tunisdən də 2015-2016-cı illərdə davam edən mühacir dalğası miqrasiya məsələlərində Tunislə münasibətləri kəskinləşdirdi. Merkelin 2016-cı ildə apardığı "Açıq qapı" siyasəti rəqibləri tərəfindən ciddi narazılıqlara səbəb oldu və Merkelin daxili siyasətə nəzarəti itirməsi kimi şərh edildi. 2017-ci ilin mart ayında Merkel Şimali Afrika səfəri zamanı, Misir, Əlcəzair, Tunis kimi ölkələrə miqrasiyaya nəzarət və qaçqınların geri qəbulu üçün əməkdaşlıq təklif etmiş, şərtlərdə razılığa gəlinərsə, Tunisə 250 milyon avro inkişaf yardımı göstərməyi öhdəsinə götürmüşdür [8]. İnqilab illərində və sonrasında Tunisə demokratikləşmə yolunda daha çox dəstək verib iqtisadi yardım göstərən və qeyi-hökümət təşkilatlarının ofislərini açdığı ölkə Almaniya olmuşdur. Bununla da Ərəb baharı hadisələri Almaniyanın region ölkələri ilə əlaqələrinin daha sürət qazandığı dövr olmuşdur. Bu dövrdə Parlamentin Xarici Əlaqələr Komitəsinin o zamankı sədri Ruprext Polenz öz açıqlamasında Almaniyanın Ərəb baharı hadisələri fonunda siyasi hədəfləri arasında immiqrasiya və qaçqın siyasəti, iqtisadi əməkdaşlıq, terrorizmlə mübarizə və təhlükəsizliyin təmini yönündə olduğunu bildirmişdi [4].

28 yanvar 2012-ci ildə Almaniyanın keçmiş Xarici İşlər naziri Qvido Vestervelle Tunisə səfəri zamanı bu bölgədə fəaliyyət göstərən islamçı-demokrat partiyaların varlığının Avropada xristian-demokrat partiyaların olması qədər normal olduğunu qeyd etmişdir. Müsəlman ölkələrin demokratiya uğrunda mübarizəsini, İslami siyasi partiyaların yaranmasını dəstəklədiyini, Qərbdə demokratiya ilə İslam arasında uyğunsuzluğun olması fikirlərinə münasibətini isə "sadəcə olaraq, yanlışdır" şəklində ifadə etmişdir [7]. Vestervelle Tunisdə demokratik seçkilər yolu ilə qalib gələn Əl-Nahda partiyasını da xüsusən dəstəkləmiş, bölgədə yenidənqurma işləri üçün iqtisadi yardımın göstəriləcəyini bildirmişdi.

2011-ci ilin fevralında Misirdə prezident Hüsnü Mübarəkin istefasını, bundan sonra bölgədə dini hərəkatların çoxalmasını, İslami aspekti üstünlük təşkil edən strukturların formalaşması və demokratikləşmə yolunda atılan addımları, Misir və Almaniya arasında imzalanan Berlin Bəyannaməsi çərçivəsində ilk olaraq dəstəkləyən ölkə Almaniya olmuşdur. Bundan başqa, Li-

viya və Suriya ilə də iqtisadi əməkdaşlıq çərçivəsində əlaqələr yaradılmışdır.

**Almaniyanın ölkə daxilində İslam siyasəti.** Almaniyanın müsəlman ölkələri ilə münasibətlərdə demokratik, sülh şəraitində siyasət aparması, daxildə müsəlman immiqrantların artması və İslamın geniş yayılması qarşısında artan narazılıqların qarşısını ala bilmirdi. İslama qarşı təxribatlar, müsəlmanlara qarşı təzyiqlər artmağa başlamışdı. Əvvəldən ictimai-sosial qınaq şəklində başlayan narazılıqlar daha sonra küçə etirazları ilə birləşərək ağır hücumlara çevrildi. Bu etirazlar başlıca olaraq, Qərb mədəniyyətinə tərs görünən hicabı hədəf alaraq, müsəlman qadınların qapalı geyinməsi, ictimai yerlərdə üzlərini bağlamasına qarşı yönəldilmişdi. Sosial şəbəkələrdən istifadənin geniş yayıldığı dövrə təsadüf etdiyimiz üçün, artıq etirazlar yalnız küçə etirazları, təbliğat xarakterli nəşrlərlə də məhdudlaşmır, dünya üzərində internetin istifadəsinin geniş yayılması, ondan hər növ məqsəd üçün istifadəni də asanlaşdırır. Bu səbəbdən, müsəlmanlara qarşı etiraz dalğası və təbliğatlar internet üzərindən sosial şəbəkələrdə də davam etdirilirdi. “Matruşka” (Rus milli oyuncağı) kimi təmsil olunan qara hicablı müsəlman qadınların əksi üzərində qırmızı zolaqlarla xətlənmiş halda yayımlanır, qaçqınlara qarşı nəşrlər paylaşılır. Bu cür düşmən tipli ideologiya tərəfdarları müsəlmanlara və onların mənəvi dəyərlərinə qarşı təcavüz siyasəti yürütməkdən çəkinmədən onların dini inanclarına, məscidlərə qarşı şifahi və fiziki hücumları davam etdirirlər. İrqçiliyə qarşı qurulan “ReachOut” təşkilatının 2015-ci ildə verdiyi müsahibəyə görə, Almaniyada, İslamofobiya çərçivəsində irqçilik və zorakılıq hücumları ən çox Berlin şəhərində qeydə alınıb [6]. Müsəlmanların yaşadığı ərazilərə hücumların başlanması, zor tətbiqinin artması halları və bu hadisələrə siyasi baxımdan laqeyid yanaşma alman siyasətçilərinin də İslamofobiyanın yayılmasına qarşı münasibətini təsvir edir. Müsəlmanların dediyi kiçik bir söz belə təbliğat vasitəsilə şişirdilmiş şəkildə göstərilir, dini və mənəvi dəyərləri açıq şəkildə tənqid edilir, lakin müsəlmanlara qarşı ölümlə nəticələnən hücumlar belə lazımi reaksiyanı almır.

Mühacir müsəlmanların Almaniyada yaşadığı ən böyük maneə dil və təhsil problemləri ilə bağlı olmuşdur. Bu gün də müəyyən dərəcədə davam etməkdə olan təhsil problemi və müsəlman mühacirlərdən bir çoxunun illər ərzində bir kəlmə belə almanca bilməməsi onların bu cəmiyyətə qaynayıb-qarışma, həm də marjinallaşma problemlərinə səbəb olur. Almaniyada müsəlman vətəndaşların sayının artması, təhsil mərkəzlərində müsəlman tələbələrin oxuması, bir tərəfdən İslamla bağlı kitabların, dərsliklərin yazılmasını da labüd etdi. İslamın beynəlxalq səviyyədə imicinin daha çox terrorizmlə əlaqələndirilməsinə qarşı olaraq, onun mahiyyətcə sülh və demokratiya tərəfdarı bir din olmasıyla bağlı nəşrlər, yazılar da yazılmağa başlanırdı. Bu səviyyədə İslamın tədris edilməsi üçün müəyyən müsəlman icması olmasa da, din dərslərini tədris edəcək müəllim və materialların hazırlanması prosesi

başlandı. Almaniyada müxtəlif dini nəşrlərin dərc olunması prosesinə ilk olaraq, 2008-ci ildə "Saphir" dərsliyinin nəşri və alman dilində İslam dini anlayışlarının izahı olaraq dərc edilməsi səbəb oldu [3, 14]. Lakin dərsliyin alman dilində yazılması və izahı, dini terminlərin və anlayışların bilərəkdən və ya bilməyərəkdən səhv ötürülə biləcəyi də narahatlıq doğururdu. Bu narahatlığın ardınca, "Avro İslam", "Avropa İslamı" və ya "Alman İslamı" kimi ifadələr üzə çıxmağa başladı. Bu anlayışların yaranma səbəbi Almaniyanın İslam siyasətində müsəlmanları öz cəmiyyətlərində "yad", "başqası" olaraq görməsi, onların dini inancları səbəbindən yaşam tərzini qərbə uyğunlaşdırmaq siyasəti olmuşdur. Bundan başqa, İslamı Qərb mədəniyyətinə və həyat tərzinə uyğun dəyişmək, xüsusən də, alman dilində şərh etmək məqsədi daşıyırdı. Alman İslamı, alman tipli liberal İslam yaratmaq və dövlət tərəfindən təsdiqlənmiş nəşrlərlə, akademik tədqiqatların zəruriliyinə diqqət çəkir.

Xronoloji çərçivədə baxdığımızda Avro İslam anlayışının Alman İslamı anlayışından daha əvvəl yarandığını deyə bilərik. 1992-ci ildə Suriya əsilli alman yazıçısı və tədqiqatçısı Bassam Tibi tərəfindən elmi müzakirə zamanı istifadə olunmuş bu termin İslamın avropalaşmasını və Avropada yaşayan müsəlmanlar tərəfindən formalaşacaq dünyəvi İslamın yaradılması anlayışını ifadə edir [10]. Bundan başqa, Alman dövlətinin İslamın müzakirə və tədris prosesində təşkil edilən işlərin əvvəlinə "alman" terminini əlavə etməsi də birmənalı qarşılanmır. Almaniyanın İslam ilə bağlı məsələlərdə dövlət səviyyəsində məşğul olub nəzarətdə saxlamağı bacarmaması, alman-müsəlman icmalarını çətin vəziyyətdə qoyaraq, müsəlman varlığını təhlükəli göstərən ideologiyanın obyektinə çevirmişdir.

Alman dövləti ilə Almaniyada yaşayan müsəlmanlar arasında uzunmüddətli dialoqun başlanğıcı sayılan həmin dövrdə Daxili İşlər naziri Volfqanq Şöyblenin rəhbərliyində 2006-cı ildə təşkil edilən "Alman-İslam Konfransı" 16 ildən bəri fəaliyyətini davam etdirir. Müsəlman cəmiyyətlərinin daha yaxşı dini və ictimai şəraitdə yaşamasını hədəfləyən konfrans, bu proses müddətində həm müsbət, həm də mənfi cəhətləri ilə varlığını davam etdirmişdir. İndiyə qədər həm fərdi, həm də institusional olaraq heç bir şəkildə təmsil olunmayan fərdlərin, İslamın tənqidi ilə məşğul olan şəxslərin dövlət səviyyəsində İslamdan danışması Alman-İslam Konfransının bir çox müsəlman tərəfindən artıq ciddi qəbul edilməməsinə səbəb oldu. Konstitusiyaya zidd olmasına baxmayaraq, dövlətin dini məsələlərə müdaxilə cəhdinin artması Alman İslam Konfransı kontekstində müsəlmanların inteqrasiyası zamanı təhlükəsizlik və İslam terroru kimi mövzuların müzakirəsi müsəlmanlara qarşı təzyiqlərin cəmiyyətdə kök salmasına səbəb oldu [5].

2018-ci ildə keçirilən Alman İslam Konfransında Daxili İşlər Nazirliyinin müşaviri Markus Kerber Almaniyada yaşayan müsəlmanlardan Alma-

niyaya mənsub İslamı qəbul etmələrini istəyərkən, əslində, Alman İslamını siyasi məqsədləri üçün hazırladıqlarını bir daha göstərmiş oldu [7]. İlahiyyatçılar, sosioloqlar deyil də, məhz siyasətçilərin bu məsələ ilə məşğul olması İslam siyasətinin arxasında dayanan İslam qorxusunu da görməyə imkan yaradır.

Yaşanan mənfiliklərə baxmayaraq, konfransa yeni nazirlərin rəhbərliyi ilə müsbət mesajlar verən mövzuların seçilməsi, məscid cəmiyyətlərinin konfransa cəlb edilməsi və müsəlmanlar tərəfindən mənimsənilməsi prosesində imkanlar yaradıldı. Almaniya din-dövlət münasibətlərinin inkişafı prosesində dini simvollara hörmət, məscidlərin tikintisi və onların fəaliyyətinin daha müstəqil maliyyələşdirilməsi ilə bağlı işlərdə də addımlar atmışdır.

**Nəticə.** Yaxın Şərqdə baş verən və Avropaya doğru öz əhatə dairəsini genişləndirən Ərəb baharı hadisələrinin nəticəsi olaraq, Avropaya müsəlmanların sürətlə yayılması, İslamın ictimai və siyasi həyatın müzakirə mövzusuna çevrilməsi iqtisadi maraqlar səbəbindən Almaniyaya da təsir etdi. ABŞ və Avropada baş verən terror hadisələri İslamla bağlı mənfi düşüncələrin artmasına səbəb oldu. Almaniyada İslamofobiyanın təşəkkül prosesi və müsəlmanlarla iş üzrə bir çox siyasi və sosial addımlar atıldı. Ərəb baharı hadisələrinin nəticələrinin Almaniyaya sıçramasının və müsəlman mühacirlərin sayının atmasından sonra siyasətçilərin öz mövqelərinə görə İslamın Almaniyanın bir hissəsi olub-olmaması ilə bağlı ziddiyyətli bəyanatları, əslində, onların heç zaman İslamı və müsəlmanları Almaniyanın bir hissəsi olaraq görmək istəməmələrindən qaynaqlanır. Beləliklə, onlar öz siyasi qabiliyyətlərinə inam hissi qazanarkən alman xalqının İslam və müsəlmanlarla bağlı qorxuları güclənir.

Əlbəttə, Alman cəmiyyətində müsəlman olaraq rifah şəraitində yaşayan kütlələr də vardır, lakin bu gün verilən hesabatların böyük bir hissəsində Alman İslamı öyrənilərkən İslamofobiya ilə bağlı müzakirələr yer aldığından müsbət irəliləyişləri əks etdirən araşdırmalar kifayət qədər deyildir.

Nəticədə, Almaniyada İslam və müsəlmanlar kontekstində aparılan siyasət müsbət nəticələr verməsi üçün mədəni müxtəliflik və plüralizm səviyyəsində formalaşmalı, din və etiqad azadlığı anlayışına uyğun olmalıdır. Müsəlmanları inteqrasiya olduqları cəmiyyətlərə uyğunlaşdırmaq üçün layihələrə deyil, insan hüquqları və din azadlığı çərçivəsində mədəniyyəti inkişaf etdirməyə imkan yaradılmalıdır. Ümumbəşəri bir din olan İslamın uzun tarixi keçmişindən bəri müxtəlif coğrafiyalarda mövcud olması onun istinadlarından qoparaq dəyişməsini hələ də mümkün etməmişdir.

## ƏDƏBİYYAT

1. European İslamophobia Report. - Washington D.C: SETA, - 2015, - 198 s. http://www.islamophobiaeurope.com/reports/2015/en/EIR_2015_GERMANY.pdf
2. Edward W.Said., Şarkiyatçılık: Batı'nın Şark Anlayışları, Çev.Berna Ülner, - İstanbul: Metis Yayınları, - 2008, - 416 s.
3. Börzel T., Dandashly A. ve Risse T.. Responses to the 'Arabellions': The EU in Comparative Perspective — Introduction, Journal of European Integration, 37 (1), - 2015, - s. 1-17.
4. Knipp K.. Germany considers a shift in Middle East policy. 24.12.2012, http://dw.de/p/175vn. Müraciət tarixi: 12.02.2023.
5. Oebbecke J.. Das grundgesetz und der religionsunterricht. (Hrsg.: B. Uçar ve dğr.) Religionen in der schule und die bedeutung des Islamischen religionsunterrichts. Osnabrück: V & R Unipress. – 2010, - s. 53-63.
6. ReachOut Berlin. https://www.reachoutberlin.de/de/Unsere%20Arbeit/Beratung/. Müraciət tarixi: 17.01.2023.
7. Schwarte G.. Alman Bakan'dan Tunus'a destek", Çev: Çelik Akpınar. http://dw.de/p/13gfH. Müraciət tarixi: 14.01.2023
8. Souli S.. Germany's Merkel strikes immigration deal on visit to Tunisia. Al- Monitor, 2017, 6 Mart. www.al-monitor.com. Müraciət tarixi: 19.01.2023
9. Taştan A.. Avrupa'da İslâm: Geleneğin yeniden inşası. EKEV Akademi Dergisi, 6(13), - 2002, - s. 43-56.
10. Tibi B.. Euro-Islam. Die Lösung eines Zivilisationskonflikts. Darmstadt: Primus-Verlag, - 2009, - s. 10.
11. Zielonka J.. Europe's new civilizing missions: the EU's normative power discourse. Journal of Political Ideologies, 18 (1), - 2013, - s. 35-55.


## ТЕОРЕТИКО-ИСТОРИЧЕСКИЕ АСПЕКТЫ НЕМЕЦКОЙ КОНЦЕПЦИИ ИСЛАМА


**Фарида М.АЛЛАХВЕРДИЕВА**


### РЕЗЮМЕ


Германия, которая считается одной из самых экономически и политически сильных стран Европы, проводит различную политику в соответствии со своими интересами в отношении ислама и мусульман, как и другие крупные европейские государства. В этом контексте внутренняя и внешняя политика Германии отличается от других глобальных держав Запада. Ближневосточный регион, где зародился ислам и где больше мусульманских стран, всегда был регионом, на который Германия обращала внимание. В этих рамках исследуется процесс формирования мысли о «немецком исламе» на основе событий «арабской весны», занимающих особое место в истории обладающей политической и экономической мощью Германии и мусульманских стран. Процесс переосмысления ислама в контексте западной мысли, создание концепции либерального ислама в немецком стиле, специализация ислама в этом смысле и появление немецкого ислама являются одними из текущих тем обсуждения. Определение отражения дебатов основано на анализе ислама в широких категориях во время и после событий «арабской весны». В этом контексте, помимо таких дискуссий, как подчеркивание ислама как религии мира, не менее слышны идеи о том, что это религия террористического происхождения. Среди событий, приведших к отождествлению ислама с терроризмом в Европе, в том числе в Германии,

террористический акт 11 сентября, имевший место до событий «арабской весны», образование террористической организации «Аль-Каида» в Афганистане, теракты в Мадриде создали основу для появления негативных идей и мнений, когда речь идет об исламе. Идеи о том, чтобы не втягивать мусульман и мир в хаос, и о том, что ислам по своей сути является религией мира, также можно рассматривать как часть формирования немецкой исламской мысли. С этой точки зрения исследование теоретико-исторических аспектов концепции ислама в Германии имеет особое значение с точки зрения актуальности.

**Ключевые слова:** Немецкий ислам, Ближний Восток, Немецкая исламская конференция, Арабская весна, Исламофобия

## THEORETICAL-HISTORICAL ASPECTS OF THE GERMAN CONCEPT OF ISLAM

**Farida M. ALLAHVERDIYEVA**

## SUMMARY

Germany, which is considered one of the most economically and politically powerful countries in Europe, implements different policies according to its interests regarding Islam and Muslims, like other major European states. In this context, Germany's domestic and foreign policies are different from other global powers of the West. The Middle East region, where Islam was born and where there are more Muslim countries, has been a region that Germany has always focused on. In this framework, the formation process of the thought of "German Islam" is investigated based on the Arab Spring events, which have a special place in the history of Germany, which has political and economic power, and Muslim countries. The process of reinterpreting Islam in the context of Western thought, the creation of the concept of German-style liberal Islam, the specialization of Islam in this sense and the emergence of German Islam are among the current topics of discussion. Determining the reflection of the debates is based on the analysis of Islam in broad categories during and after the events of the Arab Spring. In this context, in addition to discussions such as stressing Islam as a religion of peace, the ideas that it is a religion with a terrorist origin are not heard less. Among the events that led to the identification of Islam with terrorism in Europe, including Germany, the September 11 terrorist incident that took place before the events of the Arab Spring, the formation of the Al-Qaeda terrorist organization in Afghanistan, and the terrorist attacks on Madrid created the basis for the emergence of negative ideas and opinions when it comes to Islam. The ideas of not dragging Muslims and the world into chaos, and that Islam is essentially a religion of peace, can also be considered as part of the formation of German Islamic thought. From this point of view, researching the theoretical-historical aspects of the concept of Islam in Germany is of special importance from the point of view of relevance.

**Keywords:** German Islam, Middle East, German Islamic conference, Arab Spring, Islamophobia

UOT 94 (479.24)

# ОСНОВНЫЕ ЭТАПЫ ДЕЯТЕЛЬНОСТИ АЗЕРБАЙДЖАНСКОГО ЛЕГИОНА В ПЕРИОД ВТОРОЙ МИРОВОЙ ВОЙНЫ

**Хаяла Ф. ШАБАНОВА***

*В данной статье рассмотрена одна из малоизученных проблем в истории Второй мировой войны - проблема формирования и деятельности азербайджанского легиона, на стороне Гитлеровской Германии. В исследовательской работе был проведён краткий историографический обзор. Анализированы исторические предпосылки, создавшие условия для формирования военных подразделений в период войны. Изучены процессы формирования легиона и преобразования в азербайджанском легионе, проведённые в 1942-1945 годах. Изучены также вопросы боевой экипировки военных подразделений и их деятельность на стороне Гитлеровской Германии. Были приведены статистические данные о численности военнопленных в составе азербайджанского легиона.*

**Ключевые слова**: Вторая мировая война, Гитлеровская Германия, военнопленный, Азербайджанский легион

**Введение.** В XX веке человечество пережило две крупномасштабные мировые войны. В обеих мировых войнах тяготы катастрофической войны легли и на плечи азербайджанского народа. Вторая мировая война привела к огромным человеческим потерям и глобальным политическим процессам. Изучение многих проблем, Второй мировой войны актуально и сегодня. Малоизученной проблемой столь сложного периода, является вопрос сотрудничества представителей народов, проживавших в составе СССР, с Гитлеровской Германией. В результате сотрудничества были сформированы воинские подразделения, называемые легионами. Одним из сформировавшихся легионов был азербайджанский легион, вопросы формирования и деятельности которого, будут рассмотрены в данной статье.

* ***Bakı Dövlət Universitetinin doktorantı; shabanovakhayala98@gmail.com; ORCİD İD: 0000-0003-0534-3662***

**Степень изученности деятельности азербайджанского легиона в период Второй мировой войны в историографии.** Рассматривая степень изученности проблемы формирования легионов на стороне Гитлеровской Германии, надо отметить особенности изучения данного вопроса в советской историографии. В трудах советских учёных- историков любая историческая проблема изучалась в рамках коммунистической идеологии и почти была лишена объективизма. В вопросе же участия народов СССР во Второй мировой войне, нам известны те моменты, когда роль разных народов в победе над Гитлеровской Германией умалена, как и роль бакинской нефти. Вопросы сотрудничества представителей разных народов с немцами, изучены с отрицательной точки зрения. Любое сотрудничество с врагом, рассматривалось в качестве предательства, это относилось не только русским коллаборационистам, а также всем остальным народам СССР, которые сотрудничали с Гитлеровской Германией.

После распада СССР изменениям подвергается историография. Отныне исторические вопросы, изучаются вне какой-либо идеологии. Это относится и к вопросу коллаборационизма в годы Второй мировой войны. Проанализируем труды, в которых отводится место к проблеме деятельности азербайджанского легиона. Весьма интересным трудом является труд азербайджанского историка Н.Ягублу «Азербайджанские легионеры». В этом труде автором рассмотрены основные этапы формирования азербайджанского легиона, исторические предпосылки, которые послужили причиной формирования легионов [3]. Очередным трудом Н.Ягублу является труд «Абдуррахман Фаталибейли–Дуденгинский», в котором даются ценные биографические сведения об азербайджанском легионере [4]. В трудах азербайджанских историков, вопрос деятельности азербайджанских легионеров изучается в рамках истории азербайджанской эмиграции. Среди этих исследователей можно выделить Р.Абуталыбова, который также в своих трудах рассматривал некоторые вопросы деятельности азербайджанских легионеров [5].

Данная проблема в азербайджанской историографии малоизучена. В зарубежной же историографии отсутствуют труды, в которых комплексно анализирована проблема формирования и деятельности азербайджанского легиона. Легионы, образовавшиеся из числа представителей, подчинённых СССР народов в зарубежной историографии, изучены в составе «восточных легионов». К зарубежной историографии относятся труды О.Романько, С.Дробязко, А.Каращука, Й.Хоффмана и Д.Мотаделя [15; 11; 20; 21].

Труды перечисленных исследователей внесли серьёзный вклад в изучение вышеуказанной проблемы, однако отрицательным моментом

является малочисленность таких весомых трудов, посвящённых к проблеме формирования и деятельности легионов на стороне Гитлеровской Германии.

**Политические и социально-экономические предпосылки формирования азербайджанского легиона на стороне Третьего Рейха.** В 20-х годах XX века в Азербайджане была установлена советская власть. В эти годы усиливались тоталитарный режим, а также оковы коммунизма советского правительства, которые ещё больше усугубляли положение азербайджанского народа.

С 1937 года советским правительством, проводилась политика «Большого террора», которая проводилась до осени 1938 года. В своей статье, азербайджанский историк Эльдар Исмаилов приводит статистику количества жертв массовых репрессий в Азербайджане. Жертвами репрессий стали 80-100 тысяч азербайджанцев [13,198]. Страшная политика «Большого террора», проводимая советским руководством, унесла из жизни огромное количество представителей азербайджанской интеллигенции.

Политика коллективизации была нацелена на борьбу с кулачеством, в результате которого, проводилось раскулачивание. Кулаки также подвергались массовым репрессиям. Репрессии были не только в довоенный период, они продолжались и во время войны, данная политика сопровождалась также политикой депортации.

22 июня 1941 года, в четыре утра Гитлеровская Германия напала на СССР. Началась Великая отечественная война. Это нападение было неожиданным для советского руководства. 3 июля 1941 года Сталин обратился советскому народу и дал сведения о ситуации на фронте. В результате всеобщей мобилизации, 700 тыс. азербайджанцев отправились на фронт. В начальных этапах войны огромное количество советских граждан попало в плен к Гитлеровской Германии. Тяжёлая экономическая и политическая ситуация в Советском Союзе, в том числе и тоталитарный режим, установленный Сталиным, были причиной того, что среди советских граждан сформировались военные структуры, которые вели борьбу против советской власти на стороне Третьего Рейха. Среди этих граждан, были также представители азербайджанского народа. Численность советских граждан, попавших в плен к немцам, оценивается по-разному в исследовательских работах. Немецкий ученый Кристиан Штрейт называет более значительную цифру — 5,754 млн советских военнопленных [19,96].

Историк Шнеер в своём труде под названием «Плен» отметил, что число такого огромного числа военнопленных ознаменовалось не только, какими–либо военными просчётами и промахами, среди

военнопленных, также насчитывали тех, которые добровольно сдавались в плен к немцам. Автором проанализированы все причины, приведшие к данному стечению обстоятельств:

1. Внутренняя политика советского правительства, в которую входят социально-политические аспекты: политика репрессий и коллективизма, антирелигиозная политика, а также голод.
2. Национальные проблемы, которые были связаны с многонациональностью СССР. Возникали антисоветские и национально-освободительные тенденции [19, 133].

Многие попавшие в плен, подвергались к расправе со стороны немцев. Пленных применяли в качестве рабочей силы. Большая часть пленных, не выдерживала нечеловеческие условия, погибала от голода и от заболеваний.

Однако в период войны, появился, термин коллаборационизм, что означает сотрудничество и пособничество представителей воюющей стороны с врагом и его союзниками. В период войны из представителей различных национальностей сформировались легионы. Легион - воинские формирования в составе вермахта, созданные для борьбы с Красной Армией.

Надо отметить, что Гитлер был против формирования таких воинских подразделений. Он считал нужным использовать «восточные народы» в военной промышленности, в сельском хозяйстве, и строительстве. Также было планировано создание небольших подразделений для охранных и полицейских функций [14,36].

В 1941 году Гитлер хотел делить территории на оккупационные зоны, Кавказ также должен быть отдельной оккупационной зоной во главе которого, должен был стоять Розенберг.

Воинские формирования должны были составлять основу антисоветской оппозиции. На стороне Третьего Рейха против СССР воевало свыше 1,8 млн иностранных граждан на основе чего, были сформированы дивизии, батальоны и легионы [22].

15 ноября 1941 генерал-майор Э.Вагнер издал приказ, в котором говорилось о создании военных охранных отрядов из числа военнопленных отрядов из числа военнопленных туркестанских и кавказских национальностей.

Сформировавшиеся в период войны добровольческие формирования не были на передовой линии фронта. Этих добровольцев называли «хиви», что означает «те, кто готовы помочь» [15,77].

Таким образом, важно отметить, что главными политико-идеологическими причинами формирования воинских формирований на стороне Третьего Рейха многогранны:

1. Привлечение военнопленных в ряды вермахта, восполняло человеческие ресурсы, которых так не хватало Гитлеровской Германии, из-за огромных человеческих потерь.
2. Немецкое руководство было убеждено, что создание такого рода военных подразделений привело бы к дезорганизации Советской Армии.
3. Деморализация советского руководства.
4. Убеждение мирового сообщества в несостоятельности и слабости коммунистической идеологии и «превосходстве» фашисткой.

**Формирование и деятельность азербайджанского легиона.** В 1941 году были созданы первые легионы. Восточные легионы были отправлены на Кавказ и под Сталинград в политических целях. Восточные батальоны использовались на самых опасных участках фронта, потери среди них были велики.

Азербайджанский историк Х.Ибрагимли в своём труде отметил, что майор Фаталибейли Дудангинский после того, как попал в плен предложил Гитлеру создать войсковые части [2,155].

Так почему же азербайджанцы согласились на сотрудничество с немцами, зная всю глубину их политической и расовой идеологии? Представители азербайджанского легиона сотрудничая с Германией, надеялись на предоставление независимости Азербайджану.

В 1942 году сформировались Туркестанский и Кавказско-Магометанский легионы. Легионы были размещены в Польше. В состав Кавказско-Магометанского легиона входили также азербайджанцы. Инициатором формирования национальных легионов были Нуру паша и генерал Аркелет [3, 90].

1 января 1942 года был сформирован «Туркестанский легион». Основателем был А.Майер-Мадер. 2 августа 1942 года началась первая реорганизация Восточных легионов. После реорганизации были созданы батальоны по национальному признаку. Эти батальоны были переброшены в Южную Францию, азербайджанский батальон находился в городе Манд.

29 сентября 1943 года Гитлер отдал распоряжение о переводе всех добровольцев с Восточного фронта в Западную Европу. Гитлер не считал эти части достаточно надёжными для борьбы с Красной Армией. [17,35] Таким образом в 1943 году восточные легионы были перенесены во Францию, Италию и Балканы. Они были плохо обеспечены оружием.

Штаб-квартира легиона находилась в Польше. Общая численность составляла 36 тыс. - 65-70 тыс. человек. У каждого легионера были отличительные эмблемы. Однако они носили немецкую форму. У азербайджанского легиона эмблемы созданы на основе 3-х цветного флага.

Немцы также за подвиг учредили серебряные звёзды I, II, III степени. Также были учреждены серебряные и золотые медали.

Азербайджанский национальный комитет учредил такие ордены как: «Независимость Азербайджана», «Боз Гурд» («Серый волк»). Отличавшихся, во время военных действий награждали этими орденами. Была создана отдельная группа переводчиков для азербайджанских легионеров, которые не владели немецким языком. Также были организованы отдельные уроки по немецкому языку для тех легионеров, которые не владели немецким языком.

Формировавшимся батальонам были даны азербайджанские названия, для поднятия военного духа: «Донмез», «Джавадхан» и.т.д. Некоторые батальоны были сформированы на территории Польши в Едлино. Батальон «Аслан» возглавлял немец Глогер и его заместитель Ф.Дудангинский. Этот батальон активно участвовал в боях на территории Краснодара. Затем данный батальон был переведён на территорию Франции, оттуда в Северную Италию. Часть батальона попала в плен. Батальон «Игид» участвовал в военных действиях в направлении города Севастополь. Затем переправились на территорию Румынии и Франции. Были пленены англо-американскими военными. Батальон «Донмез» был сформирован в городе Прилуки Украины. Вёл борьбу на Кавказском фронте. Принимал участие в подавлении Варшавского восстания [3, 104].

В 1943 году в Берлине по инициативе «Азербайджанского национального комитета» был созван съезд. Впервые среди эмигрантов и легионов представители нашего народа созвали свой съезд. На съезде выступили речью азербайджанские легионеры и представители политической эмиграции.

Азербайджанский национальный комитет, созданный в период войны, ставил, перед собой задачу, признания де-факто властями Рейха. Председателем совета был Фаталибейли Дудангинский. 17 марта 1945 года рейхсминистр по делам оккупированных восточных территорий Розенберг получил право признания де-факто Азербайджанского национального комитета [6, 538].

В конце войны, по инициативе Ф.Дудангинского подразделения были перенесены в Италию.

**Мамед Эмин Расулзаде и азербайджанский легион.** Одним из видных представителей Азербайджанской политэмиграции в период Второй мировой войны, был Маммед Эмин Расулзаде, который начал свою эмигрантскую деятельность в конце апреля 1920 года. В период Второй мировой войны, М.Э. Расулзаде не был приверженцем фашистской идеологии, и считал идеологию Гитлера нарушающими

демократические принципы. Деятельность азербайджанской политической эмиграции в период Второй мировой войны, было направлено на восстановление независимости Азербайджана и её признание немецким правительством, спасение азербайджанцев от военного плена. [1, 346]

Ближе к концу войны в Мюнхене под руководством Расулзаде было создано общество под названием «азербайджанское демократическое объединение». Данное общество сыграло большую роль в спасении пленных.

М.Э.Расулзаде искренне поддерживал деятельность азербайджанских легионеров и знал всю сложность политических условий. Несмотря на сплочённость азербайджанских эмигрантов, в период войны не были достигнуты положительные результаты по восстановлении независимости Азербайджана.

**Роль Фаталибейли Дудангинского в формировании и деятельности азербайджанского легиона.** В формировании и деятельности азербайджанского легиона немаловажную роль сыграл азербайджанский легионер Фаталибейли Дудангинский. Жизнь азербайджанского легионера была весьма сложной, которую можно условно поделить на три периода: советский период деятельности, период сотрудничества с немцами и послевоенная эмигрантская деятельность. Фаталибейли получил военное образование, принимал участие в советско-финской войне, в результате чего он был направлен в Ригу. Затем попал в плен к немцам. В немецком плену Фаталибейли Дудангинский, остался лицом к лицу с ужасающими условиями, которые царили в лагере для пленных. Именно в этот период у него возникла идея формирования легиона на стороне Третьего Рейха. В это время Ф.Дудангинский преследовал две цели: спасение азербайджанского народа от оков коммунизма, а также спасение военнопленных от ужасающих условий фашизма. Фаталибейли понимал, что сотрудничество с врагом, могло бы создать условия для получения независимости угнетённых коммунизмом народов.

В 1943 году Ф.Дудангинский был назначен председателем Азербайджанского штаба связи. В составе батальона он отличался своей отвагой, за что был награждён немецким руководством. Кульминацией деятельности Фаталибейли Дудангинского стало его выступление в национальном конгрессе Азербайджана, где он выдвинул самую главную идею сотрудничества азербайджанского легиона с немцами. «*Мы не потерпим господства какой-либо нации, как не потерпели царских наместников и большевиков. Азербайджаном правили азербайджанцы, и они будут им править снова*». Азербайджан должен был стать независимым [4, 74].

Несмотря на патриотизм и отвагу проявленные Дуденгинским и

другими азербайджанскими легионерами, не была достигнута основная цель, восстановления независимости. Поражение немцев и другие факторы отрицательно повлияли на претворение в жизнь этой идеи. Главной причиной которого, также было нежелание немецкого руководства создания благоприятных условий для получения формальной независимости Азербайджана.

В 1945 году война закончилась, однако, азербайджанский легион всё еще продолжал свою деятельность. Судьба же военнопленных была очень сложной, по инициативе Сталина создавались военные лагеря, куда размещали военнопленных. 28 мая многие легионеры были сданы советскому правительству. В результате чего, многие легионеры были расстреляны. Часть же легионеров, продолжала борьбу против советского режима в качестве политических эмигрантов.

В послевоенные годы был создан журнал «Азербайджан». Главным редактором стал Ф.Дудангинский. Также начало свою деятельность радио «Свобода». Жизнь Дудангинского полна отваги и патриотизма была прервана в 1954 году.

Краткий экскурс к вопросу деятельности Фаталибейли Дудангинского, является несомненным подтверждением, всей сложности историко-политических условий, сложившихся в период Второй мировой войны.

**Заключение.** Резюмируя вышеуказанное, надо отметить, что в период самой кровопролитной войны XX века, которая шла между двумя идеологиями, сформировались военные подразделения, сотрудничавшие с Гитлеровской Германией. Среди формировавшихся, легионов был, также азербайджанский легион, который продолжал свою деятельность в очень сложных историко-политических условиях. Им было очень сложно вдали от Родины, вести борьбу против коммунизма. Продолжать свою деятельность на стороне гитлеровской Германии, которая была приверженцем идеологии фашизма, было столь сложным. Несмотря на это, легионеры стремились в столь сложный исторический период создать свой маленький мир, независимого Азербайджана. Для этого были созданы печатные органы, они принимали активное участие в боях. Немцы же, привлекая их на сторону преследовали свои цели. Для деморализации советского правительства, применяли силы легионов в собственных политических и военных целях. Все пленные, в том числе и азербайджанские легионы, продолжали свою деятельность в очень сложных условиях. Большинство пленных погибло из-за нечеловеческих условий.

Надо отметить, что очень мало исследовательских работ, посвященных к проблеме деятельности азербайджанского легиона. Научная

новизна данной статьи заключается в анализе исторических предпосылок, особенностей изучения данной проблемы в отечественной и зарубежной историографии. Кратко изложены основные этапы деятельности азербайджанского легиона. Исследование проведено без внедрения какой-либо идеологии.

**ЛИТЕРАТУРА**


1. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası: II cild. - Bakı: Lider, - 2005, - 472 s.
2. İbrahimli X.C Azərbaycan mühacirət tarixi. - Bakı: ADPU, - 2012, - 358 s.
3. Yaqublu N.Q. Azərbaycan legionerləri. - Bakı: Çıraq, - 2005, - 336 s.
4. Yaqublu N.Q. Əbdürrəhman Fətəlibəyli-Düdənginski. - Bakı: Abşeron, - 2009, - 262 s.
5. Абуталыбов Р.А. Свои среди чужих, чужие среди своих. - Баку: İRS, - 2007, - №1(25), - 36-39 с.
6. Мамулиа Г.Г., Абуталыбов Р.А. Страна огней. В борьбе за свободу и независимость. Политическая история азербайджанской эмиграции. - Баку: CBS, - 2014, - 584 с.
7. Баберовски Й. Враг есть везде. Сталинизм на Кавказе. - Москва: РОССПЭН, - 2010, - 778 с.
8. Бишоп К. Иностранные дивизии III Рейха. - Москва: Эксмо, - 2006, - 192 с.
9. Галкин А.А. Германский фашизм. - Москва: Наука, - 1989, - 370 с.
10. Гусейнова И. М. История народов Кавказа (с древнейших времён до наших дней). - Баку: Elm və təhsil, - 2018, - 1248 с.
11. Дробязко С.И. Каращук А.В. Восточные легионы и казачьи части в вермахте. - Москва: АСТ, - 2000, - 64 с.
12. Дробязко С.И. «Под знамёнами врага. Антисоветские формирования в составе германских вооруженных сил. 1941–1945. Москва: Эксмо, 2004, 608 с.
13. Исмаилов Э.Р. Советский государственный террор в Азербайджане//Журнал Кавказ и глобализация, - 2010, - № 1-2, - 194-205 с.
14. Помогаев В.В. Коллаборационизм в СССР в годы Второй мировой войны // Вестник Тамбовского университета Серия: Гуманитарные науки, 2001, №4(24) 32-38 с.
15. Романько О.В. Мусульманские легионы во Второй мировой войне. - Москва: АСТ, - 2005, - 304 с.
16. Романько О.В. Советский легион Гитлера. Граждане СССР в рядах вермахта и СС. - Москва: Издатель Быстров, - 2006, - 640 с.
17. Романько О.В. Восточные легионы в силовых структурах нацисткой Германии (1941-1945) организация, личный состав и численность. // Мусульманский мир: 2014, - № 4, - 24-56 с.
18. Смирнов В.П. Краткая история Второй мировой войны. - Москва: Весь Мир, - 2009, - 352 с.
19. Шнеер А. Плен советские военнопленные в Германии (1941-1945) Москва: Мосты культуры, Иерусалим: Гешарим, - 2005, - 619 с.
20. Hoffman J.Die Ostlegionen 1941—1943. Turkotartaren, Kaukasier, Wolgafinnen im deutschen Heer. Freiburg-Rombach, - 1976, - 197 p.
21. Motadel D. Islam and Nazi Germany’s War. Harvard University Press, - 2014, - 490 p.
22. Владимир Штоль: Вторая мировая война: вся Европа против СССР» ОКО ПЛАНЕТЫ информационно-аналитический портал https://oko-planet.su/history/historydiscussions/125185-vladimir-shtol-vtoraya-mirovaya-voyna-vsya-evropa-protiv-sssr.html

# İKİNCİ DÜNYA MÜHARİBƏSİ DÖVRÜNDƏ AZƏRBAYCAN LEGİONUNUN FƏALİYYƏTİNİN ƏSAS MƏRHƏLƏLƏRİ

**Xəyalə F.ŞABANOVA**

## XÜLASƏ

Bu məqalədə İkinci Dünya müharibəsi tarixinin az öyrənilmiş problemlərindən biri - Hitler Almaniyası tərəfində olan Azərbaycan legionunun formalaşması və fəaliyyəti problemindən bəhs edilir. Məqalədə məsələyə dair mövcud tarixşünaslıq bazası təhlil olunmuşdur. Müharibə dövründə hərbi hissələrin formalaşmasına şərait yaradan tarixi zəmin təhlil edilir. Azərbaycan legionunun fəaliyyətində 1942-1945-ci illərdə həyata keçirilən tədbirlər öyrənilib. Hərbi hissələrin döyüş texnikası və Hitler Almaniyası tərəfində fəaliyyəti məsələləri də öyrənilib. Tədqiqat işində hərbi əsirlərin sayı və Azərbaycan legionunun tərkibi haqqında statistik məlumatlar verilmişdir.

**Açar sözlər:** II Dünya müharibəsi, Hitler Almaniyası, hərbi əsir, Azərbaycan legionları

# THE MAIN STAGES OF THE ACTIVITY OF THE AZERBAIJANI LEGION DURING WORLD WAR II

**Khayala F.SHABANOVA**

## SUMMARY

This article discusses one of the little-studied problems in the history of World War II - the problem of the formation and activities of the Azerbaijani Legion which was on the side of Hitler's Germany. In the research work, a brief historiographical review was carried out. The historical prerequisites that created the conditions for the formation of military units during the war are analyzed. The measures implemented in the activity of Azerbaijani legion during 1942-1945 have been studied. The issues of combat equipment of military units and their activities on the side of Hitler's Germany were also investigated. Statistical data on the number of prisoners of war and the composition of the Azerbaijani legion were given.

**Keywords:** prisoner of war, Azerbaijani legion, World War II, Hitler's Germany

UOT 930:002.6; 02:001.2

# KİTABXANA + TURİZM: TURİZMİN DAVAMLI İNKİŞAFI ÜÇÜN KİTABXANALARIN YENİ İSTİQAMƏTİ

**Hacı H. QASIMLI***

*Müasir dövrdə dərc edilmiş məqalələrdə turizm sahəsi geniş şəkildə tədqiq olunaraq, bir sıra tədqiqat işləri Azərbaycanda mədəni turizmin inkişafına həsr edilmişdir. Lakin kitabxanaların mədəni potensiallarının, onların turizm sahəsində rolu, kitabxanalarda turizmə dair ədəbiyyatların inkişaf tendensiyaları kompleks şəkildə elmi-tədqiqat işlərində cəlb edilməmişdir. Məqalədə "Kitabxana+turizm"in əsas qarşılıqlı əlaqələri ilk dəfə sistemli və kompleks şəkildə tarixi kontekstdə araşdırılmışdır. Belə ki, məqalədə kitabxanaların mədəni turizm sahəsinə inteqrasiyası elmi cəhətdən əsaslandırılmış və turizm-ekskursiya işinin təşkilində bələdçilərin, bələdçi-tərcüməçilərin rolu sistemli şəkildə tədqiq olunmuşdur.*

**Açar sözlər:** Kitabxana, informasiya xidməti, sənəd axını, oxucu tələbatı, mədəni turizm, turizm bələdçisi

**Giriş.** Müasir dövrdə aktual olan mövzulardan biri də kitabxanaların yeni sosial mühitdə cəmiyyətə necə daha yaxşı xidmət göstərə bilməsidir. Kitabxanaların yaranması və inkişafı tarixində turizm sahəsi üzrə sənəd-informasiya resurslarının kitabxana fondlarında yerləşdirilməsi və oxuculara çatdırılması məqalənin əsas aktuallığını şərtləndirən amillərdən biridir. İctimai mədəniyyət müəssisəsi kimi kitabxana şəhərin fundamental mədəni mənzərəsi və ölkənin mədəni və mənəvi xüsusiyyətlərinin mikrokosmosudur. İctimai kitabxanaların turizm sənayesi ilə inteqrasiyası hər ikisinin inkişaf ehtiyaclarını qarşılayır. İnformasiya əsrinə gəlişi ilə kitabxanalar mədəni turizm xidmətlərində getdikcə daha mühüm rol oynayır. Kitabxanalar informasiya resurslarını toplamaq, xidmət funksiyalarını genişləndirmək, mədəni turizmin inkişaf tendensiyalarını vaxtında dərk etmək və turizm mədəniyyətinin xidmətini gücləndirmək üçün bu üstünlüklərdən fəal şəkildə istifadə edə bilərlər. Eyni zamanda, inteqrasiya meyli kitabxanalara daha çox

* ***Bakı Dövlət Universitetinin doktorantı; Haci.qasimli@bsu.edu.az;***
***ORCİD İD: 0000-0001-8246-1959***

dövlət və sosial sərmayələr əldə etməyə imkan verir ki, bu da onların davamlı inkişafı üçün mühüm təminat verir. Ölkədə və xaricdə kitabxanaların və turizm xidmətlərinin birləşdirilməsi istiqamətində mövcud tendensiyanın hərtərəfli təhlilinə əsaslanaraq, bu məqalədə turizmin inkişafında mühüm rola malik olan Respublika kitabxanalarının innovativ təcrübələri təqdim olunur və təhlil edilir, o cümlədən informasiya xidmətləri,təhsil turlarının inteqrasiyası və sənaye əməkdaşlığı ümumiləşdirilir. Məqalə kitabxanaların öz cəlbediciliyini və rəqabət qabiliyyətini artırmaq və davamlı inkişafa nail olmaq üçün ideyalar təqdim edən praktiki təcrübə vasitəsilə kitabxana turizmi cəlbedicilik modelini ümumiləşdirir və təkmilləşdirir.

**Turizm-ekskursiya işinin təşkilində bələdçilərin, bələdçi-tərcüməçilərin rolu.** Qeyd etmək lazımdır ki, ədəbiyyatlarda kütləvi turizmin ilk təşkilatçısı ingilis Tomas Kuk adlı şəxs hesab olunur. O, hələ, 1841-ci ildə Lankasterdən Dolnqboruqa qədər dəmir yolu ilə 570 nəfərin kütləvi gəzintisini təşkil etmişdir. Bu hadisə ilə Tomas Kuk müasir turizmin əsasını qoymuşdur. O, həmçinin 1847-ci ildə səyahət və ekskursiyalar cəmiyyəti yaratmış, bir qrup zəngin ingilis vətəndaşlarının Aralıq dənizində səyahətini təşkil etmişdir. XIX əsrin sonunda Томас Kuk tərəfindən yaradılmış bu cəmiyyət 53 ölkədə fəaliyyət göstərən və 324 şöbəsi olan möhtəşəm bir konsernə çevrilmişdir. Həmin konsernin 12 min əməkdaşı olmuşdur. Amerikanlar da ingilislərdən geridə qalmamış, turizm ilə məşğul olan «Amekso» adlı şirkət yaratmışlar. 1918-ci ildə bu şirkətin firmaları bütün qitələri əhatə etmişdir. 1869-cu ildə Avropada Beynəlxalq Mehmanxana işçiləri Assosiasiyası yaradılmışdır. Bu Assosiasiya 1921-ci ildə Beynəlxalq Mehmanxana İttifaqı ilə birləşdirilmişdir [3]. Təbii ki, bu ənənə get-gedə inkişaf edərək bütün dünyaya yayılmışdır. Ölkəmizə gələn turistlərə yüksək standartlara uyğun xidmətin göstərilməsi bir çox faktorlardan asılıdır. Bu baxımdan turizm-ekskursiya işinin təşkilində bələdçilərin, bələdçi-tərcüməçilərin rolunu xüsusi qeyd etmək lazımdır. Turizm sektorunda ekskursiya xidməti mühüm əhəmiyyət kəsb edir. Bu xidmət informasiya-məlumatlandırıcı, təbliğat vasitəsi olmaqla yanaşı, həmçinin təşkilati, vasitəçi, ticarət, idman-əyləncə, bəzi hallarda operativ-nəzarət fəaliyyətini də əhatə edir. Ekskursiyalar əvvəlcədən planlı şəkildə həyata keçirilməlidir. İlk növbədə hər bir şəhərdə və rayonda mövcud olan gəzməli, görməli yerlər, tarixi mədəniyyət abidələri müəyyənləşdirilməli, turistlərdə olduqları region haqqında ümumi mənzərə yarada biləcək informasiya onlara çatdırılmalıdır. Ekskursiya rəhbəri ekskursiya zamanı turistlərə hər bir abidə barəsində, ekskursiya təşkil edilən yer barəsində ətraflı məlumat verməli, onların suallarını cavablandırmalıdır [2].

**Diyarın təbliği məqsədilə guşələrin yaradılması.** Turizmlə əlaqədar olaraq respublikanın kitabxana-informasiya müəssisələrində diyarın təbliği məqsədilə guşələrin yaradılması məqsədəuyğun olardı. Məsələn: “Mənim

doğma diyarım Qarabağ" və s. Guşələr sərgiyə nisbətən daha geniş və əhatəli olmalıdır. Belə ki, guşədə əlavə olaraq kartoteka, qəzet, jurnal materialları, tövsiyə ədəbiyyat siyahıları, mövzuya uyğun bir sıra sənədlər və şəkillər də öz əksini tapmalıdır. Guşələrin təşkilində əsas məqsəd turizmin təbliği ilə əlaqədar ədəbiyyatı, diyarı təbliğ etmək, oxucuya axtardığı materialları asanlıqla tapmaqda kömək etməkdən ibarətdir. Konfrans və seminarların təşkili mövzunu, iştirakçıların tərkibini, keçirilmə vaxtını müəyyən etmək, seminara, konfransa rəhbər seçmək, onunla birlikdə hazırlıq planını, müzakirə ediləcək məsələləri, məruzələrin və məlumatların mövzusunu işləyib hazırlamaq, çıxış edənləri seçmək, seminar və konfrans haqqında xəbər vermək kimi məsələləri əhatə edir [2].

Müasir dövrdə respublikada turizm sahəsi üzrə yaranmış ilkin sənəd kütləsi və sənəd axını dinamik şəkildə inkişaf etməkdədir. Sənəd kütləsi və axınına elektron resursların da daxil edilməsi bir tərəfdən onun həcminin artmasına, digər tərəfdən bu mənbələrin axtarışının mürəkkəbləşməsinə gətirib çıxarmışdır [3, 145].

Kitabxana fondu kitabxanada sistemləşdirilmiş sənədlərin məcmusu olub, vəzifələri və profili üzrə onların saxlanılması və istifadəsinə uyğun olaraq formalaşdırılmasıdır. Kitabxana fonduna aid olan məsələlər kitabxana fondşünaslığında öyrənilir. Kitabxana fondşünaslığı ümumilikdə fondun tipologiyasını, quruluşunu, Kitabxana fondunun nəzəriyyəsi və formalaşması texnologiyasını tədqiq edir. Turizm sahəsi üzrə kitabxana fondlarını təşkil edən, formalaşdıran, zənginləşdirən, tükənməz informasiya qaynağına çevirən başlıca ünsür bu sahəyə dair tərtib edilən sənədlər: kitablar, jurnallar, qəzetlər, elektron mənbələr və digər informasiya resursları hesab edilir [1, 346].

Kitabxana fondlarında turizm sahəsi üzrə toplanan sənədlərin xarakterinə görə sadə və mürəkkəb olmaqla iki yerə bölünür. Turizmə dair sadə sistem eyni tipli, bir-birinə bənzəyən sənədlər (jurnallar, əlyazmalar, standartlar, normativlər və s.) toplusuna deyilir. Kitabxana fondları turizmə aid müxtəlif tipli, çoxlu miqdarda və növdə sənədlər toplusundan ibarətdirsə, bu, mürəkkəb sistem adlanır. Hər iki halda qeyd etdiyimiz sahəyə dair sənədlərin sistemdaxili qarşılıqlı əlaqələri, Kitabxana fondlarının funksiyaları, quruluşu və məzmun əhatəliliyi nəzərə alınır. Bu mənada Kitabxana fondlarının elmi üsullarla öyrənilməsi prossesində onun bir sistem kimi komplektləşmə imkanları konkretləşdirilir, funksiyaları müəyyənləşdirilir, sistem daxilində tutduğu yer və oynadığı rol təhlil edilir.

Müxtəlif elm sahələrinə dair ədəbiyyatları özündə əks etdirməsindən asılı olmayaraq kitabxana sistemində fond yarımsistem kimi daha geniş xarakter daşıyır. Aydın məsələdir ki, fondsuz kitabxana ola bilməzdi və elə buna görə də keçmişdə fond anlayışı "kitabxana fondu" sözünün yaranmasına

səbəb olmuşdur. "Fond" (fundus) sözünün latıncadan tərcüməsi "özül, əsas" deməkdir. Bu məzmunca oxşar sözlər bütün dillərdə sinonim kimi qəbul olunur. Əsrlər boyu "kitabxana" və "kitabxana fondu" anlayışları bir-birindən fərqləndirilməmişdir. "Kitabxana" sözü müəyyən (çox və ya az) miqdarda kitabların yığıldığı yer anlamında işlənir.

**Kitabxanaların və turizmin inteqrasiyası imkanı.** Ümumdünya Turizm Təşkilatı və Avropa Turizm və İstirahət Təhsili Assosiasiyasının (ATLAS) mədəniyyət turizminin tərifinə görə, "*Mədəniyyət turizmi insanların gündəlik həyatın mədəni mənzərəsindən başqa yerlərdə öz mədəni ehtiyaclarını ödəmək üçün həyata keçirdikləri qeyri-kommersiya fəaliyyətlərinə aiddir".* Kütləvi turizmlə müqayisədə mədəni turizm insanlara müxtəlif qeyri-maddi mədəni təcrübələr qazanmağa kömək edə bilər. Turistlər də mədəni yerləri yaşamanın bu üsuluna getdikcə daha çox diqqət yetirirlər. Mədəni turizm dərin estetika, zəka, emosiya və psixologiyaya dair yeni təcrübələr axtarmağa və bu təcrübələrdə iştirak etməyə yönəlmiş eksperimental turizm formasıdır. Alon Gelbman qeyd edir ki, "*Mədəni landşaft zəngin tarixi və mədəni dəyərə malikdir və onun unikal xarakteri turistləri cəlb edən əsas hərəkətverici qüvvədir*" [4]. Dünya miqyasında kitabxana və turizmin inteqrasiyası üçün çoxlu istinadlar verən bir çox yüksək keyfiyyətli kitabxana turizmi brendləri formalaşmışdır. Ozinsky hesab edir ki, "*Kitabxanalar ziyarətçinin informasiya və rezervasiya xidmətləri ilə təmin edilməsində mühüm rol oynayır"* [7].

**"Kitabxana+Turizm" innovativ təcrübə.** Şəhərin sənəd məlumat mərkəzi kimi kitabxanaların görməli yerlərə aid sənədlərin toplanması, çeşidlənməsi, mühafizəsi və istifadəsində üstünlükləri və öhdəlikləri vardır. Turizmlə inteqrasiya baxımından kitabxananın ilk töhfəsi turizm məlumat xidmətidir. Bu xidmətin formalarına əsasən turizm kolleksiyalarının toplanması, nümayişi və tövsiyə edilməsi, turizm mövzulu kitabxanaların qurulması, yerli turizm məlumat bazalarının yaradılması, turizm sərgilərinin və tanıtım tədbirlərinin keçirilməsi və s. daxildir. Xarici təcrübəyə əsaslanaraq qeyd edə bilərik ki, Hainan Əyalət Kitabxanası oxuculara 100-ə yaxın turist xəritəsini pulsuz təqdim etmək üçün jurnal və qəzet oxu zalında xüsusi turist xəritələri yığıb. Xüsusi xəritə yığımına əsasən mənzərəli yerləri, səyahət geyimləri və yeməkləri, yaşayış yerləri və digər aspektləri əhatə edən əl ilə çəkilmiş xəritələr daxildir. Tematik kitabxanalar insanların xüsusi bilik və məlumatlara olan ehtiyaclarını müəyyən bir sahədə xüsusi kolleksiya və xidmətlərlə təmin edən kitabxanalardır. Şanxayın Huangpu Rayon Kitabxanası yerli və xarici turistik yerlər, humanist mənzərələr, yerli adət-ənənələr və tarixi yerlər haqqında 6000-dən çox kitab təqdim edən xüsusi turizm mədəniyyəti sərgi salonu qurmuşdur. Shenzhen Şəhərinin Bao'an Rayon Kitabxanasının Turizm Kitabxanası turizm ədəbiyyatı resurslarının toplanması və

turizm məlumat xidmətlərinin göstərilməsi üçün xüsusi tematik kitabxanadır. Kitab oxuma sahəsi, dövri oxu zonası, multimedia resurs təcrübə sahəsi və istirahət zonası var. Kitabxanada turizm mövzusunda yerli və xarici humanitar elmlərin təqdimatını, turizm strategiyalarını, səyahət qeydlərini, turizm videolarını və s. Mövzuları əhatə edən 4300-dən çox kitab var. Turist həvəskarları rahat oxu mühitində turizm ədəbiyyatı resursları və xidmətləri təqdim edirlər. Turizm kitabxanaları oxuculara xidmət fəaliyyətinin müxtəlif formalarını həyata keçirir, məsələn, "Bao'an on mənzərəli yerlərin xəzinə axtarışı və izi paylaşma fəaliyyətləri" və görüşlər paylaşaraq yerli turizm mədəniyyətini təbliğ edir ki, oxucular yerli mədəniyyətin cazibəsini hiss etsinlər. Bundan əlavə, kitabxanalar insanlara yerli turizm mədəniyyətinin xüsusiyyətlərini və hətta qlobal turistik cazibələri dərk etmək üçün daha çox imkanlar vermək üçün sərgilər, mühazirələr və gündəlik fəaliyyətlərlə turizmin təşviqini birləşdirir ki, kitabxanalar insanların dünyanı dərk etməsi üçün pəncərəyə çevrilsin. Yunnan Əyalət Kitabxanası Diqinq şəhərinin turizm təşviqi fəaliyyətləri ilə əməkdaşlıq edərək "İşıq və Kölgə, Vətən həsrəti saxlanılan" Diqing Feiji Foto Sərgisini keçirdi. Bütün bu qeyd edilən hadisələr xaricdə turizmin kitabxanalarda təbliğinə dair bariz nümunələr hesab edilir. Kitabxanada turizmin cəlbediciliyinin inkişaf göstəricilərinə gəldikdə isə ilk öncə məslənin izahına cədvəl formasında baxaq [9].

Cədvəl 1

**Kitabxanada turizmin cəlbediciliyinin inkişaf göstəriciləri**

| **Kateqoriya** | **Təbii attraksionlar** | **Humanist attraksionlar** | **Sosial attraksionlar** | **Xidmət attraksionlar** |
|---|---|---|---|---|
| **GÖSTƏRİCİ** | Memarlıq və ətraf mühit | Tarixi və humanist məzmunlu binalar | Kitabxana + yerləşdirmə | Turizm informasiya xidməti |
| | Memarlıq və görünüş dizaynı | Xüsusi kolleksiya | Kitabxana + turistik yerlər | İstirahət və əyləncə |
| | Kitabxananın məkan tərtibatı | Əlaqəli binalar | İnkişaf, mədəni, yaradıcılıq məhsullar | Kitabxananın təşkil etdyi tədris turları |

Turizm rəqabət qabiliyyətini turizm destinasiyalarının rəqib bazarlara nisbətən öz mövqeyini qorumaq üçün turizm təyinatının resurslarından davamlı şəkildə istifadə edə bilən əlavə dəyərli məhsullar yaratmaq və inteqrasiya etmək qabiliyyəti kimi müəyyən edir. Shivei *"Mədəniyyətin turizm destinasiyalarının rəqabət qabiliyyətinin formalaşmasında mühüm amil olduğunu"* irəli sürür [9]. Digər şərtlər dəyişməz olaraq, turizm istiqamət-

lərinin rəqabət qabiliyyəti daha çox mədəni amillərdən asılıdır. Nəticə etibarı ilə mədəni turizmin rəqabət qabiliyyətinin artırılması turizm destinasiyalarının cəlbediciliyinin artırılmasında mühüm rol oynayır. İctimai mədəniyyət müəssisələri kimi kitabxanalar turizm məkanlarının mədəni atmosferinin təbliğində və mədəni xidmətlərin artırılmasında mühüm rol oynayır və yerli turizmin cəlbediciliyinin artırılmasına kömək edir.

Respublikamızda mövcud olan "Kitabxana + Turizm" praktikasına əsasən, bu məqalə kitabxanaların və turizmin gələcək inteqrasiyası üçün ideyalar təqdim edən kitabxana turizmi görməli yerlərinin indeks sistemini ümumiləşdirir.

Qısaca da olsa yuxarıda qeyd etdiyimiz cədvəldə kitabxana turizminin cəlbediciliyinin inkişaf göstəricilərini şərh edək.

**Təbii Attraksionlar:** Bu indeks kitabxananın bina mühitinə, onun dizaynının görünüşünə və daxili mühitinə diqqət yetirir. Kitabxananın bina mühitinə əsasən onun yerləşdiyi yer və ətraf mühit daxildir ki, bu da kitabxana turizminin cəlbediciliyinin artırılmasında mühüm rol oynayır.

**Humanist Attraksionlar:** Bu indeksə əsasən kitabxanaların tarixi və humanist məzmunu, xüsusi kolleksiyalar və əlaqəli sosial şöhrət effektləri daxildir.

**Sosial Attraksionlar:** Bu indeks əsasən kitabxanaların, turistik yerlərin və mənzərəli yerlərin inteqrasiyasını və yaradıcı məhsulların inkişafını əhatə edir. Kitabxanalar və yaşayış binaları və otellər kimi turizm yerləşdirmə sənayesi arasında inteqrasiya tendensiyası getdikcə daha aydın görünür.

**Xidmət Attraksionlar:** Bu indeksə əsasən turizm məlumat xidməti, istirahət və əyləncə funksiyaları və kitabxananın təqdim etdiyi tədris turları daxildir. Kitabxanalar əsasən turizm sənədləri üçün xüsusi stendlər qurmaqla turizm informasiya xidmətləri göstərə bilərlər; turizm mövzuları üçün oxu otaqlarının və ya kitabxanaların yaradılması; turizm mövzulu məlumat bazalarının yaradılması; turizm mövzusunda sərgilər, mühazirələr və digər fəaliyyətlərin həyata keçirilməsi. Kitabxanaların həyata keçirə biləcəyi tədris turu ilə bağlı xidmətlər çoxsəviyyəli və çoxölçülüdür. Birincisi, kitabxananın çoxşaxəli kolleksiyaları səyahət tədqiqatı xidmətləri üçün uyğun olan resursları təmin edir. İkincisi, kitabxana resurslarının növlərini zənginləşdirməklə yanaşı, kitabxanalar avadanlığın icarəsi xidmətlərini də genişləndirə, kitabxananın xidmət funksiyalarını genişləndirə və tədris turlarının inkişafı üçün resurslarla təmin edə bilər. Üçüncüsü, şərti kitabxanalar özlərini tədqiqat səyahət bazalarına çevirə, unikal resurslarından və xidmət imkanlarından tam istifadə edə, tematik "mədəni xəzinə ovu" fəaliyyətləri təşkil edə və kitabxana turizmi ilə bağlı öyrənmə turlarına marağını artıra bilərlər.

Mədəni istirahət turizmi turizmin inkişaf istiqamətlərindən biridir və

ictimai mədəniyyət müəssisələri ilə turizmin inteqrasiyası üçün yeni imkanlar təqdim edir. Kitabxanalar insanların biliklərini yeniləmək, özünü tanıtmaq və özünü həyata keçirməklə məşğul olması üçün mühüm yer və platformadır. Bu, həm də humanist qayğının ən çox cəmləşdiyi yerdir. Hazırda dünya turizminin sürətlə inkişaf etdiyini nəzərə alaraq, mədəniyyət və informasiya qurumları kimi kitabxanalar fürsətdən istifadə etməli, resurs üstünlüklərini tam araşdırmalı, "kitabxana+turizmi" sıçrayış nöqtəsi kimi götürməli, turistlərlə mədəni turizm arasında əlaqəyə çevrilməli, sənaye və turistlərə daha zəngin turizm təcrübələri gətirməlidirlər. Bu, kitabxana sahəsindən istifadənin, biliklərin yayılmasının və mədəni xidmət funksiyalarının davamlı inkişafına töhfə verəcək, beləliklə, kitabxanaların və turizm sənayesinin ümumi çiçəklənməsinə və inkişafına kömək edəcəkdir [10].

**Nəticə.** Təcrübə göstərir ki, turizm üzrə kitabxana fondlarının əsasını bu sahəyə dair sənəd toplusu təşkil edir. Məhz buna görə də kitabxanada turizmə dair sənəd informasiya fondlarının formalaşması tarixi müxtəlif növ sənədlərlə və cəmiyyətin informasiya potensialında onların oynadığı həqiqi rolu nəzərə almaqla tənzimləmək zəruridir. Turizmə dair kitabdan əlverişli vaxtda və praktiki olaraq hər yerdə, bütün nöqtələrdə istifadə etmək mümkündür. Turizm sahəsi üzrə kitab bu sahə üzrə oxuyan tələbatçıya təkrarən lazımi səhifəsinə qayıtmaq, yenidən oxumaq, qeydlər aparmaq imkanı verir və s. Turizm sahəsinə dair dövri mətbuatdan fərqli olaraq kitabda verilən məlumatlar qəti müəyyənləşdirilmiş xarakter daşıyır. O bütün vaxtlarda bu sahə üzrə müraciət edən oxucuya daha çox əlverişlidir və fərdi, müstəqil istifadəyə münasibdir. Məhz buna görə də turizm sahəsi üzrə informasiya tələbatçılarının kütləvi informasiya vasitələrindən tam istifadə etmək imkanı yoxdur. Ümumiyyətlə, yeni medianın meydana çıxması ilə yanaşı, əvvəlki informasiyalar da tarixi əlaqələr şəraitində mühafizə olunur. Köhnə informasiya vasitələri öz funksiyalarının bir hissəsini yenilərinə verməklə özləri də yeni dövrə qədəm qoymuş olur, lakin burada digər funksiyaların tətbiqinin də səmərəliliyi nəzərə alınır.

Respublika kitabxanalarının turizmdə innovativ təcrübələrini təqdim edərək və ümumiləşdirərək, bu məqalə kitabxanalar və turizm arasında inteqrasiyanın əsas rejimini konseptuallaşdırır və kitabxanaların davamlı inkişafı üçün yeni istiqaməti təmin edən kitabxananın turistik yerlərinin indeks sistemini təqdim edir. Növbəti məqalələrimizdə biz ölkədə və xaricdə kitabxana və turizm inteqrasiyasında innovativ təcrübələri toplamağa və təsnif etməyə, mədəni turizm sənayesinin inkişafını birləşdirməyə, mədəni turizmi təşviq edən kitabxanaların müasir modelini təqdim edəcəyik.

## ƏDƏBİYYAT

1. Azərbaycan Kitabxana Ensiklopediyası / Baş red.: K.Tahirov. – Bakı: Zərdabi-Nəşr MMC. – 2015. – 632 s.
2. Azərbaycanda turizm və onun təbliğində kitabxanaların rolu: metodik tövsiyələr /ixtis. red. və bur. məs. K.Tahirov; tərt. ed. A.Abdullayeva; red. M. Cəfərova; M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası. – Bakı: 2011. – 102 s.
3. Qasımlı H.H. Azərbaycan Respublikasında turizm fəaliyyətinin kitabxana-informasiya təminatının biblioqrafik və analitik təhlili // – Bakı: Bakı Dövlət Universiteti, Bakı Universitetinin xəbərləri. Humanitar elmlər seriyası, 2022. №3, – s. 144-149.
4. Gelbman A., Timothy D. J. Border complexity, tourism and international exclaves: a case study. Annals of Tourism Research, 2011. -38(1), p. 110-131.
5. Copley P., Robson I. Practitioner perspectives on arts tourism marketing. Journal of Travel and Tourism Marketing, 2001.-10(2-3), p.23-46.
6. Hassan S. S. Determinants of market competitiveness in an environmentally sustainable tourism industry. Journal of Travel Research, 2000.-38(3), p.239-245.
7. Ozinsky S. Tourism and libraries. Cape Librarian, 2002, 46(1), p. 7-9.
8. Prentice R. Experiential cultural tourism: museums and the marketing of the new romanticism of evoked authenticity. Museum Management and Curatorship, 2001. -19(1), p. 5-26.
9. Shiwei W. A Brief Introduction to Theme Library. The Library Journal of Shandong, 2009. - (4), 36-38.
10. Taylo, J. P. Authenticity and sincerity in tourism. Annals of Tourism Research, 2001. -28(1), p.7-26.

## БИБЛИОТЕКА + ТУРИЗМ: НОВОЕ НАПРАВЛЕНИЕ БИБЛИОТЕК ДЛЯ ПРОДОЛЖИТЕЛЬНОГО РАЗВИТИЯ ТУРИЗМА

**Гаджи Г. ГАСЫМЛЫ**

### РЕЗЮМЕ

Сфера туризма широко исследована в статьях, опубликованных в современный период, и ряд исследовательских работ посвящен развитию культурного туризма в Азербайджане. Однако культурный потенциал библиотек, их роль в сфере туризма, тенденции развития литературы по туризму в библиотеках не были всесторонне вовлечены в научные исследования. В статье впервые системно и всесторонне исследованы основные взаимодействия «Библиотека+туризм » историческом контексте.. Таким образом, в статье научно обосновывается интеграция библиотек в сферу культурного туризма, систематически изучается роль экскурсоводов, гидов-переводчиков в организации туристско-экскурсионной работы.

**Ключевые слова:** Библиотека, информационная служба, документооборот, читательский спрос, культурный туризм, экскурсовод.

# LIBRARY + TOURISM: A NEW DIRECTION OF LIBRARY FOR THE SUSTAINABLE DEVELOPMENT OF TOURISM

**Haji H. GASIMLI**

**SUMMARY**

The field of tourism has been widely studied in the articles published in the modern period, and a number of research works have been devoted to the development of cultural tourism in Azerbaijan. However, the cultural potential of libraries, their role in the field of tourism, the development trends of literature on tourism in libraries have not been comprehensively involved in scientific research. In the article, the main interactions of "Library + tourism" were systematically and comprehensively investigated in the historical context for the first time. Thus, in the article, the integration of libraries into the field of cultural tourism is scientifically justified, and the role of guides, guide-interpreters in the organization of tourism-excursion work is systematically studied.

**Keywords:** Library, information service, document exchange, reader need, cultural tourism, tourist guide.

# MÜNDƏRİCAT

## DİLÇİLİK

**Kəmalə A.ƏLİYEVA**
Bağlayıcıların morfosintaksisi ........................................................................ 5

## ƏDƏBİYYATŞÜNASLIQ

**Günel K.YUNUSOVA**
XX əsrin əvvəllərində Azərbaycan ədəbi-mədəni mühitində milli ədəbi dili osmanlılaşdırmaq meyillərinə qarşı mübarizə ........................................ 16

## TARİX

**İbrahim X.ZEYNALOV**
Heydər Əliyev: Azərbaycanın milli-mənəvi dəyərləri intibah dövründə (1969-1982-ci illər) .................................................................................. 26
**Tarix M. DOSTİYEV**
Azərbaycanın orta əsr şəhərlərinin arxeoloji irsinin öyrənilməsi və qorunması ................................................................................................ 41
**Aida R.BAĞIROVA**
İran-İraq müharibəsi illərində İraq və Yaxın Şərqin Ərəb ölkələri ..................... 50
**Şamil N. NƏCƏFOV**
Orta Kür hövzəsində tunc dövrünün bəzi xarakterik xüsusiyyətləri (etnoarxeoloji tədqiqat) ............................................................................ 61
**Əli R.FƏRHADOV**
XX əsrin I yarısında Cənubi Azərbaycanda ictimai fikir tarixindən: Tağı Ərani nümunəsi ........................................................................... 73
**Tural M.ŞİRİYEV**
Azərbaycanda ağacişləmə sənəti haqqında (Milli Azərbaycan Tarixi Muzeyinin materialları əsasında)................................................................ 85
**Hüseyn A.HÜSEYNLİ**
Türkiyə-Ermənistan münasibətləri (2002-2010-cu illər)....................................... 93
**Aynurə M.MƏMMƏDOVA, Əsgər A.ZEYNALABDİNOV**
Rusiya-Polşa münasibətləri (1991-2022-ci illər)................................................ 103

**Zərifə F. NƏZİRLİ**
"Nüvə Qışı" anlayışı: Soyuq müharibə dövründə nüvə yarışına qarşı alimlərin fəaliyyəti.......................................................................................110
**Rövşən U.MƏMMƏDLİ**
XVIII əsrin sonunda Azərbaycan Rusiya imperiyasının siyasətində (Rusiya dövlət hərb tarixi arxivinin materialları əsasında)..................................119
**Aidə N.BƏŞİROVA**
Brexit prosesi: sosial-iqtisadi və siyasi təsirləri...................................................131
**Vüsalə Z. ƏLLƏZOVA**
İlham Əliyev və Azərbaycan Respublikasında təhsil sahəsində dövlət siyasətinin həyata keçirilməsi (2003-2021-ci illər) .............................................142
**Əzət N.DADAŞOVA**
Azərbaycan SSR-də 1946-1950-ci illərdə sosial-iqtisadi problemlər və çətinliklər .........................................................................................154
**Fəridə M.ALLAHVERDİYEVA**
Alman İslam anlayışının nəzəri-tarixi aspektləri.................................................162
**Xəyalə F.ŞABANOVA**
İkinci Dünya müharibəsi dövründə Azərbaycan legionunun fəaliyyətinin əsas mərhələləri ...........................................................................................171
**Hacı H. QASIMLI**
Kitabxana + turizm: turizmin davamlı inkişaf üçün kitabxanaların yeni istiqaməti ...................................................................................................181

# СОДЕРЖАНИЕ

## ЯЗЫКОЗНАНИЕ

**Кямаля А.АЛИЕВА**
Морфоносинтаксис союзов ........................................................................ 5

## ЛИТЕРАТУРОВЕДЕНИЕ

**Гюнель К. ЮНУСОВА**
Борьба с тенденциями османизации национального литературного
языка в литературно-культурной среде Азербайджана
в начале XX века........................................................................................ 16

## ИСТОРИЯ

**Ибрагим Х.ЗЕЙНАЛОВ**
Гейдар Алиев: национально-нравственные ценности Азербайджана
в эпоху возрождения (1969-1982 гг.) ........................................................ 26
**Тарих М. ДОСТИЕВ**
Изучение и сохранение археологического наследия средневековых
городов Азербайджана ............................................................................... 41
**Аида Р.БАГИРОВА**
Ирак и арабские страны Ближнего Востока в годы Ирано-Иракской
войны ........................................................................................................... 50
**Шамиль Н. НАДЖАФОВ**
О некоторых характерных чертах эпохи бронзы бассейна Среднего
течения Куры (этноархеологическое исследование) .............................. 61
**Али Р.ФАРХАДОВ**
Из истории общественного мнения в Южном Азербайджане
в первой половине XX века: на примере Таги Арани ............................. 73
**Турал М.ШИРИЕВ**
Об искусстве деревообработки в Азербайджане
(на основе материалов Национального Музея Истории Азербайджана)..... 85
**Гусейн А.ГУСЕЙНЛИ**
Турецко-армянские отношения (2002-2010 гг.)........................................ 93
**Айнура М.МАМЕДОВА, Аскер А.ЗЕЙНАЛАБДДИНОВ**
Российско-Польские отношения (1991-2022 гг.)..................................... 103

**Зарифа Ф. НАЗИРЛИ**
Концепция "Ядерной зимы": действия ученых против ядерной гонки в годы Холодной войны ........................................................ 110
**Ровшан У.МАМЕДЛИ**
Азербайджан в политике Российской империи в конце XVIII века (по материалам российского государственного военно-исторического архива) ........................................................ 119
**Аида Н.БАШИРОВА**
Процесс Брекзита: его социально-экономические и политические влияния ........................................................ 131
**Вусала З.АЛЛАЗОВА**
Ильхам Алиев и реализация государственной политики в области образования в Азербайджанской Республике (2003-2021) ............................ 142
**Азат Н.ДАДАШОВА**
Социально-экономические проблемы и трудности в Азербайджанской ССР в 1946-1950-х гг. ................................................... 154
**Фарида М.АЛЛАХВЕРДИЕВА**
Теоретико-исторические аспекты немецкой концепции ислама ................. 162
**Хаяла Ф. ШАБАНОВА**
Основные этапы деятельности азербайджанского легиона в период Второй мировой войны ........................................................ 171
**Гаджи Г. ГАСЫМЛЫ**
Библиотека + Туризм: новое направление библиотек для продолжительного развития туризма ............................................. 181

# CONTENTS

## LINGUISTICS

**Kamala A.ALIYEVA**
Morphonosyntax of unions ........................................................................ 5

## LITERATURE

**Gunel K. YUNUSOVA**
The struggle against the tendencies to Ottomanize the national literary language in the literary-cultural environment of Azerbaijan at the beginnıng of the 20th century ........................................................................ 16

## HISTORY

**Ibrahim X.ZEYNALOV**
Heydar Aliyev: national and spiritual values of Azerbaijan in the epoch of Renaissance (1969-1982) ........................................................................ 26
**Tarikh M.DOSTIEV**
Study and preservation of the archaeological heritage of the medieval cities of Azerbaijan ........................................................................ 41
**Aida R.BAGHIROVA**
Iraq and Arab countries of the Middle East during the Iran-Iraq War ................ 50
**Shamil N. NAJAFOV**
The some characteristic features of the Bronze Period of the Middle Kura Basin (ethnoarchaeological investigation)........................................................ 61
**Ali R.FARHADOV**
From the history of public opinion in South Azerbaijan in the first half of the 20th century: the example of Tagi Arani.................................................... 73
**Tural M.SHIRIYEV**
About the art of woodworking in Azerbaijan (based on the materials of The National Museum of the History of Azerbaijan)...................................... 85
**Huseyn A.HUSEYNLI**
Turkiye-Armenia relations (2002-2010) ............................................................ 93
**Aynura M.MAMMADOVA, Asgar A.ZEYNALABDINOV**
Russia-Poland relations (1991-2022) .................................................................. 103

**Zarifa F. NAZIRLI**
The concept of "Nuclear winter": scientist action against the nuclear race during The Cold war....110
**Rovshan.U.MAMMADLI**
At the end of the 18th century Azerbaijan in the politics of the Russian Empire (based on the materials of the Russian State Military Historical Archive)....119
**Aida N.BASHIROVA**
Brexit process: its social-economic and political influences....131
**Vusala Z.ALLAZOVA**
Ilham Aliyev and the implementation of state policy in the field of education in The Republic of Azerbaijan (2003-2021)....142
**Azat N.DADASHOVA**
Socio-economic problems and difficulties in the Azerbaijan SSR in 1946-1950....154
**Farida M. ALLAHVERDIYEVA**
Theoretical-historical aspects of the german concept of Islam ....162
**Khayala F.SHABANOVA**
The main stages of the activity of the Azerbaijani legion during World War II ....171
**Haji H. GASIMLI**
Library + Tourism: A new direction of library for the sustainable development of tourism....181

Redaktoru: ***Məryəm Qədimova***

Korrektoru: ***Solmaz Babaşova***

Kompüter tərtibçisi: ***Azadə İmanova***

Çapa imzalanmışdır: 28.11.2023
Formatı: 70x100 1/16. Həcmi 12,25 ç.v. Sayı 120.

---

Bakı Dövlət Universitetinin Nəşr Evində çap olunmuşdur.
AZ 1148, Bakı ş., ak. Z.Xəlilov küçəsi, 33.
Tel: (+99412) 538 87 39 / 538 50 16
e-mail: bdumetbee@gmail.com
www.bsu.edu.az